ƏQİDƏ KİTABI 2

ƏHLİ SÜNNƏ VƏL CƏMAAT

SƏLƏFİ SALİHİN ƏQİDƏSİ

İ M A N I N   Ə S A S L A R I

Bu Kitab, Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 06 Avqust 2008-ci İl Tarixli İcazəsi Əsasında Çap Edilmişdir №DK-96/H

Toplayan Və Tərtib Edən

K. Hüseyn

بسم الله الرحمن الرحيم

إنَّ الحَمْدَ لله ، نَحْمَدُهُ وَنَسْتَعِينُهُ وَنَسْتَغْفِرُهُ ، وَنَعُوذُ بالله مِنْ شُرُورِ أنفُسِنا ، وَمِنْ سَيِّئاتِ أعمالنا ، مَنْ يَهْدِهِ اللهُ فلا مُضِلَّ لَهُ ، وَمَنْ يُضْلِلْ فَلاَ هَادِيَ لَهُ ، وأشهدُ أَنْ لاَ إله إلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، وأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ.

﴿يا أَيُّها الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ وَلاَ تَمُوتُنَّ إلاَّ وأَنتُم مُسْلِمُونَ﴾ سورة آل عمران : الآية ، ١٠٢.

﴿يا أَيُّها النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُم مِّن نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُما رِجَالاً كَثِيراً وَنِسَاءً واتَّقُوا اللهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالأَرْحَامَ إِنَّ اللهَ كَانَ عَلَيْكُم رَقِيباً﴾ سورة النساء : الآية ، ١.

﴿يا أَيُّها الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَولاً سَدِيداً ، يُصلِحْ لَكُمْ أَعْمالَكُمْ ويَغْفِرْ لَكُمْ ذُنُوبَكُم وَمَن يُطِعِ اللهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوزاً عَظِيماً﴾ سورة الأحزاب : الآية ، ٧١.

أما بعد : فإنَّ أَصْدَقَ الحديث كلامُ الله ، وخَيرَ الهَدْيِ هَدْيُ مُحَمَّدٍ – صلَّىٰ الله عليه وعلىٰ آله وسلَّم – وشرَّ الأُمورِ مُحْدَثَاتُها وكلَّ مُحْدَثَةٍ بِدْعةٌ ، وكلَّ بِدعةٍ ضلالةٌ ، وكلَّ ضلالةٍ في النَّار(*).

(*) هذه الخطبة ؛ تسمَّىٰ : «خطبة الحاجة» وهي تُشرع بين يدي كلِّ حاجة ، والتي كان رسول الله ﷺ يعلِّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ، في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة أو محاضرة ، أو غير ذلك ، وهي في : «سنن ابن ماجه» و «سنن الترمذي» و «سنن أبي داود» و «سنن النسائي» ، وورد ذكر طرف من هذه الخطبة في : «صحيح مسلم».

ÖN SÖZ

Xutbətul-Hacə

Həmd ancaq Allahadır, Ona həmd edir, ondan yardım və məğfirət diləyirik. Nəfslərmizin şərindən və pis əməllərmizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur. O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd onun qulu və elçisidir.

«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün». *(Ali-İmran 102).*

«Ey insanlar! Sizi tək bir şəxsdən *(Adəmdən)* ***xəlq edən, ondan zövcəsini*** *(Həvvanı)* ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun****. (Adı ilə)* ***bir-birinizdən*** *(Cürbəcür şeylər)* ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir».*** *(ən-Nisa 1).*

«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! *(Əgər belə etsəniz)* ***Allah əməllərinizi islah edər və günahlarnızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** *(Cənnətə)* ***nail olar».*** *(əl-Əhzab 70-71)*[1].

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmməd - *sallallahu aleyhi və səlləm* - in yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bir bidətdir, hər bir bidət isə bir zəlalətdir (sapıqlıqdır), hər bir zəlalət isə oddadır[2].

---

[1] ***Xutbətul-Hacə*** **-** adı ilə məşhur olan bu duanı, cümə və s. xütbələrdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - oxumuşdur. Səhabələrinə də bunu əmr etmiş və özü də onları öyətmişdir. Hədisin ilk hissəini bizə: – Əhməd 1/392-393,432, Əbu Davud 2188, Tirmizi 1105, Nəsəi 3/104-105, 6\69 və «Əməlul Yəum vəl Leyl» 488, İbn Məcə 1892, Darimi 2202, Tayalisi «əl-Musnəd» 1557, AbdurRazzaq «əl-Musənnəf» 10449, Bəzzar «əl-Musnəd» - Kəşful Əstar 1/314, Əbu Yəla «əl-Musnəd» 5233-5234,5257, Tahavi «Şərhul Müşkilil Asar» 1-3, Təbərani «Məcmuul Kəbir» 10/10079-10080, Həkim «əl-Mustədrək» 2744, Beyhəqi «Sünnənul Kubra» 3/214-215, Bəğavi «Şərhus Sunnə» 2268 İbn Məsud - *radıyallahu anhu* – yolu ilə, Müslim «Şərhu Nəvəvi» 6/156-158, Əhməd 1/302,350, Nəsəi 6/89-90, İbn Məcə 1893 və Tahavi «Şərhul Müşkilil Asar» 4 İbn Abbas - *radıyallahu anhu* – yolu ilə, Tahavi «Şərhul Müşkilil Asar» 5, Beyhəqi «Sünnənul Kubra» 3/215 Nubeyt b. Şərit - *radıyallahu anhu* – yolu ilə, Əbu Yəla «əl-Musnəd» 7221, Nəsəi «Sünnənul kubra» bax: «Tuhfetul Əşraf» 6/472 № 9148 əbu Musa əl-Əşari - *radıyallahu anhu* – yolu ilə.

[2] ***Hədisin Ikinci Hissəsini*** **–** Müslim «Şərhu Nəvəvi» 6/153-156, Əhməd 3/319,371, Nəsəi 3/188-189, Beyhəqi «Sünnənul Kubra» 3/214 Cabir b. Abdullah - *radıyallahu anhu* – yolu ilə. Bu ləfz Nəsainin ləfzidir. Hədisi Əhməd 3/371 və Müslim: «Sözlərin ən doğrusu» ləfzi yerinə: «Sözlərin ən xeyirlisi» ləfziylə rəvayət edilmişdir. İmam Əhmədin digər rəvayətlərində isə 3/319: «Sözlərin ən gözəli» şəkilindədir. Müslim: «Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bidətdir» ləfzi yerinə: «Hər bir bidət bir zəlalətdir (sapıqlıqdır)» ləfziylə ravayət etmişdir. Hədisin sonunda olan: «Hər bir zəlalət isə oddadır» ləfzini zikr etməmişdir. Hədis səhihdir. Muhəddis Muhəmməd Nəsrəddin əl-Albani – *rahmətullahi aleyhi* – hədisin bütün rəvayətlərini bir yerə toplayaraq «Xutbətul Həcə» isimli bir kitab

«Ey Rəbbim! köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar». *(Ta ha 25-28).*

Möhtərəm müsəlman bacı və qardaşlarım! İlk öncə hamınızı Allahın salamı ilə salamlayıram. Allahın kitabına və Rəsulullah - *səllallahu aleyhi və səlləm* – in yoluna uyaraq öz risaləmi «***Bismilləh***» ilə başlayıram. Çünkü Allah Rəsulu - *sallallahu aleyhi və səlləm* - də öz məktublarını «***Bismilləh***» ilə başlamış və buyurmuşdu: «Hər mühüm bir işə «***Bismilləh***» ilə başlanılmazsa o işin sonu kəsikdir»[3].

Allah, Muhəmməd - *sallallahu aleyhi və səlləm* – i aləmlərə rəhmət, əməl edənlərə öndər, qullarına hüccət olaraq hidayət və haqq dini ilə göndərdi. O, - *sallallahu aleyhi və səlləm* - ona verilən əmanəti yerinə yetirdi, rəsaləti təbliğ etdi, ümmətə öyüd verdi, dinin əsaslarından tutmuş hər bir şeyi incəliyinə kimi bizə xəbər vermişdi. Açıqlamadığı bir şey, ümmətini sövq etmədiyi bir xeyr və onları çəkindirmədiyi bir pislik buraxmadı. Səhabələr onun aydınlıq yolu üzərində yürüdükləri kimi, onların yollarına uyan kimsələr də bu yolda yürüməyə başladılar.

Lakin çox keçmədi ki, gecə qaranlıqları kimi bidətlər ortaya çıxmağa başladı. Bu bidətlər, uydurmalar İslamı və müsəlmanları dağıtmağa və onların firqələrə və məzhəblərə bölünməsinə gətirib çıxartdı. Müsəlmanlar da cahilcəsinə bu bidətlərə doğru yürüməyə başladılar. İnanclarını bu çürümüş şeylər üzərində qurmağa başladılar. Bu İslam və müsəlmanların düşmənlərinin fikirləri birdir. Allahın nurunu söndürmək, yəni İslamı məhv etməkdir. Lakin bu əsla belə deyildir. Allah buyurur: ***«Onlar Allahın nurunu*** *(İslam dinini)* ***öz ağızları*** *(öz iftiraları və şər sözləri)* ***ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də öz nurunu*** *(dinini)* ***tamamlayacaqdır».*** *(əs-Səff 8).* Allahu Əkbər! Həqiqətən də onların xoşlarına gəlsə də, gəlməsə də belə Allah öz dinini qoruyur və tamamlayır. Hər dövrdə, hər zamanda, hər vaxtda Allahın dinini bəxş etdiyi iman, elm və hikmət ilə din düşmənlərinə qarşı vuruşan, onların hiylələrinə, bidətlərinə qarşı çıxan, bidətlərini yox edən və onları Quran və Sünnə ilə məhv edən sünnət əhlindən olan cəmaat olub və olacaqdır. İnşəallah!

Səvban – *radıyallahu anhu* – dən gələn rəvayətdə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurur: «Ümmətimdən bir qrup insanlar olacaq ki, Qiyamətin qopacağı vaxta qədər haqq üzrə gedəcəklər. Heç nə

---

yazmışdır. İstəyənlər bu kitaba baxa bilərlər. Ayrıca bax: əl-Albani «Muxtəsər Səhih Müslim» 409, «Mişkətul məsabih» 3149,5860.

[3] Əbu Davud.

və heç kim onlara zərər vura bilməyəcək. Allahın əmri gəlincəyə qədər»[4]. Bu cəmaat Firqətun Nəciyə – qurtuluşa çatan firqə, Əhli Sünnə vəl Cəmaat, Sələfi Salihin, Əhli Hədis və s. deyə adlandırılmışdır. Onlar isə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in və əshabələrin izləmiş olduğu yolu davam etdirən kimsələrdir. Auf b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yəhudilər yetmiş bir firqəyə bölünəcəklər. Onlardan yalnız biri Cənnətə, qalanları isə Cəhənnəmə düşəcəkdir. Xristianlar yetmiş iki firqəyə bölünəcəklər. Onlardan yalnız biri Cənnətə, qalanları isə Cəhənnəmə düşəcəkdir. Qəlbim əlində olan Allaha and olsun ki, mənim ümmətim yetmiş üç firqəyə bölünəcəkdir. Onlardan yalnız biri Cənnətə, qalanları isə Cəhənnəmə düşəcəkdir»[5]. İbn Ömər - *radıyallahu anhu* – nun rəvayətində isə səhabələr Cənnətə düşən firqə haqqında soruşdular. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Onlar mənim və səhabələrimin yolu ilə gedənlərdir»[6]. Başqa rəvayətdə Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «O da cəmaatdır»[7].

Bütün bu hədislər bizlərə Cəhənnəm atəşindən qurtulmuş toplumun orta yolu mənimsəmiş Əhli Sünnə vəl Cəmaat olduğunu açıqca göstərməkdədir. Çünkü onlar bütün ixtilaflarda orta yolu tutmuş, Kitab və Sünnətin bildirdiyi iman əsaslarından başqa hər hansı bir inanca yönəlməmiş, insan üçün lazımlı hər şeyin bu iki qaynaqda bəyan edildiyinə inanmışlar. Sünnəti bəyan etmək, əsaslarını gücləndirmək və bidətləri yıxmaq üçün bir çox əsərlər də yazmışlar.

Buna görə də hörmətli müsəlman bacı və qardaşlarım hər biriniz bu müxaliflərə qarşı mübarizə aparmalısınız. Hər biriniz Allahın dinini qorumalısınız. ***«Ey iman gətirənlər! Əgər siz Allaha yardım göstərsəniz, o da sizə yardım göstərər və sizi sabitqədəm edər».*** *(Muhəmməd 7).* Allahı qorumaq isə onun dinini qorumaq ilə olur. İbn Məsud – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın məndən əvvəlki ümmətlərə göndərdiyi hər Nəbinin öz ümmətindən sünnətini alan və əmrlərinə uyan bir çox həvvariləri və səhabələri vardır. Sonra onların ardından etməyəcəkləri şeyləri söyləyən və əmr olunmadıqları işləri edən bir çox nəsillər zühur edər. Kim onlara qarşı əli ilə mübarizə apararsa o, bir mömindir. Onlara qarşı kim diliylə mübarizə apararsa o, da bir mömindir. Onlara qarşı kim qəlbi ilə mübarizə

---

[4] Buxari, Müslim.
[5] İbn Məcə.
[6] Tirmizi, əl-Albani «Səhih hədislər silsiləsi» 1348.
[7] İmam Əhməd «Musnəd» 4/102, əl-Albani «Ziləlul Cənnə».

apararsa o, da mömindir. Amma bundan aşağı (imandan) bir xardal dənəsi qədər də iman yoxdur»[8].

Bu batil firqələrin yoluna uymamaq, onların ardınca getməmək üçün, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in yoluna uymaq, hidayət yolunda olan cəmaatdan olmaq üçün hər bir müsəlman, hər bir şəxs öz əqidəsini gözəl bir şəkildə öyrənməli, öyrəndikdən sonra isə ona əməl edib başqalarına öyrətməlidir. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – bu məsələ ilə bağlı demişdir: «Buna görə də Əhli Sünnə alimləri - sünnətə sarılmaq qurtuluşdur demişlər». Allah rəhmət etsin imam Məlik deyir: «Sünnət Nuhun gəmisi kimidir, minən qurtulur, arxada qalan isə həlak olur. Haqq budur. Çünki Nuhun gəmisinə peyğəmbəri təsdiq edən və ona tabe olanlar minmişlər. Ona minməyənlər isə Peyğəmbəri yalan saymışlar. Sünnətə tabe olmaq Allah qatından gələn risalətə tabe olmaq deməkdir. Dolayısı ilə risalətə tabe olan, Nuhla bərabər gəmiya minən kimsə durumundadır. Risalətə tabe olmaqdan ayrılan kimsə də Nuha tabe olmaqdan və onunla bərabər gəmiyə minməkdən qaçan kimsə durumundadır»[9].

Bu baxımdan da mən ikinci risaləni topladım. Bu risaləni toplamaq üçün Quran və Sünnəyə uyaraq və İslamın elm adamlarının əsərlərindən geniş istifadə edərək Allahın izni ilə əlimizdəki bu risalənin toplanmasına nail oldum. Bu risalədə birincidən fərqli olaraq İman, imanın əsaslarından, ehsan və s. mövzular haqqında geniş yer verməyə və hər oxucu ondan faydalansın deyə, aydın dəlillərlə göstərməyə çalışdım. İlk növbədə Allahdan bu çalışmamın dolğun, düzgün şəkildə yazıb başa çatdırılmasını diləyirəm. Allahdan əməlimi onun üçün ixlaslı olmasını, məndən qəbul edib onunla müsəlmanları faydalandırmasını diləyirəm. Əgər hardasa xəta etmişəmsə bu nəfsimdən və şeytandandır. Burada düzəldilməsi mühüm olan yerləri tapdıqdan sonra mənə öyüd-nəsihət verməkdən çəkinməyəcəyinizi ümüd edirəm.

Güvəndigim Allahdır! İşlərimi Ona həvalə edirəm və ona arxalanıram. Həmd və təriflər yalnız Onadır. Müvəffəqiyyət bəxş edən və xətalardan qoruyan da Odur. ***«Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına ümüd etdiyim də Odur! Ey Rəbbim! Mənə hikmət bəxş et və məni salehlərə qovuşdur! Sonra gələnlər arasında***

[8] Müslim.
[9] «Məcmuul Fətava» 4/137.

mənə yaxşı ad qismət et! Məni Nəim Cənnətlərinin varislərindən et». *(əş-Şuəra 78-85).*

Allahın salat və salamı onun Peyğəmbəri Muhəmməd - *sallallahu aleyhi və səlləm* - ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun.

İMAN

Sözdə iman təsdiq etmək deməkdir. Səriətdə isə qəlb ilə etiqad etmək, dil ilə söyləmək və əzalar ilə əməl etmək deməkdir. Sələfi Salihin, yəni Əhli Sünnə vəl Cəmaatın iman əsasları Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - in məşhur Cəbrail – *əleyhissəlam* – ın hədisində xəbər verdiyi kimi - altı əsasa iman etmək və onları təsdiq etmək deməkdir. Peyğəmbər - *səllallahu aleyhi və səlləm* -, onların yanına dinlərini onlara öyrətmək və İman haqqında sual vermək üçün gələn Cəbrail – *əleyhissəlam* – a belə cavab vermişdi: «İman, Allaha, Mələklərə, Kitablara, Peyğəmbərlərə, Axirət gününə, Xeyir və Şərrin qədərdən olduğuna iman etməkdir…»[10]. Amr b. Əbəsə – *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – ə dedi: «İslam nədir?» Peyğəmbər: «Qəlbinin Allaha təslim olması və müsəlmanların sənin dilindən və əlindən salamat olmalarıdır» deyə cavab verdi. Adam: «Hansı İslam fəzilətlidir?» deyə soruşdu. Peyğəmbər: «İman etmək» deyə cavab verdi. Adam: «Bəs iman nədir?» deyə soruşdu. Peyğəmbər: «Allaha, Mələklərə, Kitablara, Peyğəmbərlərə və öldükdən sonra dirilməyə inanmaqdır» deyə cavab verdi. Adam: «Hansı iman daha fəzilətlidir?» deyə soruşdu. Peyğəmbər: «Hicrət etmək» deyə cavab verdi. Adam: «Hicrət nədir?» - deyə soruşdu. Peyğəmbər: «Pisliyi tərk etmək!» deyə cavab verdi. Adam: «Hansı hicrət daha fəzilətlidir?» deyə soruşdu. Peyğəmbər: «Cihad» deyə cavab verdi. Adam: «Cihad nədir?» deyə soruşdu. Peyğəmbər: «Onlarla qarşılaşdığın zaman kafirləri öldürmək» - deyə cavab verdi. Adam: «Hansı cihad fəzilətlidir?» deyə soruşdu. Peyğəmbər: «Atının ayaqları kəsilib yerə yıxılaraq öldürüldüyü və qanının axıdıldığı cihad…»[11].

Bu altı xüsus imanın əsaslarıdır. Həmçinin Qurani Kərimdə də Allah bu haqda bir çox ayələr nazil etmişdi. ***«Yaxşı əməl heç də üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, Axirət gününə, Mələklərə, Kitaba*** *(Allahın nazil etdiyi bütün ilahi kitablara)* ***və Peyğəmbərlərə inanandır».*** *(əl-Bəqərə 177).*

---

[10] Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsəi.

[11] AbdurRazzaq «Musənnəf» 20107, İmam Əhməd 4/114, Təbərani əl-Kəbir bax: «Məcmua Zəvaid» 1/59, 3/207, «Təzkiratul Huffaz» 1/94, «Siyer» 4/468,475.

***«Şübhəsiz ki, biz hər bir şeyi müəyyən ölçüdə** (qədər) **ilə yaratqıq».** (əl-Qəmər 49).*

Hər kim bu altı əsasa iman etməzsə onun imanı tamam olmaz. Bunlardan birini inkar edən kimsə kafir olur. O, halda iman bu altı əsas üzərində yüksəlir. Bu əsaslardan birini itirən kimsə, əlbətdə ki, mömin olmaz. Çünkü o, imanın əsaslarından birini itirmiş olur. Necə ki, bir bina ancaq təməl əsasları üzərində yüksələ bilir. Bu əsaslar imanın rükunlarıdır. Kitab və Sünnətə uyğun olaraq bunlara əməl edilmədikcə iman da tamamlanmaz. Sələfi Salihin yəni Əhli Sünnə vəl Cəmaatın əqidəsinin əsaslarından biri də budur ki, onlara görə iman qəlb ilə təsdiq etmək, dil ilə söyləmək və əzalarla əməl etmək deməkdir. İman itaətlə artır, asiliklə azalır. Şəriətdə isə gizli və açıq bütün itaətlərdir. Gizli əməllərə qəlbin əməllərini misal göstərmək olar. Məs: Niyyət, ixlas, məhəbbət və s. Bu da qəlbin təsdiq etməsi ilə olur. Zahir (açıq) əməllərə isə bədən ilə edilən əməlləri məs: Ruku, səcdə və s. misal göstərmək olar. Qısaca iman – qəlbdə yer tutan əməl tərəfindən təsdiqlənən, meyvələri Allahın əmrlərini yerinə yetirmək, qadağan etdiklərindən çəkinmək ilə ortaya çıxan şeydir. Əgər elm əməldən uzaq olarsa, onun heç bir faydası da olmaz. Əməldən uzaq bir elimin bir kimsəyə faydası olsaydı, Allahın lənətinə düçar olan iblisə faydası olardı. O, Allahın şəriki olmadığına, tək olduğuna, sonunda da ona qaytarılacağını bilirdi. Lakin Allah: «Adəmə səcdə et!» deyə əmr verdikdə o, təkəbbürlüyündən səcdə etməyib kafirlərdən oldu. *(Allah)* ***buyurdu: «Ey iblis! Sənə mənim öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun? Qiyamət gününə qədər mənim lənətim sənin üstündən əskik olmasın!».*** *(Sad 75-78).* Allahın vəhdəniyyətini bilməsi ona (İblisə) fayda vermədi. Çünkü əməldən ayrı bir elmin aləmlərin Rəbbinin tərəzisində heç bir ağırlığı yoxdur. Şeyx Useymin – *rahmətullahi aleyhi* – «Üç Əsas» kitabının şərhində dediyi kimi: «Əməl elmin meyvəsidir. Kim elimsiz əməl edərsə o, Xristianların misalındadır. Elmi olmaqla bərabər əməl etməyən kimsə isə Yəhudilərin misalındadır».

«Əməllər iman deyilən şeyin içərsinə girməz» - deyənlər, iman tək bir şey olduğuna görə: «Mənim imanım Əbu Bəkr əs-Sıddıq, Ömər – *radıyallahu anhum* – un imanı kimidir. Hətta mənim imanım Peyğəmbərlərin, Rəsulların, Cəbrailin və Mikailin imanı kimidir» - deyənlər də vardır.

Ayə və hədislərdən bizə məlum olduğuna görə - əməl olmadıqca iman kamil olmaz. Niyyətsiz nə söz və nə də əməl olur. Sünnətə uyğun olmadıqca da nə söz, nə əməl, nə də niyyət olur. Allah Qurani Kərimdə bir

çox ayələrdə iman ilə saleh əməli birlikdə qeyd edir. ***«İman gətirib saleh əməl edənlərin mənzili isə Firdovs Cənnətləri olacaqdır!»*** *(əl-Kəhf 107).* ***Şübhəsiz ki: «Rəbbim Allahdır deyən, sonra da*** *(söz və əməllərində)* ***düz olan kəslərə*** *(ölüm ayağında)* ***mələklər nazil olub belə deyəcəklər: Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin».*** *(Fussilət 30).* ***«Bu sizin*** *(dünyada)* ***etdiyiniz yaxşı əməllər müqabilində varis olduğunuz Cənnətdir».*** *(əz-Zuxruf 72).* ***«Yalnız iman gətirib saleh əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa».*** *(əl-Əsr 3).* Möminlərin əmiri Əbu Hafsa Ömər b. əl-Xattab *– radıyallahu anhu –* rəvayət edir ki, mən Rəsulullah *– sallallahu aleyhi və səlləm-* in belə buyurduğunu eşitdim. «Əməllər ancaq niyyətlər ilədir və hər bir kimsə üçün niyyət etdiyi bir şey vardır. Hər kimin hicrəti[12] Allah və Rəsulu ücündürsə, onun hicrəti Allah və Rəsulu ücündür. Hər kimin hicrəti əldə edəcəyi bir dünyalıq və ya nigahlanacağı bir qadın üçündürsə, onun hicrəti nə ücün hicrət etmiş isə elə onadır»[13]. Əbu Amr- Əbu Amra da deyirmişlər - Sufyan b. Abdullah *– radıyallahu anhu –* rəvayət edir ki, mən: «Ey Allahın Rəsulu! İslama aid mənə elə bir söz de ki, bu haqda səndən başqa heç kimə sual verməyim?». Rəsulallah – *sallallahu aleyhi və səlləm-* buyurdu: «De - Allaha iman etdim və bu yolda düz dur»[14]. Rəsulullah *– sallallahu aleyhi və səlləm* - buyurdu: «Bir və tək olaraq Allaha iman etməyinizi əmr edirəm. Bir və tək olaraq Allaha iman etməyin nə olduğunu bilirsinizmi?» Onlar Allah və Rəsulu daha gözəl bilir!». O, buyurdu: «Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin onun Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək və qənimətin 1/5-ni verməkdir»[15]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «İman yetmiş yaxud da altmışdan çox şöbələrdən ibarətdir. Ən fəzilətlisi, Allahdan başqa ibadətə layiq haqq İlah olmadığını (***Lə İləhə İlləllah***) söyləmək, ən aşağı şöbəsi isə yolda olan maneəni dəf etməkdir. Həya da imanın bir şöbəsidir»[16]. Dinə girmək üçün ilk söylənilən şəhadət kəlməsidir ki, etiqad etibarı ilə qəlbin əməli, söyləmək etibarı ilə dilin əməlidir. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Pəyğəmbərlərin dinindən başa düşülür ki - bu fikirlə bütün ümmət də razılaşır - İslamın əsaslarından ilki hansı ki, hər bir məxluqatın üzərində

[12] ***Hicrət*** – tərk etmək deməkdir. Küfür ölkəsindən İslam yurduna köçmək. Həmçinin Allahın qadağalarını tərk etmək də hicrət adlanır.
[13] Buxari, Müslim.
[14] Buxari, Muslim.
[15] Buxari, Müslim, Nəsai, Əbu Davud.
[16] Buxari, Müslim.

haqdır bu da şəhadət kəliməsidir. Şəhadət kəliməsini deyən kimsə kafirdirsə müsəlman olur. Düşməndirsə sevimli olur. Onun qanı, malı azad və toxunulmaz olur. Əgər bu qəlbdən gələrsə insan iman əldə etmiş olur. Əgər o, bunu yalnız dili ilə söyləyərsə, lakin qəlbi ilə təsdiq etməzsə o, kimsə İslama girmiş sayılır. Qəlbi ilə deyil zahiri ilə. Yox əgər o, şəhadəti dili ilə də demirsə bunu deyə bildiyi halda o, kimsə həm zahiran həm də batinən də kafirdir və bütün müsəlmanlarda bu fikirdqə yekdildilər»[17]. Əziyyət verən bir şeyi yoldan qaldırmaq – əzaların əməli, həya da – qəlbin əməlidir. Yolda əziyyət verən şeyləri dəf etmək bir əməl olduğu halda, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - onu imandan saymışdı.

İbn Battal – *rahmətullahi aleyhi* - [18] deyir ki: «Buxari – *rahmətullahi aleyhi* - nin iman bölümündə qeyd etmək istədiyi məna da elə budur. O, bölümün bütün bablarını bu əsasa görə açmışdır. Məs: Umurul iman (imandan olan işlər) Namaz imandandır, zəkat imandandır, cihad imandandır adı altında açdığı başlıqlar ilə o, Murciənin - iman əməlsiz sözlərdən ibarətdir - (yəni əməl imandan ayrıdır) sözlərini rədd etmiş, onların bu səhf fikirlərini Quran və Sünnə ilə bəyan etmişdir[19]. ***«Allah sizin imanınızı*** *(bundan əvvəl Beytulmüqəddəsə üz tutaraq qıldığınız namazlarnızı)* ***əvəzsis buraxmaz".*** *(əl-Bəqərə 143).* Allah bu ayədə namazı iman deyərək adlandırmışdı. Namaz həm qəlbin, həm dilin, həm də əzaların əməllərini bir yerdə birləşdirir. Təfsirçilərin açıqlamalarına görə qəsd - İslamın ilk əvvəlində müsəlmanların Beytul Məqdisə tərəf qıldıqları namazlardır. Allah «Kəbəyə tərəf dönün!» deyə əmr etdikdən sonra, səhabələr «Bəs bizim ibadətlərimiz!» deyincə Allah bu ayəni nazil etmişdi.

Elm və əməl bir-birindən ayrılmaz şeylərdir. Əməllər və sözlər imandan olduqları üçün iman itaətlə artır, asiliklə azalır. Bu baxımdan hətta möminlər də öz imanlarında, əməllərində və s. bir-birindən fərqlənmişlər. ***«Sonra Kitabı bəndələrmizdən seçdiklərmizə miras qoyduq. Onlardan kimisi özünə zülüm edər*** *(pis əməlləri yaxşı əməllərindən çox olar)****, kimisi mötədil*** *(pis əməlləri ilə yaxşı əməlləri bərabər)* ***olar, kimisi də Allahın izni ilə yaxşı işlərdə*** *(başqalarını qabaqlayıb)* ***irəli keçər.*** *(yaxşı əməlləri pis əməllərindən çox olar).* ***Bu böyük lütfdür. Onlar Ədn***

---

[17] «Tövhid Kitabı», «Fəthul Məcid».
[18] İbn Battal – *rahmətullahi aleyhi* - Adı Əli b. Haləf b. Abdulməlikdir. əl-Ləccam deyə tanınır. Hədis elimində tanınmışdır. Məliki məzhəbindəndir. İbn Həcər – *rahmətullahi aleyhi* - «Fəthul-Bəridə» ondan çox danışır.
[19] Nəvəvi, Müslümün şərhi 1/125.

Cənnətlərinə daxil olacaq, orada altun bilərziklər və incilərlə bəzənəcəklər. Libasları da ipəkdən olacaqdır». *(Fatir 32-33).*

1. Xeyir işlərdə irəli keçənlər fərz[20] və müstəhəbləri[21] edənlər, haram və məkruhları[22] tərk edənlər, şübhəli şeylərdən uzaq olanlar. Bu sanki Allahı görür kimi ibadət edən ehsan mərtəbəsindəki quldur. O, müstəhəb və kamil iman sahibidir. Bunlar mükərrəb olanlardır. **2.** Orta yolda olanlar. Sünnətləri etməsə də, məkruhlardan çəkinməsədə, sadəcə fərzləri edib haramları[23] tərk etməklə kifayyətlənənlər. Bu vacib iman sahibidir. **3.** Nəfslərinə zülm edənlər, bəzi haramları etməklə bərabər, imanlarını qorumaqla bərabər, bəzi fərzləri yerinə yetirməkdə də qüsurlara yol verirlər. İcmali iman sahibləri. Abdullah b. Abbas *– radıyallahu anhu –* dedi ki, xeyirdə yarışan hesaba çəkilmədən Cənnətə girəcəkdir. Ortada gedənlər Allahın rəhmətiylə Cənnətə girəcəklər. Özlərinə zülm edənlər Məhəmmədin şəfaəti ilə Cənnətə girəcəklər[24].

Əhli Sünnə vəl Cəmaatın əqidəsinə görə iman həm artar, həm də azalar. Bu haqda Quran və Sünnədə bur çox ayə və hədislər vardır. ***«Bir surə nazil edildiyi zaman münafiqlərdən: «Bu sizin hansınızın imanını artırdı? deyənlər də var. Möminlərə gəlincə*** *(hər bir surə)* ***onların imanını artırar və onlar*** *(bu surələrin nazil olmasına)* ***sevinərlər».*** *(ət-Tövbə 124).* ***«Biz də onların hidayətini artırmışıq».****(əl-Kəhf 13).****»Allah doğru yolda olanların doğruluğunu artırar».*** *(Məryəm 76).* ***«Doğru yolu tapanlara gəldikdə isə Allah onların doğruluğunu daha da artırar».*** *(Məhəmməd 17).* ***«Möminlərin imanı üstünə iman artırmaq üçün».*** *(əl-Fəth 4).* ***«İman gətirənlərin imanının daha da artması».*** *(əl-Muddəssir 31).* ***«Bu yalnız onların imanını və itaətini artırdı».*** *(əl-Əhzab 22).* ***«O, kəslər ki, xalq onlara: Cəmaat sizə qarşı*** *(qüvvə)* ***toplamışdır onlardan qorxun! dedikdə*** *(bu söz)* ***onların imanını daha da artırdı və onlar Allah bizə bəs edər. O nə gözəl vəkildir! deyə cavab verdilər».*** *(Ali-İmran 173).* ***«Möminlər yalnız o kəslərdir ki, Allahın adı çəkildikdə*** *(onun heybət və əzəmətindən)* ***ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəblərinə təvəkkül edərlər. Namaz qilar və verdiyimiz ruzidən sərf edərlər».*** *(əl-Ənfal 2-3).* Hənzələ b. ər-Rəbi b. Sayfi əl-Useyyidi ət-Təmimi *– radıyallahu anhu –*, Əbu Bəkr *– radıyallahu anhu –* ilə birlikdə

[20] Buna əməl edən savab qazanır. Onu tərk edən isə əzaba düçar olur. Məs: Namaz, oruc və s. əməllər.
[21] Buna əməl edən savab qazanır. Onu tərk edən isə əzaba düçar olmur.
[22] Bunu tərk edən savaba nail olur, əməl edən isə əzaba düçar olmur. Məs: Məscidə sol ayaq ilə daxil olmaq.
[23] Bunu tərk edən savab qazanır. Ona əməl edən isə əzaba düçar olur. Məs: Zina, içki və s. əməllər.
[24] İbn Teymiyyə «əl-Əqidətul Vasitiyyə», Təfsiri Təbəri 11/ s. 189, Təfsir İbn Kəsir.

Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in hüzuruna girərək dedi: «Hənzələ münafiqlik etdi, ya Rəsulallah!» Rəsulallah – *sallallahu aleyhi və səlləm* –: «Nə oldu belə?» Hənzələ: «Ey Allahın Rəsulu! Sənin yanında olduğumuz zaman bizlərə (Cəhənnəm) atəşini və Cənnəti xatırladırsan. Elə bil ki, bunları gözlərimizlə görmüş kimi oluruq. Ancaq sənin yanından ayrıldığımız zaman ailə, uşaqlar və dünya keçimi ilə o, qədər məşğul oluruq ki, (bizə xatırlatdığın bu şeyləri) unuduruq». Rəsulullah: «Nəfsim əlində olan Allaha and olsun ki, əgər sizlər mənim yanımdaykən və zikirdəykən olduğunuz hal üzrə olmağa (hər yerdə) davam etsəniz şübhəsiz mələklər sizinlə döşəklərnizdə və yollarnızda toqquşardılar». Başqa rəvayətdə: «Yollarda sizə salam verərdilər». Bir başqa rəvayətdə isə: «Sizləri evlərnizdə ziyarət edərdilər»[25]. Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən kimsə bir münkər gördükdə onu əli ilə düzəltsin. Əgər gücü çatmazsa dili ilə, bunu da bacarmadıqda qəlbi ilə (düzəltsin). Bu isə imanın ən zəif mərtəbəsidir»[26]. Abdullah b. Məsud – *radıyallahu anhu* – nun rəvayətində isə: Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Bundan aşağı (imandan) bir xardal dənəsi də belə yoxdur[27]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Kim Allah üçün sevər, Allah üçün nifrət edər, Allah üçün verir və Allah üçün qadağan edərsə imanı tamamlanmış olar»[28]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Möminlər arasında imanı ən kamil olanı əxlaqı ən gözəl olanıdır»[29]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sizdən hər hansı bir kimsə məni uşaqlarından, valideyinlərindən və cəmi insanlardan çox sevmədikcə iman etmiş olmaz»[30]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir-birinizi sevmədikcə iman etmiş olmazsınız»[31]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurur: «Çox gülmək qəlbin imanını məhv edir». İbn Ömər – *radıyallahu anhu* – dan soruşulduqda ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - in səhabələri gülərdilər: «Bəli! Əgər iman qəlblərində dağdan da böyük olsaydı»[32]. Həmçinin Ənəs –

---

[25] Müslim, Tirmizi 2514, İbn Məcə 4239, Əhməd 2/304-305, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1948, «Səhihul Cəmius Səğir» 7073,»Mişkətul Məsabih» 2268.
[26] Müslim.
[27] Müslim.
[28] İmam Əhməd 3/438-440, Əbu Davud 4681, Tirmizi 2521, əl-Albani «Səhih Hədislər Silsiləsi» 380, «Səhih Cəmius Səğir» 5965, «Mişkətul Məsabih» 30-31.
[29] Əbu Davud 2682, Tirmizi 1163, Musnəd 2/250,472,527.
[30] Buxari, Müslim, Musnəd 3/207,275-278.
[31] Müslim.
[32] əl-Albani «Mişkətul-Məsabih» 4749.

radıyallahu anhu – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü Allah buyuracaq: «Ya Muhəmməd! Başını qaldır, söylə! Sözün dinlənilir! İstə sənə verilir! Şəfaət et! Şəfaətin qəbul edilir!». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurur: «Ya Rəbbim! Ümmətim, ümmətim!» Allah buyuracaq: «Get! Qəlbində buğda və ya arpa dənəsi qədər iman olan kimsə varsa Cəhənnəmdən çıxart!…» Onları çıxartdıqdan sonra Allah buyuracaq: «Get! Qəlbində xardal dənəsi qədər iman olan kimsələri oradan çıxart!…» Onları da çıxartdıqdan sonra Allah buyuracaq: «Get! Qəlbində xardal dənəsindən daha az, daha az, daha az iman olan kimsələri oradan çıxart!…». Başqa rəvayətdə isə Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurur: «Qəlbində dinar, yarım dinar ağırlığında iman olan kimsələri oradan çıxart, əlavələri də vardır». Onalrın iman dərəcələrinə görə atəş onlardan kimisinin ayaqlarının yarsına qədər, kimisinin diz qapaqlarına qədər yandırar[33]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Zinakar, zina etdiyi vaxt mömin olduğu halda zina etməz, içki içən, içki içdiyi vaxt mömin olarsa içki içməz, oğru, oğruluq etdiyi vaxt mömin olarsa oğurluq etməz»[34]. Belə bir şəxsin imanı əskik bir mömindir və ya imanı ilə mömin, etdiyi günahı səbəbi ilə fasiqdir. Bu vəziyyətdə ona nə mütləq olaraq iman adı verilir, nə də mütləq olaraq ondan iman adı alınır. Yəni Əhli Sünnəyə görə belə bir kimsənin iman adı qaldırılmaz. Mötəzilə və Xavariclərin dedikləri kimi onun əbədi olaraq Cəhənnəmlik olduğunu deməzlər. Günah işləyən kimsənin imandan çıxmadığını da ittifaq ilə qəbul etmişlər. Əksinə belə bir kimsə Allahın mərhəmətinə qalmışdır, diləsə onu bağışlayar, diləsə əzab edər.

Möhtərəm müsəlman bacı və qardaşlarım! Ayə və hədislərdən bizə aydın olur ki, iman həm artır, həm də azalır. Bununla biz müxalif olanlara (imanın nə artıb, nə də əskildiyini deyənlərə) cavab vermiş oluruq. İndi isə bəzi səhabə, tabin və s. Əhli Sünnə vəl Cəmaat alimlərinin iman haqqında olan fikirlərinə nəzər salaq.

Əli – *radıyallahu anhu* – deyir ki: «İman qəlbdə ağ bir nöqtə kimi başlayır, iman artdıqda o, ağ nöqtə də artır»[35]. Digər bir rəvayətdə isə Əli – *radıyallahu anhu* – deyir: «Səbrin imana görə durumu, başın bədənə görə durumudur. Səbri olmayanın imanı da olmaz»[36]. İbn Məsud – *radıyallahu anhu* – dua edərək deyir ki: «Allahım! İmanımızı,

[33] Şəfaət hədisi haqqında geniş məlumata görə Səhih Buxari və Müslimə baxa bilərsiniz.
[34] Müslim.
[35] İbn Teymiyyə «Kitabul-iman» s.90.
[36] Bax: 35-ə.

yəqinliyimizi və fikhimizi artır!». ***<u>Allahummə Zidni, İlmən, Yəqinən Və Fikhən</u>*** / [37]. Ömər – *radıyallahu anhu* – səhabələrə: «Gəlin imanımızı artıraq!» - deyərək, Allahı zikir edərdilər»[38]. Buna görədir ki, Bəkr b. Abdullah əl-Muzni – *rahmətullahi aleyhi* – deyir: «Əbu Bəkr – *radıyallahu anhu* – namaz və orucları ilə sizi qabaqlamayıb. O sizi onun qəlbində olan imanla qabaqlayıb». İbn Abbas, Əbu Hureyrə, Əbu Dərda – *radıyallahu anhum* – deyirlər ki, iman həm artır, həm də azalır[39]. İmam Vəki b. əl-Cərrah - *rahmətullahi aleyhi* - deyir ki, Əhli Sünnə deyir ki, iman söz və əməldir[40]. İmam Əhməd - *rahmətullahi aleyhi* - deyir ki, iman artar və azalar. Artması əməl ilə, azalması isə əməli tərk etməklədir[41]. Həsənul Bəsri - *rahmətullahi aleyhi* - deyir ki, iman arzularla, xəyallarla olmur. İman qəlbdə olub əməllərlə həyata keçən şeydir. Kim xeyir deyib və xeyir edərsə ondan bu qəbul olacaqdır. Yox əgər kim xeyir deyib və şərr edərsə ondan bu qəbul olunmaz»[42]. İmam Şafii - *rahmətullahi aleyhi* - deyir ki, iman söz və əməldir. Artar və əskilər. İtaətlə artar, günahlarla azalar və bu ayəni oxudu. ***«İman edənlərin imanı artsın deyə»*** [43]. Əbu Hənifə – *rahmətullahi aleyhi* – yə görə: «İman – dil ilə iqrar, qəlb ilə təsdiqdir»[44]. İqrar tək başına iman olmaz. Çünki iqrar sadəcə iman olsaydı, bütün münafiqlər mömin olardılar. Yenə eyni şəkildə təsdiq də tək başına iman olmaz. Çünki sadəcə təsdiq iman olsaydı, Əhli-Kitab (Yəhudi və Xristianlar) mömin olardılar»[45]. İbn Battal - *rahmətullahi aleyhi* - deyir ki: «İman söz etibarı ilə təsdiqdən ibarətdir - deyiləcək olursa, buna cavabımız budur: Təsdiq bütün itaətləri yerinə yetirməklə kamil olur. Mömin xeyirli əməllərini çoxaltdıqca imanı daha da kamilləşir. Bunlarla birlikdə iman da artır. Xeyirli əməllər əskildi mi imanın kamilliyi də əskilir. İman haqqında ən mötədil rəy də budur»[46]. İbn Abdurrazzaq deyir ki: «Mən keçmiş nəsil və elm sahiblərindən Sufyən əs-Sovri, Məlik b. Ənəs, Ubeydullah b. Ömər, əl-Əvzai, Mamər b. Rəşid, İbn Cureyc, Sufyən b. Uyeynənin belə dediklərini dinlədim: «İman, söz və əməldir, artar və əskilər. Eyni zamanda İbn Məsud, Xuzeyfə, ən-Nəhai,

---

[37] Bax: 35-ə.
[38] İbn Əbi Şeybə «İman» 108, «əl-Musənnəf» 11/26.
[39] Bax: 35-ə.
[40] Bax: 35-ə.
[41] Bu rəvayətləri səhih sənədlərlə imam əl-Lələkai «Şərhu üsulu etiqadi əhli-sünnə vəl cəmaat minəl kitəbi vəs sünnəti və icməi səhəbəti və-t tabiin» əsərində qeyd edir.
[42] İbn Teymiyyə «Kitabul-İman».
[43] «Fəthul-Bəri» 1/62, «İman kitabı».
[44] Fikhul Əkbər s. 62.
[45] əl-Vəsiyyə s. 72.
[46] Müslimin şərhi 1/124.

Həsənul Bəsri, Tavus, Mücahid və Abdullah b. Mubərəkin də yekdil rəyləridir»[47].

ALLAHA İMAN

Allah – *subhənəhu və təalə* – yə iman onun varlığına iman etmək deməkdir. Bu da Fitrət, Ağıl, Şəriət və Duyğularla olur.

1. *Fitrət:* Fitrətin Allahın varlığına dəlalət etməsi: Şübhəsiz hər bir yaradılış yaradıcısına iman etmək fitrətinə sahib olaraq yaradılmışdır. ***«(Ya Muhəmməd!) batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut».*** *(ər-Rum 30).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Rəbbindən buyurduğu rəvayətdə: «Mən qullarımı hənniflər[48] olaraq yaratdım. Lakin sonradan şeytanlar onları dinlərindən sağa-sola sürüklədilər. Onlara halal etdiyimi qadağan etdilər və haqqında heç bir dəlil nazil etmədiyim şeyləri Mənə şərik qoşmağı əmr etdilər»[49]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Hər bir doğulan uşağ fitrət üzərində doğular. Lakin sonra valideyinləri onu Yəhudi, Xristian və ya Məcusi edər»[50].

2. *Ağıl:* Ağlın Allahın varlığına dəlalət etməsi: Əvvəlinci ilə sonuncuya qədər bütün yaradılmışların var edici bir yaradıcısı olması qaçınılmaz bir şeydir. Çünki bu yaradılmışların özü-özlərini var etmələri imkansız olduğu kimi, təsadüfən var olmalarına da imkan yoxdur. Özü-özlərini var etmələri imkansızdır. Çünki heç bir şey özü-özünü yaratmaz. Çünki o, şey var olmadan əvvəl yox idi. Yox olmaq heç bir şey olmaq deməkdir. Heç bir şey isə bir şeyi var edə bilməz. Necə özü-özünün yaradıcısı, var edəni ola bilər? Bu yaradılmışlar təsadüfən də var ola bilməz. Çünki sonradan meydana gələn hər bir şeyin mütləq bir meydana gətirəni vardır.

O, özündən əvvəl heç bir şeyin olmadığı ***Əvvəl***, ondan sonra heç bir şeyin qalmayacağı ***Axır***, ondan üstə heç bir şeyin olmadığı ***Zahir***, ondan o, tərəfə heç bir şeyin olmadığı **Batindir**. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – yatağına girdikdə buyurardı: «Yeddi səmanın Rəbbi, yerin Rəbbi, hər şeyin Rəbbi, toxumu və çərdəyi yaran, Tövratı, İncili və Quranı endirən Allahım! Mən sənin alnından yaxaladığın hər şeyin şərrindən sənə sığınıram. Sən ***Əvvəlsən***, səndən əvvəl heç bir şey yoxdur. Sən ***Axırsan,*** səndən sonra

---

[47] Müslimin şərhi 1/125.
[48] ***Hənif*** – haqq üzərində düz yeriyən və ona uyan kimsə deməkdir. Bütün dinlərdən üz çevirərək haqqa yönələn kimsədir. «Lisanul–Ərabiyyə» 9/157, «İbn Kəsir təfsir» 1/186-187, «Muhtarus–Sihah» s. 159. Digər bir tərif : Şirkdən uzaq olan, Allaha ixlas üzərində bina edilmiş dinin adıdır. «Uç əsas» Seyx Useymin – *rahmətullahi aleyhi* – nin şərhi ilə.
[49] Buxari, Müslim.
[50] Buxari, Müslim 2658.

heç bir şey yoxdur. Sən ***Zahirsən***, sənin üstündə heç bir şey yoxdur. Sən ***Batinsən***, səndən o, tərəfə heç bir şey yoxdur. Mənim borcumu ödə və faqirlikdən məni qurtar»[51]. O, hər şeyə həyat verən özü də mütləq şəkildə həyat sahibi olan ***Həyy***, bütün varlılıqların işini düzüb qoşan, öz yoluna qoyan ***Qayyum***, bir və tək olan ***Əhəd***, heç kimə möhtac olmayan ***Saməd***, aləmlərin Rəbbi olan Allahdır. ***«Sizi palçıqdan yaradan, sonra da bir əcəl müəyyən edən odur».*** *(əl-Ənam 2).* ***«Sizi yaratdıq, sonra sizə surət verdik….».*** *(əl-Əraf 11).* ***«Biz insanı quru və qoxumuş qara palçıqdan yaratdıq».*** *(əl-Hicr 26).* ***«Sizi torpaqdan yaratması, sonra da sizin bir insan olub yer üzünə yayılmağınız onun qüdrət əlamətlərindəndir».*** *(ər-Rum 20).* ***«O, yaratdığı hər şeyi gözəl yaratdı. İnsanı yaratmağa palçıqdan başladı. Sonra onun nəslini bir qətrə zəif dəyərsiz sudan əmələ gətirdi».*** *(əs-Səcdə 7-8).* ***«Biz həqiqətən insanı tər-təmiz palçıqdan yaratdıq. Sonra onu nütfə halında möhkəm bir yerdə yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o, bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu yeni bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər ulu və ucadır».*** *(əl-Muminun 12-14).* ***«O, insanı laxtalanmış qandan yaratdı».*** *(əl-Ələq 2).* ***«O, axıb tökülən bir sudan yaranmışdır. O, su*** *(kişilərin)* ***bel sümüyündən,*** *(qadınların)* ***köks sümüyündən çıxar».*** *(ət-Tariq 6-7).* ***«Halbuki, sizi də sizin düzəltdiklərinizi də Allah yaratmışdır».*** *(əs-Saffət 96).*

Allah Qurani Kərimdə ət-Tur surəsində buyurur: ***«Yoxsa onlar heç bir şeydən*** *(xaliqsiz)* ***yaradılıblar? Yaxud onlar*** *(öz-özlərini)* ***yaradanlardır?».*** *(ət-Tur 35).* Bu ayə nazil olduğu zaman Cubeyr b. Mutim Rəsulullah *– sallallahu aleyhi və səlləm* - in bu ayəni oxuduğunu dinləmiş və demişdir: «Mən müşrik idim. Bu ayəni eşitdikdə qəlbim az qala yerindən çıxacaqdı. Bu an imanın qəlbimə girdiyi ilk an idi»[52]. Bütün bu ayə və hədislər heç bir şeyin təsadüfən var olmasına ehtimal buraxmır.

3. *Şəriət:* Şəriətin Allahın varlığına dəlalət etməsi: Bütün səmavi kitablar Allahı tanımaq, onun göndərmiş olduğu şəriəti qəbul etmək və əmrlərinə gərəkli şəkildə itaət etmək, boyun əymək və bu kitablarda olan xəbərlərin hər şeyi var etməyə qadir olan Allah tərəfindən endirilmiş olduğuna dəlildir. Qul Allahın kitabında olan ayələr haqqında düşündükcə Rəbbini bilib tanıyır. Qul bu ayələr haqqında nə qədər düşünsə onun biliyi, elmi o, qədər də artar. ***«Yerdə tam yəqinliklə insanlar üçün əlamətlər vardır. Sizin özünüzdə də əlamətlər vardır».*** *(əz-Zariyat 20-*

[51] Müslim, Əbu Davud, Tirmizi.
[52] Buxari.

21). ***«Göylərdə və yerdə neçə-neçə əlamətlər nişanələr vardır ki, insanlar onların yanından üzlərini çevirib keçirlər».*** *(Yusif 105).*

4. *Duyğular:* Duyğuların Allahın varlığına dəlalət etməsinə gəlincə bu iki yolladır.

1) Bizlər dua edənlərin, dualarının qəbul edilməsi, sıxıntı anlarında əllərini göyə qaldıraraq dua etmələri qəlbdən olan o, hisslər, duyğular Allahın varlığına dəlalət edir. ***«O, zaman siz*** *(dua edərək)* ***Rəbbinizdən kömək diləyirdiniz».*** *(əl-Ənfal 9).*

Həmçinin Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, bir gün bir Bədəvi ərəb cümə günü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – xütbə verərkən məscidə girib deyir: «Ey Allahın Rəsulu! Mallarımız tələf oldu, uşaqlarımız ac qaldı. Bizim üçün Allaha dua et». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əllərini qaldıraraq dua etdi. Buludlar dağlar kimi ortaya yığıldılar. Minbərdən enməmiş yağış dənələri saqqalından süzülməyə başladı. İkinci cümə yenə o, bədəvi ərəb qalxıb dedi: «Ey Allahın Rəsulu! Evlərimiz dağıldı, mallarımızı sular yuyub apardı. Bizim üçün Allaha dua et» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əllərini qaldıraraq dua etdi: «Allahım üztümüzə, ətrafımıza yox!» Əli ilə işarə etdiyi tərəfə yağış yağmağa başladı»[53]. Allaha səmimi olaraq sığınan və duasının qəbul edilmə şərtlərini yerinə yetirən hər bir kəsin dualarının qəbul edilməsinin günümüzdə də şahidi oluruq.

2) *Möcüzə* – insanların gördükləri və ya Peyğəmbər olaraq göndərənin varlığına kəsin bir dəlildir. Onları göndərən isə Allahdır. Çünki bunlar bəşəriyyətin güc və taqətindən kənar olan xüsuslardır. Allah möcüzələri Peyğəmbərlərini dəstəkləmək və onlara kömək etmək üçün meydana gətirir. Məs: Musa – *əleyhissəlam* – ın əsası. Allah ona: «Əsanı dənizə vur!» deyərək əmr etdikdə o, da əsanı dənizə vurdu. Dəniz on iki ayrı yola ayrıldı. Bu yollar arasında sular dağları xatırladırdı. ***Onda Musaya belə vəhy etdik: «Əsanla dənizə vur. Dərhal yarıldı və hər hissə böyük bir dağ kimi oldu».*** *(əş-Şuəra 63).* İsa – *əleyhissəlam* – hansı ki, Allahın izni ilə ölüləri dirildirdi. ***«Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Anadan gəlmə korları, cüzəm xəstəliyinə tutulanları sağaldar və Allahın izni ilə ölüləri dirildirəm».*** *(Ali-İmran 49).* Muhəmməd – *sallallahu aleyhi və səlləm* – hansı ki, Qureyş ondan bir möcüzə göstərməsini istəmiş o, da aya işarə edərək ayı iki yerə ayırmışdı. ***«Qiyamət yaxınlaşdı, ay*** *(Peyğəmbərin möcüzəsi ilə)* ***parçalandı».****(əl-Qəmər 1).*

---

[53] Buxari.

Allah yaratdıqlarını yox edər, ancaq özü əbədi qalar. Ancaq onun istədiyi olur. O, istədiyini edəndir. ***«Allah öz istədiyini edər!»*** *(əl-Bəqərə 253).* Allah bir işi istədiyi zaman bütün yaratdıqları onu istəməsələr də onu yaradır. Əgər Allah istəməzsə yaratdıqlarından hamsı bir olsalar da onu istəyə bilməzlər. Bu şeydə olan xeyir və şər onun istəməsi ilə olur. O, nəyi istəmişsə o, da olur, nəyi istəməmişsə o, da olmaz. Allahın yaratdıqlarından heç birisi öz elmi ilə onu qavraya bilməz. Zənlər, düşüncələr, təsəvvürlər onu başa düşə bilməz. ***«Onların elmi isə onu əhatə edib qavraya bilməz».*** *(Ta ha 110).* Yaratdıqlarından heç kimsə onun zatının sirlərini bilməz. O, da yaratdıqlarından heç birinə nə zatında, nə isimlərində, nə də sifətlərində, nə də əməllərində bənzəməz. Onun misli yoxdur. ***«Əgər Rəbbinin sözlərini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o, qədər ona əlavə olunsaydı yenə də Rəbbinin sözləri tükənməzdən əvvəl onlar tükənərdi».*** *(ən-Kəhf 109).* ***«Əgər yerdə hər bir ağac qələm olsaydı və dəryalar mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı yenə də Rəbbinin sözləri tükənməzdi. Həqiqətən Allah yenilməz qüvvət və hikmət sahibidir».*** *(Loğman 27).* O, ölməzdir, daima diridir (*Həyydir*). Ölüm ona gəlməz. ***«Ölməz, həmişə diri olan Allaha bel bağla».*** *(əl-Furqan 58).* O, nə mürgülər, nə də onu yuxu tutar (*Qayyumdur*). Yoxsa kainatda hər şey məhv olardı. Allah insanlara, cinlərə, quşlara, vəhşi heyvanlara, möminlərə, kafirlərə və istəyənə istədiyini verdiyi zaman mülkündən heç bir şey əskilməz. Əbu Zərr əl-Ğifari - *radıyallahu anhu* – dan, o da Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən, (Peyğəmbərdə) Uca və böyük olan Rəbbindən buyurmuşdu: «Ey mənim qullarım, sizlərdən birincilər və axırıncılar, insanlar və cinlər bir yerdə toplansalar və hamısı birlikdə məndən istəsələr, mən onların hər birinin istədiyini verərəm. Bu mənim yanımdakı şeylərdən iynənin dənizə salındığı (və çıxarıldığı) zaman əskiltdiyi qədər əskildər»[54]. O, yaratdıqlarını qorxuya düşmədən öldürür, çətinlik görmədən yenidən yaradır.

ALLAHA İMANIN FAYDALARI

Allaha iman etmək möminlərə olduqca xeyirli və dəyərli faydalar verər.

1. Allahı başqalarından bir şey ümüd etməyəcək, başqalarından qorxmayacaq və başqasına ibadət etməyəcək şəkildə, həqiqi mənada Tövhid etmək.

---

[54] Müslim.

2. Allahı kamil dərəcədə sevməyə çalışmaq, onun İsim və Sifətlərinə lazımı şəkildə təzim etmək.

3. Əmr etdiklərini yerinə yetirmək, qadağalarından çəkinməklə ona ibadət etmək.

MƏLƏKLƏRƏ İMAN

Mələklərə iman hər hansı bir şübhə və tərəddütdən uzaq olaraq var olduqlarına inanmaq deməkdir. ***«Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə*** *(Qurana)* ***inanmış və möminlər də iman gətirmişlər.*** *(onların)* ***Hamısı Allaha, onun mələklərinə, kitablarına və bütün peyğəmbərlərinə iman gətirmişlər…».*** *(əl-Bəqərə 285).*

Mələklər aləmi bir qeyb aləmidir. Allah tərəfindən yaradılmış və Allaha ibadət edən varlılıqlardır. Allah onları nurdan yaratmış, əmrlərinə tam uymağı və əmrlərini yerinə yetirmək gücünü vermişdir. Aişə – *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah mələkləri nurdan, cinləri tüstüsüz oddan, Adəmi isə sizə deyildiyi şeydən (yaratdı)»[55]. ***«Möhtərəm qullardır. Onlar Allahdan qabaq söz danışmazlar və yalnız onun əmri ilə iş görərlər».*** *(əl-Ənbiya 26-27).* ***«Onlar Allaha ibadət etməkdə təkəbbürlük göstərməz və bunda yorulmazlar. Onlar gecə-gündüz yorulmaq bilmədən Rəbbini təqdis edib şəninə təriflər deyirlər».*** *(əl-Ənbiya 19-20).*

Mələk – Ələkə - Malaka – Malak* -** sözündən götürülüb, göndərilən mesaj, məktub deməkdir. Cəmi – ***Mələikə* -** deməkdir. Bəziləri deyirlər ki: ***Mələk – Mulk – sözündən törənmişdir. Mələklərin varlılıqlarını inkar edən hər hansı bir şəxs kafir olur. ***«Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki,*** *(doğru yoldan)* ***çox azmışdı».*** *(ən-Nisa 136).* Bu baxımdan da Əhli Sünnə vəl Cəmaat icma ilə mələklərə inanırlar.

Mələklərin nə vaxt yaradıldıqları barədə məlumat yoxdur. Lakin onların insandan qabaq yaradılmış olduqları bilinməkdədir. ***Sənin Rəbbin mələklərə: «Mən yer üzündə bir xəlifə yaradacağam» dedikdə, mələklər: «Biz sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və səni müqəddəs tutduğumuz halda sən yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?» söylədilər. Allah*** *(onlara):* ***«Mən bildiyim şeyi siz bilmirsiniz!».*** *(əl-Bəqərə 30).*

---

[55] Müslim 2996.

İnsanın Mələkdən əfsəl və İblisdən üstün olması. ***«Biz mələklərə Adəmə səcdə edin!» dedik.*** *«(əl-Bəqərə 34).* ***«Pervərdigara! Bir de görək nə üçün onu məndən üstün tutdun».*** *(əl-İsra 62).*

Mələklərin sayı çoxdur. Sayını Allahdan başqa heç kimsə bilməz. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Meraca gedərkən ona səmadakı Beytul-Məmur göstərilmiş və orada hər gün yetmiş min mələyin ibadət edib, oradan çıxdıqdan sonra bir daha ora qayıtmamaqları bildirilmişdi[56]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – səhabələrə buyurur: «Səmada olan səsləri eşidirsinizmi?» Səhabələr: «Biz heç ə eşitmirik?» dedilər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həqiqətən də Mən səmanın qıcırdamasını eşidirəm. Qıcırdama ona xas olan bir şey deyildir. Göydə elə bir qarış yer yoxdur ki, orada Qiyamda və Səcdədə olan mələk olmasın»[57].

Mələklərə iman özündə bir neçə xüsusiyyətləri birləşdirir ki, bunları da hər bir müsəlmanın bilib iman gətirməsi vacibdir.

1. Onların varlılıqlarına iman gətirmək.

2. Cəbrail, Mikail, İsrafil – *əleyhimussəlam* - kimi adlarını bildiyimiz mələklərə iman, adlarını bilmədiyimiz mələklərə isə icma ilə iman gətirmək.

3. Cəbrail – *əleyhissəlam* – kimi sifətlərini bildiyimiz mələklərin o, sifətlərinə iman gətirmək. Məs: Allah bizim onları görməyimizi əngəlləşdirmişdi. Buna görə də biz onları yaradılmış şəkildə görə bilmərik. Lakin bəzi qullara onları görmək icazəsi verilmişdi. ***«Biz öz ruhumuzu Məryəmin yanına göndərdik. O, Məryəmə kamil bir insan qiyafəsində göründü».*** *(Məryəm 17).*

<u>Həmçinin</u> - İbrahim və Lut – *əleyhimussəlam* - ın yanına insan qiyafəsində gəlmişlər. ***«Həqiqətən elçilərimiz*** *(mələklər)* ***İbrahimin yanına müjdə ilə gəlib salam verdilər».*** *(Hud 68).* ***«Elçilərimiz*** *(mələklər)* ***Lutun yanına gəldikləri zaman…».*** *(Hud 77).*

<u>Həmçinin</u> **-** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Cəbrail – *əleyhissəlam* – ı öz qiyafəsində görmüşdü. ***«O, qüvvət sahibi göründü. O*** *(Cəbrail)* ***ən uca üfüqdə idi». «And olsun ki, başqa bir dəfə də görmüşdü.*** *(yeddinci səmadakı)* ***Sidrətulmuntəhanın yanında».*** *(ən-Nəcm 6-14).* Cəbrail – *əleyhissəlam* – ın insan qiyafəsində saçları olduqca qara, düm ağ paltarda Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına, onların dinlərini onlara öyrətməyə gəlmişdi[58]. Cəbrail – *əleyhissəlam* –

---

[56] Buxari 3207, Müslim 429.
[57] əl-Albani "Səhih Hədislər Silsiləsi" 852.
[58] Müslim 8.

əksər vaxtlarda gözəl səhabə olan Dihyə b. Xəlifətil əl-Kəlbi – *radıyallahu anhu* – nun qiyafəsində gələrdi[59].

Həmçinin - Mələklərin çox qanadlı olmaları. ***«Göyləri və yerləri yoxdan yaradan, iki qanadlı, üç qanadlı, dörd qanadlı mələkləri elçi edən Allaha həmd olsun».*** *(Fatir 1).*

Həmçinin - Mələklər Allahın ordularıdır. ***«Rəbbinin ordularını özündən başqası bilməz. Bu insanlar üçün ancaq bir öyüd-nəsihətdir».*** *(əl-Muddəssir 31).*

Həmçinin - Allahın izni ilə insanları qoruyurlar. ***«İnsan üçün onu öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar».*** *(ər-Rəd 11).* Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Əbu Cəhl: «Muhəmməd sizin aranızda üzünü torpağa sürtürmü?» Ona: «Bəli, sürtür» - dedilər. O, dedi: «Lat və Uzzaya and olsun ki, əgər onun belə etdiyini görsəm boynundan tutub torpağa sürtəcəyəm». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – namaz qılmağa başladığı vaxt Əbu Cəhl gəldi və onun boynunu basmaq istədi. Bu vaxt sanki əlləri ilə özünü qoruyaraq geri çəkildi. Ona: «Sənə nə oldu?» deyə soruşduqda o dedi: «Mənimlə onun arasında içi odla dolu xəndək var idi və mənim ona yaxınlaşmağıma mane olurdu». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Əgər o, mənə yaxınlaşmış olsaydı mələklər onu parça-parça edərdilər»[60].

Həmçinin - Mələklər Allaha yaxınlaşdırılmış varlılıqlardır. Kişi və qadın vəsfləri yoxdur. ***«Onlar Rəhmanın qulları olan mələkləri dişi saydılar. Məgər onlar mələklərin yaradılışına şahidmi olmuşlar. Onları bu şəhadəti yazılacaq və sorğu-sual olunacaq».*** *(əz-Zuxruf 19).* ***«Kafirlər Rahmən övlad götürdü dedilər. O, pak və müqəddəsdir. Xeyr mələklər möhtərəm qullardır».*** *(əl-Ənbiya 26).*

Həmçinin - Yeməzlər, içməzlər. ***«Həqiqətən elçilərimiz*** *(mələklər)* ***İbrahimin yanına müjdə ilə gəlib salam verdilər. İbrahim də: «Salam!» deyə cavab verdi və dərhal*** *(gedib onlara)* ***qızardılmış bir buzov gətirdi. İbrahim*** *(qonaqların)* ***əllərini yeməyə uzatmadıqlarını gördükdə onların bu hərəkəti xoşuna gəlmədi və qorxuya düşdü».*** *(Hud 69-70).*

Həmçinin - Onların qidaları Allahı zikr etməkdir. Bundan da əsla usanmaz və buna ara verməzlər, yorulmazlar. ***«Onlar Allaha ibadət etməkdə təkəbbürlük göstərməz və bunda yorulmazlar. Onlar gecə-gündüz yorulmaq bilmədən Rəbbini təqdis edib şəninə təriflər deyirlər».*** *(əl-Ənbiya 19-20).* ***«Rəbbinin yanında olanlar ona ibadət etməyi özlərinə***

---

[59] İmam Əhməd, İbn Sad "Təbaqat".

[60] Müslim 2797.

ar bilməzlər. Onu pak, müqəddəs tutub şəninə tariflər deyər və ancaq ona səcdəyə qapanarlar». *(əl-Əraf 206).*

<u>Həmçinin</u> - Həya və utanmaq kimi sifətlərə sahibdilər. Aişə – *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ayaqları baldıra (və ya diz qapaqlarına) qədər açıq vəziyyətdə uzanmışdı. Əbu Bəkr, Ömər – *radıyallahu anhum* – onun yanına içəri girdikdə o, ayaqlarının üstünü örtmədi. Lakin Osman – *radıyallahu anhu* – onun yanına girən kimi ayaqlarının üstünü örtdü. Niyə belə etdiyini soruşduqda: «Mələklərin həya etdiyi bir kəsdən mən necə həya etməyim»[61].

<u>Həmçinin</u> - Allaha itaət və ona üsyan etməmək fitrəti ilə yaradılıblar. ***«Xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli*** *(heç kəsə zərrəcə rəhm etməyən)* ***və çox sərt təbiətli mələklərdir».*** *(ət-Təhrim 6).*

4. Mələkləri Allahın əmrlərini yernə yetirdiklərinə və hər birinin müəyyən vəzifəsi olduğuna iman gətirməliyik.

Cəbrail – *əleyhissəlam* – Allahın vəhyinin əminidir. Allah vəhy ilə onu Rəsullara və Peyğəmbərlərə göndərir. Mikail – *əleyhissəlam* – yağış və bitkilərlə, İsrafil – *əleyhissəlam* – Qiyamətin qopacağı və insanların diriləcəgi vaxt sura üfürəcək, Ölüm mələyi ölüm anında ruhları almaqla əmr olunur. ***De ki: «Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır».*** *(əs-Səcdə 11).* O, yaradılmış olaraq mələklərin ən əzəmətlisidir. Onun haqqında Quran və Sünnədə bəlli bir ad yoxdur. Bəziləri Əzrail deyə adlandırırlar. Lakin bu haqda heç bir yerdə məlumat yoxdur.

<u>Həmçinin</u> - kimilərinə Ərşi daşımaq: ***«Həmin gün sənin Rəbbinin ərşini onların başı üstündə səkkiz mələk daşıyacaqdır».*** *(əl-Həqq 17).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah mənə Ərşi daşıyan mələklərin biri haqqında danışmağa icazə vermişdi. Onun qulağının ucu ilə çiyni arasındakı məsafə yeddi yüz (Quş uçuşu) ilə bərabərdir»[62].

<u>Həmçinin</u> - Kimisinə Cəhənnəmin atəşini qorumaq Məlik və Cəhənnəmin mələkləri Zəbanilər: ***«Onlar müraciət edib deyəcəklər: Ey Məlik! Qoy Rəbbin bizi öldürsün*** *(bu əzabdan qurtaraq).* ***O, isə*** *(min ildən sonra onlara)* ***Siz*** *(həmişəlik burada)* ***qalacaqsınız».*** *(əz-Zumər 77).* ***«Biz də Zəbaniləri*** *(Cəhənnəmdəki əzab mələklərini)* ***çağıracağıq».*** *(əl-Ələq 18).*

---

[61] Müslim 2401.
[62] Əbu Davud 4729. əl-Albani "Səhih".

Həmçinin - Kimiləri möminlərin ruhlarını rahatlıqla alırlar: ***«And olsun** (möminlərin canını)* ***rahatlıqla alanlara».*** *(ən-Nəziat 2).* ***Şübhəsiz ki: «Rəbbimiz Allahdır!» deyən, sonra da düz olan kəslərə*** *(ölüm ayağında)* ***mələklər nazil olub belə deyəcəklər: «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!».*** *(Fussilət 30).*

Həmçinin - Kimiləri kafirlərin ruhlarını zorla alırlar: ***And olsun** (kafirlərin canını)* ***zorla alanlara».*** *(ən-Nəziat 1).* ***«Kaş ki, sən zalimləri ölüm əzabı içində çapalayan, mələklərin də əllərini uzadıb: «Çıxarın canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və onun ayələrinə təkəbbürlük göstərdiyinizə görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız» dediyini görəydin.*** *(əl-Ənam 93).*

Həmçinin - Kimiləri insanın ana bətnində olduğu müddətdə qədərini yazmaq ilə: Əbu AbdurRahmən Abdulla b. Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, doğru sözlü və doğru sözü təsdiq olunan Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sizdən hər birinizin yaradılışı onun anasının qarnında qırx gün nütfə[63] şəklində olaraq bir yerə gətrilir. Sonra bu müddət ərzində aləqa[64] şəklində olur. Sonra yenə bu müddət ərzində mudğa[65] şəklində olur. Sonra ona bir mələk göndərilir, hansı ki, ona ruh üflədikdən sonra dörd xüsusiyəti yazmaqla əmr olunur. Ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını»[66].

Həmçinin - Onlardan möminlərə məğfirət diləyən, onlara dua edən, möminləri sevən kimsələr olduğu kimi elm məclislərinə gələrək onları əhatəyə alan, onların etdiklərini Allaha çatdıran, elm öyrənən və öyrədən üçün dua edən mələklər də var. ***«Həqiqətən Allah və mələkləri Peyğəmbərə salavat göndərirlər…».*** *(əl-Əhzab 56).* Əbu Umamə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Həqiqətən Allah, mələkləri, göydə və yerdə olanlar, qarışqa öz yuvasında hətta balıqlarda elm öyrədənə dua edirlər»[67]. Əbu Dərda - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Hər kim elm öyrənmək üçün müəyyən bir yola çıxarsa Allah onun Cənnətə gedən yolunu asanlaşdırar. Mələklər elm tələbəsinin bu əməlindən xoş olduqları üçün qanadlarını onun üzərinə açarlar. Göylərdə və yerdə olan hər bir şey onun üçün bağışlanma diləyər»[68]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah –

---

[63] ***Nütfə*** – məni mənasındadır. Nütfə bəzən də saf su adlanır.
[64] ***Aləqa*** – laxtalanmış qan, ziyil deməkdir. ***O, insanı laxtalanmış qandan yaratdı.*** *(əl-Ələq 2).*
[65] ***Mudğa*** – çeynənilmiş ət parçasına oxşadığı üçün ona bu ad verilmişdir.
[66] Buxari 3208, Müslim 2643.
[67] Səhih Sünən Tirmizi 2161, 2686.
[68] Əbu Davud 3641, Səhih Sünən Tirmizi 2159, 2683.

sallallahu aleyhi və səlləm – buyurdu: «Hər kim elm öyrənmək üçün müəyyən bir yola çıxarsa Allah onun Cənnətə gedən yolunu asantlaşdırar. Bir topluluq Allahın evlərindən birində toplanıb, Allahın kitabını oxuyar və öz aralarında onu müzakirə edərlərsə onlara Allah tərəfindən sakitlik enər, Allahın rəhməti onları örtər, mələklər onları əhatəyə alarlar, Allah onları öz dərgahında olanların yanında yad edər. Hər kim bu əməlləri gecikdirərsə, nəticəsi onu irəli hərəkət etməyə qoymaz (geri düşər)»[69].

Həmçinin - Mələklərin möminlərin dostları və onları sevmələri. ***Şübhəsiz ki: «Rəbbimiz Allahdır!» deyən, sonra da düz olan kəslərə*** *(ölüm ayağında)* ***mələklər nazil olub belə deyəcəklər: «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünyada və axirətdə də sizin dostlarınızıq. Orada*** *(Cənnətdə)* ***sizin üçün nəfslərinizin çəkdiyi, istədiyiniz hər şey vardır».*** *(Fussilət 30-31).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Əgər Allah bir qulu sevərsə əmr edir Cəbrailə: «Şübhəsiz Allah filan qulu sevər, sən də onu sev!» deyə nida edər. Cəbrail də onu sevər. Sonra Cəbrail da səmadakıları səsləyərək: «Şübhəsiz Allah filan qulu sevir, siz də onu sevin!». Səmadakılar da onu sevərlər. Sonra da onun sözü yer üzündə məqbul (qəbul) sayılar»[70].

Həmçinin - Mələklərin kafirləri, müşrikləri, münafiqləri sevməmə-ləri və onlara nifrət etmələri. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Əgər Allah bir qulu sevməzsə əmr edir Cəbrailə: «Şübhəsiz Allah filan qulu sevmir, sən də onu sevmə!» deyə nida edər. Cəbrail də onu sevməz. Sonra Cəbrail da səmadakıları səsləyərək: «Şübhəsiz Allah filan qulu sevmir, siz də onu sevməyin!». Səmadakılar da onu sevməzlər. Sonra da yer üzündə olan insanların qəlbində (Allah tərəfindən) o, kimsə haqqında nifrət və kin qoyular»[71].

Həmçinin **-** Mələklər birinci səfdə olanlar, namazı gözləyənlər üçün dua edirlər. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Namazın girmə vaxtını gözləyən insanlar üçün mələklər Allaha dua edərək, Ya Rəbbimiz onu bağışla, ona rəhm et»[72]. Bəra b. Azib - *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həqiqətən Allah və mələkləri birinci səff üçün dua edərlər»[73]. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki,

---

[69] Müslim 2699.
[70] Buxari 3209, Müslim 2637.
[71] Buxari, Müslim.
[72] Buxari, Müslim 649.
[73] Səhih Sünən Əbu Davud 618, 664.

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz Allah və Mələkləri səflərin sağında olanlara rəhmət və istiğfar diləyərlər»[74].

Həmçinin - Mələklərin Cümə günü insanları qeyd etmələri. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər– *sallallahu aleyhi və səlləm* – buyurdu: «Cümə günü oldu mu məscidin hər bir qapısı üzərində mələklər durub sıra ilə tez gələnləri qeyd edərlər. İmam xütbə vermək üçün oturdumu onlar da səhifələri bağlayıb xütbəni dinləməyə gedərlər»[75].

Həmçinin - Mələklərin xəstəni ziyarət edən üçün dua etmələri. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir kəs öz müsəlman qardaşını səhər ziyarət etməyə getsə axşamadək yetmiş min mələk onun üçün bağışlanma diləyər, axşam getsə səhərədək yetmiş min mələk onun üçün bağışlanma diliyər»[76].

Həmçinin - Kiramə və Kətibin mələkləri. Allah onları üzərimizə əməllərimizi, sözlərimizi və davranışımızı yazmaq üçün mükəlləf edib. Bizi ancaq ayaq yoluna girdiyimiz və cima halında tək buraxarlar. ***«Sizin üstünüzdə gözətçi mələklər*** *(əməllərinizi)* ***yazan və*** *(Allah dərgahında)* ***çox hörmətli mələklər vardır. Onlar sizin nə etdiklərinizi bilirlər».*** *(əl-İnfitar 10-12).* ***«Şübhəsiz ki, elçilərimiz qurduğunuz hiylələri*** *(əməl dəftərinizə)* ***yazırlar».*** *(Yunus 21).* ***«Yoxsa onlar elə güman edirlər ki, biz onların pıçıltılarını və xəlvəti danışıqlarını eşitmirik! Xeyr, yanlarında olan elçilərimiz yazırlar».*** *(əz-Zuxruf 80).* ***«İnsan üçün onu öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar».*** *(ər-Rəd 11).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizinlə birlikdə ayaq yoluna girdiyiniz vaxt ilə cima halından başqa sizdən ayrılmayan mələklər vardır. Onlardan həya edin və onlara ikramınız olsun»[77].

Həmçinin - Mələklərin möminlər üçün bağışlanma diləmələri. ***«Ərşi daşıyanlar və onun ətrafında olanlar*** *(mələklər)* ***öz Rəbbini həmd-səna ilə təqdis edir, ona inanır və möminlərin baığışlanmasını diləyərək belə deyirlər: «Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru».*** *(əl-Mumin 7).* ***«Mələklər də*** *(ondan)* ***bağışlanmağınızı dilərlər. Allah möminlərə rəhm edəndir».*** *(əl-Əhzab 43).*

---

[74] Əbu Davud 676.
[75] Buxari, Müslim, əl-Albani "Mişkət" 1384.
[76] Səhih Tirmizi 1/286, Səhih İbn Məcə 1/244.
[77] Tirmizi 2800.

Həmçinin - Mələklərin möminləri salamlamaları. ***«Rəbbindən qorxanlar dəstə-dəstə gətiriləcəklər. Nəhayət ora çatınca onun qapıları açılacaq və Cənnət gözətçiləri*** *(onlara)* ***Salam aleykum!*** *(Sizə salam olsun)* ***xoş gəldiniz. Əbədi qalacağınız Cənnətə daxil olun».*** *(əz-Zumər 73).*

Həmçinin - Mələklərin sədəqə verənlər üçün dua etmələri. Peyğəmbər– *sallallahu aleyhi və sælləm* – buyurdu: «Hər səhər Allahın izni ilə yer üzünə iki mələk enir və Allaha dua edərək deyirlər: «Ey Rəbbimiz! Allah yolunda xərcləyənin ruzisini artır, xəsislik edənin ruzisini isə azalt»[78].

Həmçinin - Mələklərin İbrahim – *əleyhissəlam* – ı oğlu İshaqın olması ilə[79], Məryəmı İsa – *əleyhissəlam* – ın olması ilə[80], Xədicə - *radıyallahu anhə* – ni Cənnətdə onun üçün hazırlanmış daş-qaşlı saray və Allahın salamı ilə[81], Aişə - *radıyallahu anhə* – ni Cəbrail – *əleyhissəlam* – ın salamı ilə müjdələmişlər[82].

Həmçinin - Mələklər Məsih Dəccəlin Məkkə və Mədinəyə girməsinin qarşısını alacaqlar[83]. Qiyamətə yaxın vaxtlarda İsa – *əleyhissəlam* – ın Şamın şərq tərəfində ağ minarəli (məscidin) üstünə iki mələyin qanadında enməsi[84].

Həmçinin - Mələklərin döyüşlərdə müsəlmanlara kömək etməsi, xüsusi ilə Bədr döyüşündə. ***«Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi. Bəli əgər səbr edib*** *(Allahdan)* ***qorxsanız, onlar*** *(Məkkə müşrikləri)* ***qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan qoyulmuş mələklə sizə yardım edər».*** *(Ali-İmran 124-125). (əl-Ənfal 9).* Rifa b. Rafi əz-Zurani - *radıyallahu anhu* – rəvayət edir ki, Cəbrail – *əleyhissəlam* – Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Siz Bədr döyüşündə iştirak edənləri nə sayırsınız». (Peyğəmbər) buyurdu: «Müsəlmanların ən xeyirliləri». Cəbrail – *əleyhissəlam* – dedi: «Mələklərdən də Bədr mələkləri belədir»[85].

Əhli Sünnə Vəl Camaat qəbr əzabının olduğuna da inanırlar. Qəbr əzabı deyildikdə, bildiyimiz qəbr çuxurunda görülən əzab deyildir. Bərzəx adı verilən aləmdə verilən əzabdır. Əzabı qəbirdə də olsa, yerin dibində də olsa, dəniz dibində də və ya balığın qarnında da olsa bərzəxda əzab

---

[78] Buxari 1442, Müslim 1010.
[79] Bax: (Hud 71-72).
[80] Bax: (Məryəm 19).
[81] Bax: Buxari, Müslim 232.
[82] Bax: Buxari, Müslim.
[83] Bax: Buxari 7125, Müslim 2942.
[84] Bax: Müslim.
[85] Buxari.

görəcəkdir. Munkər və Nəkir mələkləridir ki, bərzəx aləmində insana: «Rəbbin kim? Dinin nə? Peyğəmbərin kim?» - deyə sullar verirlər[86].

Həmçinin - Mələklər heykəl, surət və it olan heç bir evə girməzlər. Əbu Təlhə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mələklər it və şəkil olan evə girməzlər»[87].

Həmçinin - Adəm oğullarına əziyət verən şey onlara da əziyyət verir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Soğan və sarmısağ yeyən hər bir kəs bizim məscidə yaxın durmasın. Adəm oğullarına əziyyət verən şey mələklərə də əziyyət verir»[88].

Bütün bunlara iman gətirmək vacibdir. Buna görə də mələklərə iman etmək, imanın əsaslarını təşkil edən altı əsasdan biridir.

KİTABLARA İMAN

Kutub - Kitablar ləfzindən toplamaq və bir-birinə qatmaq mənasında gələn ***Kətbdən*** gəlməkdədir. Kitabların cəmi, yazılmış deməkdir. Kitablardan qəsd səmadan Allahın Rəsullarına endirilmiş kitablardır. Bizim bu kitablardan bildiklərimiz İbrahim – *əleyhissəlam* – ın səhifələri, Musa – *əleyhissəlam* – a lövhələrdə endirmiş olduğu Tövrat, İsa – *əleyhissəlam* – a endirilmiş olan İncil, Davud – *əleyhissəlam* – a endirilmiş olan Zəbur və son olaraq nazil olan əvvəlkiləri doğrulayan Qurani Kərimdir.

Bizlər Allahın bunlardan başqa Peyğəmbərlərinə endirmiş olduğu başqa kitabların olduğuna da iman edirik. Bunların ad və saylarını Allahdan başqa heç kəs bilməz. ***«Ey möminlər! Allaha və Peyğəmbərinə, onun öz Peyğəmbərinə endirdiyi kitaba*** *(Qurana)* ***və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!».*** *(ən-Nisa 136).*

Bizlər Allahın Peyğəmbərlərinə endirmiş olan kitabların Allah tərəfindən gəldiyinə, onların haqq olduqlarına, bir hidayət, bir nur, bir bəyan və bir şəfa olduqlarına iman edirik. *(Ey möminlər!)* ***Belə deyin: «Biz Allaha, bizə nazil olan Qurana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən bütün Peyğəmbərlərə verilən şeylərə iman etdik. Onların heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanıq».*** *(əl-Bəqərə 136).* ***«Biz Nuha və ondan sonrakı Peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna***

---

[86] əl-Albani «Əhkəmul Cənaiz» s 202, İbn Kəsir 2/131, İbn Həcər 3/234,240.
[87] Buxari, Müslim.
[88] Buxari, Müslim.

və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik». *(ən-Nisa 163).* ***«İbarahimin və Musanın səhifələrində».*** *(əl-Əla 19).* ***«Bundan əvvəl insanları doğru yola yönəltmək üçün Tövratı və İncili də*** *(səmadan)* ***o, endirdi.*** *(Haqqı nahaqdan ayırd edən)* ***Furqanı*** *(Quranı)* ***da o nazil etdi».*** *(Ali İmran 3-4).*

Allah kitabları Rəsullarına insanları hidayətə yönəltmək, onları zülmətdən nura çıxartmaq üçün endirmiş olduğuna iman gətirməliyik. ***«Əlif, Ləm, Ra! Bu Quran elə bir kitabdır ki, onu sənə insanları öz Rəbbinin izni ilə zülmətdən nura, həm də yenilməz qüvvət sahibi və hər cür tərifə, şükrə layiq olan Allahın yoluna*** *(İslam dininə)* ***çıxartmaq üçün nazil etmişik».*** *(İbrahim 1).*

Bu kitablardan bəziləri Allahdan, arada elçi, mələk olmadan pərdə arxasından endirilmiş, kimisini də mələk olan elçi, insan olan elçiyə təbliğ etmiş, kimisini də Allah öz əli ilə yazmışdı. ***«Allah onlarla ancaq vəhylə, yaxud*** *(Musa ilə)* ***pərdə arxasından danışar və ya bir elçi*** *(mələk)* ***göndərər, o da Allahın izni ilə Allahın istədiyini vəhy edər».*** *(əş-Şura 51).* ***«Allah Musa ilə sözlə*** *(arada heç bir vasitə olmadan)* ***danışdı».*** *(ən-Nisa 164).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sənin üçün lövhələrdə hər şeyi çəkdi və sənin üçün Tövratı öz əli ilə yazdı»[89].

Qurana iman etməyə gəlincə, bu da onu iqrar və qəbul etmək, içindəki hökmlərə tabe olmaqdır. Qurandan başqa Allah digər kitabları qorumaq üçün insanların öhdəliyinə buraxmışdı. Lakin onlar bu kitabları qoruya bilmədilər. Onlara haqqıyla riayət etmədilər, kitablarda bir çox dəyişikliklər və yeniliklər etdilər. ***«Halbuki*** *(Musa dövründə)* ***olanların içərsində elələri vardır ki, Allahın kəlamını*** *(Tövratı)* ***dinləyib anladıqdan sonra, onu bilə-bilə təhrif edirdilər».*** *(əl-Bəqərə 75).*

Buna görə də bütün kitablar Qurani Kərimin endirilməsi ilə nəsx[90] edilmiş oldular. Digər tərəfdən əvvəlki kitabların qorunması insanlara həvalə edilmişdisə, Qurani Kərimin qorunmasını isə Allah öz üzərinə götürmüşdür. Bu kitab nə nəsx edilir, nə də dəyişdirilir. Allah dünyadan qaldırdığı günə qədər onu hər cür dəyişikliklərdən, batildən qoruyur. ***«Şübhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, biz də onu*** *(hər cür təhrif, artırıb-əskiltmədən)* ***qoruyub saxlayacağıq».*** *(əl-Hicr 9).* ***«Nə öncə, nə də sonra batil ona yol tapa bilməz. O, hikmət sahibi və şükrə tərifə layiq Allah tərəfindən endirilmişdi».*** *(Fussilət 42).* ***«Onlar Quran***

---

[89] Buxari, Müslim.
[90] ***Nəsx*** – lüğətdə nəql etmək, axtarmaq deməkdir. ***İstilahi Mənası*** – şəri bir dəlilin hökmünü yaxud da ləfzini Kitab və Sünnətdən bir dəlil ilə qaldırmaq deməkdir. Hökmü qaldırmaq. «Usuli Fikh» şeyx Useymin.

barəsində düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə onda çoxlu ziddiyyət tapardılar». *(ən-Nisa 82).* ***«Yoxsa onu*** *(Peyğəmbər)* ***özündən uydurdu! – deyirlər. Əgər doğru deyirsinizsə ona*** *(Qurana)* ***bənzər bir surə gətirin…».*** *(Yunus 38).* ***«De ki: «Əgər insanlar və Cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər».*** *(əl-İsra 88).* ***«Yoxsa müşriklər: «Quranı özündən uydurdu!» – deyirlər. Onlara de ki: «Əgər doğru deyirsinizsə onun kimi özünüzdən on surə uydurub gətirin və*** *(bu işdə)* ***Allahdan başqa kimi bacarırsınızsa köməyə çağırın».*** *(Hud 13).* ***«Əgər doğru deyirlərsə qoy onlar Quran kimi bir kəlam gətirsinlər».*** *(ət-Tur 34).*

Bu baxımdan da hər bir kəs Qurani Kərimin hökmlərinə tabe olmalı, boyun əyməli və ona iman etməlidir. Çünki bu kitab özündən əvvəlki kitabları doğrulayan, onlarda olan dəyişiklikləri və təhrifləri bəyan edən bir kitabdır. ***«Biz sənə Quranı haqq olaraq, özündən əvvəlki kitabı*** *(bütün ilahi kitabları)* ***təsdiq edən və onu qoruyan*** *(və ya onların doğruluğuna şahid)* ***kimi endirdik.*** *(əl-Maidə 48).* ***«And olsun ki, Biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan varmı!».*** *(Qəmər 40).* ***«Quran uydurma bir söz deyildir. Ancaq özündən əvvəlki*** *(ilahi kitabların)* ***təsdiqi****, (Allahın bəndələrindən ötrü)* ***hər bir şeyin*** *(bütün hökümlərin, halal-haramın)* ***müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir».*** *(Yusif 111).* Təfsir alimləri qeyd edirlər ki, ***Muheymin*** – ləfzi özündən əvvəlki kitablara qarşı bir şahid və onları doğrulayan mənasındadır. Yəni Qurani Kərim bu kitablarda olan doğru xəbərləri təsdiq edərkən, bu kitablarda ortaya çıxan təhrifləri, dəyişiklikləri qəbul etməz. Ömər - *radıyallahu anhu* – deyir ki, mən Tövratın bir neçə hissəsini tapmışdım və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə orada yazılan hökmləi göstərdim. Onun mənim bu əməlimdən bərk qəzəbləndiyini gördükdə qorxuya düşdüm ki, nə isə deyər və dərhal dedim: «Rəbb olaraq Allahdan, din olaraq İslamdan, Nəbi olaraq Muhəmməd – *sallallahu aleyhi və səlləm* – dən razı oldum» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Vallahi Musa – *əleyhissəlam* – sağ olsaydı o, da mənim dinimə tabe olardı»[91].

Bəs biz müsəlmanlar, başqa kitablarda olan məlumatlara neçə münasibət bəsləməliyik.

1. Quran və Sünnəyə uyğun gələni qəbul edir.

2. Quran və Sünnəyə zidd olanları inkar edir.

[91] Buxari.

3. Nə ziddir, nə də uyğun – bunları da nə inkar edir, nə də təsdiq edirik. Bunlar İsrailiyyat adlanır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Məndən heç olmasa bir ayə belə insanlara çatdırın. Yəhudilərdən də danışın və bunda heç bir günah yoxdur. Kim bilə-bilə mənim adımdan yalan danışsa keçib Cəhənnəmdə yerini tutsun»[92].

Qurani Kərim aləmlərin Rəbbinin kəlamı, onun kitabı, səmavi kitabların sonuncusu və sağlam ipidir. Allah onu Abdullahın oğlu Muhəmmədə insanları zülmətdən nura çıxartmaq, doğru yola və Sıratal-Mustəqimə yonəltmək üçün endirmişdi. Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bütün insanlara və bütün cinlərə onlara endirilmişi açıqlasın deyə göndərilmişdir. ***«Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən və bəlkə onlar da düşünüb dərk edərlər».*** *(ən-Nəhl 44).* ***«Biz Quranı sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik».*** *(ən-Nəhl 89).*

Qurani Kərim Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə bir başa endirilməmişdir. İyirmi üç il ərzində hisə-hissə endirilmişdi. ***«Biz Quranı haqq olaraq nazil etdik, o, da haqq olaraq*** *(həç bir dəyişikliyə uğramadan)* ***nazil oldu. İnsanlara aramla, yavaş-yavaş oxuyasan deyə, biz Quranı hissələrə ayırıb*** *(ayə-ayə, surə-surə)* ***göndərdik».*** *(əl-İsra 106).*

Qurani Kərimdə **114** surə vardır. Bunlardan **87**-si Məkkədə, **27**-si isə Mədinədə nazil edilmişdi. Məkkədə nazil olan surələrə Məkkə surələri, Mədinədə nazil olan surələr isə Mədinə surələri adlanır. Ümumi olaraq **114** surə, **6236** ayə vardır. ***Quran*** **–** qiraət etmək, oxumaq deməkdir. ***Kərim*** **–** Allahın bizə məlum olan **99**-z adından biridir. Səxavətli, kəramətli deməkdir. ***Ayə*** – açıq əlamət, dəlil, işarə, ibrət deməkdir. İlk nazil olan ayə əl-Ələq surəsini ilk **5** ayəsidir. ***Surə*** – yüksək rütbə, şərəf deməkdir.

Qurani Kərimdə ayələr üç qismə bölünür.

1. ***Xəbərlər*** (yəni hekayələr).

2. ***Hökmlər*** (şəriət qaydaları).

3. ***Əqidə*** (Tövhid).

Hər bir müsəlmanın üzərində Allahın haqqıdır ki, Qurani Kərimi öyrənsin, öyrəndikdən sonra başqalarına öyrətsin və ona səmimi qəlbdən sarılsın. ***«Bu nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun ki, bəlkə sizə rəhm olunsun».*** *(əl-Ənam 155).* ***«Rəbbinizdən sizə nazil edilən Qurana tabe olun. Allahı qoyub başqa havadarlara uymayın. Siz öyüd-nəsihətə olduqca az qulaq asırsınız».*** *(əl-Əraf 3).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın kitabını götürün və ona səmimi

[92] Buxari.

qəlbdən sarılın»[93]. Osman - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizin ən xeyirliniz Quranı öyrənən və onu öyrədəndir»[94].

Qurani Kərimə səmimi qəlbdən sarılmaq nə deməkdir?

Kitabı əzbərləmək, oxumaq, gecə-gündüz namazlarda oxumaq, ayələri üzərində düşünmək, halalı halal, haramı haram qəbul etmək, əmrlərinə bağlanmaq, qadağalarından uzaq durmaq, verdiyi nəsihətlərdən ibrət almaq, buyurduqlarına əməl etmək, mütəşabih[95] buyurduqlarına təslimiyyət göstərmək, onun hüdudlarını aşmamaq, bu kitaba nəsihətçi olmaq[96] (buyurduqlarını səmimiyyətlə yerinə yetirmək) və ona dəvət etməkdir. Buna görə də Əhli Sünnə vəl Cəmaat Qurani Kərimin hərf və mənaları ilə Allahın kəlamı olduğuna, ondan gəlib ona dönəcəyinə, Allah tərəfindən endirilmiş olub, məxluq olmadığına, Allahın kəlamı olduğuna iman edirlər. Bu kitab sonsuz hikmət sahibi (***Hakim***) hər şeydən xəbərdar (***Xabir***) olan Allah tərəfindən endirilmişdir.

QURAN ALLAHIN KƏLAMIDIR

Quran hərfləri və mənaları etibarı ilə Allahın kəlamıdır. Allah Qurani Kərimi söz ilə söyləmiş, Cəbrail – *əleyhissəlam* – onu Allahdan eşitmiş və onu vəhy yolu ilə Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* – ə endirmiş, möminlər də ona iman gətirmişlər. Ondan başlamış və Ona da dönəcəkdir. Qurani Kərim hər nə qədər əllərlə yazılırsa yazılsın, dillərlə oxunursa oxunsun, qəlblərdə əzbərlənirsə əzbərlənsin, qulaqlarda dinlənilirsə dinlənsin, gözlər onu görsə də bu hallar onu Rahmən olan Allahın kəlamı olmasından çıxarmaz. Əllər, mürəkkəblər, qələmlər, vərəqlər yaradılmışdır, lakin yazdıqları Quran məxluq deyildir. Dillər, səslər yaradılmışdır, lakin oxuduqları Quran məxluq deyildir. Qəlblər, hafizələr yaradılmışdır, lakin əzbərlənən, hafizələrdə olan Quran məxluq deyildir. Eşidən qulaqlar yaradılmışdır, lakin bu qulaqların duyduqları Quran məxluq deyildir. ***«Çox qiymətli Qurandır. O,*** *(Allah dərgahında)* ***qorunub-saxlanılan bir kitabdır».*** *(əl-Vaqiə 77-78).* ***«Xeyr, bu Quran elm verilmiş kəslərin sinələrində*** *(əzbər)* ***olan açıq-aydın ayələrdir».*** *(əl-Ənkəbut 49).* ***«Onun sözlərini heç kəs dəyişdirə bilməz».*** *(əl-Kəhf 27).* ***«Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah***

---

[93] Müslim, İmam Darimi 2/310, Musnəd 4/367.
[94] Buxari.
[95] ***Mütəşabih*** – dəqiq mənasını bilmək mümkün olmayan Quran ayələri.
[96] Əbu Ruqayyə Təmim b. Əus əd-Dari - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Din nəsihətdir». Kimə? (Ya Rəsulallah!) deyə soruşduq. «Allaha, kitabına, Rəsuluna, müsəlmanların rəhbərlərinə və bütün müsəlmanlara». Müslim.

kəlamını dinləsin». *(ət-Tövbə 6).* ***«Bu yalnız bəşər sözüdür. Biz onu*** *(Cəhənnəmin təbəqələrindən biri olan)* ***Səqərə atacağıq».*** *(əl-Muddəssir 25-26).* Cabir b. Abdullah - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Məkkədə Həcc mövsümündə insanlara buyurdu: «Rəbbimin kəlamını (sözünü) söyləmək üçün məni öz qövmünə götürəcək bir adam yoxdur mu? Çünki Qureyş Rəbbimin kəlamını söyləməyi qarşısını aldı»[97]. Bəra b. Azim - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Yatağa uzandıqda namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ tərəfin üstə uzanıb de: ***Allahummə, Əsləmtu Nəfsiy İleykə, Və Fəvvədtu Əmriy İleykə, Və Vəccəhtu Vachiy İleykə, Və Əlcə'tu Zahriy İleykə, Rağbətən Və Rahmətən İleyk. Lə Məlcə'ə Və Lə Məncəə Minkə İllə İleyk. Aməntu Bikitabikəlləzi Ənzəltə Və Binəbiyyikəlləzi Ərsəltə*** **-** Allahım! Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!»[98]. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: "Bizim Qurani Kərimi tələffüzümüz yaradılmışdır, lakin Quran yaradılmış deyildir"[99]. "Mürəkkəb, kağız və yazıların hamısı yaradılmışdır. Çünki bunlar Qulların felləridir. Lakin Allahın kəlamı yaradılmış deyildir"[100].

Allah Qurana bəşər sözüdür deyənləri Cəhənnəm əzabı ilə qorxutmuşdur. İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: "Kim mənin Quranı tələffüz etməyim yaradılmışdır deyərsə və bununla Quranı qəsd edərsə o, Cəhmidir"[101]. Əgər öz tələffüzünü qəsd edərdisə - Cəhmi olmazdı. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Kim Quranı eşidir və onun bəşər (insan) sözü olduğuna inanırsa o, kafir olmuşdur. Allah beləsini qınamış, ayıblamış və: ***«Biz onu*** *(Cəhənnəmin təbəqələrindən biri olan)* ***Səqərə atacağıq».*** *(əl-Muddəssir 25-26)* deyə buyurmuşdu. Allah Quran üçün: ***«Bu yalnız bəşər sözüdür».*** *(əl-*

---

[97] Əhməd 3/222,339, Əbu Davud 4734, Darimi 3354, Həkim 4220, Tirmizi 2925, İbn Məcə 201, əl-Albani "Səhih Sünən Tirmizi" 2925, "Səhih Sünən İbn Məcə" 167, «Səhih Hədislər Silsiləsi» 1947, «Fikhus Sirə» s. 114.

[98] Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – demişdir: «Əgər bunu deyib ölsən, fitrət üzərində (heç bir günahı olmadan, anadan doğulmuş uşaq kimi) ölmüş olarsan». Buxari 6311,6313,7488, Müslim 2710, Əbu Davud 5046, Tirmizi 3394, İbn Məcə 3876, Darimi 2683, əl-Albni "Kəlimatu Tayyib" 34, "Mişkət" 2385, "Riyadus Salihin" 1470.

[99] "Fikhul Əkbər" s. 58.

[100] "əl-Vasiyyə" 74.

[101] Əhməd "Sünnə" 131,175, əl-Həllal "Sünnə" 1783,1790, Lələkai 602, Beyhəqi "Əsmə" s. 264, 1/406, "Səhih".

Muddəssir 25-26) deyəni Cəhənnəm əzabı ilə cəzalandıracağını buyurduqda biz bilmiş və kəsin olaraq başa düşürük ki, Quran bəşərin yaradıcısının sözüdür və əsla insan sözünə bənzəməz»[102]. ***Vakifə*** – deyə bilinən bir cərəyan da vardır ki, onlar deyirlər: «Biz o, Allahın kəlamıdı da demirik. Həmçinin də məxluq olduğunu da söyləmirik». İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Bu elmi bilməyib cəhalətindən söyləyərsə ona qarşı dəlillər verərik. Əgər tövbə edib onun Uca Allahın yaradılmamış kəlamı olduğuna iman edərsə məsələ yox. Əksitəqdirdə belə bir kimsə Cəhmiyyədən də pisdir».

Qurani Kərimin yaradılmamış olduğunun dəlilləri bunlardır: ***«…Günəşi, ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür!».*** *(əl-Əraf 54).* ***«Əvvəl də, sonunda da əmr Allahındır».*** *(ər-Rum 4).*

Diqqət ediləcək olursa Allah bu iki ayədə yaratmaqla əmr etməyi bir-birindən ayırmış və əmr etmənin yaratmaqdan ayrı bir şey olduğunu bildirmişdir. Çünki Allah Qurani Kərimdə bir şeyi yaratmaq və ya həlak etmək istədikdə bunu əmriylə etdiyini xəbər vermişdir. Əmr isə onun kəlamından başqa bir şey deyildir. ***«Göyün və yerin Onun əmrində durması…».*** *(ər-Rum 25).* ***«Bir şeyi yaratmaq istədiyi zaman Allahın əmri ona ancaq «OL» deməkdir. O, da dərhal olar».*** *(Yasin 82).* ***«O,*** *(külək)* ***Rəbbinin əmri ilə hər şeyi məhv edər!».****(əl-Əhqaf 25).* Bütün bu ayələr əmrin yaratmaqdan ayrı bir şey olduğunu, əmrin əvvəli və sonu olmayan Allaha aid olduğunu, onunla dilədiyi zaman dilədiyi şeyi yaradıb, dilədiyi zaman dilədiyi şeyi yox etdiyini açıqca göstərməkdədir. Həmçinin Allah Quranın da əmrindən olduğunu bizə xəbər verməkdədir. ***«Və onlara*** *(israil oğullarına)* ***əmrdən açıq-aşkar dəlillər vermişdik…. Sonra*** *(Ya Muhəmməd!)* ***səni də əmrdən şəriət sahibi etdik. Sən o, şəriətə tabe ol və*** *(haqqı)* ***bilməyənlərin nəfslərindən gələn istəklərə uyma!».*** *(əl-Casiyə 17-18).* ***«Bu Allahın sizə nazil etdiyi əmridir*** *(buyuruğdur)****».*** *(ət-Talaq 5).* ***«****(Ya Rəsulum! Əvvəlki Peyğəmbərlərə vəhy nazil etdiyimiz kimi)* ***sənə də beləcə əmrimizdən olan bir vəhy*** *(Quranı)* ***göndərdik…».*** *(əş-Şura 52).* Son ayədə Allah Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə vəhy edilən şeyin Quran olduğunu söyləməkdədir. Əgər Quran yaradılmış olsaydı, vəhy edilməsi doğru olmazdı. O, halda əgər Quran vəhy olunursa deməli yaradılmamışdır. Çünki Quranla danışan Allahın özüdür. Quran Allahın kəlamıdır. Kəlam isə başlı-başına baxımsız bir şey deyildir ki, Allahdan ayrı olsun. Əgər başlı-başına baxımsız bir şey olsaydı biz ona

[102] «Əqidətul Təhaviyyə» əl-Albani təhqiqi ilə s. 168.

yaradılmış deyərdik. Lakin kəlam onunla danışanın bir sifətidir. Çünki Allahın sifətlərindən heç biri yaradılmamışdır.

Möminlər, Quranın bəşər sözü kimi yaradılmamış olduğuna kəsinliklə iman edirlər. Onun sözü əlbəttə ki, insanların sözünə bənzəməz. Nəcə ki, Allahın zatı qulların zatlarına bənzəmədiyi kimi, sifətləri də qulların sifətlərinə bənzəməz. Məs: Bir kimsə Quran oxuyarkən ***Əlhəmdulilləhi Rabbil Aləmin*** **–** deyərsə, ondan eşidilən bu söz Allahın kəlamıdır. O, kimsənin sözü deyildir. Onu oxuyan şəxs isə Allahın səsi ilə deyil öz səsi ilə oxumuş olur. O, özü yaradılmış olduğu üçün, səsi də yaradılmışdır (məxluqdur). İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Quran qulların kəlamı kimi yaradılmış deyildir»[103].

Quran və ya Quranın bir hissəsi məxluqdur deyən bir kimsə, insanı İslamdan bütünlüklə çıxardan ən böyük küfr etməklə kafir olur. Çünki Quran Allahın kəlamıdır, ondan gəlmiş və ona da dönəcəkdir. ***«Siz kitabın bir hissəsinə inanır, digər həssəsini isə inkar edirsiniz».*** *(əl-Bəqərə 85).*

Allah istədiyi təqdirdə, istədiyi zaman, istədiyi şəkildə, istədiyi kimsələrlə onların başa düşdükləri şəkildə bir kəlam ilə danışır. ***«Əgər Rəbbinin sözlərini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o, qədər ona əlavə olunsaydı yenə də Rəbbinin sözləri tükənməzdən əvvəl onlar tükənərdi».*** *(əl-Kəhf 109).* ***«Əgər yerdə hər bir ağac qələm olsaydı və dəryalar mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı yenə də Rəbbinin sözləri tükənməzdi. Həqiqətən Allah yenilməz qüvvət və hikmət sahibidir».*** *(Loğman 27).* ***«Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur».*** *(əl-Ənam 115).*

Bəzi İslam alimlərinin Quran haqqında sözləri:

Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Allah öz kəlamı ilə danışır. Kəlam onun əzəli sifətidir»[104]. «Quran məxluq deyildir»[105]. «Quran Allahın Kəlamı olub, müshaflarda yazılmış, qəlblərdə (zehinlər-də) hifz edilmiş, dillərdə oxunmuş və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə enmişdir»[106]. «Allahın kəlamı yaradılmış deyildir. Fəqət Musa və digər yaradılmışların kəlamı yaradılmışdır. Quran isə Allahın kəlamı olub əbədi və əzəlidir. Onların (yaradılmışların) sözləri deyildir»[107]. «Hər kim Allahın kəlamının yaradılmış olduğunu söyləyərsə o, Allahı inkar etmiş olur»[108]. "Allahın kəlamı Ondan ayılmadan oxunan, yazılan və hifz

---

[103] «Əqidətul Təhaviyyə» əl-Albani təhqiqi ilə s. 168.
[104] «Fiqhul Əkbər» s. 301.
[105] «Fiqhul Əkbər» s. 301.
[106] «Fiqhul Əkbər» s. 58.
[107] «Fiqhul Əkbər» s. 58.
[108] «əl-Vasiyyə» s. 74.

olunandır"[109]. "Kuran Allahı kəlamıdır və Ondan necə olduğu bilinmədən söz olaraq çıxmış, Allah bunu Peyğəmbərinə vəhy etmiş, möminlər də bu minval üzərə onun haqq olduğunu təsdiq etmişlər və Quranın həqiqətən də Allahın həqiqi kəlamı olduğuna tam bir yəqinliklə inanmışlar"[110]. İbn Abdul Bər Abdullah b. Nafin – *rahmətullahi aleyhi* – rəvayət edir: «Məlik b. Ənəs – *rahmətullahi aleyhi* – deyirdi ki: «Kim Quran yaradılmışdır desə döyülür, tövbə edənə qədər həbs edilməlidir»[111]. «Ey Abdulah dedi: «Quran məxluqdur deyən bir kimsə haqqında nə deyirsən?». Məlik: «O, bir zındıqdır, onu öldürün» deyə cavab verdi[112]. Laləkai, Rəbi b. Süleymandan rəvayət edir ki, Şafii – *rahmətullahi aleyhi* – deyir: «Kim Quran yaradılmışdır deyərsə kafirdir»[113]. Laləkai, Məlik b. əl-Attardan rəvayət edir ki, Əhməd b. Hənbəl – *rahmətullahi aleyhi* – deyir: «Quran Allah kəlamıdır, məxluq deyildir. Allahın kəlamı Ondandır və Ondan olan heç bir şey məxluq deyildir»[114]. Amr b. Dinar – *rahmətullahi aleyhi* – deyir: «Yetmiş ildən bəri yaşadığım insanlardan yalnız bunu eşidərdim: «Allah yaradandır, Ondan başqa hər şey yaradılmışdır. Bundan yalnız Quran xaricdir. Çünki Quran Allahın kəlamı olub yaradılmamışdır. Ondan başlamış və Ona da dönəcəkdir»[115].

«O, Quran ondan başlamış və ona da dönəcəkdir» sözlərinə gəlincə, buradakı gəliş ***əl-Bəd*** – başlamaqdan törənmişdir. Ondan başlamışdır sözünün mənası isə onu ilk dəfə kəlam olaraq söyləyən Allahdır. Yəni onunla ilk və başlanğıc olaraq danışan Odur. «Ona dönəcəkdir» sözünün mənası isə: «Quranla danışmaq sifəti Allaha dönər. Çünki Quranla danışan Allahdır. Danışmaq da danışanın bir sifətidir» deməkdir. Sonda isə müshaflardan, hafizələrdən qaldırılacağı vaxt – axır zamanda ona dönəcəkdir. Xuzeyfə b. Yəmən - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü İslam paltarın naxışları silinib yox olduğu kimi silinib yox olacaqdır. Belə ki, (yer üzündə) nə orucun, nə namazın, nə həccin, nə də sədəqənin nə olduğu bilməyəcəklər. Allah bir gecədə Quranı qaldıracaq və yer üzündə ondan bir ayə belə qalmayacaqdır. O, zaman insanlardan yaşlılar və böyüklər

---

[109] əl-Vasiyyə s. 74.
[110] əl-Albani "Şərh Əqidətul Təhaviyyə" s. 168.
[111] «əl-İntiqa» s. 35.
[112] «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/249, Hiylə 6/325.
[113] «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/252.
[114] «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/157.
[115] Buxari «Xaliqu Əfəlil İbad» 1, «Tarihul Kəbir» 2/338, Beyhəqi «Sunnənul Kubra» 10/205, İbn Teymiyyə «Minhəc Sünnə» 2/253, İbn Batt «əl-İbanə» 2/548.

qalacaqlar və deyəcəklər: «Biz babalarımızın bu kəlməni: «***Lə İləhə İlləllah***» - söylədiklərini eşitdik. Buna görə də biz də onu söyləyirik»[116].

KİTABLARA İMANIN FAYDALARI

1. Bu kitabların həqiqətən Allahdan endirilmiş olduqlarına iman etmək.

2. Adlarını bildiklərimiz kitablara adla iman etmək, adlarını bilmədiyimiz kitablara da icma ilə iman etmək.

3. Bu kitabların səhih olan xəbərlərini təsdiq etmək. Quranın xəbərlərini və əvvəlki kitabların dəyişdirilməyən və ya təhrif edilməyən xəbərlərini qəbul etmək.

4. Nəsx olunmamış hökmləriylə əməl edib, hikmətini istər qavramış olsun, istər qavramamış olsun bunlara təslimiyyət göstərmək.

5. Hər bir qövmə onları hidayətə yönəltmək üçün kitab endirmiş olduğu üçün Allahın nemətini bilmək.

6. Allahın şəriətindəki hikmətləri bilmək. Çünki Allah hər bir qövmə onların durumlarına uyğun şəriətlər göndərmişdir.

7. Buna görə Allahın bu nemətinə şükr etmək.

PEYĞƏMBƏRLƏRƏ İMAN

Rəsul – Peyğəmbər kəlməsi ***Rəsulun*** – göndərilən deməkdir. Bu da bir işi təbliğ etmək üçün göndərilən kimsə mənasına gəlir. Burada qəsd Allahın insanlar arasında şəriət vəhy edib, o şəriəti təbliğ etməsini əmr etdiyi kimsədir.

Göndərilmiş bütün Peyğəmbərlər yalnız kişilərdən ibarət olub. ***«Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz ancaq kişi peyğəmbərlər göndərmişdik».*** *(ən-Nəhl 43).*

Rəsulların ilki Nuh – *ələhissəlam -,* sonuncusu da Muhəmməd – *sallallahu aleyhi və səlləm* – dir. ***«Biz Nuha və ondan sonrakı Peyğəmbərlərə vəhy göndərdiyimiz kimi sənə də vəhy göndərdik».*** *(ən-Nisa 163).* Ənəs b. Məlik - *radıyallahu anhu* – nun rəvayət etdiyi şəfaət hədisində Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – insanların Adəm – *ələhissəlam* – ın yanına şəfaət etmək üçün getmələri, o da: «Nuh – *ələhissəlam* – ın yanına gedin o, Allahın göndərdiyi ilk rəsuldur»[117] - deməsi də buna dəlildir. Muhəmməd – *sallallahu aleyhi və səlləm* – haqqında: ***«Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və Peyğəmbərlərin sonuncusudur».*** *(əl-Əhzab*

---
[116] İbn Məcə 4049, Həkim 8460, 8646, İbn Həcər «Fəthul Bəri» 13/16, əl-Albani «Səhih Hədislər Silsiləsi» 87, «Səhih Cəmius Səği» 8077.
[117] Buxari.

40). O, halda Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən sonra heç bir peyğəmbər gəlməyəcəkdir. Məryəm oğlu İsa, axır zamanda enəcəkdir və o, bir rəsuldur deyiləcək olursa cavabımız belədir: Bu doğrudur. Lakin o, özündən əvvəlki şəriətləri təzələyən bir Rəsul olaraq enməyəcəkdir. O, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in şəriəti ilə hökm edən birisi olaraq enəcəkdir. ***«O, vaxtı yadınıza salın ki, Allah peyğəmbərlərdən sizə verdiyim Kitab və hikmətdən sonra sizdə olanı təsdiq edən bir Peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz deyə əhd almış və onlara: «Bunu təsdiq edib ağır olan əhdimi qəbul etdinizmi?» demişdi. Onlar da: «Təsdiq etdik!» deyə cavabn vermişdilər. Allah: «Elə isə şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm deyə buyurmuşdu».*** *(Ali İmran 81).* Çünki istər İsa – *əlehissəlam* –, istərsə digər Peyğəmbərlərə düşən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə iman etmək, ona uymaq və ona yardımçı olmaqdır.

Elm əhlinin söylədiklərinə görə Rəsul (Elçi) ilə Nəbi (Peyğəmbər) arasında fərq budur: «***<u>Nəbi</u>*** **–** şəriət vəhy edilməklə birlikdə o, şəriəti təbliğ etmə əmri verilməyəndir. ***<u>Rəsul</u>*** **–** Allahın şəriət vəhy etdiyi və onu təbliğ etməsini, gərəyincə əməl etməsini əmr etdiyi kimsədir. Buna görə də hər rəsul bir nəbidir, lakin hər nəbi rəsul deyildir».

Əhli Sünnə vəl Cəmaat Allahın qullarını müjdələyən, insanları hidayətə yönəldən və zülmətdən nura çıxartmaq üçün haqq dinə dəvət edən, rəsullar, peyğəmbərlər göndərildiyinə inanırlar. Onlardan birini inkar edən Allahı və bütün Peyğəmbərləri inkar etmiş olur. ***«Allahı və Peyğəmbərlərini inkar edənlər, Allahı Peyğəmbərindən ayırmaq istəyənlər: «Biz peyğəmbrlərdən bəzisinə inanır, bəzilərinə isə inanmırıq» deyənlər və bunun arasında bir yol tapmaq istəyənlər bütün bunlar həqiqətən kafirlərdir. Biz kafirlərdən ötrü rüsvayedici əzab hazırlamışıq. Lakin Allaha və Peyğəmbərinə iman gətirən və onların heç birini digərindən ayırmayan şəxslərə Allah öz mükafatlarını verəcəkdir. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir».*** *(ən-Nisa 150-152).*

<u>Nə Üçün Allah Peyğəmbərlər Göndərib</u>?

1. Hər hansı bir qövmə Peyğəmbər gəlmədiyi üçün Allah ora Peyğəmbər göndərib.

2. Ola bilər ki, bir qövmə Peyğəmbər göndərilib, lakin gətirdiyi şəriət dəyişildiyinə görə yeni Peyğəmbər göndərilib.

3. Hər hansı bir qövmə Peyğəmbər göndərilib, şəriət olduğu kimi qalıb, lakin sonrakı zamana uyğun olsun deyə, yeni hökmlərə ehtiyac olduğu üçün Peyğəmbər göndərilib.

4. Hər hansı bir Peyğəmbərin dediklərini təsdiq etmək üçün, kömək olsun deyə Peyğəmbər göndərilib.

Allah hər ümmətə onların içərsindən onları bir və tək olan Allaha ibadət etməyə və ondan başqa ibadət olunan bütün varlılıqları rəd və inkar etməyə çağıran Peyğəmbərlər göndərdiyinə inanmaqdır. Allah hər ümmətə şəriət ilə bir Peyğəmbər göndərmədiyi və ya ondan əvvəlki Peyğəmbərlərin şəriətini yeniləmək (təzələmək) üçün vəhy etdiyi bir Peyğəmbər (nəbi) göndərilməmiş heç bir ümmət yoxdur. ***Biz hər ümmətə: «Allaha ibadət edin və tağutdan çəkinin» deyə Peyğəmbər göndərmişdik».*** *(ən-Nəhl 36).* ***«Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan bir peyğəmbər gəlib getməsin».*** *(Fatir 24).*

Onların çağırışları ümmətləri şirk və bütpərəstlikdən qurtarmaq, insanları çirkin və fahiş işlərdən çəkindirmək üçündür. Onlar risalətlərini təbliğ etdilər, üzərilərindəki əmanəti əskiksiz yerinə yetirdilər, ümmətlərinə səmimiyyətlə öyüd-nəsihət verdilər. Allah yolunda layiqli cihad etdilər. Rəbləri tərəfindən dəstəklənmiş oldular. ***«Allah mələklərdən elçilər seçdiyi kimi insanlardan da seçər».*** *(əl-Həcc 75).*

Heç bir şeyi gizlətməyib, hər hansı bir dəyişiklik etmədiklərinə, özlərindən ora nə bir hərf artırıb, nə də bir hərf əskiltmədiklərinə inanmaqdır. ***«Peyğəmbərlərin vəzifəsi isə yalnız açıq-aşkar bir təbliğdir».*** *(ən-Nəhl 35).*

Allah o, şərəfli Rəsulların göndərməsində hikməti: ***«Biz Peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün Peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət və bilik sahibidir».*** *(ən-Nisa 165).*

Rəsullar da yaradılmış insanlardır. Rububiyyət və Uluhiyyət xüsusiyətlərindən heç birisinə sahib deyillər. Onlar Allahın istədiyindən artıq nə özlərinə, nə də hər hansı bir kimsəyə nə fayda, nə də zərər vermək gücünə malikdirlər. ***De ki: «Mən sizə demirəm ki, məim yanımda Allahın xəzinələri vardır. Mən qeybi də bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən özümə gələn vəhyə tabe oluram». De ki: «Kor görənlə bir olurmu? Məgər düşünmürsünüz!».*** *(əl-Ənam 50).* ***«Peyğəmbərləri onlara cavab olaraq demişdilər: «Biz də sizin kimi adi bir insanıq. Lakin Allah öz bəndələrindən dilədiyinə nemət bəxş edər. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik».*** *(İbrahim 11).* ***«De ki: «Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız tək olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümüd bəsləyirsə yaxşı iş görsün və rəbbinə etdiyi ibadətdə heç kəsi şərik qoşmasın»*** *(Kəhf 110).*

Onlara əmr edilən şeylərə uyan bir əmirdirlər. ***De ki: «Mən sizə nə bir zərər, nə də bir xeyir vermək qüdrətinə malik deyiləm!» De ki: «Məni Allahdan heç kəs qurtara bilməz və mən ondan başqa heç bir sığınacaq tapa bilmərəm!»*** *(əl-Cinn 21-22).* ***De ki: «Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki,*** *(özüm üçün)* ***daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı qorxudan və müjdələyənəm»*** *(əl-Əraf 188).*

Xəstəlik, ölüm, yemək və içmək kimi şeylərə ehtiyac duyduqları və s. buna bənzər özəlliklər onlar haqqında da söz edilməkdədir. ***«Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də içirdəndə Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına ümüd etdiyim də Odur!».*** *(əş-Şuəra 78-82).* Həmçinin Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Əgər sənə desələr Muhəmməd sabah nə olacağını bilir, inanma»[118]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən ancaq sizin kimi bir insanam. Unutduğunuz kimi unuduram. Unutduğum zaman yadıma salın»[119].

Əhli Sünnə əqidəsinə görə Peyğəmbərlər məsumdurlar (yəni onlar: Şirk. Küfr və s. kimi böyük günahlardan uzaqdırlar). Lakin onların kiçik xətaları olmuşdur: Məs: ***Adəm*** – *əlehissəlam* – ın Allahın qadağan etdiyi ağacdan yeməsi: ***«****(Adəm və Həvva)* ***Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və mərhəmət etməsən. Biz şübhəsiz ki, ziyana uğrayanlardan olarıq».*** *(əl-Əhqaf 23).* (Buxari, Müslim şəfaət hədisi), ***Nuh*** – *əlehissəlam* – ın öz oğlu üçün bağışlanma diləməsi (Buxari, Müslim şəfaət hədisi), ***İbrahim*** – *əlehissəlam* – ın öz atası üçün bağışlanma diləməsi və üç dəfə yalan danışması (Buxari, Müslim şəfaət hədisi), ***Musa*** – *əlehissəlam* – ın Qibtini öldürməsi (əl-Qəsəs 18-ci ayəsinə bax), ***Muhəmməd***[120] – *sallallahu aleyhi və səlləm* – in yanına gələn kor Ummu Məktub - *radıyallahu anhu* – dan üzünü çevirməsi (Əbəsə surəsinə bax), namaz rükətlərinin sayının azaldıb, çoxaltması. Sübh namazının yatıb qalmaları (Buxari, Müslim namaz bölümü, səhv səcdələri), balı özünə haram etdiyinə (başqa rəvayətdə: Mariya - *radıyallahu anhə* – nin yanına getmədiyi üçün ət-Təhrim 1-ci ayəsinə

---

[118] Buxari.
[119] Buxari, Müslim.
[120] ***Muhəmməd*** – adı Qurani Kərimdə dörd dəfə çəkilibdir: Ali İmran 144, əl-Əhzəb 40, əl-Fəth 29, Muhəmməd 2.

bax). Kiçik xətalar Peyğəmbərlər tərəfindən olub və bu əməldən sonra dərhal tövbə ediblər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bu xətaları etməsində bir hikmət vardır. Çünki bu xətalardan dərhal sonra nə etmək lazım olduğunu o, ümmətinə bildirmişdir. Artıq bununla biz bu kimi xətalardan sonra nə edəcəyimizi bilirik.

Allah onları insanlar arasında ən şərəfli, hörmətli, olduqlarını qeyd etməklə yanaşı onların bütün yaradılmışlar kimi Allahın qulu olduqlarını da qeyd edir. ***«Həqiqətən Nuh çox şükr edən qul idi».*** *(əl-İsra 4).* ***«Aləmləri qorxutmaq üçün haqqı batildən ayıran Quranı öz quluna*** *(Muhəmmədə)* ***nazil edən Allah nə qədər uca, nə qədər uludur».*** *(əl-Furqan 1).* ***«O*** *(Məryəm oğlu İsa)* ***ancaq nemət verdiyimiz və İsrail oğullarına ibrət dərsi etdiyimiz bir quldur».*** *(əz-Zuxruf 59).*

Bütün bu göndərilən Peyğəmbərlərin məqsədləri bir olub. İnsanları Allaha ibadət etməyə çağırmaq. ***Həqiqətən biz Nuhu öz qövmünə Peyğəmbər göndərdik. O, belə dedi: «Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa*** *(ibadət edəcək)* ***heç bir ilahınız yoxdur. Məgər qorxmursunuz».*** *(əl-Muminun 23).* ***Ad tayfasına da qardaşları Hudu Peyğəmbər göndərdik. O, dedi: «Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Siz isə yalnız iftiraçısınız».*** *(Hud 50).* ***Səmud tayfasına da öz qardaşları Salehi Peyğəmbər göndərdik. O, dedi: «Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur».*** *(Hud 61).* ***Mədyən əhlinə də qardaşları Şüeybi Peyğəmbər göndərdik. O, dedi: «Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur».*** *(Hud 84).* ***Yadına sal ki, bir zaman İbrahim atasına və qövmünə demişdi: «Mən sizin ibadət etdiklərinizdən tamamilə uzağam. Yalnız məni yoxdan yaradan Allahdan başqa! Şübhəsiz ki, O məni doğru yola müvəffəq edəcəkdir».*** *(əz-Zuxruf 26-27).*

Allah bir çox Rəsul və Peyğəmbər göndərmişdi. Bəzilərini adı Qurani Kərimdə və Sünnə də bizə gəlib çatmış, bəzilərinin də adları bildirilməmişdir. ***«Biz Peyğəmbərlər göndərdik. Onların bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatını isə söyləmədik!».*** *(ən-Nisa 164).*

Qurani Kərimdə adları zikr olunan **25** Rəsul və Peyğəmbər vardır. ***«Bu bizim İbrahimə*** *(1)* ***öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz şəxsi mərtəbə-mərtəbə yüksəldirik. Şübhəsiz ki, Rəbbin hikmət və elm sahibidir. Biz İshaqı*** *(2)* ***və Yəqubu*** *(3)* ***ona əta etdik. Onların hər birini hidayətə çatdırdıq. Bundan əvvəl Nuhu*** *(4)* ***və onun nəslindən olan Davudu*** *(5)*, ***Süleymanı*** *(6)*, ***Əyyubu*** *(7)*, ***Yusifi*** *(8)*, ***Musanı*** *(9)* ***və***

Harunu** (10) **da hidayətə qovuşdurduq. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Zəkəriyyəni** (11)**, İsanı** (12)**, İlyası** (13) **da hidayətə çatdırdıq. Onların hamısı əməlisalehlərdən idi. Biz həmçinin İsmaili** (14)**, Əlyəsəi** (15)**, Yunusu** (16) **və Lutu** (17) **da hidayətə qovuşdurduq və onları insanlardan üstün etdik».** (əl-Ənam 83-86). **«İdrisi** (18) **və Zulkifli** (19) **də yad et».** (əl-Ənbiya 85). **«Ad tayfasına qardaşları Hudu** (20) **göndərdik».** (əl-Əraf 65). **«Səmud** (tayfasına) **qardaşları Salehi** (21) **göndərdik».** (əl-Əraf 73). **«Mədyən tayfasına da Şüeybi** (22) **göndərdik».** (əl-Əraf 85). Həmçinin Adəm, Yəhya və Muhəmməd (hamısına Allahın salat və salamı olsun!)*[121]. ***«Biz səndən əvvəl də Peyğəmbərlər göndərmişdik. Onların kimisi haqqında sənə xəbər vermiş, kimisi haqqında xəbər verməmişik». *(əl-Mumin 78).*

Onların içərsində ən fəzilətliləri Ulul Azim deyə adlanan beş Peyğəmbərdir. ***Xatırla ki, biz bir zaman Peyğəmbərlərdən əhd almışdıq: «Səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryam oğlu İsadan da!».*** *(əl-Əhzab 7).*

Allah Peyğəmbərləri bir-birindən üstün etmişdi. (Ya Muhəmməd!) ***«Biz Peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir».*** *(əl-Bəqərə 253).* ***«Biz Peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik».*** *(əl-İsra 55).*

Ulul Azim deyə bilinən Peyğəmbərlərin ən fəzilətlisi isə İslamın Peyğəmbəri, Peyğəmbərlərin və Rəsulların sonuncusu, aləmlərin Rəbbinin son elçisi Abdullah oğlu Muhəmməddir. ***«Lakin o, Allahın Rəsulu və Peyğəmbərlərin sonuncusudur».*** *(əl-Əhzab 40).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Əli - *radıyallahu anhu* – buyurur: «Sənin mənə görə durumun Harunun Musaya görə durumu kimi olmasına razı deyilsən? Lakin məndən sonra heç bir Peyğəmbər gəlməyəcəkdir»[122].

PEYĞƏMBƏRİMİZ MƏHƏMMƏD

- Sallallahu Aleyhi Və Alihi Vəs Səlləm –

Muhəmməd – *sallallahu aleyhi və səlləm* – Peyğəmbərlərin (nəbilərin) və Rəsulların sonuncusudur. Bütün insanlara göndərilmiş rəsuldur. O, Allahın bir quludur, ona ibadət edilməz, o bütün yaradılmış-ların ən xeyirlisi, ən fəzilətlisidir. Allah dərgahında ən dəyərlidir, dərəcəsi ən

---

[121] Bu Peyğəmbərlərdən üçü övliya sayılır. ***Loğman, Üzeyr, Zülqərneyn*** - *Allahın salat və salamı onların üzərinə olsun!* -. O, ki qaldı Peyğəmbərlərin ümumi sayına ki, nə qədər olublar bu haqda müəyyən bir rəqəm yoxdur. Hədisdə gəlir ki, onların sayı **324** mindir və bunlardan **313**-ü Rəsuldur. Lakin bu hədisin sənədində yalançı ravilər olduğu üçün hədis zəifdir. Bax: «Zədul Məad» 1 cild, Şureyb Arnaudun təhqiqi ilə.

[122] Buxari, Müslim.

yüksək və Allaha ən yaxın olandır. O, haqqla, hidayətlə insanlara və cinlərə göndərilmiş bir peyğəmbərdir. Ona kitabını endirmiş, dininin əmini etmiş, risalətini təbliğ etməkdə onu seçmişdi. Bu risaləti təbliğ etməkdə onu səhf etməkdən və xəta etməkdən qorumuşdur. Onun risalətinə iman gətirib, nübuvətinə şəhadət gətirməyincə heç bir qulun imanı səhih olmaz. Ona itaət edən Cənnətə, ona qarşı çıxan isə Cəhənnəmə girər.

Peyğəmbərimiz – *sallallahu aleyhi və səlləm* – i bilmək özündə bir neçə xüsusiyyətləri əhatə edir:

1. *Peyğəmbərin – Sallallahu Aleyhi Və Səlləm – Nəsəbini Bilmək*:

Onun nəsəbi yer üzünün ən üstünüdür. Şərəf baxımından nəsəbi zirvədədir. Herakl Əbu Sufyan - *radıyallahu anhu* – dan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in nəsəbini soruşaraq: «Onun nəsəbi aranızda necədir?». Əbu Sufyan: «O, bizim içimizdə yüksək bir nəsəbə sahibdir» deyə cavab vermişdir. Herakl: «Mən sənə onun nəsəbindən soruşdum. Sən də onun sizin içinizdə yüksək bir nəsəbə sahib olduğunu söylədin. Həqiqətən də Peyğəmbərlər öz qövmləri arasında yüksək bir nəsəbə sahib olaraq göndərilirlər» dedi[123]. Həmçinin də Peyğəmbərlər haqqında keçən rəvayətlərdə də bu öz təsdiqini tapır. Məs: Şueyb – *əlehissəlam* – ın qövmü: ***«Əgər əşirətin olmasaydı səni daşqalaq edərdik».*** *(Hud 91).* İbn Haldun Bəğavi – *rahmətullahi aleyhi* – deyir ki: «Peyğəmbərliyin əlamətlərindən biri də qövmləri içərisində şərəfli bir ailəyə mənsub olmalarıdır». ***Nəsəbi:*** Muhəmməd b. Abdullah b. AbdulMuttalib (əsl adı: Şeybətul Həmd) b. Haşim (əsl adı: Amr) b. AbdiMənaf (əsl adı: Muğirə) b. Kusay (əsl adı: Zeyd) b. Kilab b. Murrə b. Kəb b. Luey b. Ğalib b. Fihr b. Məlik b. Nadr b. Kinanə b. Huzeymə b. Mudrikə b. İlyas b. Mudar b. Nizar b. Məad b. Adnan. Adnan Allahın Peyğəmbəri İbrahim – *əlehissəlam* – ın oğlu İsmail – *əlehissəlam* – ın nəslindəndir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, Allah İsmail oğullarını seçmişdir. İsmail oğullarından da Kinanəni, Kinanədən də Qureyşi, Qureyşdən də Haşim oğullarını, Haşim oğullarından da Məni seçmişdir»[124]. İbn Kəsir – *rahmətullahi aleyhi* – deyir ki, İbrahim – *əlehissəlam* – ın nəslindən iki böyük uşaq dünyaya gəlmişdir. Birincisi Həcərdən dünyaya gələn İsmail – *əlehissəlam* –, digəri də Saradan dünyaya gələn İshaq – *əlehissəlam* – dır. İshaq – *əlehissəlam* – ın nəslindən də Yaqub – *əlehissəlam* – dünyaya gəldi. Allah: ***«…Bundan sonra biz onu İshaqla, İshaqın ardıyca Yəqubla müjdələdik».*** *(Hud 71).*

---

[123] Buxari.
[124] Müslim.

Onun nəslindən çox Peyğəmbər gəlmişdir. İsrail oğullarında gələn Peyğəmbərlər Məryəm oğlu İsa – *ələhissəlam* – ilə sona çatmışdır. İsmail – *ələhissəlam* – a gəlincə isə ərəblər onun soyundandırlar. Onun soyundan Peyğəmbər olaraq sadəcə Peyğəmbərlərin sonuncusu, seyyidi Muhəmməd b. Abdullah b AbdullMuttalib b. Haşim əl-Qureyşidir[125]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən atam İbrahimin duası və İsanın müjdəsiyəm. Anam şam saraylarını işıqlandıran bir nurun çıxdığını gördü: ***«Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir Peyğəmbər göndər ki, Sənin ayələrini onlara oxusun, kitabı və hikməti onlara öyrətsin, onları təmizləsin! Həqiqətən*** *(Sən)* ***yenilməz qüvvət və hikmət sahibisən».*** *(əl-Bəqərə 129).* ***«Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdir: «Ey İsrail oğulları! Həqiqətən mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir Peyğəmbərlə*** *(sizə)* ***müjdə verən Allahın elçisiyəm!».*** *(əs-Səff 6)*[126].

2. *Peyğəmbərin – Sallallahu Aleyhi Və Səlləm – Yaşını, Doğulduğu Yeri, Hicrət Etdiyi Yeri Bilmək:*

Doğulduğu yer Məkkədir. Məkkədə Hişam oğulları məhəlləsində Rəbiul-Əvvəl ayının **9**-zu və ya **12**-də birinci günü səhər, **571**-ci ildə (Fil ilində) dünyaya gəlmişdir (Miladi tarixi ilə **22** Aprel). Məkkədə **53** il yaşadıqdan sonra Mədinəyə hicrət etmiş, orada da **10** il yaşamışdır. Hicrətin **11**-ci ilində, Rəbiul-Əvvəl ayının **12**-i, birinci günü, əsr vaxtına yaxın **63** yaşında dünyasını dəyişmişdir. Ənəs b. Məlik - *radıyallahu anhu* – deyir: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – **63** yaşında ikən dünyasını dəyişdi»[127]. İbn Abbas - *radıyallahu anhu* – deyir: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Məkkədə **13** il, Mədinədə isə **10** il qaldıqdan sonra **63** yaşında dünyasını dəyişdi»[128]. Onu dünyaya gətirən (doğuşda kömək edən) Abdurrahman b. Auf - *radıyallahu anhu* – nun anası Amrın qızı Şifa olmuşdur. Doğumunun yeddinci günündə sünnət edilmişdir. Bu haqda üç görüş vardır: Bəziləri qeyd edirlər ki, sünnətli doğulmuşdur. Uydurma bir hədisdə rəvayət edirlər. Bu iddia ilə bağlı doğru bir rəvayət yoxdur. Bəziləri də qeyd edirlər ki, süd anasının yanında Mələklərin qəlbini açdıqları gün sünnət edildi, bəziləri də deyirlər ki, doğumunun **7**-ci günü babası AbdilMuttalib sünnət etdi və ən doğru rəy də elə budur. Ona ilk xidmət edən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in atası Abdullahın xidmətçisi Ummu Əymən olmuşdur. Ummu

[125] İbn Kəsir «Qısasul Ənbiya» 175.
[126] Əhməd 5/262, Həkim 2/600.
[127] Müslim.
[128] Müslim.

Əymən müsəlman olana qədər yaşamış, hicrət etmiş və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən **5** və ya **6** ay sonra vəfat etmişdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onu Zeyd b. Həris - *radıyallahu anhu* – ilə evləndirmişdir. Usamə b. Zeyd - *radıyallahu anhu* – nun anasıdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Ummu Əymən üçün: «***Ummu Əymən Ummi Badə Ummi*** – Ummu Eymən anamdan sonra anamdır». Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Mədinəyə gələndə bütün şəhər sevinirdi. O, öldüyü gün isə bütün şəhər zülmətə qərq olmuşdu[129]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dünyasını dəyişdikdən sonra Əbu Bəkr və Ömər - *radıyallahu anhum* – onun süd anasını ziyarət etmək qərarına gəlirlər. Qoca qadın ilə görüşdükdə onun ağladığını görüb dedilər: «Nəyə ağlayırsan? Allah Rəsulu üçün Onun (Allahın) dərgahında daha yaxşıdır». Qoca qadın dedi: «Mən ona görə ağlayıram ki, artıq vəhylər gəlməyəcəkdir». Bu sözlər Əbu Bəkr və Ömər - *radıyallahu anhum* – da ağlamağa məcbur etdi[130].

Rəsulullahın atası AbdulMuttalib oğlu Abdullahdır. Məhəmmədin atası o, doğulmamışdan əvvəl, yoxsa sonra öldüyü haqqında bəzi rəylər vardır. Bu rəylərdən ən doğrusu: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in anasının bətnində ikən atasının öldüyüdür. İkinci rəyə görə, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – doğulduqdan **7** ay sonra ölmüşdür. Abdullah ticarət məqsədi ilə Şama gedib qayıtdıqda Mədinədə vəfat edir. ***Darul Nəbiyyatuz Zəhra*** deyilən yerdə dəfn edilir. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər: «Ya Rəsulullah! Atam haradadır?» deyə soruşdu. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Cəhənnəmdə». Adam getmək istədikdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – onu çağıraraq: «Heç şübhəsiz ki, mənim atamda, sənin atanda Cəhənnəmdədir» deyə buyurdu[131].

Anası Kilabın oğlu Zuhrənin oğlu AbdiMənafın oğlu Vəhbin qızı Əminədir. Kilab Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in nəsəbində **5**-ci babasıdır. Bu tərəfdən Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in atası və anası eyni kökdən olub ikisi də Kilabda birləşirlər. Anası Əminədən sonra onu ilk əmizdirən Əbu Ləhəbin köləsi Suveybədir. Ərəblərdə o, vaxtlar yeni doğulan uşaqları əmizdirmək üçün başqa bölgələrə göndərmək adəti vardı. Bunu uşaqların daha sağlam və güclü böyümələri üçün belə edirdilər. Suveybə öz oğlu olan Məsruqla bərabər onu bir aya

[129] Tirmizi, Şueyb əl-Arnaut səhih olduğunu qeyd edir.
[130] Müslim.
[131] Müslim 203, Əbu Davud 4718.

yaxın əmizdirdi. Həmçinin də Hamda və Əbu Sələmə b. Abduləsəd əl-Mahzumiyi də əmizdirmişdir. Hər ikisi də Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in süd qardaşlarıdır. Həmçinin də Peyğəmbərin əmisi Həmzə - *radıyallahu anhu* – nu da əmizdirmişdir. Bundan sonra Məkkəyə Bəni Sad b. Bəkr b. Həvazin qəbiləsindən bir neçə süd əmizdirici qadınlar gəlir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu qadınlara süd verilməsi üçün təqdim edilir. Lakin yetim olduğuna görə onu götürən olmur. Buna baxmayaraq içərilərindən Əbu Suveybin qızı Həlimə əmizdirmək üçün uşaq qalmadığından əlacsızlıqdan onu götürür. Həlimənin əri Həris b. Abdiluzzadır. Hər ikisi də Sad b. Bəkr b. Həvazin qəbiləsindəndirlər. Uşaqları Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in süd qardaşlarıdırlar. Abdullah, Ənisə və Qudamə (Şeymə kimi də tanınır) Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yetişməsində böyük rolu olmuşdur. Həlimə həmçinin də Əbu Sufyan - *radıyallahu anhu* – nu da əmizdirmişdir. Həlimənin Məkkədə olduğu o, günlər qıtlıq və aclıq günləri idi. Dəvələri süd vermir, köksündə də süd azalmışdır. Lakin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i öz yurduna götürdükdə Allahın izni ilə onlara bərəkət nazil olmuşdur. Qadın onu qucağına alıb əmizdirmək istədikdə köksünün südlə dolduğunu gördü. Dəvələri bol süd verməyə başladılar. Həlimə **2** ildən sonra onu süddən kəsir. Artıq böyümüş və güclənmişdi. Həlimə hər **6** aydan bir onu görmələri üçün anasının yanına gətirirdi. Süttən kəsiləndən sonra onu anası Əminənin yanına gətirir. Peyğəmbər ilə gələn bərəkətdən son dərəcə sevinc içində olan Həlimə uşağın bir müddətdə yanında qalmasını xahiş edir. Əminə razı olur. Həlimə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i alaraq sevinc içində öz yurduna dönür. İki il də daha süd anası Həlimə ilə bərabər qalır. Lakin sonra baş verən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in ***<u>Şakki Sadr</u>*** qəlbinin yarılması hadisəsi onları uşağı anasına qaytarılmasını məcbur edir. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – uşaqlarla oynayarkən Cəbrail – *əleyhissəlam* – onun yanına gəldi. Onu götürərək yerə yıxdı və sinəsini yardı. Qəlbini çıxardı. Qəlbindən bir qan laxtasını çıxardıqdan sonra Peyğəmbərə: «Bu şeytanın səndən olan bir nəsibidir!» deyə ona göstərdi. Sonra qəlbini qızıldan bir qab içində Zəm-Zəm suyu ilə yudu. Daha sonra qəlbini yerinə qoydu. Onunla oynayan uşaqlar qaçaraq süd anasının yanına gəldilər və: «Muhəmməd öldürüldü!» dedilər. Onun yanına gəldilər. Rəngi soluq bir halda idi. Ənəs: «Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sinəsində o, izi görmüşdüm!» dedi[132]. Bu

---

[132] Buxari, Müslim.

hadisədən sonra Məkkəyə anasının yanına gətrilir və **2** il orada qaldıqdan sonra anası onu Mədinəyə qohumlarının, dayılarının və atasının qəbrinə götürür. Mədinədə bir ay qaldıqdan sonra geri qayıdırlar. Yolda anası xəstələnir və Məkkə ilə Mədinə arasında olan ***Əbva*** adlanan yerdə dünyasını dəyişir. Anası dünyasını dəyişəndə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – **7** yaşında idi.

Anasının ölümündən sonra onu öz himayəsinə babası AbdulMuttalib götürür. Ölənə qədər ona baxır. AbdulMuttalibin atası Haşim Şama ticarət məqsədi ilə çıxdıqda yolda Mədinə şəhərinə daxil olur. Orada Nəccar b. Adi qəbiləsindən Amr b. Zeydin evində müsafir olur. Amrın qızı Səlmanı görüb onunla evlənir. Bir müddət orada qaldıqdan sonra Səlmanı hamilə olaraq orada buraxaraq Şama getmək üçün yola çıxır. Səfəri əsnasında Fələstinin Qazzə bölgəsində vəfat edir. Sonra Səlma Mədinədə bir oğlan uşağı dünyaya gətirir. İsmini Şeybə olaraq adlandırır. Əmisi Muttalib qardaşı oğlunu görmək arzusu ilə Mədinəyə gəlir və orada Səlmanın razılığı ilə uşağı götürüb Məkkəyə gətirir. Məkkədə Muttalibi görənlər yanındakı kimdir? deyə soruşardılar. O, da göz dəyməsin deyə köləmdir – deyə cavab verərdi. Bundan sonra da insanlar onu AbdulMuttalib – Muttalibin köləsi deyə çağırmağa başladılar. AbdulMuttalib yuxusunda Zəm-Zəm quyusunun yeri göstərilir və oranı qazmaq əmr edilir. Oğlu Haris b. AbdulMuttaliblə birlikdə o, yeri tapıb qazır. AbdulMuttalib nəzir etmişdir ki, əgər həyatda **10** övladı olsa onlardan birini qurban kəsəcəkdir. Dilədiyi həyata keçdikdə (**13** oğlu olduqda) o, oğlanları arasında püşk atır. Püşk də hər dəfəsində Abdullaha düşür. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in atası Abdullah, AbdulMuttalibin oğulları arasında ən gözəli, ən sevimlisi və ən iffətlisi idi. Lakin qardaşları, Qureyşlilər onu bu işdən çəkindirirlər. Buna görə də AbdulMuttalib Abdullahın yerinə **100** dəvə qurban etməyi Allaha nəzir edir. Buna görə də Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həm **2** qurban edilənin İsmail və Abdullah – həm də **2** fidyə verilənin oğludur. İsmail – *əlehissəlam* – ın yerinə **1** qoyun, Abdullahın yerinə isə **100** dəvə fəda edilmişdir. AbdulMuttalib öldükdə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – **8** yaşında idi. **10** yaşında olduğu da söylənilir.

Babasından sonra əmisi Əbu Talibin yanında yaşamağa başlayır. **12** yaşında əmisi ilə birlikdə Şama ticarət məqsədi ilə gedir. **9** yaşında olduğu da söylənilir. Bu səfərində rahib Bahira ilə qarşılaşır. Rahib, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in əlindən tutaraq bu aləmlərin Rəbbinin elçisidir. Bunu Allah haqq olaraq, aləmlərə rəhmət olaraq göndərib. Oradakılar: «Bunu haradan bilirsən?» deyə soruşdular. O: «Siz nə zaman

ki, buraya gəldiniz bütün daşlar və ağaclar səcdəyə qapandılar. Belə ki, onlar Peyğəmbərdən başqasına səcdə etməzlər və mən onun iki kürək sümüyü arasındakı Peyğəmbərlik möhürünü də bilirəm. Bu bizim kitabımızda yazılmışdır. Yəhudilərdən ona bir zərər gələ bilməsindən qorxduğu üçün əmisinə onu Şama gətirməməsini söyləyir. Əmisi onu uşaqları ilə birlikdə Məkkəyə geri göndərir. Məkkəyə qayıtdıqdan sonra isə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Məkkə xalqının qoyunlarını otarmağa başlayır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Elə bir Peyğəmbər yoxdur ki, çobanlıq etmiş olmasın»[133].

3. *Peyğəmbərin – Sallallahu Aleyhi Və Səlləm – İyirmi Üç İllik Peyğəmbərlik Həyatını Bilmək:*

Hira mağarasına çəkilib orada bir neçə vaxt ibadət etdikdən sonra **610**-cu ildə **40** yaşında ikən ona Peyğəmbərlik verilir[134]. Peyğəmbərlik ona birinci gün verilir. Əbu Qatadə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən birinci gün oruc tutmaq haqqında soruşurlar. O, buyurur: «O, gün mən doğulmuşam, o gün mən insanlara göndərilmişəm və o, gün mənə ilk vəhy gəlib»[135]. Allah onu bütün yaratdıqlarına göndərdi. Quran Ramazan ayında Qədr gecəsində dünya səmasına nazil olmuş, oradan da iyirmi üç il ərzində hissə-hissə endirilmişdir. ***«….Haqqı batildən ayıran Quran Ramazan ayında nazil edilmişdir».*** *(əl-Bəqərə 185)*[136]. Həmçinin Yəhya Sərrasi «Nuniyə» adlı qəsidəsində deyir: «Peyğəmbərlik ona qırx yaşında gəldi, Elçilik günəşi Ramazan ayında parladı»[137].

4. *Peyğəmbərliyin Necə Və Hansı Buyuruqla Ona Verilməsini Bilmək:*

«Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! sənin Rəbbin ən böyük kərəm sahibidir. O Rəbbin ki, insana qələmlə *(yazmağı)* ***öyrətdi. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi».*** *(əl-Ələq 1-5).* Bu buyuruqdan sonra ona Peyğəmbərlik verildi.

Vəhy Peyğəmbərimiz – *sallallahu aleyhi və səlləm* – bir neçə şəkildə gəlirdi. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, bir gün Xaris b. Hişam - *radıyallahu anhu* – Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: «Ya Rəsulullah! Vəhy sənə necə gəlir?» deyə soruşdu. Peyğəmbər: «Hərdən vəhy zınqırov səsi kimi gəlir. Bu da mənim üçün (vəhyin) ən ağır gəliş

---

133 Tirmizi 4/516, İmam Məlik 2/971, İbn Məcə 2148, Buxari 9/488, Müslim 14/5,6.

134 Buxari, Müslim.

135 Müslim.

136 İbn Cərir 2/144, əl-Həkim «Mustədrək» 2/530, əs-Suyuti «Durrul Mənsur» 6/370.

137 O, Şeyx Cəmaləddin Əbu Zəkəriyyə b. Yusif b. Yəhya olub Bağdadda doğulmuşdur. Gözəl dilçi və hafiz idi. Gözəl şer yazardı. Monqolların Bağdada girdikləri vaxt öldürüldü hicri 656. Şəzarat əl-Zəhəb 5/285,286.

şəklidir. Deyilənləri öyrəndikdən sonra o, məni tərk edir. Hərdən də mələk mənim qarşıma insan qiyafəsində gəlir və vəhyi mənə çatdırır. Mən də onun dediklərini yadda saxlayıram. Aişə - *radıyallahu anhə* – deyir ki, mən görürdüm necə ki, soyuq bir havada vəhyin gəlişindən sonra onun alnından tər axardı»[138].

1) Həqiqi (doğru) yuxu - ***Ruyai Sadiqa*** – Bu Rəsullaha vəhyin ilk gəlməyə başladığı vaxdır. Bütün gördüyü yuxular sabah aydınlığı kimi həqiqət idi. **2)** Mələyin vəhyi qəlbinə salması, üfləməsi ilə[139]. **3)** Mələk Rəsulullah – *sallallahu aleyhi və səlləm* – ə insan şəkilində gəlirdi[140]. **4)** Vəhy zınqırov (zil) səsinə bənzər bir səslə gəlirdi. Bu vəhyin ən ağır şəkli idi. Mələk vəhyi o, qədər qarışıq, başadüşülməsi ağır bir şəkildə endirirdi ki, ən soyuq havada belə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in alnından tər damla-damla axırdı[141]. Hətta səfər ərəfəsində miniyin üzərində olduqda belə bir vəhy gəlsəydi vəhyin ağırlığından heyvan yerə çökərdi[142]. Bir dəfə vəhy gələn vaxt Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in dizi Zeyd b. Sabitin dizi üzərində idi. Zeydin ayağına o, qədər ağırlıq yuklənmişdir ki, az qala ayağı qırılacaqdır[143]. **5)** Mələk yaradıldığı şəkildə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə görünürdü. Vəhy iki dəfə bu şəkildə endirilib. Maraqlananlar Nəcm surəsinin **7-13**-cü ayələrinə baxa bilərlər[144]. **6)** Heç bir vasitə olmadan doğrudan-doğruya Allahın bildirdiyi vəhy. Merac gecəsində Allah namaz vaxtlarını bu şəkildə fərz qıldı[145]. **7)** Üç Peyğəmbər var ki, Allah onlarla vasitəsiz danışmışdır. Adəm – *əlehissəlam* – ilə Cənnətdə, Musa – *əlehissəlam* – ilə yer üzündə və Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ilə Meracda. Bəziləri 8-ci vəhy şəkilini də deyirlər. Bu heç bir pərdə olmadan Allah ilə üz-üzə danışmasıdır. Bu merac gecəsində Rəbbini gördü deyənlərin rəyidir. Sələf və sonradan gələn İslam alimləri bu fikirdədilər ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – öz Rəbbini görməyib. Çünki səhabələr ondan soruşduqda ki, Allahı gördün o, buyurdu: «Bir nur gördüm»[146]. Məsruk - *radıyallahu anhu* – deyir ki, Aişə - *radıyallahu anhə* – nin yanında

---

[138] Buxari 2.
[139] Əbu Nuaym «əl-Hilyə» 3/156,157, 10/26,27 Əbu Umamədən. Sənədində Ufeyr b. Miğdan zəifdir, qalan ravilər isə etibarlıdır. əl-Heysəmi «əl-Məcmua» 4/72, İbn Məcə 2144, İbn Hibban 1084,
[140] Buxari, Müslim.
[141] Buxari, Müslim, İmam Əhməd 6/158,163,257, Məlik 1/202, Nəsai 2/146,149 əl-İftitah.
[142] İmam Əhməd 6/118, Aişə - *radıyallahu anhə* – dən, əl-Həkim 2/505-də səhih demişdir. Zəhəbi də təsdiqləyir.
[143] Buxari «ət-Təfsir» 8/196.
[144] Müslim, Tirmizi 3274, Aişə - *radıyallahu anhə* – dən.
[145] Buxari, Müslim.
[146] Müslim.

dayanmışdım: «Ya Aişə! Üç şey vardır ki, hər kim onlardan birini söyləyərsə Allaha qarşı böyük iftira atmış olur. Nədir onlar?» dedim. Aişə: «Hər kim Muhəmməd Rəbbini gördü deyə söyləyərsə Allaha qarşı böyük iftira etmiş olur» dedi. Mən dayanmışdım. Həmən oturdum və: «Ey möminlərin anası! Bir dəqiqə. Tələsmə» dedim. Allah: ***«And olsun ki. Onu açıq üfüqdə görmüşdü»*** *(ət-Təkvir 23)* ***«O, qüvvət sahibi göründü. O*** *(Cəbrail)* ***ən uca üfüqdə idi». «And olsun ki, başqa bir dəfə də görmüşdü.*** *(yeddinci səmadakı)* ***Sidrətul-Muntəhanın yanında».*** *(ən-Nəcm 6-14)* deyə buyurmadımı? dedim. O: «O, Cəbraildi. Onu yaradılış surətində yalnız iki dəfə görmüşdü» dedi. Aişə: ***«Gözlər onu dərk etməz. O, gözləri dərk edər».*** *(əl-Ənam 103),* ***«Heç bir bəşər övladına Allahla danışmaq müyəssər olmaz. Allah onlarla ancaq vəhylə, yaxud*** *(Musa ilə)* ***pərdə arxasından danışar və ya bir elçi*** *(mələk)* ***göndərər, o da Allahın izni ilə Allahın istədiyini vəhy edər».*** *(əş-Şura 51)*[147].

5. ***Onunla Nələrin Göndərildiyini Və Nə Üçün Göndərildiyini Bilmək:***

Allahı tövhid etmək və əmr olunanları edib, qadağan olunanları tərk etməyi əmr edən şəriətlə göndərmişdir. Allah onu aləmlərə rəhmət olaraq, onları şirkin, küfrün və cəhalətin qaranlıqlarından elm, iman və tövhidin aydınlığına çıxartmaq üçün göndərmişdir. Bu yolla Allahın məğfirət və rizasına nail ola bilsinlər, onun əzab və qəzəbindən qurtara bilsinlər. Allah insanları şirkdən qorxudub əzabı vasitəsilə ayıltmaq, rububiyyət, uluhiyyət, isim və sifətlərində də tövhidə dəvət etmək üçün göndərmişdir. Bunlara dəlil: ***«Ey*** *(libasına)* ***örtünüb bürünmüş Peyğəmbər! Qalx*** *(qövmünü Allahın əzabı ilə)* ***qorxut! Öz Rəbbini uca tut. Libasını təmizlə. Əzaba səbəb olacaq pis şeylərdən uzaqlaş.*** *(Etdiyin yaxşılığı)* ***çox bilib başa qalxma. Rabbinin rizasını qazanmaq üçün səbr et».*** *(əl-Muddəssir 1-7).* Allahın ***«Qalx və qorxut»*** buyurduğunun mənası, şirkdən qorxudub çəkindirmək və tövhidə dəvət etmək deməkdir. ***«Öz Rəbbini üca tut»*** tövhid ilə onu təzim et. ***«Libasını təmizlə»*** yəni əməllərini şirkdən təmizlə. ***«Pis şeylərdən uzaqlaş»*** yəni bütlərdən uzaq dur. Onlardan uzaq durmaq isə bütləri və bütpərəstləri tərk edib, onlardan uzaq durmaq deməkdir. Bütün bu buyuruqlardan sonra ona risalət verilmiş oldu. O, da qalxıb dəvət etdi və Allahın əmrini yerinə yetirdi.

6. Peyğəmbər – Sallallahu Aleyhi Və Salləm – İn Vəfatını Bildirən Əlamətlər:

Peyğəmbər – *sallallahu aleyhi və salləm* – in vəfatının yaxınlaşdığına işarə edən bir çox önəmli hadisələr və işarələr görülmüşdür.

[147] Müslim 177.

1. Ummul Qura olan Məkkənin fəthi mübarək hicrətin **8**-ci ilində tamamlanmış, hicri **9**-cu ildə isə müsəlman olmaq və ya cizyə vermək üçün Mədinə şəhərinə axın-axın heyətlər gəlmişlər. Ərəb yarmadası bütünlüklə İslama boyun əydi. Bütün bunlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in və səhabələrinin **10** il boyunca sürdükləri cihadın bir meyvəsi idi. Artıq bütün bunlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – missiyasının sona gəldiyinə işarət edirdi.

2. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Muaz - *radıyallahu anhu* – nu Yəmənə göndərdiyi zaman ona bir çox tövsiyələr verdi. Tövsiyələrini bitirdikdən sonra buyurdu: «Ey Muaz! Ola bilər ki, sən bu ildən sonra məni görməyəsən. Sən qayıtdıqda artıq mənim məscidimə və qəbrimə çatacaqsan». Bu sözlər Muaz - *radıyallahu anhu* – nu hönkür-hönkür ağlatdı. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – üzünü Mədinəyə tərəf çevirərək: «İnsanlardan mənə ən layiq olanlar kim olursa olsun və harada olursa olsun müttəqilərdir» deyə buyurdu[148].

3. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – hər il Ramazan ayında on gün etiqafa çəkilərdi. Son ildə isə iyirmi gün etiqaf etmişdi. Cəbrail – *əlehissəlam* – hər il Quranı bir dəfə ona təkrar etdiyi halda son ildə iki dəfə təkrarlatdı.

4. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – hicrətin **10**-cu ilində Həcc etdi və buyurdu: «Həcci necə yerinə yetirəcəyinizi məndən öyrənin. Ola bilir ki, bu ildən sonra bir daha sizinlə görüşməyim. İnsanlarla vidalaşmağa başladı.

5. Ərafada bu ayə endi: ***«Bu gün dininizi kamil etdim və sizə olan nemətimi tamamladım. Bir din kimi sizin üçün İslamı seçdim».*** *(əl-Maidə 3).*

6. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki: «Ömər - *radıyallahu anhu* – məni Bədrdə iştirak etmiş səhabələrlə birlikdə məclisə apardı. Bəziləri bundan xoşlanmayaraq: «Bunun bizim aramızda nə işi var. Bizim də onun kimi uşaqlarımız vardır» dedilər. Ömər - *radıyallahu anhu* – hansı səbəbdən onu bura gətirməsini izah etmək üçün sual verdi: «***İzə Cə Ənəsrullahi Vəl Fəth*** **–** haqqında nə bilirsiniz?». Onlardan bəziləri: «Bizə fəth müyəssər olub zəfərə çatdığımızda Allaha həmd edib günahlarımızın bağışlanmasını diləməklə əmr olunduq» dedilər. Digərləri isə heç bir söz də demədilər. Sonra mənə tərəf çönərək: «Ey Abbasın oğlu! Sən də mi belə deyirsən?» deyə soruşdu. Abbas: «Xeyr, bu surə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in əcəlidir. Allah ona əcəlinin çatdığını bildirərək buyurmuşdu: ***«Allahın yardımı və fəthi gəldiyi zaman…».*** *(ən-*

[148] Əhməd 5/235. Məcmul Zəvaid 9/22.

Nəsr). Bu sənin əcəlinin yaxınlaşmasına işarədir. Belə ki, Rabbini təsbih edərək ondan məğfirət dilə. Çünki O, tövbələri qəbul edəndir». Ömər: «Mən də bunu sənin kimi anlayır və bilirəm» dedi[149].

7. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə vəhyin tez-tez gəlməsi. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki: «Allah vəfatından əvvəl Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə tez-tez vəhy endirirdi. Lakin vəfat etdiyi günlərdə isə vəhy olduqca çoxalmışdır»[150].

8. Əlamətlərdən biri də Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Uhuda getməsi və orada yatan şəhidlər üçün namaz qılmasıdır. Beləcə həm ölülərlə, həm də dirilərlə vidalaşırdı. Sonra minbərə çıxaraq: «Mən sizdən öncə gedəcəyəm və Vallahi bu an hövuzuma baxmaqdayam. Mənə yer üzünün xəzinələrinin açarları verilmişdir. Vallahi mən, məndən sonra şirk qoşmağınızdan qorxmuram, lakin dünya üçün bir-birinizlə yarışmanızdan qorxuram»[151].

9. Bu əlamatlərdən biri də bundan məhrum olmadan öncə insanları onu görməyə və məclisində olmağa insanları təşviq etməkdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Muhəmmədin nəfsi əlində olana and olsun ki, sizdən birinizin məni görməyəcəyi bir gün gələcəkdir. Məni görmək onun üçün bütün ailəsi və malından da sevimli olacaqdır»[152].

21. ***Peyğəmbərin – Sallallahu Aleyhi Və Səlləm – Vəfatı:***

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu şəkildə hicrətdən sonra on il dəvət etdi. Allah onunla dini və möminlər üzərinə nemətini tamamladıqdan sonra, öz yanına və peyğəmbərlərin, siddiqlərin, şəhidlərin, salehlərin yaşadığı ən uca dostlar arasına qatılmaq üçün seçdi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Səfər ayının sonları ilə Rəbiul-Əvvəl ayının əvvəlləri xəstələndi. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Bəqi qəbristanlığını ziyarət etdikdən sonra geri dönür. Məni rahatsız gördü: Çünki başım ağrıyır: «Vay başım, vay başım!» – deyirdim. O: «Ey Aişə! Əslində mən: «Vay başım» deməliyəm[153]. Başını bağlamış halda müsəlmanların yanına, minbərə çıxdı. Şəhadət gətirdikdən sonra Uhudda öldürülən şəhidlərə məğfirət dilədi və buyurdu: «Allah qullarından bir qulunu dünya ilə nəzdində olanlar arasında sərbəst buraxdı, o da Allahın nəzdində olanları seçdi». Əbu Bəkr - *radıyallahu anhu* – bu sözlərin nə məna ifadə etdiyini

---

[149] Buxari 10/606,607.
[150] Buxari 8/618, Müslim 18/102.
[151] Əbu Davud 3207, Nəsai 4/61,62, əl-Albani «Səhih Nəsai» 1846.
[152] Müslim 15/118.
[153] Darimi 1/37, İbn Məcə 1465, əl-Albani «Səhih ibn Məcə» 1197.

başa düşdüyündən ağlamağa başladı və: «Anam, atam sənə fəda olsun». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yavaş ol, ey Əbu Bəkr! Şübhəsiz ki, dostluq və mal baxımından insanlar arasında mənə ən yaxın olanı sənsən. Rəbbimdən başqasını dost seçməli olsaydım, şübhəsiz ki, səni seçərdim, lakin İslamın dostluğu və sevgisi (bizi bir-birimizə) bağlamışdır. Əbu Bəkr - *radıyallahu anhu* – nu insanlara namaz qıldırmasını əmr etdi. Artıq namazları Əbu Bəkr - *radıyallahu anhu* – qıldırırdı ki, bu şəkildə toplam **17** vaxt namaz qıldırmışdır. Ömrünün son günləri və ya son günü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qızı Fatimə - *radıyallahu anhə* – ni çağıraraq qulağına bir şeylər pıçıldadı. Aişə - *radıyallahu anhə* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bütün zövcələri yanında olduğu an qızı Fatimə - *radıyallahu anhə* – gəldi. Yerişi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yerişindən heç bir şey ilə fərqlənmirdi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qızını gördükdə buyurdu: «Xoş gəlmisən qızım. (Mərhəba). Sonra onu sağına yaxutda soluna oturtdu. Qulağına nə isə pıçıldadıqdan sonra qızı ağlamağa başladı. Onun ağladığını görüb qulağına yenə də gizlicə nə isə pıçıldadı. Bu dəfə o güldü. Mən, Fatimə - *radıyallahu anhə* – yə dedim: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu qədər zövcələrinin içərsində yalnız sənə sir dedikdən sonra sən hələ də ağlayırsan!». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – geddikdən sonra mən soruşdum. Peyğəmbər sənə nə buyurdu: «Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sirrini ifşa etmərəm». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dünyasını dəyişdikdən sonra mən Fatimə - *radıyallahu anhə* – dən soruşdum: «Üzərindəki haqqım üçün[154] de görüm Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sənə nə buyurdu: «Bəli, indi deyə bilərəm. Birinci dəfə o mənim qulağıma pıçıldadıqda buyurdu: «Hər il Cəbrail – *əlehissəlam* – Quranı mənə bir və ya iki dəfə təkrarladırdı. Ancaq bu dəfə o bunu iki dəfə etdi. Bundan da əcəlimin yaxınlaşdığını başa düşdüm. Allahdan qorx və səbr et. Mən sənin üçün necə də gözəl ***Sələfəm*** (keçmişəm). Mən də ağladım. Mənim ağladığımı görüb ikinci dəfə mənim qulağıma pıçıldadı. Ya Fatimə! Mömin qadınların və ya bu ümmətimin qadınlarının seyyidi olmasından razı deyilsənmi (Başqa rəvayətdə: Yaxınlarımdan ilk öncə mənə qovuşan sən olacaqsan)» deyə buyurdu[155]. Fatimə - *radıyallahu anhə* – atasının çəkdiyi izdirabları gördükdə: «Vay atam!» dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* –

[154] Aişə - *radıyallahu anhə* –, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in zövcəsi həm də möminlərin anası olduğu üçün belə deyir.
[155] Buxari 2623; Müslüm 2450;

ona: «Atan bu gündən sonra bir daha izdirab çəkməyəcəkdir». Xeybərdə yediyi zəhərin acılarını hələ də hiss edirdi. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Xeybər fəth edildiyi zaman Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – zəhər qatılmış bir qoyun qızardılması hədiyyə edildi (Zəhəri verən bir Yəhudi qadın idi). Peyğəmbər: «Burada olan Yəhudiləri toplayın» deyə buyurdu. Dərhal onları bir yerə topladılar. Peyğəmbər: «Sizdən bir şey soruşsam doğrumu cavab verəcəksiniz?» deyə buyurdu. Onlar: «Bəli» deyə cavab verdilər. Peyğəmbər: «Atanız kimdir?» deyə buyurdu. Onlar: «Filankəsdir» dedilər. Peyğəmbər: «Yalan söylədiniz. Atanız filankəsdir» deyə buyurdu. Onlar: «Doğru söylədin» dedilər. Peyğəməbər: «Mənə doğru söyləyəcəksinizmi?» deyə buyurdu. Onlar: «Bəli, əgər biz sənə yalan söyləsək sən bunu biləcəksən necə ki, atamız kimdir sualını bildiyin kimi» dedilər. Peyğəmbər: «Cəhənnəm əhli kimdir?» deyə buyurdu. Onlar: «Biz orada az qalacağıq. Orada bizə siz xələf olacaqsınız!» dedilər. Peyğəmbər: «Rədd olun! Vallahi biz əbədiyyən sizə Cəhənnəmdə xələf olmayacağıq» deyə buyurdu. Sonra: «Bu qoyuna zəhər qatmışdınız yoxsa yox?». Onlar: «Bəli, qatmışdıq» dedilər. Peyğəmbər: «Nəyə görə belə etdiniz?» deyə buyurdu. Onlar: «Yalançı (bir Peyğəmbər) olub-olmadığını yoxlamaq üçün. Əgər yalançı olsaydın bu zəhər sənə təsir edəcəkdi, yox əgər həqiqi bir Peyğəmbərsənsə bu zəhər əsla sənə zərər verməz» dedilər (Bəzi rəvayətlərdə: Qoyun budu dil açaraq Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə zəhərli olduğunu bildirir. Bəzi rəvayətlərdə isə Cəbrail – *əleyhissəlam* – xəbər verir. Zəhər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə təsir etmədi. Lakin ətdən yeyən Bişr b. Bərra - *radıyallahu anhu* – yedi və öldü. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə bir zərər toxunmadığı üçün qadını buraxır. Lakin şəriətə uyğun olaraq qadını Bişr b. Bərra - *radıyallahu anhu* – nun ailəsinə təslim edir. Onlar da qisas olaraq onu qətl edirlər)[156].

Ölüm anı yaxınlaşınca Aişə - *radıyallahu anhə* – onu köksünə basırdı. Hicri **11**-ci ilin Rəbiul əvvəl ayının **12**-si ya da **13**-cü günündə ölüm halları onda görünməyə başladıqda, əlini suya salır, üzünə sürtür və buyururdu: «***Lə İləhə İlləllah***. Şübhəsiz ki, ölümün istirabları çox ağırdır». Daha sonra gözləri səmaya doğru dikildi və: «Allahım o, ***Rafiqul Ələ*** ən uca dostlar arasında olmaq istəyirəm» dedi. O, gün vəfat etdi. Aişə - *radıyallahu anhə* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dizləri və köksüm üzərində vəfat etdi. Onun ölüm acısını gördükdən sonra artıq kimsənin ölüm acısı məni üzməz»[157].

---

[156] Buxari «Cizyə» 7.
[157] Buxari 7/747.

Vəfat xəbəri bir neçə dəqiqədə səhabələr arasında yayıldı. Bu acı xəbər onların dünyalarını qaraltdı. Üzüntüdən şüurlarını itirəcək hala gəlmişdilər. Nə edəcəklərini bilmədən hıçqıra-hıçqıra ağlayırdılar. Ömər - *radıyallahu anhu* – məscidə gələrək: «Allah münafiqləri yox edincəyə qədər Rəsulullah ölməyəcəkdir» deyə qışqırmağa və öldü deyəni öldürəcəyini söyləməyə başladı. İnsanlar nə edəcəklərini bilmədən şaşqınlıq içində sağa-sola hərəkət edirdilər. Aişə - *radıyallahu anhə* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – vəfat etdikdə Əbu Bəkr - *radıyallahu anhu* – Sunhda idi. Əbu Bəkr - *radıyallahu anhu* – bu xəbəri eşidincə evindən yola çıxır və məscidin qapısına kimi gəlir. Orada Ömər - *radıyallahu anhu* – xalqa bir şeylər söylədiyini görür. Lakin əhəmiyyət vermədən Aişə - *radıyallahu anhə* – nin evinə üzəri örtülü vəziyyətdə olan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına girir. Üzərindəki örtüyü qaldıraraq onu öpür və: «Atam, anam sənə fəda olsun! Sağlığında da səndən gözəl iy gəlirdi, ölәndən sonra da səndən gözəl iy gəlir. Nəfsim əlində olan Allaha and olsun ki, Allah ölümü sənə iki dəfə daddırmaz. Əbu Bəkr - *radıyallahu anhu* – camaatın yanına çıxır. Allaha həmd səna etdikdən sonra: «Ey insanlar! Kim Muhəmmədə ibadət edirdisə bilsin ki, artıq o, vəfat etmişdir. Kim Allaha ibadət edirdisə bilsin ki, Allah əbədi və ölməzdir: ***«Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!».*** *(əz-Zumər 30).* ***«Muhəmməd ancaq bir Peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. Əgər o, ölsə və ya öldürülsə siz gerimi dönəcəksiniz? Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükr edənlərə mükafat verər».*** *(Ali İmran 144)*[158]. Ömər - *radıyallahu anhu* – deyir ki: «Allaha and olsun ki, Əbu Bəkr - *radıyallahu anhu* – bu ayəni oxuyuncaya qədər Peyğəmbər– *sallallahu aleyhi və səlləm* – in vəfatına qane deyildim. Ayəni duyunca dəhşətə gəldim və yerə yıxıldım. Ayaqlarım yerində durmurdu. O, vaxt anladım ki, həqiqətən də Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dünyasını dəyişmişdir». Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – 1-ci günü dünyasını dəyişdi (Başqa rəvayətdə: **1**-ci günü dünyasını dəyişdi və **2**-ci günü isə dəfn edildi)»[159].

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in cəsədi **2**-ci günü yuyuldu. Aişə - *radıyallahu anhə* – deyir ki: «Onu yumaq istədikdə: «Ölülərimizi soyundurduğumuz kimi onu da soyundurub yuyaq, yoxsa paltarı əynində olduğu haldamı yuyaq» deyə təşviş içində qaldılar. Bu vaxt Allah onlara

---

158 Buxari 3667.
159 Tirmizi «Şəmaili Şərif».

bir yuxu verdi. Hamımızın çənəsi köksünə düşdü. Evin bir kənarından tanımadıqları biri onlara xitab edərək dedi: «Onu üzərindəki paltarını çıxarmayaraq yuyun». Bundan sonra paltarı üzərindən suyu tökərək yumağa başladılar. Yumaq işinə Əli, Abbas, iki oğlu Fadl, Qasım, Usamə Şarkan su tökür, Əli - *radıyallahu anhu* – isə yuyurdu. Cəsədi üç dəfə yudular. Cəsədi yuduqları suyu Quba məscidində olan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in də o, sudan içdiyi Sad b. Heysəmə quyusundan gətirmişdilər. Üç parça ağ Yəmən bezi ilə kəfənlədilər. Harada dəfn olunacağını müzakirə etdilər. Bəziləri Məkkədə, bəziləri Qütsdə dəfn olunmasını təklif etdilər. Əbu Bəkr - *radıyallahu anhu* – isə Peyğəmbərlər öldükləri yerdə dəfn olunurlar dedi və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in otağında qəbr qazıldı. Əbu Təlhə - *radıyallahu anhu* – qəbrini qazdı. Cənazə namazı qılındı. Otaq darısqal olduğu üçün ilk öncə qohum-əqrabası, sonra mühacirlər, ənsarlar, qadınlar və uşaqlardan başlamaq üzərə insanlar qrup halında gəlib cənazə namazı qılırdılar. Beləcə səhərə yaxın Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in mübarək cəsədi qəbrə endirildi və dəfn edildi. Fatimə - *radıyallahu anhə* – deyirdi: «Ey Ənəs! Allah Rəsulunu torpağa qoyub üzərinə torpaq atmağa könlünüz necə razı oldu»[160]. Ənəs: «Onu torpağa qoyub üzərinə topraq atmaq bizim də qəlbimizi ağrıtmış, lakin biz bunu onun əmrini yerinə yetirmək məcburiyyəti ilə könüllərimiz ağlaya-ağlaya etdik».

PEYĞƏMBƏRİMİZİN XÜSUSİYYƏTLƏRİ

Peyğəmbərimiz Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in bir neçə xüsusiyyətləri vardır:

1. ***Peyğəmbərlərin Sonuncusudur - «Lakin o, Allahın Rəsulu və Peyğəmbərlərin sonuncusudur».*** *(əl-Əhzab 40).* Muhəmməd, Peyğəmbərlərin və Rəsulların sonuncusudur. O, Allahın risalətinin təbliği üçün seçdiyi son elçi, ona kitabların ən uca və ən əzəmətlisi endirilmişdi. O, Rəsulların əzəmətlisi, aləmlərin Rəbbinin həbibi və xəlilidir. Ondan sonra kim Peyğəmbərlik iddiasında olarsa kafirdir, onu doğrulayan da kafirdir. Bunda şübhə edən də kafirdir. Mömin ondan sonra Peyğəmbərin olmayacağına iman edər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Dəccal ilə əlaqəli olan hədisdə buyurur: «Mən Xatəmun-Nəbiyyinəm (Peyğəmbərlərin sonuncusuyam) və məndən sonra Peyğəmbər gəlməyəcəkdir»[161]. Başqa rəvayətdə: Peyğəmbər – *sallallahu aleyhi və*

[160] Buxari 7/753, İbn Məcə 1630, Darimi 1/40.
[161] İmam Əhməd «Musnəd» 3/79.

səlləm – buyurur: «Məndən sonra Peyğəmbər yoxdur»[162]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Məni əvvəlki Peyğəmbərlərlə müqayisə etdikdə, bu o şeyə bənzəyir ki, bir insan gözəl bir bina tikir, onu bəzəyir və evin bir kərpicini qoymur. Camaat evə baxdıqda deyirlər: «Necə ola bilər ki, o bu kərpici qoymağı unudub?» Mən isə həmin o, sonuncu kərpicəm»[163]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mənim isimlərim var. Mən Muhəmmədəm, mən Əhmədəm, mən Məhi (məhv edici) Allah mənimlə küfrü məhv edər. Mən Həşirəm – insanlar mənim ayaqlarımın izi ilə həşr olunurlar. Mən Akibəm. Akib isə məndən sonra Peyğəmbər göndərilməyəndir»[164].

2. *Allah Onu Ən Yüksək Məqama Yüksəldib* - Ən yüksək məqam isə şəfaət məqamıdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – orada şəfaət edəcək. ***«Gecənin bir vaxdı durub yalnız sənə xas olan əlavə namaz qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama göndərsin».*** *(əl-İsra 79).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü insanların seyyidi mənəm, qəbri açılacaq ilk kişi mənəm. İlk şəfaət edən və şəfaəti qəbul olunacaq ilk kişi də mən olacağam»[165].

3. *Hər Bir Peyğəmbər Öz Qövmünə, O İsə Hamıya Göndərilmiş Peyğəmbərdir* - *«Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş Peyğəmbəriyəm».* *(əl-Əraf 158). (Ey Muhəmməd!)* ***Biz səni bütün insanlara müjdə verən, qorxudan bir Peyğəmbər göndərdik. Lakin insanların əksəriyyəti bilməz».*** *(Səba 28).* ***«Biz səni insanlara Peyğəmbər göndərdik. Allahın buna şahid olaması*** *(sənə)* ***kifayət edər».*** *(ən-Nisa 79).* Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mənə beş şey verilib ki, bundan qabaq heç bir Peyğəmbərə verilməyib… Hər bir Peyğəmbər müəyyən bir qövmə göndərilib mən isə hamıya göndərilmiş Peyğəmbərəm»[166].

4. *Peyğəmbərimiz Xəlildir* - Məhəbbətin ən yüksək dərəcəsi olan Xəlillik dərəcəsinə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – də çatmışdır. Şübhəsiz Allah İbrahimi xəlil etdiyi kimi məni də xəlil etmişdi[167]. Bu hədis Xəlil İbrahimə, məhəbbət isə Muhəmmədə aid bir məqamdır deyənlərin fikirlərini məhv edir. Çünki Məhəbbət digər insanlar haqqında da sabitdir. ***«Allah tövbə edənləri, təmiz və pak olanları sevər».***

---

[162] Əbu Davud 4/98,121, Tirmizi 4/498,499, Musnəd 5/16,41,46.
[163] Buxari, Müslim.
[164] Buxari, Müslim.
[165] Müslim, Əbu Davud 4673, Musnəd 2/540.
[166] Buxari, Müslim.
[167] Müslim.

(əl-Bəqərə 222). ***«Şübhəsiz ki, Allah müttəqiləri sevər».*** *(Ali-İmran 76).* ***«Allah yaxşılıq edənləri sevər».*** *(Ali-İmran 134).* Beləliklə xəlillik İbrahimə, həbiblik Muhəmmədə xas olduğunu söyləyənlərin sözlərinin tutarsız olduğu ortaya çıxdı. Əksinə xəlillik hər iksinə də aiddir, həbiblik isə ümumidir. Ola bilər ki, kimsə sizə belə bir hədis də gətirə bilər. Lakin bilin ki, bu hədis zəifdir. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İbrahim Allahın Xəlilidir. Bunu da bilin ki, mən Allahın həbibiyəm və övünmürəm»[168].

5. ***Qurani Kərim - «De ki: «Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona*** *(gələcəkdə)* ***yetişəcək kimsə****ləri (Qiyamətə qədər)* ***xəbərdarlıq edib qorxutmağım üçün vəhy olunub».*** *(əl-Ənam 19).* ***«Aləmləri qorxutmaq üçün haqqı batildən ayıran Quranı öz bəndəsinə*** *(Muhəmmədə)* ***nazil edən Allah nə qədər uca, nə qədər uludur».*** *(əl-Furqan 1).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Peyğəmbərlərdən elə bir peyğəmbər yoxdur ki, ona bəşərin məğlub olaraq inandığı (bir möcüzə) verilmiş olmasın. Möcüzə olaraq mənə verilən şey isə Allahın mənə vəhy etdiyi Qurandır»[169].

6. ***Allah Onun Həyatına And İçmişdir -*** Allah şərəfini ucaltmaq və hörmətini artırmaq üçün həyatına and içdiyi tək insan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dir. ***«****(Ya Rəsulum!)* ***Canına and olsun ki, onlar məstlikləri*** *(küfrləri)* ***içində sərgərdan*** *(şaşqın)* ***vəziyyətdə durub qaldılar.*** *(Lutun nəsihətini qəbul etmədilər)****».*** *(əl-Hicr 72).* İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Allah Muhəmməd – *sallallahu aleyhi və səlləm* – dən daha dəyərli heç kimsəni yaratmamışdır. Allahın ondan başqa bir kimsənin həyatına and içdiyini bilmirəm».

7. ***Peyğəmbərin İsminin Zikr Edilməsi -*** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in İsmi Qurani Kərimdə **4** yerdə zikr edilmişdir: ***«Muhəmməd ancaq bir Peyğəmbərdir. Ondan əvvəl də Peyğəmbərlər gəlib-getmirlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?*** *(Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?)* ***Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər».*** *(Ali İmran 144).* ***«Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir.*** *(Oğul odur ki, kişinin öz belindən əmələ gələ!)* ***Lakin o, Allahın Rəsulu*** *(elçisi)* ***və Peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!»*** *(əl-Əhzab 40).* ***«İman gətirib yaxşı əməllər edənlərin, Rəbbindən Muhəmmədə haqq olaraq nazil edilənə*** *(Qurana)* ***inanların***

---

[168] Tirmizi 3620 qərib hədis. Sənədi zəif.
[169] Müslim.

isə günahlarının üstünü örtəcək, onların əhvalını *(dünyada və axirətdə)* ***düzəldəcəkdir*** *(yaxşılaşdıracaqdır)****».*** *(Muhəmməd 2).* ***«Muhəmməd*** *(əleyhissəlam)* ***Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar*** *(möminlər)* ***kafirlərə qarşı sərt, bir-birinə*** *(öz aralarında)* ***isə mərhəmətlidirlər. Sən onları*** *(namaz vaxtı)* ***rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir.*** *(Qiyamət günü onlar üzlərindəki möminlik nuru alınlarındakı möhür yeri ilə tanınırlar).* ***Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da*** *(o cücərti də)* ***möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur.*** *(Allahın bu təşbihi)* ***kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət*** *(günahlardan bağışlanma)* ***və böyük mükafat*** *(Cənnət)* ***vəd buyurmuşdur!».*** *(əl-Fəth 29).*

8. ***Peyğəmbərimizin Meracı -*** Peyğəmbər – *sallallahu aleyhi və salləm* – on il Allahın əmrinə tabe olaraq tövhidə dəvət etdi. On ildən sonra göylərə yüksəldi. Merac – ***<u>Aracə</u>*** sözündən götürülüb. ***<u>Uruc</u>*** - qalxmaq, yüksəlmək deməkdir. İsra – ***<u>Əsra</u>*** sözündən götrülüb. Bəziləri-nin dediyinə görə Peyğəmbər – *sallallahu aleyhi və salləm* – Merac səfərini yuxuda edib, digərlərinin dediyinə görə o – *sallallahu aleyhi və salləm* –, Meraca yalnız ruhu ilə gedib. Lakin səhih odur ki, həm ruhu, həm də cəsədi ilə gedib və ömründə bir dəfə olub. Bu hadisə Məkkədə Peyğəmbərlikdən sonra və hicrətdən bir il əvvəl **27** Rəcəb **621**- ci ildə baş verib. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və salləm* – Kəbədə əl-Hicr deyə adlanan yerdə yatarkən biri gəlib boğazından qarnının alt tərəfinə qədər olan hissəni yardı. Qəlbini çıxardıb zəm-zəm suyu ilə yuduqdan sonra onu hikmət və iman ilə doldurdu. Bu da onu irəlidə gözlənilən üçün hazırlıq idi. Sonra qatırdan alçaq, eşşəkdən böyük olan Burak adı verilən ağ bir minik gətirildi. Bu minik addımını gözün son görmə həddinə qoyardı. Peyğəmbər – *sallallahu aleyhi və salləm* – ilə birlikdə Cəbrail – *əleyhissəlam* – olduğu halda miniyə mindilər. Beytul Məqdisə gəldik. Onu (məndən əvvəlki) Peyğəmbərlərin bağladıqları halqaya bağladım. Sonra məscidə girdik. Peyğəmbərlərə imam olaraq iki rükət namaz qıldıq. Bütün Peyğəmbərlər də onun arxasında namaz qıldılar. Beləliklə Peyğəmbər – *sallallahu aleyhi və salləm* – in fəziləti, şərəfi və ona uyulan bir imam olduğu ortaya çıxmış oldu. Oradan çıxdıqdan sonra Cəbrail – *əleyhissəlam* – mənə bir qab şərab və bir qab da süd gətirdi. Mən südü seçdim. Cəbrail – *əleyhissəlam* – mənə: «Sən fitrəti seçdin, ümmətində fitrət üzərindədir» dedi. Sonra

Cəbrail – *əleyhissəlam* – ilə birlikdə dünya səmasına yüksəldik. Birinci səmanın qapılarının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Birinci səmada Adəm – *əleyhissəlam* – göründü. Cəbrail ona: «Bu sənin baban Adəmdir, ona salam ver» dedi. Peyğəmbər ona salam verdi, o da salamı alıb və «Saleh övladıma saleh Peyğəmbərə salam olsun» dedi. Adəmin sağ tərəfində xoşbəxt kimsələrin ruhları, sol tərəfdə isə bədbəxt kimsələrin ruhları vardır. O, sağ tərəfinə baxanda sevinər və gülərdi, sol tərəfinə baxdıqda isə ağlayardı. Çünki sağ tərəfdə olanlar Cənnət əhli, sol tərəfində olanlar isə Cəhənnəm əhlindən olan kimsələr idi. Sonra Cəbrail onunla ikinci səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. İkinci səmada Yəhya və İsa (hər iksinə Allahın salat və salamı olsun) göründü. Cəbrail dedi ki, bunlar Yəhya və İsadır – *əleyhimussəlam* –, hər iksinə salam ver. O, da onlara salam verdi, onlar da salamını alıb: «Saleh qardaşımıza və saleh Peyğəmbərə salam olsun» dedilər. Sonra Cəbrail onunla üçüncü səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Üçüncü səmada Yusif – *əleyhissəlam* – göründü. Cəbrail dedi ki, bu Yusifdir, ona da salam ver. O, da salam verdi, salamını alıb: «Saleh qardaşımıza və saleh Peyğəmbərə salam olsun» dedi. Sonra Cəbrail onunla dördüncü səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Dördüncü səmada İdris – *əleyhissəlam* – göründü. Cəbrail dedi ki, bu İdrisdir, ona da salam ver. O, da salam verdi, salamını alıb: «Saleh qardaşımıza və saleh Peyğəmbərə salam olsun» deyə dua etdi. Allah buyurur: ***«Biz onu yüksək məqama qaldırdıq».*** *(Məryəm 57).* Sonra Cəbrail – *əleyhissəlam* – onunla beşinci səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular.

«Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Beşinci səmada Musa – *əleyhissəlam* – ın qardaşı İmran oğlu Harun – *əleyhissəlam* – göründü. Cəbrail dedi ki, bu Harundur, ona da salam ver. O, da salam verdi, salamını alıb: «Saleh qardaşımıza və saleh Peyğəmbərə salam olsun» dedi. Sonra Cəbrail onunla altıncı səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Altıncı səmada Musa – *əleyhissəlam* – göründü. Cəbrail dedi ki, bu Musadır, ona da salam ver. O, da salam verdi, salamını alıb: «Saleh qardaşımıza və saleh Peyğəmbərə salam olsun» dedi. Yanından getdikdə Musa ağladı. «Nəyə ağlıyırsan?» deyildikdə: «Çünki məndən sonra Peyğəmbər olaraq göndərilən bu gəncin ümmətindən Cənnətə girəcək olanlar, mənim ümmətimdən Cənnətə girəcək olanlardan daha çoxdur (Başqa rəvayətdə: Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İsra gecəsində Musanın yanına çatdım. Qırmızı qum təpəsinin yanındakı qəbrində namaz qılırdı»[170]). Sonra Cəbrail onunla yeddinci səmaya çıxdı və səmanın qapısının açılmasını istədi. «O, kimdir?» deyə soruşdular. «Cəbrail» dedi. «Yanında kim var?» deyə soruşdular. «Muhəmməd» deyə cavab verdi. «Ona risalət verildimi?» deyə soruşdular. «Bəli» dedi. Bu dəfə: «Səfa gəldi, xoş gəldi» deyildi və ona səmanın qapısı açıldı. Yeddinci səmada Xalilur-Rahmən İbrahim – *əleyhissəlam* – göründü. Cəbrail dedi ki, bu sənin atan İbrahimdir, ona da salam ver. O, da salam verdi, salamını alıb: «Saleh övlad və saleh Peyğəmbərə salam olsun» dedi.

Cəbrail – *əleyhissəlam* – Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i bu Peyğəmbərlərin yanına götürməsi, ona olan bir ikram, onun şərəfini və fəzilətini ortaya çıxarmaq üçün idi. İbrahim – *əleyhissəlam* – belini yeddinci səmadakı Beytul-Məmura söykəmişdi. Bu Beytul-Məmura gündə yetmiş min mələk girər, orada Allaha ibadət edər, namaz qılar, sonra oradan çıxar və bir daha oraya qayıtmazlar. Sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ***Sidrətul Muntəhaya*** qədər yüksəldi. Allahın əmri ilə orada olan gözəllikləri gördü. Sonra Allah Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ə bir gün və bir gecədə əlli vaxt namaz fərz qıldı. Peyğəmbər buna təslimiyyətlə razı oldu. Səmadan enib Musa – *əleyhissəlam* – ın yanından keçəndə ona: «Rəbbin ümmətinə nəyi fərz

[170] Müslim «Fəzail» 2375.

qıldı?» dedi. «O, bir gündə əlli namaz fərz qıldı». Musa: «Sənin ümmətinin buna gücü çatmaz. Səndən əvvəl mən öz ümmətimə bunu bəyan etmişdim. İsrail oğullarından çox çətinliklərlə qarşılaşdım. Rəbbinə qayıt və ümmətin üçün yükünün yüngülləşdirilməsini dilə». Bundan sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bir neçə dəfə Rəbbinə müraciət etdi və namaz beş vaxt sayına qədər azaldıldı. Bundan sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə Cənnət və Cəhənnəm də göstərildi. Usamə b. Zeyd - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «(Merac gecəsində) Cənnətin qapısında durub içəri baxdım. Oraya girənlərin böyük çoxluğunun miskinlər olduğunu gördüm. Mal sahiblərindən Cəhənnəmlik olanlardan başqaları (haqq-hesab) üçün həps olunmuşlar. Atəş əhli olan zənginlərin isə Cəhənnəmə atılmaları öncə əmr olunmuşdur. Cəhənnəmin qapısında da durdum. Bir də baxdım ki, Cəhənnəmə girənlərin çoxu qadınlardır (Başqa rəvayətdə: «Biz nəyə görə Cəhənnəm əhlinin çox hissəsi olacağıq)» dedilər. Peyğəmbər: «Çünki çox lənət edir, ərlərnizə qarşı nankorluq edirsiniz. Yaxşılığa qarşı küfr edirsiniz. Onlardan birinə dünya durduqca yaxşılıq etsən və sonra səndən məmnun olmayacaq bir şey görsə – səndən heç bir xeyir görmədim deyər. Ağıl və din naqisliyi də vardır. Sizin qədər ağlı başından alaraq kişiyə üstün gələni görmədim». Qadınlar: «Ağıl və din naqisliyi nədir?» deyə soruşdular. Peyğəmbər: «Ağlı nöqsanlığa gəldikdə – iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabərdir. Dini naqisliyə gəldikdə isə – (heyzli günlərdə) namaz qılmazsınız və Ramazanda da (bir müddət) oruc tutmazsınız»[171]. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İsra gecəsində dırnaqları uzun olan bir qövmə çatdım. Onlar üzlərini və (kökslərini) cırmaqlayırdılar». Mən: «Ey Cəbrail! Bunlar kimlərdir?» deyə soruşdum. Cəbrail: «Bunlar insanların ətlərini yeyənlərdir (qeybət edənlər)» deyə buyurdu[172]. Daha sonra Peyğəməbr – *sallallahu aleyhi və səlləm* – səmadan enib Məkkəyə geri döndü»[173]. Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qureyş məni təqzib etdiyi vaxt Allah Beytul Məqdisi mənə təcəlli etdi. Mən onlara onun əlamətlərini bir-bir xəbər verməyə başladım. Mən Beytul Məqdisə baxır, həm də xəbər verirdim»[174].

---

[171] Buxari «Rikak» 51, Müslim 79, 2736.
[172] Əbu Davud 4870, 4879.
[173] Buxari, Müslim.
[174] Buxari, Müslim 170.

9. ***Peyğəmbərimizin Möcüzələri*** - Allah Peyğəmbərinə nübuvətinin bir dəlili olmaq üçün vermiş olduğu olduqca böyük möcüzələrdən biri də ***İnşiqaqi-Qamər*** (ayın bölünməsi) möcüzəsidir[175]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Ay Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – zamanında iki parçaya bölündü. Peyğəmbər: «Şahid olun!» deyə buyurdu. (Başqa rəvayətdə: «Biz Minada Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə bərabər ikən ay iki parcaya ayrıldı. Bir parçası dağın arxasına, bir parçası isə dağın önündə idi». Bizə: «Şahid olun» deyə buyurdu[176]. Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – minbər olmayanda kötüyün üstündə xütbə verərdi. Minbər düzəldikdə isə kötüyü tərk edir. Səhabələr o, kötüyün yanından keçərkən onun inildəməsini, ağlamasını eşidib Peyğəmbərə xəbər verirlər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – gəlib o, kötüyü qucaqlayıb buyurur: «Bilirsiniz o, niyə ağlayır? Allahın ayələri onun üstündə zikr olunmadığına görə darıxır»[177]. Cabir b. Səmura - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən Məkkədə bir daş tanıyıram ki, mən Peyğəmbər göndərilmədən əvvəl mənə salam verirdi. Heç şübhəsiz ki, mən indi də o,

---

[175] ***Möcüzə*** – insanların gördükləri və ya Peyğəmbər olaraq göndərənin varlığına kəsin bir dəlildir. Onları göndərən isə Allahdır. Çünki bunlar bəşəriyyətin güc və taqətindən kənar olan xüsuslardır. Allah möcüzələri Peyğəmbərlərini dəstəkləmək və onlara kömək etmək üçün meydana gətirir. ***Kəramət*** – Allahın saleh (yalnız saleh) qullarına Allahdan onlara bir ikram olaraq verdiyi bir şeydir. Bu kəramət Quran ayələri, hədislərdən və əsərlərdən məlum olduğu kimi Allah bir çox qullarına bunu ikram etmişdir. Məs: İsa – *əleyhissəlam* – dünyaya gəlməsi möcüzə, onun anası üçün isə kəramətdir. Zəkəriyyə – *əleyhissəlam* –ın Məryəm – *əleyhissəlam* – yanına girdikdə orada yayda qış meyvələrinin olduğunu, qışda isə yay meyvələrinin olduğunu görür. Musa – *əleyhissəlam* – ın anasına Allah vəd verir ki, biz uşağı sənə qaytaracağıq. Ömər - *radıyallahu anhu*– xütbə verərkən öz göndərdiyi qoşunun uduzduğunu görərək onlara qışqırır ki: «Ey Səriyyə! Dağa tərəf çəkil». Və həqiqətən də onlar qalib gəlib qayıtdıqda deyirlər ki, biz hamımız sənin səsini eşitdik. ***Sehr*** – İbn Qudamə – *rahmətullahi aleyhi* - deyir ki: «Sehr düyünlər, oxumalar və söylənən sözlər, yazılan ifadələr, edilən şeylərdir ki, bunlar sehr edilən kimsənin bədəninə, qəlbinə və ya ağlına bilavasitə təsir edir. Sehirin bir həqiqəti vardır ki, kimisə öldürür, kimisə xəstə edir, kimisə xanımına yaxınlaşmaqdan çəkindirir, ər və arvadı bir-birindən ayırır. Sehrin öyrənilməsi və öyrədilməsi haramdır. Bəziləri özlərinə təskinlik vermək üçün deyirlər ki, biz insanlara yaxşılıq edirik, onların dərdlərini azaldırıq. Buna da ağ maqiya adını verirlər. Lakin bu əsla belə deyildir. Nə ağ maqiya, nə də qara maqiya ilə məşğul olmaq olmaz. Bunların hər ikisi də haramdır. Bu işlə məşğul olan adam tövbə etməsə – Allah qorusun – dünyasını da, axirətini də puç edəcəkdir. Əgər sehr yaxşı bir şey olsaydı Allah ondan sığınmağı əmr etməzdi. Bax: ən-Nəs, əl-Fələq, əl-Bəqərə 102 və s. ***Kəramət Və Sehr:*** 1. Kəramət insanın istəyi ilə gəlmir. Onu Allah istədiyi vaxt və istədiyi saleh quluna verir. 2. Kəramət mömin bəndə üçün olur. 3. Kəramət sahibi təkəbbürlü olmaz və onu insanlar arasında yaymaz. 4. Kəraməti heç nə məhv edə bilməz. ***Möcüzə Və Sehr:*** 1. Bu dünyada möcüzə yoxdur. kəramət və ya sehr vardır. Peyğəmbərlər yoxdursa möcüzə də yoxdur. 2. Möcüzə qeyri adi bir şey olur. Allah elə bir möcüzə göstərir ki, insanlar dəhşətə gəlirlər. 3. Möcüzə iman gətirən şəxs üçün olur. Sehr isə kafir, fasiq və s. üçün olur. 4. Möcüzənin qarşısını heç nə ilə almaq olmaz. Sehri isə Quran ayələri, dualarla qarşısını almaq olar.

[176] Buxari "Mənakib" 27, Müslim 2800.

[177] Buxari.

daşı tanıyıram»[178]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə səfərdə idik. Suyumuz azaldı. Peyğəmbər: «Mənə bir az su tapın» deyə buyurdu. İçərisində bir az su olan qab gətirdilər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əlini qabın içinə saldı. İndi təmiz və mubarək suya gəlin deyə buyurdu. İbn Məsud: «Allaha and olsun ki, su barmaqlarının arasından qaynadığını gördüm. Vallahi biz yeməyin təsbihini də eşidirdik»[179]. (Başqa rəvayətdə: «İçiləsi su olmadığından Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə bir qab su gətrilir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əlini qabın içinə saldı. Allaha and olsun ki, su barmaqlarının arasından qaynadığını gördüm. Hamımız o, sudan içdik». Cabirdən: «Siz o, gün neçə nəfər ididniz deyə soruşdular». Cabir: «Əgər biz yüz min də olsaydıq su bizə çatardı. Lakin biz o, günü **1500** nəfər idik»)[180]. Bəra - *radıyallahu anhu* – rəvayət edir ki, siz fəth dedikdə Məkkənin fəthini nəzərdə tutursunuz. Bəli, Məkkənin fəthi bir fəthdir. Lakin biz sahabələr fəth dedikdə Ridvan beyətini nəzərdə tuturuq. Biz o, vaxtı Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanında min dörd yüz nəfər idik. Hudeybiyyə isə bir quyunun adıdır. Biz o. quyunun suyunu tam olaraq aldıq. Bir damla da belə buraxmadıq. Bu xəbər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – çatdı. Dərhal quyunun yanına gələrək kənarında oturub bir qab su istədi. Əlini yaxaladı, ağzına su alıb quyunun (içinə püskürtdü) və dua etdi. Sonra suyu quyuya tökdü. Sonra: «Quyunu bir müddət tərk edin» deyə buyurdu. Quyunu tərk edib bir az uzaqlaşdıq. (Bir müddətdən sonra) Quyu bizə və miniklərimizə yetəcək qədər su saldı[181]. Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, bir gün bir Bədəvi ərəb cümə günü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – xütbə verərkən məscidə girib deyir: «Ey Allahın Rəsulu! Mallarımız tələf oldu, uşaqlarımız ac qaldı. Bizim üçün Allaha dua et». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əllərini qaldıraraq dua etdi. Buludlar dağlar kimi ortaya yığıldılar. Minbərdən enməmiş yağış dənələri saqqalından süzülməyə başladı. İkinci cümə yenə o, bədəvi ərəb qalxıb dedi: «Ey Allahın Rəsulu! Evlərimiz dağıldı, mallarımızı sular yuyub apardı. Bizim üçün Allaha dua et» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əllərini qaldıraraq dua etdi: «Allahım üztümüzə, ətrafımıza yox!» Əli ilə işarə etdiyi tərəfə yağış yağmağa başladı»[182]. Bədr döyüşündə Qatadə - *radıyallahu anhu* – nun

---

[178] Müslim.
[179] Buxari «Mənakib» 25, «Vudu» 32, Müslim 2279, Tirmizi 3637.
[180] Buxari, Müslim 1856, 2279.
[181] Buxari «Ənbiya» 25, «Məğazi»35.
[182] Buxari.

gözü çıxmış və yanağına düşmüşdür. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gəldi. Peyğəmbər: «***Bismilləh***» deyərək gözü yerinə qoydu. Göz olduğundan daha gözəl bir şəkildə yerində durdu. Digər gözündın daha sağlam görməyə başladı. Qatadənin övladları atalarının başına gələn bu mçcüzə ilə daima iftixar edərdilər. Qatadənin oğlu xəlifələrdən birinin yanına girərkən Xəlifə kimliyini soruşdu. Qatadənin oğludur – dedilər. Qatadənin oğlu: «Mən gözü ynağşna düşmüş Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yerinə qoyduğu kişinin oğluyam». əl-Həkəm b. Əbil Asim adlı bir nəfər Peyğəmbər ələ salaraq onun yolda yerişini təqlid edirdi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onun üçün bəd dua etdi vı: «Sən el də qal!» dedi. Adam şikəst oldu və ölənə qədər titrəyərdi». Ağacın onunla danışması. Bir bədəvi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına yaxınlaşdıqda Peyğəmbər: «Hara getmək istəyirsən?» deyə soruşdu. Bədəvi: «Ailəmin yanına» dedi. Peyğəmbər: «Sənə xeyirli bir xəbər deyimmi?». Bədəvi: «Nədir o?» dedi. Peyğəmbər: «Tək və ortağı olmayan Allahdan başqa ibadətə layiq haqq İlah olmadığına və Muhəmmədin Onun qulu və Rəsulu olduğuna şəhadət gətirərsən». Bədəvi: «Sənin bu dediyinə şəhadət edəcək bir dəlilin varmı?» dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – vadinin kənarında olan ağacı göstərərək: «Bu ağac» dedi. Ağac həmən yeri eşərək gəldi və Peyğəbər – *sallallahu aleyhi və səlləm* – in qarşısında durdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ondan üç dəfə şəhadət gətirməsini istədi. Ağac da onun dediyi kimi (üç dəfə) şəhadət gətirdi»[183].

Bundan başqa yeməyin çoxalması, Ovcunda daşların təsbih etməsi, daşların ona salam verməsi və s. kimi möcüzələri vardır. Alimlər xırdalı böyüklü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in möcüzələrini üç minə qədər çatdırırlar[184].

PEYĞƏMBƏRLƏRƏ İMANIN FAYDALARI

1. Onların Allah tərəfindən haqq ilə, elçi olaraq göndərildiklərinə iman etmək. Onlardan hər hansı birisinin risalətini inkar edən kimsə, hamısını inkar etmiş sayılır. Məs: Allah buyurur: ***«Nuh qövmü Rəsulları yalanladılar».*** *(əş-Şuara 105).* Bu ayədən göründüyü kimi Allah onları bütün Rəsulları yalanlamış olduqlarını qeyd edir. Halbuki onu yalanladıqlarında Nuhdan başqa rəsul yox idi. Buna görə də Muhəmməd – *sallallahu aleyhi və səlləm* – i yalanlayan və ona tabe olmayan Yəhudi və

---

183 Sünən Darimi 16 səhih, İbn Hibban 6505, Şeyx Şueyb Arnavut səəih.
184 Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – m möcüzələri haqqında geniş məlumata Buxari, Müslim, Əbu Davud, Tirmizi və s. kimi alimlərin hədis kitablarında baxa bilərsiniz.

Xristianlar eyni zamanda Musa – *əlehissəlam* – ı, Məryəm oğlu İsa – *əlehissəlam* – ı da yalanlamaqda və ona tabe olmamaqdadırlar.

2. Peyğəmbərlərdən adlarını bildiklərimizə iman gətirir, adlarını bilmədiyimiz Peyğəmbərlərə də icma ilə iman gətiririk.

3. Onlardan bizə səhih olaraq nəql edilən xəbərləri təsdiq etmək.

4. Göndərilmiş olan Rəsulun şəriətinə gərəyincə əməl etmək. Bu rəsul da sonuncu olan Muhəmməd – *sallallahu aleyhi və səlləm* – dir.

5. Allahın qullarına olan rəhmət və mərhəmətini bilmək. Allah onları Öz yoluna yönəltmək, Allaha necə ibadət edəcəklərini onlara başa salmaq üçün Peyğəmbərlər göndərmişdir. Çünki insan tək ağlı ilə bunları dərk edə bilməz.

6. Allahın göndərdiyi peyğəmbərləri sevmək, onları təzim etmək və onlara yaraşır şəkildə tərif etmək. Çünki onlar Allahın rəsullarıdır, onlar Allaha ibadət etmiş, risalətini təbliğ etmiş və onun qullarına səmimi öyüd-nəsihət vermişdilər.

7. Bu böyük nemətə görə Allaha şükr etmək.

AXİRƏTƏ İMAN

Əhli Sünnə Vəl Cəmaat axirət gününə etiqad edir və inanırlar. Bunun mənası da qiyamət gününə Allahın kitabında, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in sünnəsində ölümdən sonra Cənnətliklərin Cənnətə, Cəhənnəmliklərin də Cəhənnəmə girəcəyi zamana qədər meydana gələcək şeylərə dair verilmiş xəbərlərin hamısına inanmaqdır. Axirət günü Allahın insanları haqq-hesab və cəza (əməllərinin qarşılığını verməsi) üçün dirildəcəyi Qiyamət günüdür. Ona bu adın verilməsinin səbəbi, ondan sonra gün olmayacağına görədir. Çünki artıq Cənnətliklər Cənnətə, Cəhənnəmliklər də Cəhənnəmə yerləşdiriləcəklər. ***«Qiyamət mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur. Lakin insanların çoxu inanmaz».*** *(əl-Mumin 59).* ***«Sizə vəd olunan*** *(qiyamət)* ***həqiqətdir. Haqq-hesab*** *(cəza və mükafat)* ***da labüddür».*** *(əz-Zariyat 5-6).*

Allah Qurani Kərimdə Allaha iman ilə, axirətə iman etməyi bir-birinə bağlı olaraq zikr etmişdir. ***«O, kəslər ki, sənə göndərilənə*** *(Qurana)* ***və səndən əvvəl göndərilənlərə*** *(Tövrat, İncil, Zəbur)* ***iman gətirir və axirətə də şəksiz inanırlar».*** *(əl-Bəqərə 4).* ***«Yaxşı əməl sahibi heç də üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyil. Yaxşı əməl sahibi əslində Allaha, Qiyamət gününə… inanandır».*** *(əl-Bəqərə 177).*

Əhli Sünnə Qiyamətin qopma vaxtını Allah tərəfindən bilindiyinə, Allahdan başqa kimsənin onu bilmədiyinə inanırlar. ***«Həqiqətən Qiyamətin qopacağı vaxtı ancaq Allah bilir».*** *(Loğman 34). (Ya*

Məhəmməd!) ***Səndən qiyamət haqqında soruşurlar ki, nə vaxt qopacaq? De ki: «O, ancaq Rəbbimə məlumdur. Qiyamətin qopacağı vaxtı Allahdan başqa heç kəs bilə bilməz».*** *(əl-Əraf 187). (Ya Muhəmməd! Müşriklər)* ***Səndən qiyamətin nə vaxt qopacağı barəsində soruşurlar. Sən onun vaxtını nə bilirsən? Onu bütün təfərrüatı ilə bilmək ancaq sənin Rəbbinə məxsusdur».*** *(ən-Nəziat 42-44).* Ömər - *radıyallahu anhu* – nun rəvayət etdiyi hədisdə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən Qiyamət saatı haqqında soruşan Cəbrail – *əleyhissəlam* – a Rəsulullah – *sallallahu aleyhi və səlləm* – belə cavab vermişdi: «Soruşulan soruşandan cox bilmir»[185].

Lakin sünnə ilə həmən günün hansı olduğu barədə məlumat gəlmişdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Günlərin ən xeyirlisi cümə günüdür. O gün Adəm – *əleyhissəlam* – yaradıldı, o gün Cənnətə salındı, o gün Cənnətdən qovuldu və o gün qiyamət qopacaqdır (Başqa rəvayətdə: «Cümə günü bütün heyvanlar şəfəqdən gün doğuncaya qədər qiyamət qopar deyə qorxudan qulaqlarını şəkiliyərək dinləyərlər. Yalnız cinlər və insanlar bundan qafildirlər)»[186]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Günlərin ən xeyirlisi cümə günüdür. O gün Adəm yaradıldı, o gündə vəfat etdi. O, gün sura üflənəcəkdir. O, gündə göydəkilər də, yerdəkilər də öləcəklər. O, gün mənə çox salavat gətirin. Sizin salavatınız harada olsanız mənə çatacaqdır». Biri: «Ey Allahın Rəsulu! Sən çürüdükdən sonra salavatımız sənə necə çatacaqdır?» deyə soruşdu. Peyğəmbər: «Doğrusu Allah Peyğəmbərlərin cəsədlərini yeməyi torpağa haram etmişdir» deyə buyurdu[187].

Axirət gününə imanın mənası onun şəkk-şübhəsiz olaraq gələcəyinə inanmaq və buna uyğun olaraq gərəyincə əməl etmək deməkdir. Qiyamətin qopmasından əvvəl ortaya çıxacaq qiyamətin böyük və kiçik əlamətlərinə iman, ölümə, ölümdən sonra qəbr sorğusuna, əzab və nemətinə, Sura üfürüləcəyinə, yaradılmışların qəbirlərindən çıxacaqlarına, qiyamətin hesab yerindəki dəhşətli və qorxulu hallarına, məhşərə, səhifələrin (əməl dəftərlərinin) açılacağına, tərəzinin və sırat körpüsünün ortaya qoyulmasına, hovuza, şəfaətə və digər xüsuslara, Cənnətə və ən yüksək mərtəbəsi Allahın üzünə baxmaq olan nemətinə, Cəhənnəmə və orada olan dəhşətli əzablara iman etmək axirətə iman etməyin içərsinə daxildir. Elm adamları Qiyamətin əlamətlərini kiçik və böyük əlamətlər

---

185 Buxari, Müslim.
186 Müslim, İmam Məlik «Muvatta» 1/108.
187 Nəsai «Cümə» 3/5.

olmaqla iki qismə ayırmışlar. *«(Məkkə müşrikləri)* ***özlərinə yalnız mələklərin, yoxsa Rəbbinin*** *(əzabının)****, yaxud da Rəbbinin bəzi qiyamət əlamətlərinin gəlməsinimi gözləyirlər? Rəbbinin bəzi qiyamətin əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış şəxsə*** *(sonrakı)* ***imanı heç bir fayda verməz». De ki: «Gözləyin, doğrusu biz də gözləyirik».*** *(əl-Ənam 158).* ***«Ey insanlar! Rəbbinizdən qorxun. Həqiqətən qiyamət gününün zəlzələsi dəhşətli şeydir».*** *(əl-Həcc 1).* ***«Onlar*** *(kafirlər)* ***ancaq qiyamət saatının qəfildən başlarının üstünü almasınımı gözləyirlər? Onun əlamətləri artıq gəlmişdir. Qiyamət saatı onlara gəlib çatdığı zaman ibrət almaları*** *(peşman olub tövbə etmələri)* ***onlara nə fayda verər?».*** *(Muhəmməd 18).* ***«….Nə bilirsən, bəlkə də qiyamət saatı yaxındır! Ona inanmayanlar onun tez gəlməsini istərlər. İnananlar isə onun haqq olduğunu bilərək ondan qorxuya düşərlər. Bil ki, Qiyamət saatı haqqında mübahisə edənlər*** *(haqq yoldan)* ***azıb çox uzaq düşmüşlər».*** *(əş-Şura 17-18).*

QİYAMƏTİN KİÇİK ƏLAMƏTLƏRİ

***Qiyamətin Əlamətləri İki Qismə Ayrılır*:**

1. ***Kiçik Əlamətlər*** **–** Bu əlamətlər çox uzun zaman davam edən və təkrarlanan əlamətlərdir. Məs: Elmin yox olması, çəhalətin çoxalması, içki içilməsi, binaların ucaldılması və s.

2. ***Böyük Əlamətlər*** **–** Bu əlamətlər Qiyamətin qopmasına yaxın görüləcək ilk dəfə olacaq böyük hadisələrdir. Məs: Dəccalın çıxması, İsa - *əleyhissəlam* - ın gəlməsi, Yəcuc və Məcuc tayfaları və s[188].

Qiyamətin kiçik əlamətləri olduqca çoxdur. Bunlardan səhih yolla bizə çatan bəzilərini xatırladaq. Bu əlamətləri sıra ilə vermədim. Çünki əlamətlərin hansı sırayla olacağını bildirən bir dəlil yoxdur. Buna görə də alimlərin oldu və bitti dedikləri əlamətlərdən başladım. Diqqət çəkiləsi məsələlərdən biri də bəzi insanların Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in xəbər verdiyi Qiyamət əlamətlərinin çəkinəlisi və qadağan olunan bir əlamətlər kimi başa düşürlər. Lakin bu heç də belə deyildir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in xəbər verdiyi Qiyamətin əlamətlərinin hamısı çəkinəlisi və ya pis əlamət deyildir. Onların içərisində xeyirli olan əlamətlər də vardır.

1. ***Peyğəmbərimiz Muhəmməd – Sallallahu Aleyhi Və Səlləm – İn Göndərilməsi:*** Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən Qiyamət günü

[188] "Fəthul Bəri" 13/485, ət-Təzkira s. 624.

ilə birlikdə göndərildim, bu iki barmaq kimi». Ravi Şöbə deyir ki: «O şəhadət barmağı ilə orta barmağını bir-birinə birləşdirdi. Onların bir-birinə olan üstünlüyü qədər»[189]. İmam Bağavi – *rahmətullahi aleyhi* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Allah tərəfindən göndərilməsi Qiyamətin yaxınlaşmasına səbəbdir. Əbu Cubeyr - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən Qiyamət gününün küləyi ilə göndərilmişəm»[190].

2. *Onunla Peyğəmbərliyin, Risalətin Sona Yetməsi Və Peyğəmbər – Sallallahu Aleyhi Və Səlləm – İn Vəfat Etməsi:* Auf b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günündən qabaq altı hadisəni gözləyin: «Mənim ölümümü»[191]. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Mədinəyə gələndə bütün şəhər sevinirdi. O, öldüyü gün isə bütün şəhər zülmətə qərq olmuşdu[192]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dünyasını dəyişdikdən sonra Əbu Bəkr və Ömər - *radıyallahu anhum* – onun süd anasını ziyarət etmək qərarına gəlirlər. Qoca qadın ilə görüşdükdə onun ağladığını görüb deyirlər: «Nə üçün ağlayırsan? Allah Rəsulu üçün Onun (Allahın) dərgahında daha yaxşıdır» Qoca qadın dedi: «Mən ona görə ağlayıram ki, artıq vəhylər gəlməyəcəkdir». Bu sözlər Əbu Bəkr və Ömər - *radıyallahu anhum* – da ağlamağa məcbur etdi[193].

3. *Beytul-Məqdisin Fəth Edilməsi:* Auf b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günündən qabaq altı hadisəni gözləyin: «Qüdsün (Yerusəlimin) fəth edilməsi»[194]. Ömər - *radıyallahu anhu* – nun xəlifəliyi dövründə, hicrətin **16**-cı ilində Qüds zəbt olunur və orada bir məscid də inşa edilir[195].

4. *Fitnələrin Ortaya Çixması:* Fitnələrlə bağlı hədislər çoxdur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ümmətini fitnərə qarşı xəbərdarlıq etmiş, onlardan Allaha sığınmalarını əmr etmişdir. Usamə b. Zeyd - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Mədinənin yüksək binalarından birinə çıxaraq: «Mənim gördüklərimi görürsünüzmü?» deyə buyurdu. Səhabələr: «Xeyr» dedilər. O: «Evlərinizin arasına (şiddətli yağan) yağışın (açdığı yaralar) kimi

---

[189] "Fəthul Bəri", Buxari "Rikak" 11/347, Müslim "Fitən".
[190] əd-Daulabi, əl-Albani səhih.
[191] Buxari "Cizyə", "Fəthul Bəri" 6/277.
[192] Tirmizi "Mənakib", "Tuhfətul Əhfazi" 10/87-88, Şueyb əl-Arnaut səhih olduğunu qeyd edir.
[193] Müslim "Fadailus Sahabə", İmam Nəvəvi "Şərh Müslim" 16/9-10.
[194] Buxari "Cizyə", "Fəthul Bəri" 6/277.
[195] "əl–Bidâyə vən–Nihâyə" 7/55–57

fitnələrin yağdığını görürəm»[196]. Bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dedi: «Fitnələr zamanı evimə girib məni öldürmək üçün əlini mənə uzadana nə edim. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Adəm – *əleyhissəlam* – kimi ol! ***«Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram». (əl-Maidə 28)[197].*** Zeyd b. Sabit - *radıyallahu anhu* – rəvayət edir ki, Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Görünən və görünməyən fitnələrin şərrindən Allaha sığınıram"[198]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İrəlidə bir çox fitnələr olacaqdır. Bu fitnələr zamanı yatan kimsə, oyaq olandan, oturan kimsə ayaqda durandan, ayaqda duran kimsə yürüyəndən, yürüyən kimsə qaçandan xeyirlidir. Hər kim fitnə vaxtına yetişərsə sığınsın və ya gizlənmək üçün yer taparsa gizlənsin»[199].

5. *Yəhudi Və Xristiyanlar Kimi Keçmiş Ümmətlərin Yolu Ilə Getmək:* Fitnələrdən biri də Yəhudi və Xristianların adətlərinə uymaq və onları təqlid etməkdir. Bəzi müsəlmanlar kafirləri təqlid etməkdə, onlara bənzəməkdə, onların əxlaqı ilə əxlaqlanmaqda və onları sevmələridir. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həqiqətən siz əvvəlkilərin (sünnəsi – yolu), adət ən-ənələrilə gedəcəksiniz. Hər bir şeydə onlara qarış-qarış oxşamağa çalışacaqsınız. O, dərəcəyə qədər ki, onlardan biri kərtənkələ yuvasına girsə belə siz də onun ardınca girəcəksiniz». Biz: «Ya Rəsulullah! Sən Yəhudi və Xristianları nəzərdə tutursan?» deyə soruşduq. Peyğəmbər: «Onlardan başqa kimlər olacaq» deyə buyurdu[200].

6. *Yalançıların Və Peyğəmbərlik İddiasında Olanların Ortaya Çıxması:* Ortaya çıxan əlamətlərdən biri də **30** yaxın yalançının Peyğəmbərlik iddiasında olmasıdır. Onlardan bəziləri Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həyatda ikən və səhabə zamanında ortaya çıxmış, günümüzdə də ortaya çıxmağa davam edir[201]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "**30** yaxın yalançı çıxmadıqca Qiyamət qopmaz. Bunların hamısı Peyğəmbər olduqlarını iddia edəcəklər"[202]. Səvban -

---

[196] Buxari, Müslim.
[197] Əbu Davud «Fitən» 2.
[198] Nəvəvi Şərh, Müslim "Cənnət" 18/203.
[199] Müslim.
[200] Buxari, Müslim, Əbu Davud 4333, 4334, Tirmizi 2219.
[201] "Fəthul-Bâri" 6/617.
[202] Fəthul-Bəri, Buxarî "Mənâkib" 6/616, Nəvəvi Şərhi, Müslim "Fitən" 18/45-46.

radıyallahu anhu – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ümmətimdən olan qəbilələr bütlərə tapınaraq müşriklərə qatılmadıqca Qiyamət qopmaz. Şübhəsiz ki, mənim ümmətimdən otuza yaxın yalançı çıxacaq. Onların hər birisi bir Peyğəmbər olduğunu iddia edəcəkdir. Mən isə Peyğəmbərlərin sonuncusuyam. Məndən sonra Peyğəmbər yoxdur»[203].

7. *Peyğəmbər – Sallallahu Aleyhi Və Səlləm – Haqqında Hədislərin Uydurulması*: Əli, Ənəs b. Məlik, Əbu Hureyrə - *radıyallahu anhum* – rəvayət edirlər ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, mənim ağzımdan yalan söyləmək başqasının ağzından yalan söyləmək kimi deyil. Hər kim söyləmədiyimi mənə qəsdli olaraq söyləyərsə atəşdən yerini hazırlasın»[204].

8. *Yalanın Artması*: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətə yaxın mənim ümmətimdən elə bir insanlar çıxacaq ki, onlar nə sizin, nə də atalarnızın eşitmədikləri şeyləri danışacaqlar. Onlardan çəkinin»[205]. Abdullah b. Amr - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dənizdə Süleymanın qandalladığı şeytanlar vardır. Çox keçməz ki, onlar azad olarlar və insanlara öz Quranlarını oxuyarlar»[206].

9. *Elmin Qaldırılması, Cahillik Və Fitnə-Fəsadın Çıxması:* Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətə yaxın elm qaldırılacaq (cahillik yayılacaqdır)»[207]. Şakik deyir ki, mən İbn Məsud və Əbu Musa - *radıyallahu anhum* – ilə birlikdə idim. Onlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu rəvayət etdilər: "Qiyamətdən öncə elə bir günlər gələcək ki, elm qaldırılacaq, cahillik isə artacaqdır"[208]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Zaman qısalır, elm qaldırılır, fitnələr ortaya çıxır, simiclik artır və ölüm çoxalır"[209]. İbn Batta – *rahmətullahi aleyhi* - deyir ki: "Biz bu hədisdə söylənilən Qiyamətin əlamətlərindən elmin azaldığını, simicliyin artdığını, cahilliyin çoxaldığını, fitnələrin ortaya

---

[203] Buxari, Müslim, Əbu Davud 4252, Musnəd 5/278, "Avnul-Mabûd" Şərhi, Ebu Davud 11/324, "Tuhfetul Ahvəzî" şərhi, Tirmizi 6/466, əl-Albani "Camius Sağir" 6/174, H.7295.

[204] Müslim.

[205] Nəvəvi şərhi, Müslim "Müqəddimə" 1/78.

[206] Nəvəvi şərhi, Müslim "Müqəddimə" 1/79-80.

[207] Fəthul-Bəri, Buhari "Elm" 1/178, Nəvəvi Şərhi, Müslim "Elm" 16/222.

[208] Fəthul-Bəri, Buxari "Fitən" 13/13.

[209] Nəvəvi Şərhi, Müslim "Elm" 16/222,223.

çıxdığını və ölümün çoxaldığını günümüzdə açıq-aydın görürük”[210]. Huzeyfə b. Yəmən - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü İslam paltarın naxışları silinib yox olduğu kimi silinib yox olacaqdır. Belə ki, (yer üzündə) nə orucun, nə namazın, nə həccin, nə də sədəqənin nə olduğu bilinməyəcəklər. Allah bir gecədə Quranı qaldıracaq və yer üzündə ondan bir ayə belə qalmayacaqdır. O, zaman insanlardan yaşlılar və böyüklər qalacaqlar və deyəcəklər: «Biz babalarımızın bu kəlməni: «***Lə İləhə İlləllah***» - söylədiklərini eşitdik. Buna görə də biz də onu söyləyirik». «Bu sözlər onları Cəhənnəmdən qurtaracaq» və üç dəfə təkrar etdi»[211]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yer üzündə Allah, Allah kəlməsi itməyənədək Qiyamət qopmaz»[212].

10. *Ölüm Hadisələrinin Artması:* Auf b. Məlik, İbn Ömər - *radıyallahu anhum* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günündən qabaq altı hadisəni gözləyin: «Ümmətimin ölüm xəstəliyinə tutulmasıdır. Belə ki, qoyun qırxarkən yunlarının yerə düşdüyü kimi insanlar da yerə düşüb öləcəklər»[213]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Qiyamətdən öncə ***Xarc*** günləri gəlir. O, günlərdə elm yox olur, cəhalət çoxalır” dedi. Əbu Musa: “***Xarc*** **-** Həbəşi dilində mənası adam öldürməkdir” dedi[214]. Əbu Hureyrə, Əbu Musa əl-Əşari - *radıyallahu anhum* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətə yaxın ***Xarc*** çoxalacaqdır» Biz: «***Xarc*** nə deməkdir?» deyə soruşduq. O: «Ölüm hadisələrinin çoxalması, adam öldürməkdir)». Səhabə: “Biz bir ildə (döyüşlərdə) **70** mindən çox adam öldürürük. Bundan daha çox öldürücəyik?” dedi. Peyğəmbər: “Bu sizin müşrikləri öldürməyiniz deyildir. Bu sizin bir-birinizi öldürməyinizdir” deyə buyurdu. Səhabə: “Bunu etdiyimiz zaman ağlımız yerində olurmu?” dedi. Peyğəmbər: “O, gün insanların çoxunun ağlı yerində olmaz. Onların yerinə boş başlı insanlar gəlir. Hamısı özlərini (böyük, alim) sayarlar. Lakin onlar heç bir şeydirlər” deyə buyurdu[215]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qəlbim əlində

---

[210] “Fəthul-Bəri” 13/16.
[211] İbn Məcə 4049, Həkim 8460,8646, İbn Həcər «Fəthul Bəri» 13/16, əl-Albani «Səhih Hədislər Silsiləsi» 87, Səhih Cəmius Səği» 8077.
[212] Müslim.
[213] Buxari «Cizyə» 15.
[214] “Fəthul-Bəri”, Buxari “Fitən” 13/14.
[215] Nəvəvi Şərhi, Müslim “Fitən” 18/13, Musnəd 4/414, İbn Məcə “Fitən” 2/1309 H. 3959, Şərhus-Sünnə 15/28-29 H. 4234, əl-Albani “Camius-Sağir” 2/193, H. 2043.

olan Allaha and olsun ki, ölən nə üçün öldürdüyünü, öldürülən də nə üçün öldürüldüyünü bilmədikcə Qiyamət qopmaz». Biz: «Bu necə olacaq?» deyə soruşduq. O: «Bu elə qətllər olacaq ki, ölən də öldürülən də Cəhənnəmə düşəcək»[216].

11. ***Qəbirdəkilərə Qibtə Edilməsi:*** Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət qopmaz o, vaxta qədər ki, qəbrin yanından keçən insanlar – «Kaş ki, onun yerində mən olaydım» deməyincə[217]. Xuzeyfə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanlar üçün elə bir zaman gələcək ki, Dəccəlin çıxmasını istəyəcəklər". Mən: "Nə üçün Ya Rəsulullah!" dedim. Peyğəmbər: "Çətinlik və sıxıtlırlarla üzləşdikləri üçün" deyə buyurdu[218].

12. ***Bəlaların Və Fitnələrin Artmasından İnsanın Ölmüş Birisinin Yerində Olmasını Təmənna Etməsi:*** Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ruhum əlində olan Allaha and olsun! İnsan qəbrin yanından keçərkən (borca görə deyil sadəcə bəlalara görə) özünü toza çırpıb – «Kaş ki, qəbrdə mən olardırm» deməyincə Qiyamət qopmaz[219]. İbn Məsud - *radıyallahu anhu* – deyir ki: "Sizin üzərinizə elə bir zaman gələcək əgər sizdən birisi ölümü tapsa onu alar. Şairin dediyi kimi: "Bu həyatın dadı qalmadı, ölümü satan varsa mən alım onu"[220].

13. ***Zəlzələlərin Və Xəstəliklərin Çoxalması***: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Zəlzələlərin sayı çoxalmadıqca Qiyamət qopmaz»[221]. Sələmə b. Nufeyl əs-Səkuni - *radıyallahu anhu* – deyir ki, biz Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanında oturmuşduq... Qiyamətdən öncə yoxlucu xəstəliklər olacaq. Sonra isə illərlə zəlzələlər sürər" deyə buyurdu[222]. Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər hansı bir qövmdə zinakarlıq artarsa Allah onları taunla və başqa bir xəstəliklə cəzalandırar. Elə bir xəstəlik ki, bundan qabaq bu haqda eşitməyiblər»[223].

14. ***Kişilərin Sayca Azalması Və Qadınların Çoxalması***: Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, sizə bir hədis söyləyəcəyəm. Onu

---

[216] Müslim.
[217] "Fəthul-Bəri", Buxarî "Fitən" 13/81,82, Nəvəvi şərhi, Müslim "Fitən" 18/34.
[218] Təbərâni "Əvsat", "Məcmauz-Zəvâid" 7/284-285.
[219] Nəvəvi şərhi, Müslim "Fitən" 18/34.
[220] "Feyzul-Kadir" 6/418.
[221] "Fəthul-Bəri", Buxari "Fitən" 13/81,82.
[222] Musnəd 4/104, Heysəmi "Məcmauz-Zəvaid" 7/306.
[223] İbn Məcə.

məndən başqa kimsə sizə başa salmaz. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* –in belə buyurduğunu eşitdim: "Elmin azalması, cahilliyin artması, qadınların çoxalması, kişilərin azalması Qiyamətin əlamətlərindəndir. Belə ki, bir kişiyə **50** qadın düşər"[224]. Əbu Musa - *radıyallahu anhu* – rəvayət edir ki: "Qırx qadının bir kişiyə tabe olduğunu və onu saxladığı görülür"[225].

15. *İnsanların Göz Qabaqlarında Zinanın Artması*: Nəvvas b. Səman - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yer üzündə insanların şərliləri qalar. Onlar orada heç bir kəsdən utanmadan eşşəklərin bir-biri ilə cinsi əlaqədə olduqları kimi qadın kişi bir-birləri ilə cinsi əlaqədə olarlar. Qiyamət də onların üzərində qopar»[226]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qəlbim əlində olan Allaha and olsun! Bu ümmət məhv olmaz o, vaxta qədər ki, bir kişi qadını yolda uzada və o, günün ən xeyirli insanları isə: «Yaxşı olardı ki, sən o divarın arxasında gizlənərdin» deyəcəklər[227].

16. *Musiqinin, içkinin, zinanın artması və bunların halal qəbul edilməsi:* Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətə yaxın zinakarlığın, içkilərin artması (çoxalması) olacaqdır»[228]. Əbu Məlik əl-Əşari - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ümmətimdən zinanı, ipəyi, içkini və musiqi alətlərini halal qəbul edən insanlar çıxacaq»[229]. Səhl b. Səd - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətə yaxın pozğunluq, iflas və çirkinlik baş alıb gedəcəkdir». Biz: «Ey Allahın Rəsulu! Bu nə vaxt olacaqdır?» deyə soruşduq. O: «Musiqi alətlərinin və qadın müğənnilərinin çoxaldığı vaxt!» deyə buyurdu[230]. Ubadə b. Sabit - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ummətimdən bir qism insanlar olacaq ki, içki içib onu başqa adla adlandıracaqlar»[231].

17. *Əmanətə Xəyanətin Artması*: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən

[224] Fəthul-Bəri, Buxari "Elm" 1/178, Nəvəvi şərhi, Müslim "Elm" 16/221, Tirmizi 6/448, H. 2301.
[225] "Fəthul-Bəri" 1/179.
[226] Nəvəvî şərhi, Müslim "Fitən" 18/70.
[227] Əbu Yəla, əl-Heysəmi 7/331.
[228] Buxari, Müslim.
[229] Buxari.
[230] İbn Məcə, əl-Albəni səhih.
[231] İmam Əhməd, İbn Məcə, əl-Albəni səhih.

soruşdu: «Qiyamət nə vaxt qopacaq?» O: «Əmənət qaldırılacağı zaman siz Qiyaməti gözləyin» deyə buyurdu. O, kişi: «Əmanət nə vaxt qaldırılacaq?» Peyğəmbər: «Layiq olmayan insana əmanət verilərsə əmanət korlanmış olar» deyə buyurdu[232]. ***Əmanət*** – xəyanətin ziddidir. ***"Biz əmanəti*** *(Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi)* ***göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən*** *(götürüb özləri ilə daşımaqdan)* ***qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir.*** *(İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi)". (əl-Əhzab 72).* Alimlər əmanəti bir çox mənalarda açıqlamışlar. 1) **Tövhid** – çünki o, qulun yanında qoruması lazım olan bir əmanətdir. 2) ***Əməl*** – qulun qoruması lazım olan bir əmanətdir. Əmanət dinin əmrlərini yerinə yetirmək və qadağalarından qaçmaqdır[233].

18. *Qul Qadının Öz Ağasını Doğması, Kasıbların Varlanıb Hündür Binalar Tikməkdə Bir-Birləri İlə Yarışmaları*: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən Qiyamətin əlamətləri haqqında soruşan Cəbrailə belə cavab vermişdir: «Qul qadın öz ağasını doğması, ayaq yalın, cılpaq, cobanların hündür bina tikməkdə bir-birləri ilə yarışmaları»[234]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qulun xərclədiyi hər bir şeydə əcr vardır. Lakin bina bundan müstəsnadır»[235]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İnsanlar binaları qat-qat yüksəltmədikcə Qiyamət qopmaz"[236]. İbn Həcər – *rahmətullahi aleyhi* - deyir ki: "Axır zamanda cariyələr hədisdə işarə edilən tərbiyə edilənlər olacaqlar. Çünki cariyələr azad qadınlardan ayrı olaraq güclü adamların himayəsində olacaqlar. Buna görə də hədisdə: "...Ayaq yalın, cılpaq, cobanların hündür bina tikməkdə bir-birləri ilə yarışmaları" ləfzi ilə zikr edilmişdir[237].

19. *İnsanların Yalnız Tanıdıqları Kimsələrə Salam Vermələri*: İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətin əlamətlərindən biri də insanların yalnız tanışlıq xatirinə bir-biri ilə salamlaşmalarıdır»[238].

20. *Yalan Şahidliyin Çoxalması, Haqq Şahidliyin Gizlədilməsi*: İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu*

---

[232] Fəthul-Bəri, Buxari "Rikâk" 11/333, Müslim.
[233] Əhkamul Quran 3/1588,1589, Nəvəvi Şərh Müslim 2/168, İbn Kəsir 6/477, Fəthul Bəri 11/33.
[234] Buxari, Müslim.
[235] əl-Albani «Cəmius Səhih» 4442.
[236] Fəthul-Bəri, Buxari "Fitən" 13/81,82.
[237] "Fəthul-Bəri" 1/122-123.
[238] İmam Əhməd "Müsnəd" 5/326, Ahməd Şakir "Səhih".

aleyhi və səlləm – buyurdu: «Qiyamət qopmazdan əvvəl insanlar yalan şahidlik edəcəklər və həqiqəti gizlədəcəklər»[239]. Əbu Bəkrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər –*sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizə böyük günahların ən böyüyündən xəbər verimmi? deyib bu sözü üç dəfə təkrar etdi. Səhabələr: «Bəli, ya Rəsulallah!» dedilər. Peyğəmbər: «Allaha şərik qoşmaq və ana-ataya üsyan etmək» deyə buyurdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – uzanmış halda durub oturdu və: «Yalan söz, yalan şahidlik! deyə bu sözləri o, qədər təkrar etdi ki, (öz-özümə) kaş ki, susaydı dedim[240].

21. *Qohumluq Əlaqələrini Kəsməyin, Qonşuluq Münasibətlərinin Pisləşməsinin Çoxalması:* Abdullah b. Amr - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ədəbsizlik, həyasızlıq, qohumluq əlaqələrinin kəsilməsi və qonşuluq münasibətlərinin pisləşməsi çoxalmadıqca Qiyamət qopmaz»[241]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qiyamət qopmadan öncə qohumluq münasibətləri kəsilir"[242]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Uca və Böyük olan Allah məxluqatı yaratdıqdan sonra yaratma işi tamam olduqda ***Rahim*** **–** qohumluq bağı ayağa qalxdı». Allah: «Dur! Söylə nə istiyirsən?» deyə buyurdu. Rahim: «Mənim bu qalxmağım qohumluq əlaqələrini kəsməkdən Sənə sığınanın qalxmasıdır». Allah: «Sənə yaxşılıq edənə yaxşılıq etməklə və səndən yaxşılığı kəsəndən yaxşılığımı kəsməyimlə razı deyilsənmi?». Rahim: «Razı oluram Ey Rabbim!» dedi. Allah: «Bu hökum sənindir». Sonra Əbu Hureyrə – *radıyallahu anhu* – dedi ki, istəsəniz bu ayəni oxuya bilərsiniz: ***«Əgər** (Peyğəmbərdən) **üz döndərsəniz sizdən yer üzündə fitnə-fəsad törətmək və qohumluq tellərini qırmaq gözlənilməzmi»*** *(Məhəmməd 22)»*[243].

22. *Vaxtın Sürətlə Getməsi*: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Zaman qısalmadıqca Qiyamət qopmaz"[244]. Əbu Hureyrə, Ənəs - *radıyallahu anhm* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Vaxt sürətlə getməyənə qədər Qiyamət qopmaz. İl aya, ay həftəyə, həftə günə, gün saata, saat da xurma yarpağının yanıb kül olması

---

[239] İmam Əhməd "Musnəd" 5/333, "İbn Kəsir "Təfsiri" 6/140, "Fəthul-Bəri" 5/262.
[240] Buxari 2654, Müslim 87.
[241] İmam Əhməd "Musnəd" 10/26-31, Əhmed Şakir "Səhih", Həkim "Mustədrək 1/75-76.
[242] Musnəd 5/333, Əhməd Şakir "Səhih".
[243] Buxari «Ədəbul Mufrad» 50.
[244] Fəthul-Bəri, Buxari "Fitən" 13/81,82.

qədər olacaqdır»[245]. Zamanın qısalmasıyla bağlı alimlərin dəyişik görüşləri vardır: 1. Bundan qəsd zamandakı bərəkətin az olmasıdır. 2. Bundan qəsd Mehdi və İsa - *əleyhissəllam* - ın zamanında olacaq həyatın insanlara xoş gəlməsi, əminliyin və ədalətin artmasıdır. Buna görə də uzun olsa da belə xoş günlərin insanlara qısa gəlməsi, qısa da olsa acı günlərin onlara uzun gəlməsidir. 3. Bunda qəsd o, zamanda uzaqda yaşayan insanların sürətli vasitələrlə tez bir zamanda istədikləri yerə getmələridir. 4. Dəccəl çıxdığı vaxt günlərin uzun olduğu kimi, qısa da olacaq[246].

23. *İnsanların Bir-Birinə Olan İnamının İtməsi*: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnamın itdiyi zaman Qiyaməti gözləyin»[247].

24. *Məscidlərin Və Quranın Bəzədilməsi*: Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanlar bir-birlərinin qarşısında məscidlərlə öyünmədikcə Qiyamət qopmaz»[248]. Ənəs - *radıyallahu anhu* – deyir ki, insanlar məscidlərlə öyünəcək və onları az-az ziyarət edəcəklər. Onlar məscidləri bəzəməklə öyünəcəklər». İbn Abbas - *radıyallahu anhu* – deyir ki: "Siz məscidləri Yəhudilərin və Xaçpərəstlərin etdikləri kimi bəzəyəcəksiniz»[249]. Əbu Dərdə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Əgər siz məscidləri və Quran vərəqlərini bəzəməyə başlasanız onda siz məhv olacaqsınız»[250]. Ömər - *radıyallahu anhu* – məscidi inşa edərkən deyir: "Sən sadəcə insanları yağışdan qoru. Nə badə (məscidləri) al-sarı rəngə boyamaqla bəzəyib insanları fitnəyə salma"[251]. Məscidləri yaşatmaq onları bəzəməklə deyildir. Məscidləri yaşatmaq orada namaz qılmaq və Allahı zikr etməklə olur. Məscidlər insanları yağışdan, istidən və soyuqdan qorumaq üçün tikilib. Şafiilər deyirlər ki: "Kəbə daxil olmaqla məscidləri qızıl və gümüşlə bəzəmək haram, digər bəzəklərlə bəzəmək isə məkruhdur"[252].

25. *Yuxuların Çin Çıxması:* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Vaxtın sürətlə getməsindən müsəlmanların yuxuları demək olar ki, onları aldatmayacaqdır. Xeyirli yuxular görən kimsə ən xeyirli insan sayılacaq.

---

[245] İmam Əhməd "Musnəd" 2/537-538, Tirmizi, əl-Albani "Camius-Sağir" 6/175, H. 7299.
[246] Məalimus-Sünnə" 6/141-142, "Camiul-Usûl" 10/409. "Fəthul-Bəri" 13/16, "Muhtasar Sünən Əbu Davud", Munzirî 6-142, "İslam Etiqadı" Seyyid Sabıq s:247.
[247] Buxari.
[248] İmam Əhməd "Müsnəd" 3/134, əl-Albani səhih "Sahihul-Cami" 6/174, H. 7298.
[249] Buxari.
[250] Həkim, Tirmizi, əl-Albani «Səhih Hədislər Silsiləsi» 3/337, H. 1351, Camius-Sağir" 1/220, H. 599.
[251] Fəthul-Bəri, Buxari "Salât" 1/539.
[252] "Feyzul-Qadîr' 1/367.

Müsəlmanın yuxuları Peyğəmbərliyin qırx beşdə biridir (Başqa rəvayətdə: Qırx altıda biridir, yetimşdə biridir)»[253]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Xeyirli yuxu Allahdan, şərr yuxu isə şeytandandır. Biriniz xoşlamadığı çirkin bir yuxu görərsə həmən sol tərəfinə üç dəfə tüfürsün. Sonra da o, yuxunun şərrindən Allaha sığınsın (Başqa rəvayətdə: Hansı tərəfdə yatmışsa digər tərəfə dönsün). Belə edərsə o, pis yuxu artıq ona heç bir zərər verə bilməz. Və bu yuxunu heç kəsə xəbər verməsin. Əgər gözəl bir yuxu görərsə həmən sevinsin və o, gözəl yuxunu sevdiyi kimsələrdən başqasına xəbər verməsin»[254]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: Yuxu üç cürdür: «Saleh bir yuxu Allahdan bir müjdədir, şeytandan olan bir yuxu bu hüzündür və bir də insanın bir şey haqda çox düşünməsindən görülən yuxu»[255]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mubəşşiratdan başqa nübuvətdən bir şey qalmadı». Oradakılar: «Mubəşşirat nədir?» deyə soruşdular. Peyğəmbər: «Saleh yuxudur» deyə buyurdu[256].

Həmçinin Ərəbistan yarmadasının bağçalara çevrilməsi, yağışların çoxalması, Hicazda alovun əmələ gəlməsi, malın çox olmasına baxmayaraq nankorluğun artması, həyasızlığın ortaya çıxması, düşmənçiliyin, nifrət etməyin, kin saxlamağın çoxalması, insanların çılpaq geyinib çölə çıxmaları, heyvanların və cansız əşyaların danışması, müsəlmanların Xristianlarla müharibəsi, Konstantinopolun fəthi, Mədinənin boşaldılması, Kəbənin dağıdılması və s. səhih hədislərlə sabit olunmuş bir çox əlamətlər vardır[257].

Elə bir dəhşətli dövran gələcəkdir ki, zülmət qaranlığı kimi fitnələr meydana çıxacaqdır. Bu fitnələrin meydana çıxdığı zaman Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Xeyirli əməllər etməyə çalışın! Çünki səhəri mömin olan axşama kafir olacaqdır, axşamı mömin olan isə səhərə kafir olacaqdır. İnsanlar öz imanlarını dünya malına satacaqlar»[258]. Allah bizi o, günlərdən qorusun! Amin!

---

[253] Buxari, Müslim.
[254] Müslim 2261.
[255] Müslim 2263.
[256] Buxari.
[257] Bu haqda geniş məlumata Buxari, Müslim, Əbu Davud, Tirmizi və s. hədis kitablarına baxa bilərsiniz.
[258] Müslim.

QİYAMƏTİN BÖYÜK ƏLAMƏTLƏRİ

Bunlar Qiyamətin yaxınlaşdığını bildirən əlamətlərdir. Bu əlamətlər ortaya çıxdığı vaxt qiyamət də onların ardı ilə gələcəkdir. Əhli Sünnə, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən gəldiyi şəkildə bu əlamətlərə inanırlar. Huzeyfə b. Əsid əl-Ğifari - *radıyallahu anhu* – rəvayət edir ki, bizlər (Qiyaməti) müzakirə edən halda Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizim yanımıza gəldi və: «Nəyi müzakirə edirsiniz?» deyə buyurdu. Orada olan səhabələr: «Qiyamət saatını müzakirə edirik» dedik. Peyğəmbər: «Sizlər on əlamət müşahidə etmədikcə əsla Qiyamət qopmayacaqdır!» və bunları zikr etdi: «Duhan (duman), Dəccəl, Dəbbətul Ard (heyvanın çıxması), Günəşin məğribdən doğması, İsa – *əleyhissəlam* – ın gəlməsi, Yəcuc və Məcucun çıxması, Biri şərqdə, biri qərbdə, biri də ərəb yarımadasında yerin batması və bütün bunlardan sonra Yəməndən xaric olan odun insanları toplanış yerinə aparması»[259].

Qiyamət saatından bir qədər əvvəl baş verən böyük hadisələrdən biri də dumanın gəlməsidir. ***«****(Ya Peyğəmbər!)* ***Sən səmanın aşkar bir duman gətirdiyi günü gözlə. İnsanları*** *(bu duman)* ***bürüyəcəkdir. Bu ağır bir əzabdır».*** *(əd-Duxan 10-11).*

<u>Məsih Dəccəlin Gəlməsi</u>[260]. İmran b. Hüseyn - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Adəm – *əleyhissəlam* – ın yaradılmasından Qiyamətin qopacağı vaxta qədər Məsih Dəccəldən daha böyük bir fitnə olmayacaqdır»[261]. İmran b. Hüseyn - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dəccəl barəsində eşidən mütləq qaçacaqdır. Allaha and olsun ki, onun yanına gələn onu mömin hesab edəcəkdir. Onun ardınca gedəcəkdir. Yanına gələndə ona qarşı şübhə hisləri meydana gələcəkdir və yaxud o, şübhə doğuracaqdır»[262]. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Məkkə və Mədinə müstəsna Dəccəlın ayaq basmadığı torpaq qalmayacaqdır. Məkkə və Mədinənin hər girəcəyində mələklər durub bu şəhəri qoruyacaqlar»[263]. İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən sizi Dəccəldən

---

[259] Müslim.

[260] ***<u>Dəccəl</u>*** – dəcələ sözündən götrülüb, aldatmaq deməkdir. Dəcəlun – çox yalan danışan, aldadan deməkdir. Haqqı yalanla örtdüyü üçün bu ad verilmişdir. Fəthul Bəri 13/91, İbn Kəsr «Cəmiul Üsul» 4/204.

[261] Müslim.

[262] İbn Kəsr «Cəmiul Üsul» 10/354, hədis 7846, ən-Nəhayə 1/82.

[263] Müslim.

çəkindirirəm. Hər bir Peyğəmbər öz ümmətini ondan çəkindirmişdir. Lakin mən sizə elə bir söz deyəcəyəm ki, heç bir Peyğəmbər bunu öz ümmətinə deməmişdir. Dəccəl tək gözdür. Allah isə tək göz deyildir. Bilin ki, sizdən heç kəs ölənə kimi öz Rəbbini görməyəcəkdir. Dəccəlin iki gözü arasında kafir yazılmışdır. Oxuya bilən və oxuya bilməyən hər bir mömin bu kəlməni oxuyacaqdır»[264]. Ribi b. Xiraş - *radıyallahu anhu* – rəvayət edir ki, bir gün Əbu Məsud əl-Ənsari ilə birlikdə Huzeyfə b. Yəmən - *radıyallahu anhu* – nun yanına getdik. Əbu Məsud, Huzeyfəyə: «Dəccəl haqqında Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən eşitdiyini bizə xəbər ver» dedi. Huzeyfə dedi: «Dəccəl ortaya çıxacaq. Onunla bərabər su və atəş də olacaqdır. İnsanların su kimi gördükləri yandırıcı atəşdir. Atəş olaraq gördükləri isə soyuq və sərin sudur. Sizdən hər kim o, vaxta qədər yaşasa atəş gördüyü şeyin içinə girsin. Çünki o, sərin və soyuq sudur» Bundan sonra Əbu Məsud: «Mən də bunu Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən eşitdim» dedi[265].

Məsih Dəccəl Allahlıq iddiasında olacaqdır. İstədiyi hər şeyi Allahın izni ilə edəcəkdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dəccəlin fitnələrindən biri də budur ki, o gəlib bir ərəbə deyəcəkdir: «Mən sənin ölmüş ata-ananı dirildib yanına gətirsəm sən şəhadət verəcəksənmi ki, mən sənin Rəbbinəm?» Ərəb: «Bəli» deyəcəkdir. Şeytan onun ata və anasının surətində zahir olub deyəcəkdir: «Oğlum! Ona itaət et. O, sənin Rəbbindir»[266]. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dəccəl çıxdığı zaman möminlərdən biri onu görməyə gedir. Dəccəlın gözətçiləri onun qabağını kəsərək: «Hara gedirsən?» deyə soruşdular. Mömin: «Bu ortaya çıxan adamı görmək istəyirəm» dedi. Gözətçilər: «Yoxsa sən bizim Rəbbimizə inanmırsan» dedilər. Mömin: «Bizim Rabbimizdə bir gizlilik yoxdur» dedi. Gözətçilər: «Öldürün onu?» dedilər. Gözətçilərdən bir qismi: «Bizim Rəbbimiz deyib ki, onun icazəsi olmadan heç kəsi öldürməyin» demişdi. Mömini Dəccəlin yanına gətirirlər. Mömin Dəccəli görən kimi: «Ey insanlar! Bu peyğəmbərimizin bizə vəsf etdiyi Dəccəldir». Dəccəl əmr edir, mömini üzü üstə uzadırlar və Dəccəl: «Onu tutun. Başını yarın. Belinə, qarnına zərbələr endirin» deyir. Dəccəl: «İndi mənə iman gətirirsən?» deyir. Mömin: «Sən yalançı Məsihsən» deyir. Dəccəlin əmri ilə mömini mişar ilə iki hissəyə bölürlər. Sonra Dəccəl iki hissəyə bölünmüş cəsədin ortasından keçərək: «Qalx!» deyir. Cəsəd də

---

[264] Buxari, Müslim.
[265] Müslim.
[266] əl-Albani «Səhih Cəmius Sağir» 6/274 hədis 7520.

diriləræk ayağa qalxır. Dəccəl yenə: «İndi mənə iman gətirirsən?» deyir. Mömin: «Mən sənin həqiqi Dəccəl olduğunu daha da yaxşı bildim» deyir. Mömin üzünü camaata tutaraq deyir: «Ey insanlar! O, məndən sonra heç kəsə bu əməli etməyəcəkdir». Dəccəl onu doğramaq üçün tutar. Lakin Allah mömimin boynu ilə boğazı arasını qoruyar. Dəccəl də ona heç bir şey edə bilməyib əllərindən və ayaqlarından tutub atar. İnsanlar elə zənn edərlər ki, (Dəccəl) onu oda atdı. Lakin o, Cənnətə atılacaqdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «O, mömin aləmlərin Rəbbinin yanında şəhidlərin ən əzəmətlisi olacaqdır»[267].

Nəvvas b. Səman - *radıyallahu anhu* – rəvayət edir ki, bir gün səhər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizə Məsih Dəccəl haqqında danış-mağa başladı. Onun haqqında səsini gah alçaldaraq, gah da yüksəldərək elə bir tərzdə danışdı ki, biz onu Nəhl (xurmalıq) deyilən bir yerdə zənn etdik. Biz onun yanına gəldikdə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizdə olan vəziyyəti görüb buyurdu: «Sizə nə olub?» Biz: «Ya Rəsulallah! Bu gün səhər Dəccəl haqqında səsini gah alçaldaraq, gah da yüksəldərək elə bir tərzdə danışdı ki, biz onu Nəhl (xurmalığ) deyilən bir yerdə zənn etdik». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən ötrü məni qorxudan şey Məsih Dəccəl deyildir. Əgər o, mən sizin içinizdə ikən ortaya çıxarsa, ona qarşı mən sizə kifayət edərəm. Yox əgər mən aranızda yox ikən o, ortaya çıxarsa onda hər kəs özü-özünü ondan müdafiə etməlidir. Allah da hər bir müsəlman üçün məni əvəz edər[268]. Dəccəl gəncdir. Saçları olduqca qıvrımdır. Bir gözü əyridir (sanki üzüm salxımından irəli çıxmış üzüm giləsi kimi). Mən onu Abdul Uzza b. Katana bənzədirəm. Sizlərdən hər kim o, çıxan vaxtı yaşayarsa ona qarşı Kəhf surəsinin ilk on ayəsini oxusun[269]. Heç şübhəsiz ki, o Şam ilə İraq arasında olan bir yolda ortaya çıxacaqdır[270]. Sağına da, soluna da öz fitnə-fəsadını yayacaqdır. Ey Allahın qulları imanda möhkəm olun!» Biz: «Ya Rəsulallah! O, yer üzündə nə qədər müddət qalacaqdır?» deyə soruşduq. Peyğəmbər: «Qırx gün. (Bu günlərdən) Bir günü bir ilə, bir günü bir aya, bir günü bir cüməyə (bir həftə) bərabər olacaqdır. (O, qırx günün içində) Qalan günlər isə sizin günləriniz kimi olacaqdır» deyə buyurdu. Biz: «Ya Rəsulallah! Bu bir il qədər olan o, bir gündə bizlərə bir günün namazı

---

[267] Müslim.

[268] Yəni Allah hər bir müsülmana yolunu azmamaq və Dəccəlin fitnəsinə düşməmək üçün kömək edəcəkdir.

[269] Başqa rəvayətdə son on ayəsini bilən Dəccəlin fitnəsindən qorunar. Müslim.

[270] Başqa rəvayətdə – Dəccəl şərq ölkəsində meydana gələcəkdir. Ora Xorasan adlanır. Abırsız və həyasız insanlar ona qoşulacaqlar». Əhməd, Tirmizi, İbn Məcə, Həkim – Əbu Bəkr – *radıyallahu anhu* – dan. əl-Albani «Səhih Hədislər Silsiləsi» 4/122 hədis 1591.

kifayət edirmi?» deyə soruşduq. Peyğəmbər: «Xeyr! (kifayət etməz) Siz o, uzun gündə, adi günlərdə qıldığınız namaz vaxtlarını hesablayıb, namazlarınızı qılın!» deyə buyurdu. Biz: «Ya Rəsulallah! Dəccəl yer üzündə nə cür sürətlə yeriyəcəkdir?» deyə soruşduq. Peyğəmbər: «Küləyin qovduğu yağış buludlarının sürəti kimi!» deyə buyurdu.

Peyğəmbər: «O, bir qövmün yanına gəlib onları dəvət edəcəkdir. Onlar da ona iman gətirib itaət edəcəklər. Bundan sonra o, göyə əmr edəcəkdir. Göy də onun əmri ilə yağış yağdıracaqdır. Sonra yerə əmr edər. Yer də hər cür bitkilərini bitirəcəkdir. O, qövmün otlağa çıxmış heyvanları axşam otlaqdan ən gözəl bir halda, məmələri südlə dolu, ətlənmiş bir halda geri qayıdarlar. Sonra Dəccəl digər bir qövmə gəlib onları da dəvət edər. Lakin o, qövm onun sözünü qəbul etməyib onu rədd edərlər. Dəccəl o, qövümdən uzaqlaşdıqdan sonra onları quraqlıq basar, bütün malları tələf olub gedər. Dəccəl bir xarabalığın yanına gəlib: «Öz xəzinələrini çıxart!» deyər və bal arılarının (ana) arının ardınca düştükləri kimi xəzinələr də onun ardınca düşərlər».

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sözünə davam edərək buyurdu: «Sonra gənc yaşına çatmış bir gənci yanına çağıraraq, onu qılınc ilə vuraraq iki hissəyə bölür. Parçalar oxun son düşmə məsafəsi qədər bir-birindən ayrılırlar. Sonra Dəccəl iki hissəyə böldüyü gənci çağırar, o da həmin (anda) üzü parıldayaraq və gülərək gəlir. Dəccəl öz fitnə-fəsadını yaydığı vaxt Allah Məryəm oğlu Məsihi, İsa – *əleyhissəlam* – ı göndərər. O, da iki paltara bürünmüş və əllərini iki mələyin qanadlarına qoyaraq Dəməşqin şərq tərəfindəki ağ minarəyə enər. Onun nəfəsinin iyini alan hər bir kafirə ölümdən başqa heç bir şey halal olmaz. Onun nəfəsi isə gözün son görmə həddinə qədər çatar. İsa – *əleyhissəlam* – Dəccəli axtarır. Nəhayət onu (Beytul Məqdisə) yaxın bir yerdə Ludd qapısının yaxınlığında yaxalayaraq öldürər. Sonra İsa – *əleyhissəlam* – Allahın Dəccəlin şərindən qoruduğu bir qövmün yanına gələr. İsa – *əleyhissəlam* – onların üzərilərinə əli ilə toxunub məsh edir və onlara Cənnətdəki dərəcələrini söyləyər. Onlar bu halda olduqları vaxt Allah – *subhənəhu və təalə -,* İsa – *əleyhissəlam* – a: «Mən indi Mənə aid olan qullarımı çıxardacağam ki, heç bir kimsənin onlarla müharibə etməyə nə qüdrəti, nə də qüvvəti çatar! Lakin sən, ey İsa! Səninlə olanlara Tur dağında sığınacaq ver» deyə vəhy etdi. Allah Yəcuc və Məcuc tayfalarını göndərir. ***«Yəcuc və Məcuc*** *(səddinin)* ***açılıb onlar hər tərəfdən*** *(alçaq və yüksək təpələrdən)* ***sürətlə axışdıqları zaman».*** *(əl-Ənbiya 96).* Onların əvvəli Təbəriyyə gölünə yetişib onun suyunu içərlər, axırıncılar oradan keçərkən and olsun ki: «Nə vaxtsa burada su vardı» deyərlər. Allahın peyğəmbəri

İsa – *əleyhissəlam* – və onunla birlikdə olanlar mühasirədə qalacaqlar. Nəhayət onların birinə bir öküz başının dəyəri bu gün sizə görə yüz dinardan da xeyirli olur. İsa – *əleyhissəlam* – və səhabələri Allaha dua edərlər. Allah da (Yəcuc və Məcuc) onların boyunlarına qurdlar salar və səhəri hamısı məhv olub gedərlər. Sonra Allahın peyğəmbəri və onunla birlikdə olanlar yerə enərlər. Yer üzündə Yəcuc və Məcuc tayfasının cəsədlərindən bir qarış yer belə tapa bilməyəcəklər. Onların pis qoxusu aləmi bürüyəcəkdir. Allahın Peyğəmbəri və onunla birlikdə olanlar Allaha dua edərlər. Bu dualarına cavab olaraq Allah dəvə boyunları kimi uzun boylu quşlar göndərər. Quşlar o, leşləri götürüb Allahın istədiyi yerə apararlar. Sonra Allah elə bir yağış göndərər ki, istər quru və sağlam palçıqdan olsun, istər gildən olsun heç bir ev o, yağışın enməsinə mane ola bilməyəcəkdir. Yağış bütün yer üzünü yuyacaqdır. Nəhayət yer üzü güzgü kimi parlayacaqdır. Sonra Allah yer üzünə: «Meyvələrini bitir, bərəkətini ver!» deyə əmr edəcəkdir. O, gün bir camaat bir narı yeyib doyarlar və qabığı altında kölgələnərlər. Bərəkət sürətlə artar. Hətta bir dəvənin südü böyük bir topluluğa kifayət edər. Bir inəyin südü bir qəbiləyə, bir qoyunun südü isə bir neçə ailəyə kifayət edər. Bu vaxt Allah xoş bir külək göndərər. Bu külək möminləri qoltuq altından yaxalayaraq bütün mömin və müsəlmanların ruhlarını alar. Yer üzündə insanların şərliləri qalar. Onlar orada heç bir kəsdən utanmadan eşşəklərin bir-biri ilə cinsi əlaqədə olduqları kimi, qadın və kişi bir-biri ilə cinsi əlaqədə olarlar. Qiyamət də onların üzərində qopar». Başqa rəvayətdə – Yəcuc və Məcuc tayfaları hər şeyi məhv etdikdən sonra Cəbəlil-Həmraya qədər gəlirlər. O, da Beytul Məqdisdə dağdır. «And osun ki, biz yer üzündə hər şeyi məhv etdik. İndi gəlin göydə olanları məhv edək!» deyib oxlarını göyə atarlar. Allah onların oxlarını qan ilə boyanmış olaraq rədd edər»[271].

Məryəm oğlu İsa – *əleyhissəlam* – ın Şamda ağ minarəli (məscidin) üzərinə iki mələyin qanadında enməsi, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in şəriəti və hökmləri ilə əmr etməsi, donuzları və xaçları məhv etməsi, Dəccəli öldürüb yer üzündə İslam ilə hökm etməsi. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həyatım əlində olan Allaha and olsun ki, Məryəm oğlu İsa adil bir hakim olaraq sizin içinizə enməsi yaxındır. O, xaçları sındıracaq, donuzları öldürəcək və cizyəni qaldıracaqdır»[272]. ***«Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona*** *(İsaya)* ***iman gətirməsin, lakin o Qiyamət günündə onların əleyhinə şəhadət***

---

[271] Müslim.
[272] Müslim.

verəcəkdir». (ən-Nisa 159). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sübh çağı imam onlarla birlikdə namaza durduğu bir vaxtda Məryəm oğlu İsa – *əleyhissalıam* – gələcəkdir. Bu imam geri çəkilib yerini ona vermək istədikdə İsa – *əleyhissəlam* – əlini onun çiyninə qoyub deyəcəkdir: «Keç yerinə namazı qıldır». İmam irəli keçib namazı qıldıracaqdır. Sonra İsa – *əleyhissəlam* – Qüdsə gedəcəkdir. Orada Ludd qapsının[273] yaxınlığında Dəccəli yaxalayıb öldürəcəkdir. Dəccəl onu gördükdə duz suda əridiyi kimi əriyəcəkdir»[274].

Mehdinin Gəlməsi: Əsl adı Məhəmməd b. Abdullah olub, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in əhli beytindəndir. Zülm və haqsızlıqla dolub daşan yer üzünü ədalətlə dolduracaqdır. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dünyanın sonuna bir gün qalsa belə, Allah o günü uzadacaqdır. O, vaxta qədər ki, Əhli-Beytimdən bir insan çıxacaq. Adı-adıma, atasının adı isə atamın adına oxşayacaqdır. Yer üzü zülm ilə dolduğu zaman, o yer üzünü ədalətlə dolduracaqdır»[275]. Ummu Sələmə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mehdi mənim nəslimdən, Fatimənin kökündəndir»[276].

Yəcuc Və Məcuc Tayfasının Çıxması: **Zülqərneyn dedi: «Bu Rəbbimdən bəxş edilən bir mərhəmətdir. Rəbbimin təyin etdiyi vaxt** *(qiyamətə yaxın Yəcuc-Məcuc tayfalarının dünyanı bürüyəcəyi zaman)* **gəldikdə isə onu yerlə yeksan edəcəkdir. Rəbbimin vədi həqiqətdir».** *(əl-Kəhf 90-98)*[277]. Zeynəb b. Cəhş - *radıyallahu anhə* – rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – üzü qıp-qırmızı halda, həyacanlı olaraq çölə çıxdı və: «***Lə İləhə İlləllah***! İrəlidə gecə qaranlığı kimi fitnə vardır. Vay ərəbin halına! Bu gün Yəcuc və Məcuc səddindən bu boyda dəlik açıldı» buyurdu. Bunu söylədikdə baş barmağı ilə şəhadət barmağını halqa şəkilində etdi. Bunun üzərinə mən: «Ya Rəsulillah! İçimizdə yaxşı kimsələr olarkən biz həlakmı oluruq?» dedim. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bəli (fasiqlik, fahiş əməllər, əxlaqsızlıq, zülm) kimi pisliklər çoxaldığı zaman»[278].

---

[273] Fələstinin Rəmlə şəhərinin yaxınlığında.
[274] İbn Məcə, İbn Huzeymə, əl-Albani «Səhihul Cəmi» 7752.
[275] Əbu Davud.
[276] Əbu Davud, Tirmizi.
[277] İncildə Qoq və Maqoq tayfaları. Geniş məlumat üçün bax: «Qurani Kərim» Kəhf surəsi 83-98-ci ayələrə qədər.
[278] Müslim.

Dabbətul-Ardın (Heyvanin) Çıxması[279]. ***«Onlara deyilən söz yerinə yetdiyi zaman onlar üçün yerdən bir heyvan çıxardarıq ki, onlarla danışıb** (bizim adımızdan)**: «İnsanlar ayələrmizə inanmadılar» deyər.*** *(ən-Nəml 82).* Bu heyvanın nə cür olduğu barədə heç bir məlumat yoxdur. Qeyd edirlər ki, o kimin mömin və kafir olduğunu söyləyəcəkdir.

Cəssəsə kimdir? - Fatimə b. Qeys - *radıyallahu anhə* – rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ***Əssalətu Cəmiatən*** (toplayıcı olan namaza gəlin) deyə buyurdu. Mən də həmin məscidə gəldim. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə namaz qıldım. Mən qadınların səfində idim. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – namazı bitirdikdən sonra gülər bir halda minbər üzərində oturdu və: «Heç kəs namaz qıldığı yerdən ayrılmasın!» buyurdu. Sonra sizləri nə üçün topladığımı bilirsiniz? Səhabələr: «Allah və Rəsulu daha gözəl bilir». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allaha and olsun ki, mən sizi nə bir müjdə vermək, nə də qorxutmaq üçün toplamışam. Lakin mən sizləri bu səbəbə görə toplamışam: «Təmim əd-Dari xristian bir adam idi. Gəldi, beyət edib İslamı qəbul etdi və mənə belə hadisəni rəvayət etdi. Onun söylədiyi bu rəvayət mənim sizə söylədiyim Məsih Dəccəl hadisəsi ilə uyğundur». Sonra söhbətinə davam edərək buyurdu: «Cuzam və Ləhm qəbilələrindən otuza yaxın kişi ilə gəmi ilə səyahətə çıxdıq. Dənizin dalğaları onları bir ay dənizdə çarxalayaraq sonra bir adanın yanına gətirdi. Günəşin batdığını gözlədikdən sonra adaya yollandıq. Adada bizim qarşımıza tüklü bir Dabbə (heyvan) çıxdı. Tükü çox olduğundan biz onun arxa və qabağını seçə bilmirdik. Biz ona: «Sən kimsən?» deyə soruşduq. O, da: «Mən Cəssəsəyəm» dedi. Biz: «Cəssəsə nədir?» deyə soruşduq. O, məxluq: «Ey topluluq siz ibadətgahdakı adamın yanına gedin. Çünki o, sizin gəlməyinizi çoxdan arzulayır» dedi. Dəbbə bizə o, adamı vəsf etdikdə biz onun şeytan olmasından qorxduq. Nəhayət o, ibadətgaha gəldik. Orada cüssə baxımından insanların ən irisi olan, ayaqları əllərinə çarpaz vəziyyətdə bağlanmış birisini gördük. Biz ona: «Sən kimsən?» deyə soruşduq. Qarşılığında o: «Sizlərin kimlər olduğu barədə mənə xəbər verin» dedi. Biz də hər şeyi olduğu kimi ona xəbər verdik. O: «Mənə Şamda olan Nəhmu Beysən adlı yerdən xəbər verin?» dedi. Biz: «Sənə onun hansı halından xəbər verək?» dedik. O: «Xurmalarından deyirəm.

[279] ***Dəbbətul Ard*** – bəzi rəvayətlərə görə bu Cəssəsədir. Cəssəsə Dəccəl üçün xəbərlər aparan casus deməkdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dəbbətul Ard, Musanın əsası və Süleymanın möhürü bir yerdə çıxacaqdır. Möhür ilə möminin üzünü parladacaq, əsa ilə kafirin burnunu qıracaqdır. Mömin ilə kafir tanınacaqdır». İmam Əhməd, Taylasi, Tirmizi, İbn Məcə, Beyhəqi, İbn Cərir.

Onlar meyvə verirlərmi?» dedi. Biz: «Bəli, verir» dedik. O: «Onun meyvə verməmək vaxtı yaxınlaşır» dedi. O: «Mənə Təbəriyyə gölündən xəbər verin?» dedi. Biz: «Sənə onun hansı halından xəbər verək?» dedik. O: «Onda su varmı?» dedi. Biz: «Onun suyu çoxdur» dedik. O: «Xəbəriniz olsun ki, onun suyunun çəkilib getməsi zamanı yaxınlaşır» dedi. O: «Mənə Şamın qiblə hissəsində olan Aynu Zuqardan xəbər verin» dedi. Biz: «Sənə onun hansı halından xəbər verək?» dedik. O: «O, bulaqda su varmı? Oranın əhalisi o, bulaqdan istifadə edirmi?» dedi. Biz: «Bəli, o suyu bol olan bir bulaqdır. Əhalisi də o, bulağın suyundan istifadə edirlər» dedik. O: «Mənə ***Nəbiyyul-Ummiyin*** (ümmətlərin Peyğəmbəri) haqqında xəbər verin? O, nə edir?» dedi. Biz ona: «Məkkədən çıxıb Yəsribə (Mədinəyə) hicrət edib» dedik. O: «Ərəblər onunla müharibə edirlərmi?» dedi. Biz: «Bəli» dedik. O: «Onun vəzifəsi nədir? Peyğəmbər onlara nə edir?» dedi. Biz: «Ərəblərdən ona dostluq edənlər və itaət edənlər zahir olmuşdur» dedik. O: «Həqiqətən bunlar oldumu?» dedi. Biz: «Bəli» oldu dedik. O: «Şübhəsiz ki, onların Peyğəmbərə itaət etmələri onların özləri üçün xeyirlidir» dedi. İndi mən sizə özüm haqqımda xəbər verəcəyəm. Mən Məsihəm. Mənə çıxmaq üçün izn verilən zaman yaxınlaşır. İzn verildikdə mən yer üzündə gəzəcəyəm və qırx gecə içində elə bir yer olmayacaq ki, ora ayağım dəyməsin. Məkkə və Mədinədən başqa. Bunların hər iksi də mənə haram edilmişdir. Bu iki şəhərin hər girəcəyində dayanan mələklər əllərindəki qılınc ilə məni vuraraq bu şəhərlərə girməyə qoymazlar».

Fatimə b. Qeys - *radıyallahu anhə* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bunları söylədi və əlindəki dəyənək ilə minbərə sürtərək və Mədinəni qəsd edərək: «Bura Teybədir! Bura Teybədir! Bura Teybədir!» deyə buyurdu. Sonra xəbəriniz olsun ki, mən bunları sizlərə söylədimmi? deyə buyurdu. Məsciddəki insanlar dedilər: «Bəli! Xəbər verdin!»[280].

Bütün bu hadisələr öz baş vermə vaxtına görə ardıcıl gələcəklər və bir-birinin ardınca o, qədər sürətlə gələcəklər ki, insanlar göz açmağa imkan belə tapmayacaqlar. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamətin əlamətləri bir-birinin ardınca gələn mirvari dənələri kimidir. İp kəsildikdə dənələr bir-birinin ardınca töküldüyü kimi (Qiyamətin əlamətləri də bir-birinin ardınca bu cür sürətlə) gələcəkdir»[281]. O, dəhşətli, qulaqları kar edən və insanları sərxoş edən gün gəlməmişdən əvvəl Allaha yönəlin, nə

[280] Müslim.
[281] Həkim, Əhməd «Musnəd», əl-Albani «Səhih Hədislər Silsiləsi» 4/361 hədis 1762.

etdikləriniz haqda düşünün. Çünkü o, gün düşünmək artıq fayda verməyəcəkdir. ***«Nəhayət qulaqları kar edən o, dəhşətli səs gələndə. O, gün insan qaçacaq qardaşımdan, anasından, atasından, zövcəsindən, oğullarından. O, gün onlardan hər birinin istənilən qədər işi olacaqdır».*** *(Əbəsə 31-37).* ***«Onu görəcəyiniz gün hər bir əmizli qadın uşağını unudar, hər bir hamilə qadın vaxtından əvvəl yerə qoyar. İnsanları sərxoş görərsən. Halbuki onlar sərxoş deyillər. Bu ancaq Allahın əzabının şiddətli olmasındandır».*** *(əl-Həcc 2).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Günəş batdığı yerdən doğmadıqca Qiyamət qopmaz. İnsanlar onu gördükdə yer üzündə olan hər kəs iman gətirəcəkdir. Əvvəlcədən iman etməmiş heç bir kəsə iman etməsinin fayda verməyəcəyi zamandır»[282].

QİYAMƏTİN ADLARI

Qurani Kərimdən bizə məlum olan Qiyamət gününün bir çox adları vardır.

1. ***Yəumul-Bəss*** – məşhərə göndərilən gün. (ər-Rum 56).
2. ***Yəumul-Xuruc*** – çıxarılacaq günü. (Qaf 42).
3. ***Yəumul-Qiyəmə*** – qalxacaqları gün. (əl-Qiyamət 1).
4. ***Yəumul-Həşr*** – toplanma günü. (Qaf 44).
5. ***Yəumul-Fəsl*** – ayırd etmə günü. (ən-Nəbə 17).
6. ***Yəumul-Cəma*** – cəm etmə günü. (əş-Şura 7).
7. ***Yəumul-Hisəb*** – haqq-hesab günü. (Sad 16).
8. ***Yəumul-Vaid*** – vəd olunmuş gün. (Qaf 20).
9. ***Yəumul-Həsra*** – peşmançılıq günü. (Məryəm 39).
10. ***Yəumul-Xulud*** – əbədiyyat günü. (Qaf 34).
11. ***Dərul-Xuld*** – əbədiyyət yurdu. (Fussilət 28).
12. ***Yəumut-Tələq*** – qarşılaşma günü. (Ğafir 15).
13. ***Yəumud-Din*** – sorğu-sual günü. (əl-Fatihə 4).
14. ***Həqqa*** – haqq üzə çıxacağı gün. (əl-Haqqə).
15. ***Qariə*** – qəlbləri təşvişə salan gün. (əl-Qariə 1-2).
16. ***Ğaşiyə*** – qəlbləri dəhşət bürüyən gün. (əl-Ğaşiyə 1-2).
17. ***Təğabun*** – qarşılıqlı aldanma günü. (ət-Təğabun).
18. ***Əzifə*** – yaxınlaşmaq günü. (ən-Nəcm 57) və s.

[282] Buxari, Müslim

ÖLÜM

Bizlər ölən yaxud öldürülən, ya da hər hansı bir səbəblə həyatı sona çatan hər bir kəsin əcəli ilə öldüyünə və onun əcəlindən heç bir şeyin əskilmədiyinə iman edirik. *(Ya Muhəmməd!)* ***De ki: «Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır. Sonra da*** *(Qiyamət günü)* ***Rəbbinizin hüzuruna qaytarılacaqsınız».*** *(əs-Səcdə 11).* ***«Can boğaza yetişdiyi zaman siz ona baxıb durursunuz*** *(əlinizdən heç bir şey gəlmir).* ***Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz! Əgər sizdən*** *(dediyiniz kimi, qiyamət günü əməllərinizə görə)* ***haqq-hesab çəkilməyəcəksə, və əgər*** *(öləndən sonra heç bir dirilmə, haqq-hesab yoxdur)* ***iddianızda doğrusunuzsa, bəlkə o çıxan canı geri*** *(bədənə)* ***qaytarasınız».*** *(əl-Vaqiə 83-87).*

Ölüm İki Cürdür: **1.** ***Yuxu*** **–** Allah Qurani Kərimdə yuxunu ölüm adlandırır. ***«Allah*** *(əcəli çatan kimsələrin)* ***canlarını öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar».*** *(çünkü yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruhun bədənlə əlaqəsi kəsilir)». (əz-Zumər 42).* Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sübh namazına yatıb qaldıqda buyurdu: «Allah bizim ruhumuzu aldı və istədiyi vaxt qaytardı»[283].

2. ***Həqiqi Ölüm – «Yer üzündə olan hər kəs fanidir*** *(ölümə məhkumdur)». (ər-Rahmən 26).* ***«Hər kəs ölümü dadacaqdır».*** *(əl-Ənbiya 35).*

Ölüm acı bir həqiqətdir. Hər bir canlı onunla qarşılaşır, ondan qaça bilmir. Canlı varlılıqların heç biri bu həqiqətə qarşı durmaq qüdrətinə malik deyillər. O, hər an baş verə bilər, onunla böyük də, kiçik də, varlı da, kasıb da, güclü də, zəif də üzləşir. ***«Hər bir kəs ölümü dadacaqdır».*** *(Ali-İmran 185). (Müharibəyə getməyib Mədinədə evlərində)* ***oturan və*** *(müharibəyə getmiş)* ***qardaşları haqqında: «Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər» deyənlərə söylə ki, əgər doğru deyirsinizsə, onda*** *(bacarıb)* ***ölümü özünüzdən uzaqlaşdırın.*** *(Ali-İmran 168).*

Hamı onun qarşısında bərabərdir. O, qaçılmaz bir taledir, ondan xilas yoxdur, ona mane olacaq bir qüvvə, bir vasitə də yoxdur. Onun qarşısını almaq, onu gecikdirmək də olmaz. Ona təslim olmaqdan başqa bir çıxış yolu da yoxdur. ***«Heç kəs səhər nə əldə edəcəyini*** *(savab, yaxud günah qazanacağını)* ***heç kəs harada öləcəyini bilməz. Allah isə şübhəsiz ki,*** *(hər şeyi)* ***biləndir və*** *(hər şeydən)* ***xəbərdardır».*** *(Loğman 34).*

[283] Buxari, Müslim.

Həyatı bəxş edən də Allahdır, müəyyən olunmuş vaxtda, ayrılmış müddətdə insan istər evində, istər ailəsi yanında, istər ruzi axtarışında və s. harda olursa olsun verdiyini geri alan da Allahdır. ***«Harada olursunuz olun, hətta uca və möhkəm qalalar içərsində olsanız belə, ölüm sizi haqlayacaqdır».*** *(ən-Nisa 78).*

Bu günə qədər heç bir kəsə ölməzlik bəxş olunmayıb. Yaradılmışların ən xeyirliləri olan Peyğəmbərlər belə ölümdən yaxa qurtara bilməyiblər. Baxın, görün Allah onlar haqqında nə buyurur: *(Ya Muhəmməd!)* ***«Səndən əvvəl də*** *(dünyada)* ***heç kəsə əbədi həyat*** *(ölməzlik)* ***vermədik. Belə olduqda sən ölsən onlar dirimi qalacaqlar?»*** *(əl-Ənbiya 34). (Ya Peyğəmbər!)* ***«Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər».*** *(əz-Zumər 30).*

Bəli, bu qədər ayələri dinlədikdən sonra «Beş günlük dünyadır, kef etmək lazımdır» deyənlərin aqibəti necə olacaqdır. ***«Xeyr, can boğaza*** *(körpücük sümüklərinə)* ***gəlib yetişəcəyi,*** *(ailə üzvləri tərəfindən onu bu bəladan)* ***kim xilas edə bilər? deyiləcəyi,*** *(can üstə olan kimsə)* ***ayrılıq qəminin gəlib çatdığını anlayacağı, və*** *(ölüm qorxusundan)* ***qıçı-qıçına dolaşacağı zaman, aparılacağın yer Rəbbinin hüzuru olacaqdır*** *(ey insan).* ***Beləliklə o nə (Quranı) təsdiq etdi, nə də namaz qıldı. Amma*** *(Allah kəlamını)* ***yalan saydı,*** *(imandan da)* ***üz döndərdi. Sonra da özünü darta-darta ailəsinin yanına getdi. Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay!».*** *(əl-Qiyamə 26-35).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Ləzzətlərlə dolu həyata son qoyan ölümü tez-tez yada salın»[284]. İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Ey Adəm övladı! Anan səni dünyaya gətirəndə sən ağlayırdın, ətrafdakılar isə sevinirdilər. Elə əməl et ki, ölüm anında onlar yığışıb ağlayanda sən sevinəsən».

Bütün varlılıqların yaradanı Allahdır, qayıdış da Allahadır. Ondan başqa qayıdış məqamı yoxdur. Bu qayıdışdan başqa bir tale yoxdur. Fərq yalnız əməl və niyyətdə, gedilmiş yol və məqsəddədir. Son isə birdir: «Müəyyən olunmuş vaxtda, ayrılmış müddətdə ölümdür, Allaha qayıdışdır, məhşər və toplanış günündə cəmləşməkdir. Allahdan mərhəmət və məğfirət ya da qəzəb və əzabdır». Əbu Zərr əl-Ğifari - *radıyallahu anhu* –, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Uca və Böyük olan Allahdan belə buyurmuşdu: «Ey mənim qullarım! Mən zülmü özümə haram etdim. Onu sizin aranızda da haram edirəm. Buna görə də bir-birinizə zülm etməyin…. Ey mənim qullarım, nə etsəniz onlar sizin əməllərinizdi. Mən onları sizin üçün sayıb, sonra əskiltmədən sizə verəcəyəm. Hər kim xeyir əldə edərsə bundan ötrü Allaha həmd etsin. Hər kim də bundan başqa bir

[284] İmam Əhməd 2/293, Tirmizi 2307, Nəsəi 4/5, İbn Məcə 4258, İbn Hibban 2559, əl-Həkim 4/321.

şeylə qarşılaşarsa özündən başqa heç kəsi qınamasın»[285]. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah o, kəslə görüşmək istəyir ki, o da (Rabbi ilə) görüşməyi arzulayır. O, kəslə görüşmək istəmir ki, o da (Rəbbi ilə) görüşməyi arzulamır». Aişə - *radıyallahu anhə* – dedi: «Ya Rəsulallah! Sən ölümü deyirsən? Axı o bizim xoşumuza gələn bir hal deyildir!». O, dedi: «Yox, bu siz fikirləşdiyiniz deyildir. Mömin bəndəyə Allahın rəhmi, mərhəməti və Cənnəti haqqında xəbər verildikdə o, da onunla (Rəbbi ilə) görüşü arzulayır. Allah da həmin bəndə ilə görüşü arzulayır. Kafir bəndəyə Allahın əzabı, qəzəbi və Cəhənnəmi haqqında xəbər verildikdə o, da onunla (Rəbbi ilə) görüşməyi arzulamır. Allah da həmin bəndə ilə görüşməyi arzulamır»[286]. Cabir – *radıyallahu anhu* – rəvayət edir ki, mən Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – vəfatından üç gün qabaq belə dediyini buyurduğunu eşitdim: «Sizlərdən hər hansı biriniz Allaha gözəl zənn etməkdən başqa halı üzərə ölməsin»[287].

<u>Ölümü Arzulamamaq</u>: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Heç biriniz ölümü əsla istəməsin və ölüm gəlmədən də gəlməsinə dua etməyin. Çünki sizdən bir öldüyü zaman əməli kəsilir. Həm də möminin ömrü ona xeyirdən başqa bir şey artırmaz"[288]. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizdən kimsə ona toxunan zərərdən ötrü ölümü istəməsin. Əgər bunu etmək mümkün deyilsə onda desin: Ya Rəbbim! Yaşamaq mənə xeyirli olduğu müddətdə məni yaşad, ölümüm mənə xeyirli olduğu zaman ruhumu al (Başqa rəvayətdə: Əgər yaxşı kimsədirsə ümüd edilir ki, yaxşılığı artırsın, Pis kimsədirsə ümüd edilir ki, qayıdar (tövbə) edər)"[289]. Ənəs - *radıyallahu anhu* – deyir ki: "Əgər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ölümü istəməkdən nəhy etməsəydi ölümü istəyəcəkdik"[290].

<u>Allaha İtaət İlə Keçirilən Ömür</u>: Əbu Bəkrətə - *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər: "Ya Rəsulallah! Insanların hansı daha xeyirlidir?" deyə soruşdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Ömrü uzun olub, əməli gözəl olandır". Sonra adam: "İnsanların hansı daha şərlidir" deyə soruşdu. Peyğəmbər: "Ömrü uzun olub, əməli

---

[285] Müslim.
[286] Buxari, Müslim.
[287] Müslim 2877.
[288] Müslim.
[289] Buxari, Müslim.
[290] Buxari, Müslim.

pis olandır" deyə buyurdu[291].

<u>Dini Bir Fitnə Qorxusundan Ölümü İstəmək</u>: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət qopmaz o, vaxta qədər ki, qəbrin yanından keçən insanlar – «Kaş ki, onun yerində mən olaydım» deməyincə[292]. Sovban - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ya Rəbbim! Xeyirli əməllər etməyi, günahlardan çəkinməyi, miskinləri sevməyi mənə nəsib et. İnsanlara bir fitnə təqdir etdiyin zaman məni fitnəyə bulaşdırmadan yanına al!"[293]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Gecə qaranlığı kimi öldürücü fitnələrdən çəkinin. (Xeyirli əməllər etməyə çalışın!) Çünki səhəri mömin olan axşama kafir olacaqdır, axşamı mömin olan isə səhərə kafir olacaqdır. İnsanlar öz imanlarını (dinlərini) dünya malına satacaqlar»[294]. Sələflər deyirlər ki: "Ölüm yox olub getmək deyildir. O, ancaq ruhun bədəndən əlaqəsinin kəsilməsidir. Ölüm bir ayrılmaqdır. Ruh ilə bədən arasına girən bir pərdədir. Ölüm bir dəyişiklikdir. Dünyadan Axirətə köçməkdir". Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ölüm qənimətdir, Günahlar müsibətdir, Fəqirlik rahatlıqdır, Zənginlik cəzadır, Ağıl hidayətdir, cahillik zəlalət və sapıqlıqdır, zülm peşmanlıqdır, itaət gözün nurudur, Allah qorxusundan ağlamaq atəşdən qurtulmaqdır, gülmək bədənin fəlakətidir, günahdan tövbə edən günahsız kimidir"[295]. Mahmud b. Ləbid - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İki şey var ki, İnsan oğlu onlardan iyrənir. Ölümdən iyrənir, halbuki onun üçün ölüm fitnədən daha xeyirlidir. Malın azlığından iyrənir, halbuki az malın sorğu-sualı daha azdır"[296]. İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Əbu Zərr - *radıyallahu anhu* – ya buyurdu: "Ey Əbu Zərr! Dünya möminin zindanı, qəbr əminliyi, Cənnət isə qərargahıdır. Dünya kafirin Cənnəti, qəbr onun əzabı, Cəhənnəm isə dönüş yeridir"[297]. İbni Mubarək və İbni Əbi Şeybə və Mərvəzi Rabi b. Haysəndən rəvayət edir ki: "Möminin gözlədiyi qeybi şeylər içində ölümdən daha xeyirli heç bir şey yoxdur"[298]. Əbu Darda - *radıyallahu anhu* – rəvayət edir ki: "Rəbbimə

---

[291] Həkim, Əhməd.
[292] Fəthul Bəri, Buharî "Fitən" 13/81,82, Nəvəvi şərhi, Müslim "Fitən" 18/34.
[293] Malik, Bəzzar, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[294] İmam Nəvəvi "Şərh Müslim" 2/133.
[295] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[296] Beyhəqi zəif hədis, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[297] Əbu Nuaym, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[298] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".

təvəzökarlıq üçün fəqirliyi, ona qovuşmaq üçün ölümü sevərəm, günahlarıma kəffarə üçün xəstəliyi sevərəm"[299]. Ölüm mələyi İbrahim - *əleyhissəlam* - ın ruhunu almaq üçün gəlmişdir. İbrahim: "Ey Mələkul Movt! Heç dost dostun ruhunu alarmı?". Ölüm mələyi Rəbbinə dönərək Allah ona buyurdu: İbrahim - *əleyhissəlam* - de: Heç dost dosta qovuşmaqdan çəkinərmi?". Mələk bunu İbrahim - *əleyhissəlam* - xəbər verincə İbrahim: "Ruhumu al!" dedi[300]. Həyyan b. əl-Əsvəd deyir ki: "Ölüm bir körpüdür. Dostu dosta qovuşdurur"[301].

<u>Ölümü Xatırlamaq</u>: Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ölümü çox xatırlayın. Çünki ölümü anmaq günahları təmizlər, insanın əlini dünyadan çəkər, zəngin ikən ölümü xatırlamaq azğınlıqdan qoruyar, fəqir ikən ölümü xatırlamaq yaşamağa razı edər"[302]. Sələflər deyirlər ki: "Kim ölümü çox zikr etsə ona üç şey ikram olunar: Tövbəni tezləşdirər, qəlbində (az ruzi ilə) qənaətkar olar, ibadətində sevinc və fərəh hiss edər. Kim də ölümü unudarsa ona üç şey ilə cəza verilər: Tövbəni gecikdirər, (az ruzi ilə) qənaətkar olmaz, ibadətində tənbəl olar"[303]. İbrahim Teymi – *rahmətullahi aleyhi* - deyir ki: "İki şey məndən dünya ləzzətlərini kəsir: "Ölümü və Allahın hüzurunda durmağı zikr etmək"[304]. İbrahim ət-Teymi – *rahmətullahi aleyhi* - deyir ki: "Ölümü zikr etmək zənginlikdir"[305]. Kəb – *rahmətullahi aleyhi* - deyir ki: "Kim ölümü haqqıyla tamsa dünyanın müsibət və qəmi ona asant gələr"[306]. Malik b. Dinar – *rahmətullahi aleyhi* - deyir ki: "Əməl və ibadətdə qəlbin həyat tapması üçün ölümü zikr etmək bəs edər"[307]. Səfiyyə rəvayət edir ki, bir qadın qəlbinin sərtliyindən Aişə - *radıyallahu anhə* – yə şikayət edir. O: "Ölümü çox zikr et, qəlbin yumşalır" dedi[308]. Əli - *radıyallahu anhu* – deyir ki: "İnsanlar yatıblar, öldükləri zaman oyanırlar"[309].

<u>Ölümü Xatırlamağa Yardımçı Olan Şeylər:</u> Bureydə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qəbirləri ziyarət etməkdən sizləri qadağan etmişdim. Artıq

---

[299] İbni sad "Tabaqat", Beyhəqi "Şuab", İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[300] İmam Əhməd, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[301] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[302] İbn Əbi Dunyə, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[303] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[304] İbn Əbi Dunyə, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[305] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[306] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[307] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[308] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[309] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".

onları ziyarət edin…»[310]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Anam üçün istiğfar diləmək üçün Rəbbimdən izin istədim mənə izin vermədi. Qəbrini ziyarət etmək üçün Rəbbimdən izin istədim mənə izin verdi. Siz də qəbirləri ziyarət edin. Çünki qəbir ziyarəti ölümü xatırladır»[311]. Əbu Səid - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizlərə qəbir ziyarətlərini qadağan etmişdim. İndi isə kim ziyarət etmək istəyərsə ziyarət etsin. Lakin çirkin söz söyləməsin»[312].

<u>Allaha Hüsnü Zən Etmək</u>: Cabir – *radıyallahu anhu* – rəvayət edir ki, mən Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – vəfatından üç gün qabaq belə buyurduğunu eşitdim: «Sizlərdən hər hansı biriniz Allaha gözəl zənn etməkdən başqa halı üzərə ölməsin»[313]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – öz Rəbbindən buyurdu: "Mən qulumun qəlbində iki qorxu və iki əminliyi cəm etmərəm. Kim məndən qorxsa, axirətdə onu əmin edərəm. Kim də dünyada məndən (əzabımdan) əmin olsa, axirətdə onu qorxuda buraxaram"[314]. Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ölüm anında olan bir gəncin yanına daxil oldu. Ona: "Özünü necə hiss edirsən?" deyə buyurdu. O: "Allaha ümüd edirəm və günahlarıma görə qorxuram" dedi. Peyğəmbər: "Belə bir məqamda qulun qəlbində ümüd və qorxu birləşərsə Allah ümüd etdiyini ona verər və qorxduğundan da onu əmin edər"[315]. İbrahim – *rahmətullahi aleyi* - deyir ki: "Sələflər ölüm üzərə olan kimsəyə Rəbbinə yaxşı zən bəsləsin deyə gözəl əməllərini xatırlamağı gözəl görərdilər"[316].

<u>Ölüm Acı Bir Həqiqətdir</u>: Ölüm acı bir həqiqətdir. Hər bir canlı onunla qarşılaşacaqdır. Ölüm anında insanın nə hislər keçirdiyini və ölümdən sonra nələrin baş verdiyi haqda Bəra b. Azib - *radıyallahu anhu* – rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə ənsarlardan birini dəfn etmək üçün qəbristanlığa yollandıq. Biz qəbrə yaxınlaşdıq, oranı hələ də qazırdılar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – üzünü Məkkəyə tərəf çevirərək oturdu. Biz də onun yanında sükut içərisində oturduq. O, əlində olan çubuq ilə yerə bir neçə dəfə vurduqdan sonra başını səmaya qaldırıb iki və ya üç dəfə: «Qəbr əzabından qorunmaq üçün Allaha sığının!» dedi və sözünə davam edərək:

---

[310] Müslim 977.
[311] Müslim 976.
[312] Əhməd 3/38, Heysəmi 3/57, Nəsəi 4/89.
[313] Müslim 17/209, 2877. Əbu Davud 2097.
[314] İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi".
[315] İbn Məcə 4261, Tirmizi, Əhməd, İmam Cəlaləddin əs-Suyuti "Qəbir Aləmi". əl-Albani "Səhihdə" 1051.
[316] İbn Əbi Dunyə "Kitabul Muhtadirin" s. 39-40.

«Mömin bəndə bu dünyadan köçüb axirətə qovuşduqda onun yanına səmadan ağ üzlü mələklər gəlirlər. Onların üzü günəş kimi parıldayır, əllərində Cənnət kəfənləri, xoş ətirli Cənnət hanutu (balzam) olur. Gözün son görmə həddi qədər ölən adamdan aralı otururlar». Bundan sonra ölüm mələyi gəlib onun başı üzərində oturaraq deyir: «Ey gözəl nəfs! (ruh)[317], Allahdan bağışlanma və razılıq qazanmaq üçün üzə çıx!» Möminin nəfsi (ruhu) tuluğun ağzından suyun axdığı kimi rahatlıqla çıxar. Bu zaman göylər və yerlər arasında olan mələklər Allahdan o, gözəl nəfs üçün bağışlanma diləyirlər. Onun qarşısına göylərin bütün qapıları açılır və hər qapının gözətçiləri o, gözəl nəfsin onların yanından ötüb keçməsini Allahdan diləyirlər. Ölüm mələyi nəfsi çıxartdıqdan sonra bir an belə əlində saxlamayıb dərhal onu o biri mələklərə verir. Onlar nəfsi əllərindəki kəfənə bürüyərlər, ona hanut vururlar. ***«Nəhayət birinizin əcəli gəlib çatdıqda onun canını mələklər alar. Onlar*** *(öz vəzifələrində)* ***heç bir əyər-əskikliyə yol verməzlər».*** *(əl-Ənam 61).* Bundan sonra mələklər nəfsi səmaya qaldırırlar. Mələklərin yanından ötüb keçərkən deyirlər: «Bu gözəl nəfs kimindir?» Deyirlər: «Filankəs oğlu filankəsdir». Onu dünyada daşıdığı ən gözəl adlarla sadalıyırlar və onunla birinci səma qatına çatırlar. Onlar səma qapısının açılmasını xahiş edirlər və qapılar açılır. Hər bir səmada olan mələklər onunla vidalaşır və onu növbəti səmaya yola salırlar. Nəhayət yeddinci səmaya gəlib çatırlar. Uca və böyük olan Allah buyurur: «Mənim qulum haqqında yazın! Cənnətin ən yüksək yerinə – ***Illiyyuna!***». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu ayəni oxudu: ***«Sən nə bilirsən ki, İlliyyun nədir? O, yazılı bir kitabdır. Onu ancaq yaxın olan mələklər görə bilər».*** *(əl-Mutəffifin 19-21).* Mələklər onun adını İlliyyuna yazdıqdan sonra Allah buyurur: «Onu torpağa qaytarın. Həqiqətən mən onlara vəd vermişəm ki, onları (torpaqdan) yaratmışam, (torpağa) da qaytaracağam və (torpaqdan) da dirildəcəyəm». Mələklər nəfsi torpağa qaytardıqdan sonra qul yaxınlarının dönüb geri getdikləri zaman ayaq səslərini eşidir. Bundan sonra onun yanına iki mələk gəlib onu ayıldaraq soruşurlar: «Sənin Rəbbin kimdir?» O, deyir: «Rəbbim - Allahdır» - «Dinin nədir?» O, deyir: «Dinim İslamdır» - «Sizə göndərilən o, adam kimdir?» O, deyir: «O, Allahın Rəsuludur» - «Bəs, sən nə etdin?» O, deyir: «Allahın kitabını oxudum, ona iman gətirdim və onu təsdiqlədim». Səmadan səs gəlir: «Mənim qulum haqqı dedi. Onu Cənnət

---

[317] ***Nəfs*** – bir neçə cürdür. **1.** Sənə pisliyi əmr edən nəfs – ***«Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla nəfs pis işləri görməyi əmr edir. Həqiqətən Rəbbim bağışlayan və Rəhm edəndir».*** *(Yusif 53).* **2.** Özünü qınayan nəfs – ***«And içirəm özünü qınayan nəfsə».*** *(əl-Qiyamət 2).* **3.** Özünə arxayın nəfs – ***«Ey özünə arxayın nəfs. Dön Rəbbinə, sən Ondan O, da səndən razı olaraq».*** *(əl-Fəcr 27).* İbn Teymiyyə «Məcmuul Fətava» 9/294.

libasları ilə geyindirin, Cənnət nemətlərindən ona verin və Cənnətin qapısını onun üzünə açın. Onun bədənindən gözəl iy gəlir və məzarı göz görən məsafə qədər genişlənir. Onun yanına xoşsifətli, gözəl geyimli, gözəl ətirli bir nəfər gəlib deyir: «Mən səni sevindirəcək bir xəbərlə gəlmişəm. Allahın sənə verdiyi nemətlərlə sən sevin! Bu gün sənə vəd olunmuş gündür». Mömin təəcüblü halda soruşur: «Sən kimsən? Sənin sifətin xeyirdən xəbər verir». O, deyir: «Mən sənin saleh əməllərinəm. Allaha and olsun ki, mən səni həmişə Allahın əmrlərini yerinə yetirmək üçün can atdığını və qadağalarından çəkinmək üçün çalışdığını görürdüm. Bu da sənin əməllərinin qarşılığında Allahın sənə olan mükafatıdır». Mömin üçün Cənnətin və Cəhənnəmin qapıları açılır. Ona deyilir: «Əgər sən Allaha asi olsaydın, ora (Cəhənnəm) sənin olardı. Lakin Allah oranı sənin üçün Cənnət ilə əvəz etdi». Mömin Cənnətdəki yerini gördükdən sonra Allaha dua edib deyir: «Ya Rəbbim! Qiyamət gününü yaxınlaşdır və mənə imkan ver ki, öz ailəmin, əmlakımın yanına qayıdım».

Kafir bəndə bu dünyadan köçüb axirətə qovuşduqda onun yanına səmadan qara sifətli mələklər gəlirlər. Əllərində Cəhənnəmdən gətrilmiş parça olur. Gözün son görmə həddi qədər ölmüş adamdan aralı otururlar». Bundan sonra ölüm mələyi gəlib onun başı üzərində oturaraq deyir: «Ey xəbis nəfs! (ruh) Allahın qəzəb və nifrətini qazanmaq üçün üzə çıx!» Kafirin nəfsi (ruhu) bədənindən əyri uclu dəmir əsa yaş yundan çıxdığı kimi çıxar. Bu zaman göylər və yerlər arasında olan mələklər onu lənətləyirlər. Onun üçün göylərin bütün qapıları bağlanır və hər qapının gözətçiləri o, xəbis nəfsin onların yanından ötüb keçməməsini Allahdan diləyirlər. Ölüm mələyi nəfsi çıxartdıqdan sonra bir an belə əlində saxlamayıb dərhal onu o biri mələklərə verir. Onlar xəbis nəfsi Cəhənnəmdən gətirdikləri pis qoxulu kəfənə bürüyürlər. Bundan sonra mələklər nəfsi səmaya qaldırırlar. Mələklərin yanından ötüb keçərkən deyirlər: «Bu xəbis nəfs kimindir?» deyirlər: «Filankəs oğlu filankəsdir». Onu dünyada daşıdığı ən pis adlarla sadalıyırlar və onunla birinci səma qatına çatırlar. Onlar səma qapısının açılmasını xahiş edirlər. Lakin qapılar açılmır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu ayəni oxudu: ***«Ayələrmizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil ola bilməzlər. Biz günahkarlara belə cəza veririk».*** *(əl-Əraf 40).* Bundan sonra Uca və Böyük olan Allah buyurur: «Onun haqqında yazın! Yerin ən aşağı hissəsinə - Siccinə!». Mələklər onun adını Siccinə yazdıqdan sonra Allah buyurur: «Onu torpağa qaytarın. Həqiqətən mən onlara vəd vermişəm ki,

onları (torpaqdan) yaratmışam, (torpağa) da qaytaracağam və (torpaqdan) da dirildəcə-yəm». Mələklər nəfsi torpağa atırlar və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu ayəni oxudu: ***«Allaha şərik qoşan kimsə göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara apardığı bir şeyə bənzər».*** *(əl-Həcc 31).* Sonra xəbis nəfs yaxınlarının dönüb geri getdikləri zaman ayaq səslərini eşidir. Bundan sonra onun yanına iki mələk gəlib onu ayıldaraq soruşurlar: «Sənin Rəbbin kimdir?» O, deyir: «Mmmm…bilmirəm?!» - «Dinin nədir?» O, deyir: «Mmmm…bilmirəm?!» - «Sizə göndərilən o, adam kimdir?» O, deyir: «Mmmm…bilmirəm?!» Onda mələklər qışqıraraq: «O, Muhəmməddir!» O, isə: «Mmmm…bilmirəm. Mən insanların nə isə danışdıqlarını eşidirdim». Onlar: «Sən bunu eşitdikdən sonra onun ardınca getmədin (itaət etmədin)». Səmadan səs gəlir: «O, yalan deyir! Onu Cəhənnəm libası ilə geyindirin və Cəhənnəmin qapsını onun üzünə açın!». Cəhənnəmin isti havası onun üzünə vurur, onun qəbri o, qədər daralır ki, qabırğaları bir-birinə keçir. Onun yanına murdar sifətli, murdar libaslı və çox pis qoxulu biri gəlib deyir: «Mən sənin yanına elə bir xəbər ilə gəlmişəm ki, bu gün sən çox qəmgin və məyus olacaqsan. Bu gün sənə vəd olunmuş gündür». Kafir təəcüblü halda soruşur: «Sən kimsən? Sənin sifətindən zəhrimar yağır. Sifətin xeyirdən xəbər vermir?!». O, deyir: «Mən sənin pis əməllərinəm. Allaha and olsun ki, mən səni həmişə Allahın əmrlərini yerinə yetirməyən və Allaha asi olan görürdüm! Bu da sənin etdiyin əməllərin qarşılığında Allahın sənə olan cəzasıdır!». Sonra kafirin yanına kor, kar və lal cəlladı göndərirlər. Əlindəki dəyənəklə hansı ki, bu dünyadakı dağa vurulsaydı onu toz dənələrinə döndərərdi. Onunla kafiri vuraraq toza döndərir. Lakin Allah onu yenə də əvvəlki görkəminə qaytarır. Onun fəryadını, qışqırığını insanlar və cinlərdən başqa hamı eşidir. Sonra Cəhənnəmin qapıları onun üçün açılır və o, qışqıraraq deyir: «Ya Rəbbim! Qoy qiyamət gəlməsin»[318].

QƏBR ALƏMİ

Əhli Sünnə Vəl Camaat ölümdən sonra baş verəcək hər bir şeyə iman edir və bütün bunların da axirətə imanın içərsinə daxil olduğuna da inanırlar. O, baxımdan möminlər qəbir fitnəsinə (sualına) qəbirdə olan əzab və nemətlərə inanırlar. Qəbr fitnəsinə gəlincə insanlar qəbrlərində sorğu-sual olunacaqlar: «Rəbbin kim? Dinin nə? Peyğəmbərin kim?». Allaha iman edənlər dünya həyatında da, axirət həyatında da bu suallara

[318] əl-Albani «Əhkəmul Cənaiz» s 202, İmam Əhməd 4/287, 295-296, Əbu Davud 4753, İbn Kəsr 2/131, İbn Həcər 3/234, 240.

cavab vermək üçün sabit olurlar. ***«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə*** *(şəhadətlə)* ***sabitqədəm edər. Allah zalimləri*** *(haqq yoldan)* ***sapdırar. Allah istədiyini edər».*** *(İbrahim 27).* O, baxımdan da mömin: «Rəbbim Allah! Dinim İslam! Peyğəmbərim Muhəmməd – *sallallahu aleyhi və səlləm* – dir!» deyə cavab verəcəkdir. Uca Allah zalımları və kafirləri azdıracaqdır. Onlar «Mmmm... bilmirəm?!» deyəcəklər. Münafiqlər və bu xüsusda şübhə içində olan kimsələr isə: «Mən bilmirəm, insanların nə isə söylədiklərini eşidirdim» deyəcəklər. Bu suallardan sonra ya nemət vardır, ya da əzab. Bu da böyük qiyamət qopacağı vaxta qədər davam edəcəkdir. Allah müşrik və kafirlər haqqında buyurur: ***Nəhayət müşriklərdən birinin ölümü gəlib çatdığı zaman o belə deyər: «Pərvərdigara! Məni geri*** *(dünyaya)* ***qaytar! Bəlkə*** *(indiyə qədər)* ***zay etdiyim ömrün müqabilində yaxşı bir iş görüm! Xeyr, bu onun dediyi boş, faydasız bir sözdür. Onların önündə dirilib*** *(haqq-hesab üçün Allahın hüzurunda)* ***duracaqları günə qədər maneə*** *(öldükdən sonra qiyamətədək qaldıqları bərzəx aləmi)* ***vardır».*** *(əl-Muminun 100).* ***Kaş sən zalimləri ölüm əzabı içində çapalayan, mələklərin də əllərini uzadıb çıxarın canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və onun ayələrinə təkəbbür göstərdiyinizə görə alçaldıcı bir əzabla cazalandırılacaqsınız! deyəndə görəydin».*** *(əl-Ənam 93).*

Allah Firon əhli haqqında buyurur: ***«Firon əhlini isə şiddətli əzab sardı. Onlar*** *(ölən gündən Qiyamətə qədər qəbr evində)* ***səhər-axşam*** *(gündə iki dəfə)* ***odda yandırılarlar. Qiyamət qopduğu gün isə*** *(deyiləcəkdir)* ***Firon əhlini ən şiddətli əzaba salın».*** *(əl-Mumin 45-46).* İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən biri vəfat etdikdə səhər və axşam ona düşəcəyi yer göstərilir. O, kimsə Cənnət əhlindəndirsə Cənnət. O, kimsə Cəhənnəm əhlindəndirsə Cəhənnəm göstərilir və ona: «Bura sənin yerindir, Qiyamət günü Allah səni öz yerinə göndərəcəkdir»[319]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qul qəbirə qoyulub və yaxınları dönüb geri getdikləri zaman, ölü onların gedərkən ayaq səslərini eşidir. Onun yanına iki mələk gəlir. Onlar ölünü oturdub ona: «Sən Muhəmməd deyə bilinən adam haqqında nə bilirsən?» Möminə gəlincə: «Onun Allahın qulu və Rəsulu olduğuna şəhadət edirəm». Bundan sonra ona: «Cəhənnəmdəki yerinə bax! Allah onun yerinə Cənnətdən sənə bir yer verdi və mömin hər iki yeri birdən görür». Başqa rəvayətdə: Möminin qəbiri yetmiş arşın genişlənir. Münafiq ilə kafirə gəlincə ona da: «Sən Muhəmməd deyə bilinən adam haqqında

[319] Buxari, Müslim.

nə bilirsən?» O, da: «Bilmirəm, mən insanların dediklərini təkrarlayırdım». Ona dəmirdən olan dəyənəklə o qədər vurarlar ki, fəryadını (qışqırığını) insanlar və cinlərdən başqa hamı eşidər[320]. Bəra b. Azim - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah iman gətirənləri möhkəm bir sözlə sabit edər» qəbir əzabı barəsində nazil olub. Qəbirdə ölüyə: Rəbbin kimdir? deyə soruşarlar. O: «Rəbbim Allah, Peyəmbərim Muhəmmədir» deyər. Allahın: «Allah iman gətirənləri dünya və axirətdə möhkəm sözlə sabit edər» ayəsi budur[321]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Zeyd b. Sabit – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə Bəni Nəccara aid bir yerə çatdıq. Qarşımıza beş və ya altı qəbir çıxdı. Peyğəmbər: «Bu qəbirlərin sahiblərini tanıyan varmı?» deyə buyurdu. Bir nəfər: «Mən tanıyıram» dedi. Peyğəmbər: «Nə zaman öldülər?» deyə buyurdu. Adam: «Şirk dövründə» dedi. Peyğəmbər: «Bu ümmət qəbirdə fitnəyə məruz qalacaqdır» deyə buyurdu. Əgər ölülərinizi dəfn etməyinizdən qorxmasaydım sizə qəbir əzabını eşitdirmək üçün Allaha dua edərdim»[322]. Hani, Osman – *radıyallahu anhu* – nun mövlası deyir ki: "Osman – *radıyallahu anhu* – bir qəbirin yanında durdu. Saqqalı yaş olana qədər ağladı. Ona: «Cənnət və Cəhənnəm xatırlandıqda ağlamırdın, lakin qəbri xatırladıqda ağladın» dedilər. Osman – *radıyallahu anhu* – Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: Qəbr axirət mənzillərinin birincisidir. İnsan ondan qurtula bilərsə sonrakılardan qurtulması asantdır. Ondan qurtulmazsa sonrakılar bundan daha çətindir. Əgər ondan nicat taparsansa böyük bir müsibətdən qurtuldun. Əksi təqdirdə sənin qurtulacağını heç güman etmirəm. Osman – *radıyallahu anhu* – sözünə davam edərək Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – bu sözlərini söylədi: "(Axirət mənzərələrindən) heç biri qəbir qədər qorxuducu və vahiməli deyildir"[323]. İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* –: «İki qəbirin yanında dayanıb dedi: «Bu qəbirdəkilər günah etdiklərinə görə əzab çəkirlər. Onlardan birisi sidik ifraz etdikdə ondan təmizlənməzdir. Digəri isə söz gəzidirən idi». Sonra yaş bir budaq qıraraq onu iki yerə böldü və hər bir qəbrin üzərinə birini sancdı. Səhabələr: «Nə üçün belə etdin»

---

[320] Buxari, Müslim 5115.
[321] Müslim 5117.
[322] Buxari, Müslim 2867.
[323] Tirmizi "Zuhd" 5, 2309.

dedilər. Peyğəmbər: «Budaqlar quruyana qədər qəbir əzabları yüngülləşsin»[324].

Möminlərə gəlincə Allah buyurur: ***Şübhəsiz ki: «Rəbbimiz Allahdır! deyən, sonra da*** *(sözündə)* ***düz olan kəslərə*** *(ölüm ayağında)* ***mələklər nazil olub belə deyəcəklər: «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə siz sevinin!».*** *(əl-Fussilət 30).*

Bütün bu hadisələr «***Bərzax***» deyə adlanan aləmdə baş verir. Keyfiyyəti bizə bəlli olmayan bir şəkildə. Çünki ağıl bu keyfiyyəti dərk etməkdə acizdir. Bu dünyada buna bənzər bir şey yoxdur. Qəbir əzabında məqsəd bildiyimiz qəbir çuxurunda görülən əzab deyildir. ***Bərzax*** adı verilən aləmdə görülən əzabdır. Əzabı dadanlar qəbirdə də olsalar, yerin dibində də olsalar, dənizin dibində və ya balığın qarnında da olsalar, yanıb kül olub, küllərini havaya sovursalar da, heyvanlar didib dağıtsalar da bərzax deyilən aləmdə əzab görürlər. ***«Onlara iki dəfə*** *(dünyada və qəbr evində)* ***əzab verəcəyik. Sonra*** *(axirətdə)* ***isə ən böyük əzaba uğrayacaqlar».*** *(ət-Tövbə 101).* Səmura b. Cundəb - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sübh namazını qıldıqdan sonra hər dəfə səhabələrdən soruşardı: «Sizdən yuxu görən varmı?» Görən öz yuxusunu Allahın izni ilə ona danışardı. Bir gün səhər o, bizə buyurdu: «Həqiqətən bu gecə mənim yanıma iki nəfər gəldi və mənim onlarla getməyimi xahiş etdilər. Mən də onlarla getdim. (Bir müddətdən sonra) uzanmış bir adamın yanına çatdıq. Bir də baxdıq ki, bir başqası əlində olan bir daş parçası ilə uzanan adamın üstündə dayanıb, əlində olan daşı uzanan adamın başına vuraraq başını yarır. Daş yuvarlanıb kənara düşür. Həmin adam gedib daşı götürüb yerinə qayıdıncaya qədər uzananın başı əvvəlki (ilk) vəziyyətini alır. Sonra o, yenidən birinci dəfə etdiyini təkrarlayır. Mən: «Subhənəllah! Bunlar kimlərdir?» dedim. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) üzü üstə uzanmış bir adamın yanına çatdıq. Onun üstündə əlində dəmir qarmaq olan bir nəfər (dəmir qarmağı) üzü üstə uzanan adamın ağzına, burnuna və gözünün bir hissəsinə keçirərək boynunun ardına kimi cırırdı. Sonra üzünün o biri tərəfinə keçib oranı da boynunun ardına kimi cırdıqda digər tərəf əvvəlki vəziyyətini alır və o, birinci dəfə etdiyini yenidən təkrarlayırdı. Mən: «***Subhənəllah!*** Bunlar kimlərdir?» dedim. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) təndirə oxşar bir yerə gəldik. (Ravi deyir: «Zənn edirəm ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu:) Oradan uğultulu və dəhşətli səslər gəlirdi. Biz içəri baxdıqda orada lüt kişi və qadınlar

---

[324] Buxari 218, Müslim 675.

gördük. Aşağıdan atəş onlara yaxınlaşdıqca onlar bağırırdılar. Mən: «***Subhənəllah!*** Bunlar kimlərdir?» dedim. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) bir gölün yanına çatdıq. (Ravi deyir: «Zənn edirəm ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - gölün suyunun qan rəngində olduğunu buyurdu). Baxdıq ki, göldə bir nəfər üzür. Sahildə isə biri yanında bir topa daş ilə dayanıb. Üzən adam üzə bacardığı qədər üzdükdən sonra yanında daş topası olan adamın yanına gəlib ağzını açar. O, da daşları onun ağzına atardı. O, hər dəfə üzüb onun yanına gəldikdə ağzını açar o, da daşları onun ağzına atardı. Mən: «***Subhənəllah!*** Bunlar kimlərdir?» dedim. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) çox iyrənc və çirkin bir adamın yanına gəldik (sən gördüyün çirkin adamların ən çirkini). Atəşi alovlandırır və ətrafında fırlanırdı. Mən: «Bu nədir?» deyə soruşdum. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) içində hər növ çiçəyin olduğu, sıx və uzun ağaclarla dolu bir baxçaya çatdıq. Baxçanın ortasında başı göyə doğru uzanan, başını görmədiyim uzun boylu bir adam vardı. Adamın ətrafında daha əvvəl heç görmədiyim sayda çox uşaqlar vardı. Mən: «Bunlar kimlərdir?» deyə soruşdum. Onlar: «Gedək! Gedək!» dedilər. Biz yolumuza davam edərək (bir müddətdən sonra) böyük bir ağacın yanına çatdıq. Bundan əvvəl bundan daha böyük və gözəl ağac görməmişdin. Mənə «Ağaca qalx!» dedilər. Birlikdə o, ağaca qalxmağa başladıq. Nəhayət gəlib bir şəhərə çatdıq. Şəhər qızıl və gümüş kərpicdən tikilmişdi. Şəhərin qapılarına yaxınlaşdıq və açılmasını xahiş etdik. Qapı açıldı, şəhərə girdik. Bizi bir qrup insanlar qarşıladılar. Vücudlarının yarısı gördüklərinin ən gözəli qədər gözəl, digər yarısı isə gördüklərinin ən çirkini qədər çirkin idi. Mənimlə gələnlər: «Gedin, o, çaya girin!» dedilər. Onlar gedib çaya girdilər. Baxdım ki, bu şəhərin ortasından suyu düm ağ olan bir çay axır. Sonra onlar bizim yanımıza gəldilər. Çirkinlik onlardan getmiş və ən gözəl bir hala gəlmişlər. Mənimlə gələnlər mənə: «Bura ***Cənnətul Adndır*** (Ədn Cənnəti). Bu da sənin məqamındır» dedilər. Gözümü yuxarı qaldırdıqda düm ağ bulud kimi bir saray gördüm. Onlar: «Bura sənin evindir» dedilər. Mən də: «***Bərəkəllahu Fikə*** – Allah səni mübarək etsin! Mənə icazə verin ora girim?!» dedim. Onlar: «İndi yox. Lakin nə vaxtsa sən ora girəcəksən» dedilər. Mən onlara: «Bu gecə qəribə mənzərələr gördüm. Bu gördüyüm şeylər nədir?» dedim. Onlar: «İndi sənə onları başa salarıq» dedilər.

İlk gördüyün başı daşla yarılan insan Quran oxumağı öyrənmiş lakin onu tərk etmişdir (Quranı oxumaz və əməl etməzdi) və fərz namazlarına

yatıb qalardı. Bu da onun Qiyamətə qədər görəcəyi qəbr əzabıdır. Ağzı, burnu və gözü boynunun ardına kimi cırılan insan isə səhər evindən çıxar-çıxmaz hər tərəfə yalan yayardı (yalan danışardı). Bu da onun Qiyamətə qədər görəcəyi əzabdır. Təndir içində gördüyün kişi və qadınlar isə zinakar kişi və qadınlardır. Bu da onların Qiyamətə qədər görəcəyi əzabdır. Göldə üzən insan isə faiz yeyəndir. Bu da onun Qiyamətə qədər görəcəyi əzabdır. Atəşi alovlandıran çirkin adam isə Cəhənnəmin gözətçisi Malikdir. Baxçada gördüyün uzun boylu adam İbrahim – *əlehissəlam* – dır. Ətrafındakı uşaqlar isə fitrət üzərində ölən uşaqlardır. (Başqa rəvayətdə – Fitrət üzrə doğulan uşaqlardır). Səhabələr: «Ya Rəsulullah! Orada müşriklərin də uşaqları vardır?» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bəli, müşriklərin uşaqları da»[325]. Vücudlarının yarısı gözəl və yarısı çirkin olan kimsələr isə yaxşı əməllər ilə pis əməllər etmiş (bərabər olan) kimsələrdir. Allah isə onları bağışlamışdır. Birinci girdiyin ev adi müsəlmanların evidir. Bu ev isə şəhidlərin evidir. Mən Cəbrail, bu isə Mikail – *əleyhimussəllam* – dır. Başqa rəvayətdə - Mənə: «Başını qaldır!» dedilər. Başımı qaldırdım. Bir də nə görsəm yaxşıdır. Üstümdə bulud kimi bir şey vardır. Mənə: «Bu sənin evindir» dedilər. Mən: «Buraxın ora girim» dedim. Onlar: «Sənin ömrün hələ tamamlanmayıb. Onu tamamladıqda ora girəcəksən» dedilər[326]. Aişə - *radıyallahu anhə* – deyir ki, mən bundan sonra

---

[325] Ölmüş körpə uşaqlar haqqında bir cox rəylər var. **1)** Onlar Allahın istəyi altındadırlar. **2)** Onlar hamısı Cənnətlikdirlər**. 3)** Ataları haraya düşəcəksə onlar da oraya düşəcəklər. Valideyinlərinə tabe olurlar. Valideyinlərindən biri Cənnətə girərsə Cənnətə, Cəhənnəmə girərsə Cəhənnəmə girərlər. Aişə - *radıyallahu anhə* – deyir ki, peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: "Müşriklərin kiçik ikən ölən uşaqlarının axirətdə halı necə olacaqdır?". O: "Atalarına tabe olurlar". Heç bir əməl etmədən necə atalarına tabe olurlar. O: "Onların nə əməl etdiklərini Allah bilir" deyə buyurdu. Əbu Davud. **4)** Torpağa çevriləcəklər. **5)** Cənnət ilə Cəhənnəm arasında bir yerdə olacaqlar. **6)** Müşriklərin uşaqları Cənnət əhlinə xidmət edəcəkdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Rəbbimdən kiçik ikən ölən müşrik uşaqlarının Cənnətdə möminlərə xidmət etmələrini istədim. Rəbbim də qəbul etdi". Həkim, Tirmizi. **7)** Bu məsələni araşdıranda susmaq lazımdır. **8)** Araşdırmamış susmaq lazımdır. **9)** Hamısı Cəhənnəmdədir. **10)** Allah onları imtanhan edəcəkdir. Ən doğru olanı **1**-ci və **10**-cu rəylərdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər doğulan təbiətinə görə (fitrət üzərə) doğular. Sonradan ata-anası onu Yəhudiləşdirər, Xristianlaşdırar, Atəşpərəstləşdirər. Həqiqətən heyvalarda dünyaya sağ-salamat gəlirlər. Məgər sən onların içərisində kəsik qulaqlı doğulan görmüsən**.** ***«(Ya Muhəmməd! Ümmətinlə birlikdə)* batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə *(İslama)* tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəruiyyəti bilməz».** *(ər-Rum 30)* (Başqa rəvayətdə: Bir nəfər: «Ya Rəsulullah! Əgər uşaq Yəhudi, nəsrani və Məcusi olmamışdan qabaq ölərsə nə deyirsə?». Peyğəmbər: «Allah onların nə edəcəklərini daha yaxşı biləndir)». Müslim 2658.

[326] Buxari.

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hər namazdan sonra mütləq qəbir əzabından Allaha sığındığını gördüm»[327].

Bəzi azmış kimsələr qəbir əzabını, qəbir nemətini inkar edirlər. Onlar öz ağıllarına uyaraq deyirlər ki, əgər ölünün qəbiri açılacaq olarsa əvvəlki halı necədirsə elə də görüləcəkdir. Qəbrdə darlıq və genişlik etibarı ilə heç bir dəyişiklik görülməyəcəkdir. Bu səhf və batil fikrə bir neçə yolla cavab vermək olar.

1. Əvvala şəriətin gətirdiyi hökmlərə qarşı bu kimi çürük şübhələrlə çıxmaq doğru deyildir. Bu şübhələrin sahibi əgər şəriətin gətirdiyi dəlillər üzərində düşünmüş olarsa, bu şübhələrin batil olduğunu çox gözəl başa düşəcəkdir.

2. Bərzəx (qəbir) həyatı hissiyyat orqanları ilə idrak edilməsi mümkün olmayan qeybi aləmdir. Əgər hissiyyat orqanları ilə hiss edilsəydi qeybə iman edənlərlə, qeybi inkar edənlər bərabər olardılar.

3. Əzab, nemət, qəbirin genişliyi və darlığı - bütün bunları sadəcə ölü hiss edir, həyatda olan isə hiss etmir. Bu da həyatda yatan bir kimsənin yuxusunda özünü sıxıntılı və dar bir yerdə görməsi kimi və ya geniş, rahat bir yerdə görməsi kimidir. Kənardan o, yatan insana baxan kimsə onda heç bir dəyişikliyin olmadığını, sadəcə yatdığını görür. O, öz çarpayısında, yorğanının altında yatır. Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – səhabələri arasında olarkən vəhy gəlirdi. O, özü vəhyi hiss etdiyi halda səhabələr isə o, vəhyi hiss etmirdilər. Mələk onlara bir insan surətində görünür, onlarla danışırdı. Səhabələr isə nə o, mələyi görür, nə də onu eşidirdilər.

4. Yaradılmışların eşitməsi, görmələri, hiss etmələri Allahın onlara verdiyi imkanlar çərçivəsindədir. Onların var olan hər bir şeyi eşitməsinə, görməsinə, hiss etməsinə imkan yoxdur. Yeddi səma, yer və onların arasında olan hər şey Uca Allaha həmd və təsbih edir. Allah bəzən yaratdıqlarından istədiyi kimsələrə onların təsbihlərini eşitdirir. Bununla belə bu həqiqət bizim üçün pərdəlidir. ***«Yeddi göy, yer və onlarda olan bütün məxluqat Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükr etməsin, lakin siz onların*** *(dillərini bilmədiyiniz üçün)* ***təqdisini anlamazsınız. Allah həqiqətən həlim və bağışlayandır».*** *(əl-İsra 44).* ***«****(Ey insan!)* ***Məgər göylərdə və yerdə olanların, günəşin, ayın və ulduzların, dağların, ağacların və heyvanların. İnsanların bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi?».*** *(əl-Həcc 18).* ***«Bundan sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə də daha da qatı oldu.***

[327] Buxari, Müslim.

Həqiqətən bəzi daşların içərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən əlbəttə xəbərsiz deyildir». *(əl-Bəqərə 74).*

Həmçinin şeytanlar və cinlər də eyni şəkildə yer üzündə gəzirlər. Cinlər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hüzuruna gəlmiş və Quranı dinləmişlər. Bununla belə onlar bizim tərəfimizdən görünməzlər. ***«Şübhəsiz ki, şeytan və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin*** *(kafirlərin)* ***dostları etdik».*** *(əl-Əraf 27).* Buna görə də insan qeyb aləmində baş verən şeyləri dərk etmədiyinə görə sabit olan şeyləri inkar etməsi düzgün bir iş deyildir.

Sur

Allah bu dünyanın sona çatması hökmünü verirsə İsrafil – *əlehissəlam* – a Sura birinci dəfə üfürməsini əmr edəcəkdir. O, zaman göylərdə və yerdə olanların hamısı (Allahın istədiyi kimsələrdən başqa) öləcəkdir. ***«Sur*** *(birinci dəfə)* ***çalınacaq, Allahın istədiyi kimsələrdən başqa dərhal hamı öləcək. Sonra bir daha çalınan kimi onlar*** *(qəbrlərindən)* ***qalxıb*** *(Allahın əmrinə)* ***müntəzir olacaqlar».*** *(əz-Zumər 68).* ***«Sur çalınacağı gün Allahın istədiklərindən başqa göylərdə və yerdə olanlar dəhşətli bir qorxuya düşər və onların hamısı Rəbbinin hüzuruna müti, zəlil vəziyyətdə gələr».*** *(ən-Nəml 87).* Abdullah b. Amr - *radıyallahu anhu* – rəvayət edir ki, bir bədəvi: «Ey Allahın Rəsulu! Sur nədir?» deyə soruşdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İçinə üflənən bir buynuzdur»[328]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – səhabələrinə xitab edərək buyurdu: «Allah göylərin və yerlərin yaradılışını tamamladıqdan sonra Suru yaradıb İsrafilə təslim etdi. O, sura ağzını dayamış, gözlərini ərşə dikmiş və (üfləməsi üçün) ona əmr verilməsini gözləyir. Əbu Hureyrə: «Ey Allahın Rəsulu! Sur nədir?» dedim. Peyğəmbər: «(İçinə üflənən) Buynuzdur» deyə buyurdu…»[329]. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən necə rahat ola bilərəm ki, surun sahibi suru ağzına dayamış, üzünü çevirmiş, qulağını dikmiş, üfləməsi üçün əmr verilməsini gözləyir”. Bu səhabələrə ağır gəldi. Bəs biz nə edək Ya Rəsulallah!” deyə soruşdular.

---

[328] Darimi 79/630, Əhməd 2/192.

[329], Əbu Yala «Musnəd», Təbəri «Təfsir», Beyhəqi «Bas vən Nuşur» 327, Əbu Davud 4742, Tirmizi 2430

Onlara: "***Hasbunəllahi Vəniməl Vəkil*** – Allah bizə yetər o, nə gözəl vəkildir" deməyi əmr etdi[330].

Yer üzü düm-düz olacağı zaman, dağlar darmadağın və yumşaq toz dənələri halına düşəcəkdir. Bu dünya günlərinin sonuncusudur. ***«Günəş sönəcəyi zaman, ulduzlar səpələnəcəyi zaman, dağlar yerindən qopardılacağı zaman, dənizlər od tutub yanacağı zaman, ruhlar*** *(bədənlərə)* ***qovuşacağı zaman, əməl dəftərləri açılacağı zaman, göy*** *(yerindən)* ***qopardılacağı zaman, Cəhənnəm alovlandırılacağı zaman və Cənnət yaxınlaşdırılacağı zaman, hər kəs nə hazır etdiyini biləcəkdir».*** *(ət-Təkvir 1-15).* ***«Göy parçalanacağı zaman, ulduzlar dağılıb səpələnəcəyi zaman, dənizlər qaynayıb bir-birinə qarışacağı zaman, qəbrlər çevriləcəyi zaman, hər kəs nə etdiyini və nə qoyub getdiyini biləcəkdir. Ey*** *(kafir)* ***insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir?».*** *(əl-İnfitar 1-6).* Abdullah b. Amr - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dəccal öldürüldükdən sonra insanlar iki nəfər arasında heç bir düşmənçilik olmadan yeddi il yaşayacaqlar. Sonra Allah Şam tərəfdən soyuq bir külək göndərər (bir rəvayətdə Yəmən tərəfdən) və artıq yer üzündə qəlbində zərrə ağırlığında xeyir və ya iman olan heç kimsə qalmaz. O, külək qəlbində zərrə qədər iman olan hər kəsin ruhunu alar. Hətta sizdən biriniz bir dağın ortasına girsə belə o, külək o kimsəni təqib edib ruhunu alacaqdır. Yer üzündə ancaq ən şərli insanlar qalacaqlar. Onlar heç bir yaxşılığı tanımaz və heç bir günahı da rədd etməzlər»[331]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «…Allah sura ikinci dəfə üfləmə əmrini verdikdə İsrafil sura üflədikdə Allahın dilədiyi kimsələrdən başqa hər kəs ölür. Canları alındıqdan sonra Ölüm mələyi Güc və Qüdrət sahibi Allahın hüzuruna gələrək: «Ya Rəbb! Göylərdə və yerdə sənin dilədiyindən başqa hər kəs ölmüşdü» deyər. Allah: «(Allah hər şeyi bildiyi halda) Həyatda kim qaldı?» deyə buyurar. Mələk: «Ya Rəbb! Ölməz və diri olan Sən həyatda qaldın, ərşi daşıyanlar, Cəbrail, Mikail və mən». Deyər. Allah: «Cəbrail və Mikail də ölsünlər!» deyə buyurar. Canları alındıqdan sonra Ölüm mələyi Güc və Qüdrət sahibi Allahın hüzuruna gələrək: «Ya Rəbb! Cəbrail və Mikail də öldülər. Mən və ərşi daşıyanlar həyatda» deyər. Allah: «Ərşimi daşıyanlar da ölsünlər» deyə buyurar. Ərşi daşıyanlar da ölürlər. Uca Allah ərşə əmr verir ərş suru İsrafildən alır. Bundan sonra Ölüm mələyi Güc və Qüdrət sahibi Allahın hüzuruna gələrək: «Ya Rəbb! Ərşi daşıyan mələklər də öldülər» deyər. Allah:

[330] Tirmizi "Qiyamət" 9, 2433, Əhməd 3/73.
[331] Buxari, Müslim.

«(Allah hər şeyi bildiyi halda) Həyatda kim qaldı?» deyə buyurar. Mələk: «Ya Rəbb! Ölməz və diri olan Sən həyatda qaldın və bir də mən» deyər. Allah: «Sən də öl» deyə əmr verər. Ölüm mələyi də ölür…»[332].

Allah İsrafil – *əlehissəlam* – a Sura ikinci dəfə üfürməsini əmr edəcəkdir. O, vaxt kafirlər və münafiqlər: ***«Sur** (ikinci dəfə) **çalınan kimi** (qiyamət günü) **qəbrlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar. Onlar deyəcəklər: «Vay halımıza! Bizi yatdığımız yerdən** (qəbr evindən) **kim qaldırdı? Bu Rəhmanın məxluqata buyurduğu vəddir. Peyğəmbərlər doğru deyirlərmiş. Yalnız bir dəhşətli səs qopan kimi onlar hamısı qarşımızda hazır duracaqlar».**(Yasin 51,53).*

İki sur arasında olan müddət haqqında dəqiq məlumat yoxdur. Yalnız bir hədisdə Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İki sur arasında 40 vardır». Səhabələr: «Ya Əbu Hureyrə! Bu **40** gündür?» deyə soruşdular. Mən cavab verməkdən çəkindim. Onlar: «Bu **40** aydır?» deyə soruşdular. Mən cavab verməkdən çəkindim. Onlar: «Bu **40** ildir?» deyə soruşdular. Mən buna da cavab verməkdən cəkindim». Sonra: Allah səmadan bir su endirəcəkdir. Onlar yaşıl yabanı bitkisi kimi (yerdən) bitəcəklər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Adəm oğlunun hər bədən üzvünü torpaq yeyəcəkdir. Yalnız bel sümüyünün aşağı hissəsində olan xırda sümük müstəsnadır. İnsan təkrar ondan Qiyamət günü yoğrulacaqdır. Torpaq əbədiyyən onu yeməyəcəkdir»[333].

ƏL-BAS - *Öldükdən Sonra Dirilmək -*

əl-Bas – məna etibarı ilə bir şeyi qaldırmaq və hərəkət etdirmək deməkdir. İstilahi mənası isə ölülərin Qiyamət günü dirilərək qəbrlərindən çıxmalarıdır. Uca Allah əməllərin qaşılığını vermək üçün ölümlərindən sonra insanları dirildəcəkdir. Kim zərrə qədər xeyir işləmişsə onu görəcəkdir, kim də zərrə qədər bir pislik etmişsə onun əvəzini görəcəkdir. ***«Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir, kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir».*** *(əz-Zilzal 7-8).* Peyğəmbərlər göndərməyin nəticəsi də elə budur. ***«Və Allah sizi*** *(atanız Adəmi)* ***yerdən*** *(torpaqdan)* ***bir bitki kimi göyərtdi. Sonra sizi yenə ora qaytaracaq və*** *(Qiyamət günü dirildib oradan da)* ***çıxardacaqdır».*** *(Nuh 17-18).* ***«Sizi*** *(Adəmi)* ***də ondan*** *(torpaqdan)* ***yaratdıq. Sizi***

[332] Əbu Yala «Musnəd», Təbəri «Təfsir», Beyhəqi «Bas vən Nuşur» 327.
[333] Buxari "Təfsir" Zumər 3, Ammə 1, Müslim "Fitən" 141, 2955, Əbu Davud 4743, Nəsəi "Cənaiz" 117.

(öləndən sonra) ***ora qaytaracaq və*** *(Qiyamət günü)* ***bir daha oradan*** *(dirildib)* ***çıxardacağıq».*** *(Ta ha 55).*

Sura ikinci dəfə üfürüləcəyi vaxt ölülər diriləcəklər. O, zaman insanlar aləmlərin Rəbbinin hüzurunda çılpaq, ayaqyalın, paltarsız və xitan (sünnət) olunmamış halda qalxacaqlar. ***«Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü*** *(qiyamət gününü)* ***yadınıza salın.*** *(O, gün insanları)* ***ilk dəfə*** *(yoxdan)* ***yaratdığımız kimi dirildib əvvəlki halına salarıq».*** *(əl-Ənbiya 104).* ***Onlar: «Biz sür-sümük, çürüyüb ovxalanmış torpaq olduğumuz halda, dirilib yeni məxluqmu olacağıq?» deyirlər.*** *(Ya Muhəmməd!)* ***De ki: «****(İstəyirsiniz)* ***daş, yaxud dəmir olun! Və ya ürəyinizdə*** *(özünüzü dağlar, göylər kimi)* ***böyük bir məxluq hesab edin!*** *(Yenə diriləcəksiniz)****». Onlar deyəcəklər: «O, halda bizi kim dirildəcəkdir?» De ki: «İlk dəfə sizi yoxdan yaradan Allah dirildəcəkdir!».*** *(əl-İsra 49-51).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanlar Qiyamət günü çılpaq, ayaqyalın və xitan (sünnət) edilməmiş halda həşr ediləcəklər». Aişə - *radıyallahu anhə* – dedi: «Ey Allahın Rəsulu! Kişilər, qadınlar (birlikdə çılpaq olaraq həşr ediləcəklər və) bir-birlərinə baxmayacaqlar?» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bu kimi şeylərə baxmaq belə ağır olacaqdır»[334]. **«**(Qiyaməti inkar edən) ***İnsan: «Mən öldükdən sonra*** *(qəbirdən)* ***çıxardılıb diriləcəyəmmi?» deyə soruşur. Məgər insan ilk öncə onu heçdən*** *(yoxdan)* ***yaratdığımızı xatırlamırmı?*** *(Məryam 66-67).* ***«Məxluqatı əvvəlcə yoxdan var edən, sonra da*** *(Qiyamət günü)* ***yenidən dirildəcək».*** *(ər-Rum 27).* ***«Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı. Kafirlər Cəhənnəm oduna göstəriləcəkləri gün onlardan soruşacaqdır: «Məgər bu doğru deyilmi!» Onlar: «Bəli, Rəbbimizə and olsun ki, doğrudur!» deyə cavab verəcəklər. Allah buyuracaqdır: «Elə isə*** *(dünyada)* ***küfr etdiyinizə görə dadın əzabı».*** *(əl-Əhqaf 33-34).*

<u>əl-Bas</u> *- Öldükdən Sonra Dirilis -* sabit, dəyişməz bir haqdır. Kitab, sünnə və müsəlmanların icma ilə qəbul etdikləri həqiqətdir. Bu xüsusda ayələr olduqca çoxdur. Uca Allah öldükdən sonra diriliş haqqında Kitabında dəfələrlə söz açmışdı. Ta ki, insanlar buna iman etsinlər, imanları artsın. Bu böyük gün üçün əməl etsinlər

---

[334] Buxari, Müslim.

əl-BAS - *Öldükdən Sonra Dirilmək* - İNKAR EDƏNLƏRƏ DƏLİLLƏR

1. Qurani Kərimdə ayələr dəlildir ki, Allah Qiyamət günü insanları dirildəcəkdir. ***«Kafirlər onlar öldükdən sonra əsla dirilməyəcəklərini iddia edirlər.*** *(Ya Peyğəmbər!)* ***De ki: «Bəli, Rəbbimə and olsun ki, siz mütləq diriləcəksiniz. Sonra da*** *(dünyada)* ***etdiyiniz əməllər sizə*** *(bir-bir)* ***xəbər veriləcəkdir. Bu Allah üçün çox asandır».*** *(ət-Təğabun 7). (Ya Peyğəmbərim!)* ***Səndən: «O,*** *(bizi qorxutduğunuz əzab və ya qiyamət günü)* ***doğrudurmu?» deyə xəbər alacaqlar. Onlara belə cavab ver: «Rəbbimə and olsun ki, o doğrudur. Siz ondan canınızı qurtara bilməzsiniz».*** *(Yunus 53).*

2. Allah bizlərə ilk yaradılışı xatırlamağı tövsiyə edir. ***«Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə*** *(Rəbbinə)* ***açıq düşmən kəsilərək, öz yaradılışını unudub: «Çürümüş sümükləri kim dirildə bilər?» deyə hələ bizə məsəl də çəkdi. De ki: «Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu gözəl tanıyandır».*** *(Yasin 76-79).* ***«Məgər insan elə güman edir ki, o başlı-başına buraxılacaq. Məgər o,*** *(ata belindən ana bətninə)* ***tökülən bir qətrə nütfə deyildimi? Sonra laxtalanmış qan oldu və Allah onu yaradıb surət verdi. Sonra da ondan bir kişi, biri qadın olmaqla iki cift*** *(həmtay)* ***yaratdı. Elə isə o Allah ölüləri diriltməyə qadir deyildirmi?».*** *(əl-Qiyamə 36-40).* İnsanı bir çox mərhələlərlə yaratmağa qadir olan, onu təkrar diriltməyə qadirdir. Əksinə təkrar diriltmək yoxdan var etməkdən daha asantdır.

«Elə isə insan nədən yaradıldığına bir baxsın. O, axıb tökülən bir sudan *(nütfədən)* ***yaradılmışdır. O, su*** *(kişilərin)* ***bel sümüyündən,*** *(qadınların)* ***köks sümüyündən çıxar. Həqiqətən Allah insanı*** *(öləndən sonra)* ***yenidən diriltməyə qadirdir».*** *(ət-Tariq 5-9).* ***«Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa*** *(ilk yaradılışınızı yada salın).* ***Həqiqətən biz sizi*** *(Adəmi)* ***torpaqdan, sonra mənidən*** *(nütfədən)**, sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş*** *(vaxtında doğulmuş)* ***və düşməmiş*** *(vaxtından əvvəl doğulmuş)* ***bir parça ətdən yaratdıq ki,*** *(qüdrətimizi)* ***sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət*** *(doqquz ay)* ***saxlayar, sonra sizi uşaq olaraq çıxardırıq. Sonra yetkinlik yaşına yetişəsiniz deyə*** *(sizi böyüdərik)****. Kiminiz*** *(bu həddə çatmamış)* ***vəfat edər, kiminiz də ömrün elə bir rəzil çağına çatdırılar ki, vaxtı ilə bildiyini*** *(tamamilə unudub körpə uşaq kimi)* ***bilməz olar».*** *(əl-Həcc 5).*

3. Qurumuş torpağı canlandırdığı kimi ölüləri də dirildəcəkdir. *(Ya Muhəmməd!)* ***Sən Allahın rəhmətinin əsər-əlamətinə bax ki, torpağı***

öldükdən sonra necə dirildir. Doğurdan da o, ölüləri dirildəndir. Allah hər şeyə qadirdir». *(ər-Rum 50).* ***«Onun qüdrət nişanələrindən biri də budur ki, sən yer üzünü qupquru görürsən. Biz ona yağış yağdıran kimi hərəkətə gəlib qabarar. Onu dirildən şübhəsiz ki, ölüləri də dirildəcəkdir. Allah hər şeyə qadirdir».*** *(əl-Fussilət 39). (Ey insan!)* ***Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarar və hər növ gözəl bar gətirər. Bu ona görədir ki, Allah haqdır, ölüləri dirildir və o hər şeyə qadirdir».*** *(əl-Həcc 5-6).* Ölü bir ərazinin yağışla canlanaraq üzərində bitkilərin yaşarması, yoxdan yaradan Allahın qiyaməttdən sonra ölüləri dirildəcəyinə dəlildir.

əl-Aqili – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allaha and olsun ki, istər başqası tərəfindən öldürülüb yerə yıxılmış olsun, istər dəfn edilmiş bir ölü olsun, yer üzərində qəbri açılıb yarılmayacaq heç bir kimsə yoxdur..Mən dedim: «Ey Allahın Rəsulu! Çürümüş və yırtıcı heyvanlar bizləri parça-parça etmişkən Allah bizi necə toplayıb bir araya gətirəcəkdir». O, buyurdu: «Mən sənə bunun bənzərini Allahın nemətləri arasından bildirərəm. Sən yerüzünü çürümüş və darmadağınlıq gördüyün vaxt, bu bir daha canlanmaz deyirsən. Uca Allah oraya səmadan yağmur endirdikdən sonra, aradan bir neçə gün keçdikdən sonra sən yenə oranı görürsən. Bu dəfə hər tərəfin qabarıb, canlandığını görürsən. Allaha and olsu ki, o sizləri bir araya gətirib toplamağa qadirdir. Bu səbəblə sizlər də yatdığınız yerlərdən çıxardılacaqsınız»[335].

4. Allah Qurani Kərimdə göyləri və yerləri necə yaratdığını misal çəkir. ***«Doğrudan da göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu*** *(bunu)* ***bilməz».*** *(əl-Mumin 57).* ***«Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı?».*** *(əl-Əhqaf 33).* Göylərin və Yerlərin böyüklüyünə rəğmən onları yaradan, onlara görə çox kiçik olan insanı əlbəttə təkrar yaratmağa qadirdir.

5. Allah insanları diriltdikdən sonra bəzilərinə cəza, bəzilərinə də mükafat verəcəkdir. ***«Yoxsa biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq? Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik».*** *(Sad 28).* ***«Qiyamət mütləq gələcəkdir. Hər kəs etdiyi əməlin əvəzini*** *(mükafatını, yaxud cəzasını)* ***alsın deyə, mən onu*** *(insanlardan)* ***gizli saxlayıram».*** *(Ta ha 15).* ***«O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri***

[335] İmam Əhməd «Musnəd» 4/13,14.

isə ən gözəl mükafatla *(Cənnətlə)* ***mükafatlandıracaqdır».*** *(ən-Nəcm 31).* Hər şeyi hikmətlə yaradan Allah insanları başıboş bıraxmaq, onları boşuna yaratmamışdır. Əmir və qadağalarını boşuna verməz, etdikləri əməlləri də hesabsız buraxmaz.

6. Allah Qurani Kərimdə insanları əbəs yerə yaratmadığını buyurur. ***«Yoxsa sizi əbəs yerə yaratdığımızı və*** *(Qiyamət günü dirilib haqq-hesab üçün)* ***hüzurumuza qaytarılmayacağınızı güman edirsiniz».*** *(əl-Muminun 115).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu. Uca Allah buyurdu: «Adəm oğlu məni yalanladı, lakin o, belə etmək haqqına sahib deyildir. Onun məni yalanlaması: «Məni ilk yoxdan yaratdığı kimi təkrar məni yaratmayacaqdır» deməsidir. Halbuki təkrar yaratmaq mənim üçün onu ilk yaratmaqdan daha çətin deyildir»[336].

7. Allah Qurani Kərimdə əvvəlki ümmətləri necə diriltdiyini misal çəkir. ***«Və yadınıza salın ki, siz: «Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq» dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu. Bəlkə şükr edəsiniz deyə, biz sizi sonra yenidən diriltdik.*** *(əl-Bəqərə 55-56). «(Ya Muhəmməd!)* ***«Minlərlə adamın*** *(taundan)* ***ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi?» Allah onlara: «Ölün!» dedi və sonra da*** *(yenidən)* ***diriltdi. Həqiqətən Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükr etməzlər.*** *(əl-Bəqərə 243).* ***«Yaxud damları çökmüş, divarları uçulmuş bir kəndin yanından keçən şəxsin əhvalatını bilmirsən? O şəxs: «Əcaba, Allah bu kəndi ölümündən sonra necə diriləcək» demişdir. Belə olduqda Allah onu yüz il ölü saxladı, sonra dirildərək ondan: «Nə qədər yatmısan?» deyə soruşdu. O da: «Bir gün bəlkədə bir gündən də az» deyə cavab verdi. Allah ona: «Bəlkə yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi uzunqulağının sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da onların üzərini ətlə örtürük?» deyə buyurdu. O, şəxsə bunlar aydın olduqda: «Artıq bildim ki, Allah hər şeyə qadirdir».*** *(Ya Muhəmməd!)* ***Xatırla ki, İbrahim: «Ey Rəbbim! ölüləri nə cür diriltdiyini mənə göstər!» dedikdə, Allah: «Məgər*** *(ölüləri diriltməyimə)* ***inanmırsan?» buyurmuşdu. İbrahim: «Bəli, inanıram lakin ürəyim sakit olmaq üçün soruşdum» deyə cavab vermişdi.*** *(Bu zaman)* ***Allah ona buyurmuşdu: «Dörd cür*** *(cins)* ***quş götürüb*** *(səhv salmamaq üçün)* ***onlara diqqətlə bax,*** *(onları parçalayaraq bir-birinə qatandan)* ***sonra hər***

---

[336] Buxari, Nəsəi 4/112, Musnəd 2/317,350.

dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət və hikmət sahibidir». *(əl-Bəqərə 259-260).*

Öldükdən sonra dirilişi inkar edənlərə bu inkar olunmaz dəlillər açıqlandıqdan sonra yenə inkarları üzərində israr edəcək olurlarsa haqqa qarşı bilə-bilə dirənən inadkar kimsələrdəndir. Belələrinin aqibəti: ***«O gün vay halına yalan sayanların! O kəslər ki, haqq-hesab gününü yalan sayarlar. Bunu isə ancaq həddini aşan, günaha batan yalan sayar. Ayələrmiz ona oxunduğu zaman: «****(Bunlar)* ***əvvəlkilərin uydurub düzəltdikləri əfsanələrdir!» deyər. Xeyr****, (belə deyildir)* ***Əslində onların qəlblərini qazandıqları günahlar qaplamışdır. Xeyr, o gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar! Sonra Cəhənnəmə varid olacaqlar. Sonra da onlara: «Bu sizin*** *(dünyada)* ***yalan saydığınız Cəhənnəmdir!» deyiləcəkdir».*** *(əl-Mutaffifin 10-17).*

HƏŞR VƏ MƏHŞƏR

Əhli Sünnə vəl Cəmaat insanların öldükdən sonra sorğu-sual olunmaları üçün Həşr olunacaqlarına da iman edirlər. İnsanlar dirildikdən sonra mələklər onları çılpaq, ayaqyalın və xitan olunmamış (sünnətsiz) olaraq Mevqif (hesab üçün durulacaq yer) deyə adlanan yerə həşr edəcəklər. ***«Siz bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha, özü də sizə verdiyimiz*** *(var-dövləti, əhli-əyalı)* ***arxanızda*** *(dünyada)* ***qoyub gəlmisiniz».*** *(əl-Ənam 94).* ***«Biz Qiyamət günü onları üzü üstə sürünə-sürünə, kor, lal və kar kimi məhşər ayağına çəkəcəyik».*** *(əl-İsra 97).* ***«O, gün*** *(Qiyamət günü)* ***dağları*** *(yerindən qoparıb)* ***hərəkətə gətirəcəyik.*** *(O vaxt)* ***yeri dümdüz görəcəksən,*** *(möminləri və kafirləri)* ***bir yerə toplayacaq, onların heç birini*** *(kənarda)* ***qoymayacayıq».*** *(Kəhf 47).* ***«O, gün*** *(Qiyamət günü)* ***biz müttəqiləri Rəhmanın hüzuruna möhtərəm elçilər*** *(şahanə qafilərlə gələn əziz qonaqlar)* ***kimi cəm edərik».*** *(Məryam 85-86).* ***«O, gün insanlar*** *(qəbrlərindən qalxıb)* ***heç bir başqa tərəfə meyl etmədən*** *(hamını məhşərə)* ***çağıran İsrafilin ardınca gedəcəklər. Rəhmanın*** *(əzəməti və heybəti)* ***qarşısında səslər kəsiləcək, yalnız pıçıltı eşidəcəksən».*** *(Ta ha 108).* ***«Siz*** *(ey insanlar!)* ***üç zümrəyə ayrılacaqsınız, sağ tərəf sahibləri. Kimdir onlar? Sol tərəf sahibləri. Kimdir onlar? Və birdə öndə olanlar, öndə olanlar!»*** *(əl-Vaqiə 7-10).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanlar Qiyamət günü çılpaq, ayaqyalın və və xitan olunmamış (sünnətsiz) halda həşr ediləcəksiniz və şübhəsiz yaradılmışlar arasında Qiyamət günündə ilk paltar geyindirilən

adam İbrahim – *əlehissəlam* – olacaqdır[337]». Aişə - *radıyallahu anhə* – dedi: «Ey Allahın Rəsulu! Kişilər, qadınlar (birlikdə çılpaq olaraq həşr ediləcəklər və) bir-birlərinə baxmayacaqlar?». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bu kimi şeylərə baxmaq belə ağır olacaqdır»[338]. Abdullah b. Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, sizlər Allaha yürüyərək, çılpaq, ayaqyalın və sünnətsiz olaraq qovuşacaqsınız»[339]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü insanlar üç qrup olaraq həşr ediləcəklər. Yürüyənlər sinifi, miniklilər sinifi və üzü üstə sürünənlər sinifi». Ey Allahın Rəsulu! Nəcə olur ki, kafir üzü üstə həşr edilir». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Dünyada onu iki ayağı üstündə yeridən, Qiyamət günündə onu üzü üstə yeritməyə qadir deyilmi?»[340]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü insanlar üç qrup olaraq həşr ediləcəklər. Birinci firqə - istəklilər, qorxanlar. İkinci firqə - İkisi bir dəvə üstündə, üçü bir dəvə üstündə, dördü bir dəvə üstündə, onu bir dəvə üstündə olaraq (məşhərə) gələrlər. Qalanlarını isə məşriqdən alıb önünə qataraq məğribə götürən və orada toplayacaq olan bir atəşdir (Başqa rəvayətdə: Atəş onları önünə qatıb həşr yerinə gətirəcəkdir. Atəş onların dincəldikləri yerdə dincələr, axşamladıqları yerdə də onlarla birlikdə axşamlar, sabahladıqları yerdə isə onlarla bərabər sabahlayar)»[341].

<u>Movqif</u>* –** (hesab üçün durulacaq yerdə) günəş insanların başlarına doğru yaxınlaşacaqdır və insanları tər, həyacan bürüyəcəkdir. Kimi topuqlarına qədər, kimisi diz qapaqlarına qədər, kimisi sinəsinə qədər, kimisi də qırtlağına qədər tərə düşəcəkdir. *«(Ya Muhəmməd!)* ***Allahı zalimlərin etdikləri əməllərdən əsla qafil sanma! Allah onları cəzasını yubadıb elə bir günə saxlayır ki, həmin gün gözləri hədəqəsindən çıxar. Belə ki, onlar başlarını yuxarı qaldırıb durar, gözlərini də qıpa bilməzlər. Onların qəlbləri də boşdur». *(Ürəkləri duyğusuzdur, orada xeyrdən heç bir əsər-əlamət yoxdur). (İbrahim 42-43). «(Ya Peyğəmbər!)* ***Onları ürəklərin ağıza gələcəyi, udquna belə bilməyəcəkləri yaxın günlə qorxut.*** *(O, gün)* ***zalimlərin nə bir dostu, nə də sözü keçən bir şəfaətçisi olar. Allah gözlərin xəyanətini və qəlblərin gizlətdiyini biləndir».*** *(əl-Mumin*

---

[337] İbrahim - *əleyhissəlam* - ın geyindirilməsinə səbəb: Oda atıldığı zaman qövmü tərəfindən soyundurulub atılmasıdır. Buna görə də Allah Qiyamət günü ilk olaraq onu geyindirəcəkdir.
[338] Buxari, Müslim 5102.
[339] Müslim 5103.
[340] Buxari, Müslim 5105, 5020.
[341] Buxari «Ənbiya» 1/4, 7/194, Müslim «Fitən»39.

18). ***«Ey cinlər və insanlar! Sizinlə əməlli-başlı məşğul olacağıq».*** *(ər-Rəhman 31).* ***«Ruhun*** *(Cəbrailin)* ***və mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir».*** *(ən-Nəbə 38).* Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qul hansı halı üzərə ölmüşsə, yenə də o, halı üzərə diriləcəkdir»[342]. İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «İnsanlar aləmlərin Rəbbi üçün Qiyama durduqları gün – ayəsi barəsində belə buyurduğunu xəbər verdi: İnsanların hər biri qulaqlarının yarısına qədər tərə batmış olaraq qiyama duracaqlar”[343]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Şübhəsiz ki, Qiyamət günü tər yerin dibini **70** qulac isladacaqdır və heç şübhəsiz ki, insanların təri ağızlarına, qulaqlarına qədər çatacaqdır. Ravi Sevr: “Bunların hansını söylədiyində tərəddüt etmişdir»[344].

Əməllərinə görə isə bir qrup insanlar o, dəhşətli bir gündə Allah – *subhənəhu və təalə* – nin kölgəsi altında olacaqlar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yeddi sinif insan vardır ki, heç bir kölgənin olmadığı bir gündə Allah onları öz kölgəsi altında kölgələyəcəkdir: «Ədalətli imam (dövlət başçısı), Allaha ibadət etməklə böyüyən bir gənc, qəlbi məscidlərə bağlı olan bir kimsə, bir-birlərini Allah rizası üçün sevən kimsə (görüşəndə də, ayrılanda da bunu Allah üçün edərlər), gözəl bir qadın tərəfindən (zinaya) çağırılan zaman - *mən Allahdan qorxuram* - deyib ondan uzaqlaşan kimsə, sağ əlin verdiyini sol əlinin bilməyəcəyi şəkildə (gizli) sədəqə verən kimsə, təklikdə Allahı yad edib göz yaşı tökən kimsə»[345]. Allah bizi də onlardan etsin. Amin!

HAQQ-HESAB

Əhli Sünnə vəl Cəmaat insanların dirildikdən sonra əməllərinin qarşılığının veriləcəyinə və əməllərinin hesaba çəkiləcəyinə inanırlar. Əməl səhifələri açılacaqdır. Kitabı sağ tərəfdən veriləcək olanlar yüngül haqq-hesab olunacaqlar və onlar yaxınlarının yanına sevinclə dönəcəkdir. Kitabı sol tərəfdən və ya arxa tərəfdən verilən kimsə isə həlak olmasını təmənna edərək Cəhənnəmə atılacaqdır. O: «Kaş ki, mənə kitabım verilməyərdi! Kaş ki, hesabımın nə olduğunu bilməzdim!» deyəcəkdir.

---

[342] Müslim «Cənnət» 3/83.
[343] Müslim 5106.
[344] Buxari “Riqaq” 47, Müslim “Cənnət” 61, 2863.
[345] Buxari, Müslim.

«Peyğəmbər göndərilən ümmətləri sorğu-suala çəkəcək, göndərilən peyğəmbərləri də sorğu-sual edəcəyik». *(əl-Əraf 6).* ***«Əməl dəftərləri açılacağı zaman».*** *(ət-Təkvir 10).* ***«Kimin əməl dəftəri sağ əlinə verilmişsə onunla yüngül haqq-hesab çəkiləcək və o, ailəsinin, yaxınlarının yanına sevinclə qayıdacaqdır. Kimin əməl dəftəri arxa tərəfdən verilmişsə o: «Ay öldüm!» deyə şivən qopardacaq və Cəhənnəmə varid olacaqdır».*** *(əl-İnşiqaq 7-10).* ***«Əməl dəftəri sağ əlinə verilən kimsə deyəcəkdir: «Alın, əməl dəftərimi oxuyun. Mən öz hesabıma yetişəcəyimə möhkəm inanmışdım!» Bundan belə o, xoş güzaran içində yüksək bir Cənnətdə olacaqdır. Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: «Kaş əməl dəftərim mənə verilməyəydi, hesabımın nə olduğunu bilməyəydim!».*** *(əl-Haqqə 19-27).* ***«Əməl dəftəri qarşısına qoyulacaq.*** *(Ya Muhəmməd!)* ***günahkarların orada yazılmış pis əməllərindən qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: «Vay halımıza! Bu əməl dəftəri niyə heç bir kiçik və böyük günahlarımızı nəzərdən qaçırmadan hamısını sayıb qeydə almışdır».*** *(əl-Kəhf 49).* ***«Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü*** *(bütün əməllərini)* ***açıq kitab kimi qarşısına qoyarıq. Oxu kitabını. Bu gün sən özün-özünə haqq-hesab çəkməyə kifayətsən».*** *(əl-İsra 13-14).* Ənəs - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – güldü və nəyə görə güldüyünü səhabələrdən soruşdu. Biz: «Allah və Rəsulu daha gözəl bilir» dedik. Peyğəmbər: «Qulun Rəbbinə olan xitabından» deyə buyurdu. Qul: «Ey Rəbbim! Sən məni zülmdən qorumadınmı?» dedi. Allah: «Bəli, qorudum» deyə buyurar. Qul: «Mən bu gün özüm üçün özümün şahidliyindən başqa heç kəsi istəmirəm» deyər. Allah: «Bu gün sənə tək şahid olaraq nəfsin, çox şahid olaraq Kiramən Kətibin kifayət edər». Ağzına möhür vurulur və digər orqanlarına danış deyilər. Onlar da qulun əməlini bir-bir xəbər verərlər. Sonra qul danışmaq üçün sərbəst buraxılır. Qul orqanlarına: «Vay olsun sizə! Uzaq olun məndən! Mən sizin qurtulmağınız üçün çalışırdım» deyər[346].

Qiyamət günü tərəzilər qurulacaq və bununla qulların əməlləri çəkiləcəkdir. Qulun əməllərinin əvəzi hesaba çəkiləcəkdir və etdiklərinin qarşılığı onlara veriləcəkdir. ***«O, gün əməllərin çəkilməsi haqdır. Tərəziləri ağır gələnlər nicat tapanlardır. Tərəziləri yüngül gələnlər isə ayələrmizə haqsızlıq etdiklərindən özlərinə zərər eləyənlərdir».*** *(əl-Əraf 8-9).* ***«Biz Qiyamət günü ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, hər hansı bir əməli***

[346] Müslim 2969.

nəzərə alarıq. Haqq-hesab çəkməyə biz kifayətik». *(əl-Ənbiya 47).* ***«O, gün tərəzisi ağır gələn kimsə*** *(Cənnətdə)* ***xoş güzaran içində olacaqdır! Tərəzisi yüngül gələn kimsənin isə Məskəni Həviyə olacaqdır! Bilirsənmi Həviyə nədir? O, çox qızmar bir atəşdir».*** *(əl-Qariə 6-11).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər kim incədən-incəyə (yüngül) hesaba çəkilərsə o, əzaba uğramış olacaqdır». Aişə - *radıyallahu anhə* – dedi: Allah: ***«Onunla yüngül haqq-hesab çəkiləcək».*** *(əl-İnşiqaq 8)* deyə buyurmadımı?» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «O, əməllərin ərzi haqqındadır. Qiyamət günü hesaba çəkilən əzab görəcəkdir»[347]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Heç şübhəsiz ki, Qiyamət günü iri cüssəli, yekə bədənli birini gətirirlər. Lakin Allah yanında ağcaqanadın qanadı ağırlığında (bir savabı) da olmaz. Bu ayəni oxuyun: ***«Onlar o, kəslərdir ki, Rəbbinin ayələrini və onun hüzurunda duracaqlarını inkar etdilər. Onların bütün əməlləri puça çıxmışdı. Buna görə də biz onlar üçün heç bir daş-tərəzi qurmayacağıq».*** *(əl-Kəhf 105)*[348]. Abdullah b. Amr b. As - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü tərəzilər qurulur. Adam gətrilir və tərəzinin bir gözünə qoyulur. Əməllərini isə digər gözünə qoyurlar. (Günah) əməlləri çox olduğundan o, adam Cəhənnəmə göndərilir. Cəhənnəmə gedərkən Allahın yanından bir carçı: «Tələsməyin! Onun çəkilməmiş bir həsənəti qaldı» deyər. Üzərində ***<u>Lə İləhə İlləllah</u>*** yazılmış bir kağız parçası gətrilir və adamla birlikdə tərəziyə qoyulur və tərəzisi ağır gəlir»[349]. İbn Məsud - *radıyallahu anhu* – bir dəfə Ərak ağacından bir misvaq qırdıqda ayaqlarının olduqca incə olduğundan onu görənlər gülməyə başladılar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Nəyə gülürsünüz?». Onlar: «Ey Allahın Rəsulu! Ayaqlarının incəliyinə gülürük!» O, buyurdu: «Nəfsim əlində olan Allaha and olsun ki, onlar mizanda (tərəzidə) Uhuddan da ağır gələcəklər»[350]. Əbu Darda - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Tərəziyə qoyulacaq ən ağır şey gözəl əxlaqdır»[351].

Bütün bu əməllərdən başqa insanın etdiyi zikrlər də tərəzilərdə çəkiləcəkdir. Əbu Məlik əl-Əşari - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Təharət imanın

---

[347] Buxari, Müslim 5122.
[348] Müslim 4991.
[349] Əhməd 2/221.
[350] İmam Əhməd «Musnəd» 1/420,421, Təbərani 8452.
[351] Əhməd 6/452, Tirmizi «Birr».

yarsıdır, ***Əlhəmdulilləh*** də mizanı doldurur»[352]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Rəhmanın sevdiyi, mizanda ağır gələn və dildə yüngül iki kəlmə vardır: «***Subhanəllahi və Bihəmdihi və Subhanəllahil Azim***»[353].

Qulun etdiyi bütün əməllər çəkiləcəkdir. Əgər xeyr işləmişsə xeyr görəcəkdir, əgər pislik etmişsə pisliklə qarşılaşacaqdır. ***«Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir, kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir».*** *(əz-Zilzal 7-8).* ***«Rəbbinə and olsun ki, biz onların hamısını sorğu-suala çəkəcəyik».*** *(əl-Hicr 92).* ***«Oğlum bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin tərkində olsa da, Allah onu ortaya gətirər. HəqiqətənAllah bütün incə və nazik işləri bilən Lətif və xabirdir».*** *(Loğman 16).*

Buna görə də yaxşılıq on qatdan yeddi yüz qata və Allahın qullara olan lütfü, qullarına bir ehsan olmaq üçün daha çox qatlarla da mükafatlandırılacaqdır. Pis əmələ gəldikdə isə pisliyin də əvəzi onun bir bənzəri olacaqdır. İnsan işlətdiyi pislikdən başqası ilə cəzalandırılmayacaqdır. ***«Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz».*** *(əl-Ənam 160).* İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – də Uca və Böyük Allahdan etdiyi rəvayətdə buyurur: «Allah bütün yaxşı və pis əməlləri yazmışdır». Sonra bunu açıqladı: «Hər kim bir yaxşılıq etməyi niyyət edib, lakin onu yerinə yetirməzsə Allah onu öz dərgahında tam bir həsənət (savab) olaraq yazar. Hər kim də bir yaxşiliq etməyi niyyət edib və onu yerinə yetirərsə, Allah onu öz dərgahında on həsənətdən, yeddi yüz həsənətə qədər yazar. Hər kim bir pis əməl etməyi niyyət edib, lakin onu yerinə yetirməzsə, Allah onu öz dərgahında bir həsənət olaraq yazar. Hər kim bir pis əməl etməyi niyyət edib və onu yerinə yetirərsə, Allah onu öz dərgahında tam bir pis əməl olaraq yazar»[354].

Qiyamət Günü Haqq-Hesab İki Cür Olacaqdır:

1. *Hisəbul-Ərz* – təqdim etmək deməkdir. Onlara əməlləri təqdim olunacaqdır. Məs: Əbu Abdurrahman ən-Nubulli deyir ki, mən Abdullah b. Amr - *radıyallahu anhu* – nun belə dediyini eşitdim: Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü mənim ümmətimdən bir nəfəri bütün insanların qarşısında çağıracaqlar. Onun

[352] Müslim.
[353] Buxari, Müslim.
[354] Buxari, Müslim.

qarşısına günahlarla dolu doxsan doqquz kitab qoyulacaq. Hər birinin uzunluğu gözün son görmə həddi qədər olacaqdır». Sonra ondan soruşacaqlar. «Sən bunlardan hansınısa inkar edirsən?» O: «Yox, ya Rəbbim!» deyəcəkdir. Allah buyuracaq: «Səndə bunlara qarşı bir yaxşı əməl varmı?» Həmin şəxs qorxudan özünü itirərək: «Yox, ya Rəbbim!» deyəcəkdir. Ona deyiləcək: «Sənin bir yaxşı əməlin var. Bu əməlinə görə sənə bu gün ədalətsizlik olunmayacaqdır». Onun qarşısına: «***Lə İləhə İlləllah***» kəlməsi yazılmış vərəqə çıxarılacaq. Həmin insan deyəcək: «Ya Rəbbim! Bu vərəq bu qədər günahların qarşısında nə gücə malikdir». Günahları tərəzinin bir gözünə, həmin kəlməni isə tərəzinin o, biri gözünə qoyacaqlar. «***Lə İləhə İlləllah***» olan tərəzi ağır gələcəkdir. Rahmən və Rahim olan Allahın adı qarşısında heç bir şey ağır gəlməz»[355].

2. *Hisəbun-Niqaş* – münaqişə etmək deməkdir. Onlarla etdikləri əməllərə görə münaqişə ediləcəkdir. Məs: İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah mömini yaxınlaşdırar. Onun üzərinə örtüyünü qoyar və onu örtər. Ona buyurar: «Filan günahını bilirsənmi? Filan günahını bilirsənmi?» Qul: «Bəli, ya Rəbbim!» deyər. Bütün günahlarını tək-tək ona söyləyərlər. Qul artıq həlak olduğunu zənn etdiyi təqdirdə Allah ona buyuracaq: «Dünyada ikən səni bu günahlardan saxladım. Bu gün də bu günahlarını sənə bağışlayıram». Sonra ona etdiyi yaxşılıqların yazıldığı kitabı verərlər.

Kafir və münafiqə gəlincə: «Bütün insanların eşitdiyi bir şəkildə onlara deyiləcək. Bunlar Rəbbinə qarşı yalan söyləyən kimsələrdir. Bunu da bilin ki, Allahın lənəti zalimlərin üzərinədir» deyiləcəkdir. ***«Allaha iftira yaxandan daha zalim kim ola bilər? Onlar Allahın hüzuruna gətirilər, şahidlər belə deyərlər: «Bunlar Rəbbi barəsində yalan söyləyənlərdir!» Bilin ki, zalimlər Allahın lənətinə gələcəklər.*** *(Hud 18)*[356]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü kafir gətrilir və ona: «Nə deyirsən? Əgər yer dolusu qədər qızılın olsaydı onu (qurtarmaq üçün) fidyə verərdin?» deyə soruşulacaq. O: «Bəli» deyə cavab verəcəkdir. Bu dəfə ona deyiləcək: «Səndən daha yüngül və asandı istənilmişdi». Bir rəvayətdə: «Mənə heç bir şeyi şərik qoşmamağın (istənilmişdi). Lakin sən şərik qoşmaqdan başqa bir şey qəbul etmədin!»[357].

Kafirlərin yaxşı və pis əməlləri tərəzidə çəkiləcək kimsələrin əməlləri kimi hesaba çəkilməyəcəkdir. Çünki onların yaxşı əməlləri yoxdur. Ancaq

---

[355] Tirmizi 2641,2639, İbn Məcə 1437,4300, Əhməd 4/213, əl-Həkim 1/5,6
[356] Buxari, Müslim.
[357] Buxari, Müslim.

əməlləri sayılıb və əməllərindən xəbərdar olunacaqlar. Onlara etdikləri söyləniləcək və bununla da rəzil ediləcəklər. ***«Biz onların etdikləri əməlləri qəsdən dağınıq zərrələrə döndərərik».*** *(əl-Furqan 23).* ***«Rəbbini inkar edənlərin əməlləri fırtınalı bir gündə küləyin sovurub apardığı külə bənzəyir. Onlar etdikləri əməllrdən heç bir fayda əldə edə bilməzlər. Budur*** *(haqq yoldan)* ***azıb uzaqlaşmaq».*** *(İbrahim 18).* ***«O, gün nə bir insan, nə də bir cinn günahı barəsində sorğu-sual olunmayacaqdır. Günahkarlar üzlərindən tanınacaq, kəkillərindən və ayaqlarından tutulub yaxalanacaqlar».*** *(ər-Rahmən 39).* Çünki kafirin etdiyi yaxşı əməllərinin əvəzi dünyada veriləcəkdir. Qiyamət günü gələcəyi vaxt savabların yazıldığı səhifələrin bom-boş olduğunu görəcəkdir. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kafir yaxşı bir iş gördüyü zaman onun müqabilində dünyada ikən əvəzi verilir. Möminə gəlincə şübhəsiz Allah onun həsənətlərini axirəti üçün onun lehinə saxlayır. Dünyadakı itaətinə görə isə onun ruzisini verir»[358]. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki: “Ya Rəsulullah! İbnu Cənan cahiliyyə dönəmində qohumluq əlaqələrini möhkəmlədərdi. Bunun ona bir faydası olacaqmı?” deyə soruşdum. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Xeyr, ona faydası olmaz. Çünki o, heç bir zaman: Ya Rəbbim! Qiyamət günü günahlarımı bağışla” deməmişdir[359]. Lakin bəzi qrup alimlər qeyd edrilər ki, kafirlərin dünyada etdikləri əməlləri onlar üçün Cəhənnəm əzabının yüngülləş-məsinə səbəb olacaqdır. Əbu Talib və s. kimi. Lakin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – şəfaəti vasitəsilə Əbu Talibin əzabının yüngülləşdirilməsi məsələsi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in şəfaətinə xas bir istisna hal olaraq qəbul edilmişdir.

«*(Allahın vəhdəniyyətini danan, Quranı yalan hesab edən)* ***kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki*** *(səhradakı)* ***ilğıma bənzər ki, susuzluqda ürəyi yanan onu su bilər. Nəhayət gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O, öz əməlinin yanında ancaq Allahın cəzasını tapar. Allah da onun cəzasını*** *(layiqincə)* ***verər. Allah tezliklə haqq-hesab çəkəndir».*** *(ən-Nur 39).* *«(Ya Muhəmməd!)* ***De ki: «Sizə əməlləri baxımından*** *(axirətdə)* ***ən çox ziyana uğrayanlar haqqında xəbər verimmi? O, kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini zənn edirdilər».*** *(əl-Kəhf 103-104).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü cinlər və insanlar xaric olmaqla, Allah yaratdıqları heyvanlar haqqında

---

[358] Müslim.
[359] Müslim.

hökm verəcəkdir. Belə ki, buynuzsuza haqsızlıq etmiş olan buynuzluya qisas tətbiq ediləcəkdir. Bu işlər tamamlanıb heç bir heyvanın digərində haqqı qalmadıqda Allah heyvanlara: «Torpaq olun!» deyə buyurar. O, vaxt kafir: «Kaş ki, mən də torpaq olardım» deyər[360].

Buna görə də əziz və hörmətli qardaş və bacılarım gününüzü və vaxtınızı nəyə sərf etdiyinizi fikirləşin. Çünki o, günü bu haqda fikirləşmək sizə heç bir fayda verməyəcəkdir. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü hər bir qul beş şey haqqında: ömrünü nəyə sərf etdiyini, cavanlığını necə keçirdiyini, var-dövləti necə qazanıb hara xərclədiyini və öyrəndiyi elmə necə əməl etdiyi barəsində soruşulmadıqca ayağını Rəbbinin hüzurundan çəkməyəcəkdir»[361].

SIRAT

Əhli Sünnə vəl Cəmaat Qiyamət günü insanların keçəcəkləri sırat körpüsünə də inanırlar. ***Sırat*** – məna etibarı ilə geniş yol, izlənilən yol deməkdir. ***«Şübhəsiz bu mənim sıratımdır*** *(yolumdur)****. O, halda ona uyun».*** *(əl-Ənam 153).* Allahın haqq dini olan bu sıratın üzərində doğru yeriyən bir kimsə axirətdə də o, sıratın üzərində doğru yeriyə biləcəkdir.

Sırat Cəhənnəm üzərində qurulmuşdur. Tükdən incə və qılıncdan itidir[362]. Cənnət ilə Cəhənnəm arasındakı körpüdür. İnsanlar əməllərinə görə sıratın üzərindən keçəcəklər. Kimisi bir göz qırpımında, kimisi ildırım kimi, kimisi rahat əsən külək kimi, kimisi yürüyən at kimi, kimisi dəvə kimi, kimisi yeriyərək, kimisi qaçaraq, kimisi sürünərək, kimiləri də zəncirlərlə tutulub Cəhənnəmə salınacaqdır. Hər kəs əməlinə görə oradan keçəcəkdir. Ta ki, günahlarından və kirlərindən təmizlənənə qədər. Sıratı keçən kimsə isə Cənnətə girməyə hazır olacaqdır. Ən sondakı qarnı üzərində sürünərək keçər və: "Ya Rəbbim! Nə üçün məni süründürdün?". Allah: "Mən səni süründürmədim, əksinə əməllərin səni süründürdü" buyurar. ***«O, gün mömin kişilərin və qadınların nurunun onların önlərindən və sağ tərəfindən axıb şölə saçdığını*** *(sırat körpüsündə onlara yol göstərdiyini)* ***görəcəksən».*** *(əl-Hədid 12).* Aişə - *radıyallahu anhə* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: ***«****(Yadda saxla! Qiyamət günü)* ***Elə bir gündür ki, yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq!».*** *(İbrahim 48)* - ayəsi haqqında: «O, gün insanlar harada olacaqlar, ya Rəsulallah?» deyə soruşdum. Peyğəmbər – *sallallahu*

---

[360] Beyhəqi «Basu vən Nuşur» 327, Əhməd 2/363, Tirmizi 3/4.
[361] Musnəd 2/254, Tirmizi 2/67, əl-Albani «Səhih Hədislər Silsiləsi» 2/629, 946.
[362] Müslim.

aleyhi və salləm – buyurdu: «Sırat üzərində»[363]. Ənəs - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: «Ey Allahın Rəsulu! Mənim üçün şəfaət edərsənmi?». O: «Bəli» deyə buyurdu. Mən: «(Məhşərdə) Səni harada axtarım?» dedim. O: «Məni Sırat körpüsünün yanında axtar» deyə buyurdu. Mən: «Əgər səni orada tapmasam». O: «O, zaman məni Kövsər bulağının yanında axtar» deyə buyurdu. Mən: «Əgər səni orada da tapmasam?» dedim. O: «O, zaman məni tərəzinin yanında axtar. Çünki Qiyamət günü mən bu üç yerdən birinin yanında olacağam»[364]. Aişə - *radıyallahu anhə* – deyir ki, atəşi xatırlayıb ağladım. Peyğəmbər: "Nə üçün ağlayırsan? (səni ağladan nədir?)" deyə soruşdu. Mən: "Cəhənnəmi xatırlayıb ağladım. Qiyamət günü ailənizi xatırlayacaq-sınızmı?" deyə soruşdum. Peyğəmbər: "Üç yerdə kimsə kimsəni xatırla-maz: Mizan yanında – hesabı ağırmı, yüngülmü gəldi – öyrənincəyə qədər. Əməl dəftərinin verildiyi zaman, yəni kitabının sağınamı, solunamı, yoxsa arxasınamı qoyulacağını bilənə qədər. Sırat (körpüsü) Cəhənnəmin üstünə qurulduğu (və oradan) keçildiyi zaman, iki tərəfdən tikanlar, qırmaqlar və Allah onlarla istədiyi məxluqu tutduğu zaman, kimin qurtulub, kimin də qurtulmadığı aydın olduğu zaman"[365]. Ənəs - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sırat ülgüc və ya qılınc kimi itidir, mələklər mömin kişi və qadınları qurtarırlar (kömək edirlər). Cəbrail - *əleyhissəlam* - qarşımı kəsər mən də: "Ya Rəbbim, qurtar, qurtar, o gün çox kişi və qadın ora düşər".

İman və əməllərə görə onlara nur verilir. Atəşdən gələn qırmaqlar günahlara görə qaparlar. Münafiqlər dünyada möminlərlə olduqları kimi, axirətdə də möminlərlə birlikdə onlara nur veriləcəkdir. Lakin körpüyə çatdıqda onların nuru sönər. Utbə b. Yəkzandan gələn rəvayətdə İbn Abbas - *radıyallahu anhu* – deyir ki: ***"Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (*** *bir daha günaha qayıtmamaq şərtilə)* ***tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi*** *(ağacları)* ***altından çaylar axan cənnətlərə daxil etsin. O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların*** *(iman)* ***nuru*** *(qıl körpüsü üstündə onlara yol göstərmək üçün)* ***önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!".*** *(ət-Təhrim 8).* Sırat üzərində möminin nuru

[363] Müslim.
[364] Tirmizi "Qiyamət" 10, 2435, Əhməd 3/178.
[365] Əbu Davud "Sünən" 28, 4755.

yanmağa davam edər, lakin münafiqin nuru isə sönər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Kim mömin haqqında bilmədiyi bir şey söyləyərsə (onu pisləmək üçün iftira atarsa) Allah dediyindən dönənə qədər onu Cəhənnəm körpüsü üzərində həps edər”[366].

Reşideyn b. Səid, Amr b. Həris yolu ilə Səid b. Əbu Həllalın belə dediyini rəvayət edir: “Bizə çatan xəbərlərə görə Sırat bəzi insanlar üçün tükdən daha incə olur, bəzi insanlar üçün geniş bir vadi olur”. Səhl əl-Tustari – *rahmətullahi aleyhi* - deyir ki: “Kimin dünyada olan Sıratı dar olursa, Qiyamət günü geniş olur”. Yəni: Kim Allahın əmirlərinə itaət edib günahlardan da uzaq olaraq çətin olanı seçərsə dünyada Sıratal Mustəqim üzərədir və bunun qarşılığı da Qiyamət günü Sırat onun üçün genişlənir. Yenə hər kim dünyada şəhvətinə tabe olub günah edər və zəlalətə aparan şübhələrə tabe olaraq yolunu genişləndirərsə Sıratal Mustəqimdən çıxmışdır və buna görə də Qiyamət günü Sırat onun üçün dar olacaqdır. Allah daha doğru bilir. Sələflər bir kimsənin güldüyünü gördükdə ona: “Səni güldürən nədir? Cəhənnəmi arxada qoymadığın müddətdə xoşbəxtçilikdən əmin olmazsan”. Muaz b. Cəbəl - *radıyallahu anhu* – dan “Mərfu” olaraq rəvayət edilir ki: “Mömin Cəhənnəm körpüsünü keçib onu arxada buraxmadığı müddətdə qorxusu və həyəcanı keçməz”[367].

Sıratı keçdikdən sonra Cənnət ilə Cəhənnəm arasındaki bir körpüdə dayandırılırlar və birinin o biri üzərindəki haqqı qisas yolu ilə alınır. Nəhayət tərtəmiz edildikdən sonra Cənnətə girmək üçün onlara izn verilir. Əbu Səid - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Möminlər Cəhənnəmdən qurtulub Cənnətlə Cəhənnəm arasında körpüdə bir müddət həps edilirlər. Bu yerdə aralarında dünyada olan keçmiş haqsıqlıqlar qisas edilir. Beləcə günahlardan təmizlənib paklandıqdan sonra Cənnətə girmələrinə izin verilir. Nəfsim əlində olan Allaha and olsun ki, onlardan hər biri Cənnətdəki evini, dünyadakı evindən daha yaxşı bilir”[368].

HOVUZ

Əhli Sünnə vəl Cəmaat Qiyamət günü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hovuzunun ***Havdul-Məvrudun*** olduğuna da inanırlar. Bu hovuzun suyu süddən daha ağ, baldan daha şirindir. İyi miskdən gözəldir, ətrafındakı qədəhlərin sayı göydəki ulduzlar qədərdir. Eni bir aylıq, uzunluğu da bir aylıq gedilən məsafa qədərdir. Ondan bir dəfə içən bir

[366] Əbu Davud.
[367] İbn Əbu Hatim “Mursəl” hədis.
[368] Buxari “Məzalim” 1, 5/96, “Riqaq” 48.

daha əbədiyyən susamaz. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mənim hovuzum bir aylıq məsafə qədərdir. Suyu süddən ağdır, iyi miskdən gözəldir. Qədəhlərinin sayı göydəki ulduzlar qədərdir. Ondan bir dəfə içən bir daha əbədiyyən susamaz. Ona biri qızıl, digəri gümüş olmaq üzərə iki boru ilə Cənnətdən su axır»[369]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hövuzun iki ucu arasındakı məsafə Mədinə ilə Sana və Mədinə ilə Amman arasındakı məsafə qədərdir (Başqa rəvayətdə: «Hövuzun böyüklüyü Amman ilə Yəmən arası qədərdir»)»[370]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən hövuzun yanına çatan ilk insanam»[371]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən sizdən öncə hövuzun başına gələcəyəm. Mən sizin şahidiniz olacağam. Allaha and olsun ki, mən indi də hövuzuma baxmaqdayam. Mənə xəzinələrin açarları verildi. Mən sizin Allaha şərik qoşmağınıza görə qorxmuram. Lakin dünyanı əldə etmək üçün yarışmağınızdan və bu minvalla sizdən əvvəlkilərin məhv olduqları kimi sizin məhv olmağınızdan qorxuram»[372]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Evimlə minbərin arası Cənnət baxçalarından bir baxçadır. Minbərimdə hövuzumun üzərindədir»[373].

Lakin dində yeniliklər etmişlər o, dəhşətli istidə bundan məhrum olacaqlar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən hovuza ilk gələn mən olacağam. Mənim yanıma gələcək olan oradan içəcək, oradan bir dəfə içən əbədiyyən susamayacaqdır. Mənim yanıma mənim tanıdıqlarım, onların da məni tanıdıqları bir qism insanlar gələcəklər. Mənimlə onların arasında əngəl qoyulacaqdır». Başqa rəvayətdə: «Onlar məndəndirlər» deyəcəyəm. Mənə: «Sən onların səndən sonra nələr uydurub ortaya çıxartığını bilmirsən». Bu dəfə mən də: «Məndən sonra dəyişiliklər ortaya çıxaranlar məndən uzaq olsunlar, məndən uzaq olsunlar. (Başqa rəvayətdə: «Ey Allahın Rəsulu! O, gün bizi tanıya biləcəksən?» deyə soruşdular. Peyğəmbər: «Sizin başqa ümmətlərdə olmayan bir əlamətiniz olacaqdır. O, vaxt sizlər (dünya da ikən almış olduğunuz) dəstəmazın əsəri olaraq üzünüz, əlləriniz və ayaqlarınız işıq saçar halda yanıma gələcəksiniz»)»[374].

Hovuzun Xüsusiyyətləri:

[369] Buxari, Müslim.
[370] Müslim «Fəzail» 2/41, İbn Məcə «Zuhd» 2/36.
[371] Buxari «Fitən» 1/8, Müslim 2/1793.
[372] Buxari 2/94, Müslim 2/31.
[373] Buxari «Rikak» 7/208.
[374] Buxari, Müslim «Təharət» 1/36.

1. Uzunluğu bir ay gedilən məsafə qədərdir. **2.** Eni bir ay gedilən məsafə qədərdir. **3.** Dördbucaqlı şəklindədir. **4.** Suyu baldan şirindir. **5.** Süddən ağdır. **6.** Buzdan soyuqdur. **7.** Bir dəfə içən əbədiyyən susamaz. **8.** Qədəhlərin sayı ulduzların sayı qədərdir. **9.** İyi misqdən gözəldir. **10.** Ona axan su Cənnətdəki Kövsər bulağından bir qızıl və bir gümüş boru ilə axır. Bəzi rəvayətlərdə hər bir Peyğəmbərin öz hovuzu olduğu da qeyd edilir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə onlardan fərqli olaraq Cənnətdə Kövsər bulağı da veriləcəkdir. Kövsər – bol nemətlər deməkdir.

<u>Hovuz ilə Kövsərin Fərqi</u>:

1. Hovuz məşhərdə olacaq, Kövsər isə Cənnətdə. **2.** Hovuzun ləfzi Quranda varid olmayıb, Kövsər haqqında isə Quranda surə vardır. **3.** Kövsər hovuzdan böyükdür. **4.** Kövsər əslidir, hovuz isə qoludur. **5.** Kövsər yalnız Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə verilib, hovuz isə bütün peyğəmbərlərə: ***«Həqiqətən biz sənə Kövsəri bəxş etdik».*** *(əl-Kövsər 1).* Səmura - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər bir Peyğəmbərin hovuzu vardır. Onlar hansının hovuzundan daha çox insan su içmək üçün gəldiyi barədə bir-birləri ilə iftixar edərlər. Su içmək üçün insanların saylarının ən çox olduğu hovuzun mənim olacağına ümüd edirəm»[375]. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Mən Cənnətdə yürüdüyüm zaman bir çay gördüm. İki tərəfində incidən oyulmuş qübbələr vardır. Mən: «Ya Cəbrail! Bu nədir?» deyə soruşdum. Cəbrail: «Bu çay Rəbbinin sənə verdiyi kövsərdir» deyə cavab verdi. Mən gördüm ki, onun torpağı təmiz və iyi misk idi»[376]. Lakin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hovuzu ən böyük, ən şirin və su içmək üçün insanların saylarının ən çox olduğu hovuzdur. Allah bizi də onlardan etsin. Amin!

CƏNNƏT VƏ CƏHƏNNƏM

Əhli Sünnə vəl Camaat Cənnət və Cəhənnəmin insanların əbədiyyən qalmaq üçün girəcəkləri yer olduqlarına inanırlar. Cənnət və Cəhənnəm yaradılmışdır. İndi də vardır. Əbədiyyən yox olmazlar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – gecə namazına qaxdıqda bu duanı deyərdi: «Həmd yalnız sənədir. Haqq olan sənsən. Sənin vədin də haqdır. Sənə qovuşmaq da haqdır. Sözün də haqdır. Cənnət də haqdır. Cəhənnəm atəşi də haqdır. Bütün Peyğəmbərlər də haqdır. Muhəmməd də haqdır. Qiyamət

---

[375] Buxari "Tarix" 1/44, İbn Əbi Asim «Sünnə» 734, Təbərani «Mucəmul Kəbir» 7/656, Tirmizi «Sifətul Qiyamə», əl-Albani «Səhih Hədislər Silsiləsi» 1589.

[376] Buxari 11/464.

də haqdır»[377]. Ubadə b. Samit – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Kim şəhadət etsə ki, Allahdan başqa haqq ilah yoxdur, Muhəmməd onun qulu və Rəsuludur, İsa – *əleyhissəlam* - onun qulu və Rəsuludur, Məryəmə dediyi söz və Ondan gəlmə bir ruhdur, Cənnət haqq, Cəhənnəm haqqdır, Allah o insanı əməlindən asılı olaraq (və ya olmayaraq) Cənnətə salar (Başqa rəvayətdə: Cənnətin hansı qapısından istərsə, onu oradan içəri salar!)»[378].

Cənnət əbədi nemətlər yurdudur. Allah oranı iman edilməsi fərz olan şeylərə iman edən, Allah və Rəsuluna itaət edən, bunu da Allaha ixlas ilə və Rəsuluna tabe olaraq gerçəkləşdirən təqva sahibi olan möminlər üçün hazırlamışdır. Orada olan nemətləri nə bir göz görmüş, nə bir qulaq eşitmiş, nə də bir insanın xatirindən keçmişdir. ***«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır. Onların öz Rəbbi yanındakı mükafatı*** *(ağacları)* ***altından çaylar axan Ədn Cənnətləridir. Onlar orada əbədi qalacaqlar».*** *(əl-Bəyyinə 7-8).* ***«Etdikləri əməllərin mükafatı olaraq*** *(Allah dərgahında)* ***möminlər üçün göz oxşayan nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz».*** *(əs-Səcdə 17).* Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü Cənnət əhlindən olub dünyada ən çətin və məşəqqətli həyat sürən birisi gətirilir və Cənnətə bir dəfə salınıb çıxardılır». Ona: «Ey Adəm oğlu! Sən dünyada ikən heç çətinlik və sıxıntı gördünmü?» O, da: «Xeyr, ya Rəbbim! Mən heç bir həyat çətinliyi və sıxıntısı görmədim!»[379].

Cəhənnəm isə Allahı inkar edib, Rəsuluna baş qaldıran kafirlər, münafiqlər, müşriklər, günahkarlar və zalımlər üçün hazırlanmışdır. Günahkarların atəşi əbədi deyildir. Kafirlərin atəşi isə əbədi olaraq sönməz. Orada ağıla gəlməyən cəzalar və əzablar vardır. ***De ki: «Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın*** *(kafir olsun).* ***Biz zalimlər üçün elə bir atəş hazırlamışıq ki, onun pərdələri*** *(dumanları)* ***onları bürüyəcəkdir. Onlar imdad istədikdə onlara qətran*** *(yaxud yaradan axan irin-qan)* ***kimi üzlərini büryan edən bir su ilə kömək ediləcəkdir. O, nə pis içki, o Cəhənnəm necə də pis məskəndir».*** *(əl-Kəhf 29).* Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Cəhənnəm əhli, cəhənnəmliklərə gəlincə isə onlar orada nə ölürlər, nə də həyat tapırlar. Lakin günahları – *xətaları* – səbəbiylə atəşə düşən bir qrup kimsələr vardır

---

377 Buxari, Müslim.
378 Buxari, Müslim.
379 Müslim 2807.

ki, atəş onları təmamilə yandırıb (kül) edər. Yanıb kömür olduqdan sonra onlara şəfaət edilmə izni verilir. Beləcə qrup-qrup çıxarılıb Cənnət çaylarına atılırlar. Sonra: "Ey Cənnət əhli! Bunların üzərinə su tökün" deyilir. Onlar sel yatağında bitən yabanı ot kimi yenidən bitərlər"[380]. Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü Cəhənnəm əhlindən olub dünyada ən nemətli və gözəl yaşayan birisi gətirilib Cəhənnəmə bir dəfə salınıb çıxardılır». Ona: «Ey Adəm oğlu! Sən heç dünyada ikən bir xeyir gördünmü?» O, da: «Xeyr, ya Rəbbim! Heç bir xeyir görmədim»[381]. ***«Əgər zül etmiş bir şəxs yer üzündə olan hər şeyə sahib olsaydı, onu*** *(Allahın əzabından qurtarmaq üçün)* ***fidyə verərdi. Onlar əzabı gördükləri zaman için-için peşman olarlar».*** *(Yunus 54)*. Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü Uca və Böyük olan Allah Cəhənnəmiklərdən ən yüngül əzab olunana: «Dünya və dünyadakı hər şey sənin olsaydı bu əzabdan qurtarmaq üçün onu sədəqə verərdinmi?» O, da: «Bəli, sədəqə verərdim» deyəcəkdir. Allah ona: «Mən səni atəşə atmayacaqdım. Dünyada ikən səndən bundan da yüngülünü istəmişdim. Mənə şərik qoşmamağını. Lakin sən dünyaya gəldikdə (Allaha ibadət etməkdən) imtina etdin və şirkdən uzaq olmadın»[382].

Əhli Sünnə Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in Cənnətə ilk girəcəyinə, həmçinin onun ümmətinin ilk hesaba çəkiləcəyinə və Cənnətliklərin yarısından çoxunun onun ümmətinin təşkil edəcəyinə iman edirlər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günündə Cənnətin qapısına gələcəyəm və qapının açılmasını istəyəcəyəm». Mənə: «Sən kimsən?» deyə soruşacaqlar. Mən də: «Muhəmməd!» deyəcəyəm. O, da: «Mənə sənin adın verildi. Səndən əvvəl heç kəs üçün qapını açmamaqla əmr olundum»[383]. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: "Qiyamət günü cəmaatı ən çox olan kimsə mənəm. Cənnət qapısını ilk döyən də mənəm"[384]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Cənnətdə yüz dərəcə vardır. Allah oranı yolunda vuruşan mücahidlər üçün hazırlamışdır. Hər iki dərəcə arasında yerlə göy arası qədər məsafə vardır. Allahdan dilədikdə Firdovsu diləyin. O, Cənnətin orta yerində ən

[380] Müslim "İman" 306, (185).
[381] Müslim "Munafiqun" 2807.
[382] Buxari "Rikak" 51, 49, Müslim 2805.
[383] Müslim 197.
[384] Müslim 196.

üst yerdədir. Onun üstündə Rahmənin Ərşi vardır. Cənnətin çayları oradan qaynayır»[385]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: "Cənnətdə Allahın yolunda vuruşanlar üçün hazırlanmış **100** dərəcə vardır. Hər iki dərəcə arası göylə yer arası qədərdir"[386]. Bureydə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Cənnət əhli **120** səffdir. Bu səfflərdən **80** bu ümmətdən, **40** isə digər ümmətlərdən olacaqdır»[387]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Bizlər (dünyaya) ən sonda gələnlərik, Qiyamət günü isə ən öndə olanlarıq (Başqa rəvayətdə: Biz Cənnətə ilk girənlərik. (Kitab Əhlinə) kitab bizdən öncə verilmiş, bizə isə sonra verilmişdir. Onlar ixtilaf etdilər. Allah bizi onların ixtilaf etdikləri haqqa izni ilə hidayət etdi[388])»[389]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki: ***"(Onların) bir çoxu əvvəlkilərdən** (keçmiş peyğəmbərlərin ümmətlərindən)**, Bir çoxu da axırıncılardandır** (bu ümmətdəndir)**".** (əl-Vaqiə 39-40).* Ayəsi nazil olduqda Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: "Siz Cənnət əhlinin **4/1**-siz. Siz Cənnət əhlinin **3/1-**siz. Siz Cənnət əhlinin yarısısınız..."[390]. İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Biz (düyaya gəlməkdə) ümmətlərin ən sonuncusuyuq. Eyni zamanda hesabları hər kəsdən öncə çəkilənlərik»[391]. Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: "Cənnət – mən girənə qədər digər Peyğəmbərlərə, Ümmətim girənə qədər digər ümmətlərə haramdır"[392].

Bu ümmət yerdən ilk öncə çıxacaq olan ümmətdir, məhşərdə ən yüksək yerə ilk duran ümmətdir, Ərşin gölgəsinə ilk öncə gələn ümmətdir, aralarında hesabları ilk çəkiləcək olan ümmətdir, sıratı ilk keçən ümmətdir, Cənnətə də ilk girən ümmətdir, Cənnət – Muhəmməd - *sallallahu aleyhi və səlləm* - girənə qədər digər Peyğəmbərlərə, ümməti girənə qədər digər ümmətlərə haramdır. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: "Mənim yanıma Cəbrail - *əleyhissəlam* - gəlib əlimdən tutdu və ümmətimin girəcəyi qapını göstərdi. Əbu Bəkr: "Ya Rəsulullah! İstərdim

---

385 Buxari 6987, Tirmizi 2530, əl-Albani "Səhih".
386 Buxari 6/11, Həkim 1/80, Əhməd 2/335, 5/321.
387 Tirmizi 2670, Əhməd 1/453, İbn Əbi şeybə "Musənnəf" 11/471, Təhavi "Muşkil" 1/157.
388 Müslim 855.
389 Buxari «Cumə» 1/1.
390 İbn Kəsir 1/404, Mücmuaz Zəvaid 10/403, Əhməd 3/383.
391 İbn Məcə «Zuhd».
392 Daraqutni "əl-Əfrad", İbn Kəsir 1/404.

səninlə bərabər olum”. Peyğəmbər: “Ey Əbu Bəkr! Ümmətimdən Cənnətə ilk olaraq girən kişi sənsən” deyə buyurdu[393].

<u>Cənnət Və Cəhənnəmin Mövcud Olması</u>: Əhli Sünnə Cənnət və Cəhənnəmin yaradılmış olduqlarına və indi də var olduqlarına inanırlar. ***«Rəbbinizin məğfirətinə və genişliyi göylər və yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin».*** *(Ali-İmran 133).* ***«****(Ey insanlar!)* ***Rəbbiniz tərəfindən bağışlanmağa və göycə, yercə geniş olub, Allaha və onun peyğəmbərinə iman gətirənlərdən ötrü hazırlanmış Cənnətə nail olmaq üçün bir-birinizdən qabağa düşməyə çalışın. Bu Allahın dilədiyi kimsəyə əta etdiyi lütf, mərhəmətidir. Allah çox böyük mərhəmət, kərəm sahibidir».*** *(əl-Hədid 21).* ***And olsun ki,*** *(Muhəmməd əleyhissəlam Cəbraili öz həqiqi surətində)* ***başqa bir dəfə də*** *(merac vaxtı)* ***görmüşdü;*** *(Yeddinci göydəki)* ***Sidrətül-Müntəhanın yanında.*** *(Mələklər, şəhidlər və müttəqilər məskəni olan)* ***Məva cənnəti onun yanındadır”.*** *(ən-Nəcm 13-15).* Aişə – *radıyallahu anhə* – rəvayət edir ki, günəş tutuldu. Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «…Mən vəd olunduğunuz hər şeyi gördüm. Hətta irəliyə doğru getməyə başladığımı gördüyünüz vaxt Cənnətdən bir salxım almaq istədim (Başaqa rəvayətdə: Əgər o, salxımı dərə bilsəydim dünya durduqca ondan yeyərdiniz (heç qurtarmazdı). Məni geriyə çəkildiyimi gördüyünüz vaxt Cəhənnəmi gördüm. Bu gün kimi ömrümdə qorxulu bir mənzərə görməmişdim…»[394]. Abdullah b. Amr – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Muhəmmədin canı əlində olan Allaha and olsun ki, Cənnət o qədər yaxınlaşdı, o qədər yaxınlaşdı ki, əlimi açsaydım meyvələri (yemişləri) əlimə gələrdi. Cəhənnəm də o, dərəcədə yaxınlaşdı ki, ondan sizə də zərər gələr qorxusuyla qorunmağa başladım”[395]. Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – bizimlə namaz qılarkən buyurdu: «Ey insanlar! Mən sizin imamınızam. Məndən öncə rukuya və səcdəyə getməyin, başlarınızı qaldırmayın. Çünki mən sizi önümdən və arxamdan görürəm. Canım əlində olana and olsun ki, mənim gördüyümü görsəydiniz az gülər, çox ağlayardınız”. Onlar: “Nə gördün Ya Rəsulullah!” dedilər. Peyğəmbər: “Cənnəti və Cəhənnəmi” deyə buyurdu[396].

---

393 Əbu Davud 4652.
394 Buxari 1212, Müsllim 901.
395 Əhməd 2/159, Əbu Davud 1194, Nəsəi 3/138.
396 Müslim 426.

Həmçinin - Adəm – *əleyhissəlam* – və zövcəsinə qadağan olunmuş ağacdan yeməkləri, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Merac səfərində Cənnəti və Cəhənnəmi görməsi onların olduğuna dəlalət edir. Cəhənnəm haqqında: ***«Kafirlər üçün hazırlanmış oddan həzər edin».*** *(Ali-İmran 131).* ***«Həqiqətən Cəhənnəm pusqudur. O, azğınların məskənidir».*** *(ən-Nəbə 21-22).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mənə Cənnət göstərildi və oranın əhalisinin çox hissəsini fəqirlərin olduğunu gördüm. Mənə Cəhənnəm göstərildi və oranın əhalisinin çoxunun qadınlar olduğunu gördüm»[397]. İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sizdən hər hansı bir kimsə öldükdən sonra səhər-axşam ona qalacağı yer göstərilir. Cənnət əhlindəndirsə Cənnət, Cəhənnəm əhlindəndirsə Cəhənnəm əhli arasındakı yeri göstərilir və ona: Qiyamət günü Allah səni ora göndərincəyə qədər sənin yerin budur» deyilir[398]. Kəb b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Möminin canı Cənnət ağaclarına qonan bir quşdur. Ta ki, Uca Allah Qiyamət günündə onu təkrar cəsədinə geri göndərincəyə qədər»[399]. İbn Məsud – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «İsraya getdiyim gecə İbrahim – *əlehissəlam* – ilə görüşdüm. Mənə: «Ey Muhəmməd! Ümmətinə məndən salam söylə və onlara xəbər ver ki, Cənnətin torpağı xoş, suyu gözəl və ora dümdüz bir ərazidir. Orada əkiləcək ağaclar isə: «***Subhanəllai və Bihəmdihi, və Lə İləhə İlləllahu, Vallahu Əkbər***» sözləridir»[400]. Rəsulullah - *səllallahu aleyhi və səlləm* - buyurdu: «Kim ***Subhanəllahil Azimi və Bihəmdihi***» deyərsə onun üçün Cənnətdə bir xurma ağacı əkilər»[401].

Əhli Sünnə Cənnət və Cəhənnəmin əbədiyyən yox olmayacaqlarına da inanırlar. Allah Cənnəti və Cəhənnəmi, yaratdıqlarını yaratmadan əvvəl var etmişdir. Hər iksinə girəcək insanları da, cinləri də O, yaratmışdır. Cənnət əhli, Cənnət əhlinin əməllərini edərək ölürlər. Cəhənnəm əhli isə Cəhənnəm əhlinin əməlləri ilə əməl edərək ölürlər. Cənnət əhli Allahın lütfü ilə Cənnətə, Cəhənnəm əhli isə Allahın ədaləti ilə Cəhənnəmə girərlər. ***«(İslamı) ilk əvvəl qəbul edib*** *(başqalarını bu işdə)* ***qabaqlayan mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar.***

[397] Buxari, Müslim.
[398] Buxari, Müslim 5110.
[399] Muvatta 1/240, Tirmizi 1641, Nəsəi 4/108, İbn Məcə 1449, Musnəd 3/455,456, 6/386.
[400] Tirmizi 3458.
[401] Səhih Tirmizi 3/160, Həkim 1/501, əl-Albani «Səhihul Cəmi» 5/531.

Allah onlar üçün əbədi qalacaqlar, altından çaylar axan Cənnətlər hazırlamışdır. Bu ən böyük qurtuluş və uğurdur». *(ət-Tövbə 100).* ***«Xoşbəxt olanlar isə, Rəbbinin dilədiyindən əlavə, tükənməz bir nemət kimi göylər və yer durduqca Cənnətdə əbədi qalacaqlar».*** *(Hud 108).* ***«Onlara Cənnətdə heç bir yorğunluq üz verməz. Onlar oradan çıxan da deyillər».*** *(əl-Hicr 48).* ***Bu əlbətdə bizim ruzimizdir. O, bitməz-tükənməzdir».*** *(Sad 54)* və s. ayələrdə Allah həm Cənnətin əbədiliyini, həm də oradakıların həyatının əbədi olduqlarını, həyatlarının əsla bitməyəcəklərini və oradan çıxarılmayacaqlarını bildirir. ***«Onlar orada ilk ölümdən başqa bir ölüm dadmayacaqlar».*** *(əd-Duxan 56).*

Cəhənnəm haqqında isə: ***«Kafirləri və zülmkarları, şübhəsiz ki, Allah bağışlayan və onlara Cəhənnəm yolundan başqa bir yol göstərən deyildir. Onlar orada əbədi qalacaqlar. Bu isə Allah üçün çox asandır!».*** *(ən-Nisa 169).* ***«Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, onu Cəhənnəm əzabı gözləyir. O, Cəhənnəmdə nə ölər, nə də yaşayar».*** *(Ta ha 74).* ***«Şübhəsiz ki, Allah kafirlərə lənət eləmiş və onlar üçün yanar od hazırlamışdır. Onlar orada əbədi qalacaqlar, nə bir hami, nə də bir mədədkar tapa biləcəklər».*** *(əl-Əhzab 64-65).* ***«Kafir olanları Cəhənnəm odu gözləyir.*** *(Orada)* ***nə onların ölmünə hökm olunar ki, ölüb canları qurtarsın, nə də əzabları yüngülləşər. Biz hər bir kafiri belə cəzalandırırıq».*** *(Fatir 36).* ***«Onların bu əzabı yüngülləşdiril-məyəcəkdir. Onlar orada əllərini hər şeydən üzmüş olacaqlar!».*** *(əz-Zuxruf 75)* və s. ayələrdə Cəhənnəmin, cəhənnəm əhli üçün yaradıldığını, onların orada əbədi qalacaqları bildirilir.

ŞƏFAƏT

Şəfaət – vasitə hər hansı bir şeyi tələb etmək deməkdir. İstilahi mənası isə kimin üçünsə xeyr diləmək, şərr və əzabdan uzaq etmək deməkdir. Allah Qurani Kərimdə bir çox ayələrdə şəfaətin yalnız ona məxsus olduğunu və heç kimsənin bu işdə hər hansı bir payı olmadığını bizə bildirir. ***«Yoxsa onlar*** *(müşriklər)* ***Allahdan qeyrilərini*** *(bütləri)* ***şəfaətçi etdilər?*** *(Ya Peyğəmbər!)* ***de ki: «Onlar heç bir şeyə malik olmadıqları və heç bir şey qanmadıqları halda şəfaətmi edəcəklər?». De ki: «Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü onun əlindədir. Sonra siz onun hüzuruna qaytarılacaqsınız».*** *(əz-Zumər 43-44).*

Nə zaman olacağına gəlincə, Uca Allah bizə şəfaətin ancaq onun izni ilə olacağına xəbər vermişdi. ***«Allahın izni olmadan onun yanında kim şəfaət edə bilər».*** *(əl-Bəqərə 255).* ***Onun izni olmadan heç bir şəfaət***

edən ola bilməz». *(Yunus 3).* ***«Axirət də, dünya da ancaq Allahındır. Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah öz istədiyi və razı olduğu kimsəyə izn verdikdən sonra*** *(onun şəfaəti fayda verər)****».*** *(ən-Nəcm 25-26).* ***«Onun hüzurunda izn verdiyi kimsələr istisna olmaqla heç kəsin şəfaəti fayda verməz».*** *(Səba 23).*

Kimlərin şəfaət edəcəyinə gəlincə isə, Uca Allah bizlərə şəfaətin ancaq onun izn verməsindən sonra gerçəkləşəcəyini xəbər verdiyi kimi, bu xüsusta ancaq onun sevdiyi kimsələrin şəfaət edəcəyini də xəbər vermişdir. ***«Ruhun*** *(Cəbrailin)* ***və mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir».*** *(ən-Nəbə 38).* ***«Allahdan əhd almış kəslər müstəsna olmaqla, qalanları*** *(kafirlər)* ***şəfaət etməyə qadir olmazlar».*** *(Məryəm 87).* Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər bir Peyğəmbərin qəbul edilmiş duası vardır. Hər bir peyğəmbər də bu duasını etmişdir. Lakin mən duamı qiyamət günündə ümmətimə şəfaət etmək üçün saxladım. Artıq ümmətimdən Allaha heç bir şeyi şərik qoşmamış olan kimsələr inşəallah bu şəfaətə nail olacaqlar»[402].

Kimlər üçün şəfaət ediləcəyinə isə, Uca Allah bizlərə ancaq Allahın razı olduğu kimsələr üçün şəfaət ediləcəyini də xəbər vermişdir. ***«Allah onların nə etdiklərini və nə edəcəklərini bilir. Onlar yalnız Allahın razı olduğu kəslərdən ötrü şəfaət edə bilər və onu heybətindən qorxarlar».*** *(əl-Ənbiya 28).* ***«O, gün izn verdiyi və söz danışmağa razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz».*** *(Ta ha 109).*

Bütün bu ayələrdən bəlli oldu ki, şəfaət yalnız Allahın söz və əməlindən razı olduğu kimsələrə izn verdikdən sonra və Allahın razı olduğu kimsələrə ediləcəkdir. Bundan qeyri olan şəfaət isə müşriklərin (yəni Allahdan qeyrisinə ibadət edənlərin) bütləri, tanrıları haqqında inandıqları şirk olan şəfaətdir. Çünki onlara görə Allahın izni və rizası olmadan onların bütləri onlara şəfaət edəcəklər. Allah bu cür şəfaət istəyənlər haqqında buyurur: ***«Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və: «Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir» deyirlər. De ki: «Allaha göylərdə və yerdə*** *(özünə şərik)* ***bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah özünə şərik qoşulan bütlərdən uzaqdır və ucadır».*** *(Yunus 18).* ***«Çünki biz sizi*** *(siz bütləri)* ***aləmlərin Rəbbi ilə bərabər tutduq. Bizi yalnız günahkarlar azdırdı. İndi artıq nə şəfaət edən kimsələrmiz, nə də bir mehriban dostumuz var! Kaş***

---

[402] Buxari, Müslim.

bir də *(dünyaya)* ***dönə biləydik, möminlərdən olardıq».*** *(əş-Şuəra 98-102). «(Ya Peyğəmbər!)* ***Onları ürəklərin ağıza gələcəyi, udquna belə bilməyəcəkləri yaxın günlə*** *(qiyamət günü ilə)* ***qorxut.*** *(O, gün)* ***zalimlərin nə bir dostu, nə də bir şəfaətçisi olar».*** *(əl-Mumin 18).* ***«Şəfaət edənlərin şəfaəti onlara fayda verməz».*** *(əl-Muddəssir 48).* ***«Qorxun elə bir gündən ki, o gün heç kəs heç kəsin işinə yarıya bilməz, heç kəsdən*** *(gördüyü pis işlər müqabilində)* ***əvəz*** *(fidyə)* ***qəbul edilməz, heç kəsin şəfaəti fayda verməz və*** *(Allahın əzabından xilas olmaqda)* ***onlara*** *(günahkarlara)* ***heç bir kömək də göstərilməz».*** *(əl-Bəqərə 123).* ***«Rəbbinin hüzuruna cəm ediləcəklərindən qorxanları Quranla xəbərdar et. Onların Allahdan başqa heç bir hamisi və həvadarı yoxdur. Bəlkə də onlar pis əməllrdən çəkinsinlər».*** *(əl-Ənam 51). «(Allaha qoşduqları)* ***şəriklərindən onlar üçün şəfaət edəcək kimsələr olmayacaq. Onlar öz şəriklərini inkar edəcəklər».*** *(ər-Rum 13).*

Allahın izni və razılığı olmayan hər hansı bir şəfaət heç kəsdən, hətta şəfaət edən Peyğəmbər də olsa belə ondan qəbul olunmaz. Allah Qurani Kərimdə üç Peyğəmbəri xatırladaraq buyurur ki, onların şəfaəti, şəfaət etdikləri insanlara heç bir fayda verməmişdir. Allah onların şəfaətini qəbul etməmişdir, çünki buna onun izni və razılığı olmamışdır. ***«Nuh Rəbbinə*** *(dua ilə)* ***müraciət edib dedi: «Ey Rəbbim! Oğlum*** *(Kənan)* ***mənim ailə üzvlərimdəndir. Sənin vədin sözsüz ki, haqdır. Sən hakimlərin hakimisən». Allah buyurdu: «O, sənin ailəndən deyildir. Çünki o*** *(küfr etməklə)* ***pis bir iş görmüşdür.*** *(Və ya sənin məndən onu xilas etmək xahişin yaxşı iş deyildir).* ***Elə isə bilmədiyin bir şeyi məndən istəmə. Sənə cahillərdən olmamağı nəsihət edirəm».*** *(Hud 45-46).* ***İbrahim öz atasına: «Mən*** *(öz Rəbbimdən)* ***mütləq sənin bağışlanmağını diləyəcəyəm. Mən heç vəchlə səni Allahdan*** *(Allahın əzabından)* ***qurtara bilmərəm*** *(mənim bacardığım yalnız budur)* ***deməsi istisnadır».*** *(əl-Mumtəhinə 4).* Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – idi ki, müşrik olaraq ölən əmisi üçün Allahdan bağışlanma dilədikdə Allah ona bu əməli qadağan edərək buyurdu: ***«Müşriklərin Cəhənnəmlik olduqları*** *(müsəlmanlara)* ***bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz».*** *(ət-Tövbə 113).*

Belə ki, Allah yaratdığı məxluqlardan şəfaəti yalnız üç şərtlə qəbul edir: **1)** Şəfaət edəndən Allahın razı olması. **2)** Şəfaət olunandan Allahın razı olması. **3)** Allahın şəfaət edənə şəfaət etmək üçün izn verməsi. Bu üç şərtsiz şəfaət edən istər mələk olsa, istər peyğəmbər olsa belə, şəfaəti qəbul olunmayacaqdır.

Quran və Sünnə ilə isbat olunan şəfaətin (qiyamət günü) bir neçə növü vardır.

1. Bu ən böyük şəfaət olacaqdır. Bu şəfaət də Peyğəmbər - *səllallahu aleyhi və səlləm* – ə məxsusdur. Allahın ona vəd etmiş olduğu Məqami-Mahmud da budur. ***«Ola bilsin ki, Rəbbin səni*** *(qiyamət günü hamı tərəfindən)* ***bəyənilib təriflənən bir məqama*** *(axirətdəki ən böyük şəfaət məqamına)* ***göndərsin».*** *(əl-İsra 79).* Abdullah b. Amr b. əl-As – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *saəllallahu aleyhi və səlləm* - buyurdu: «Azanı eşitdikdə müəzzinin ardınca onun dediklərini təkrarlayın. Sonra mənə salavat gətirin. Mənə bir dəfə salavat deyənə Allah on dəfə rəhmət deyər. Bundan sonra Allahdan mənim üçün vəsiləni istəyin. Allah onu istədiyi qullarından birinə verəcəkdir və mən ümüd edirəm ki, o mənəm. Mənim üçün Allahdan bunu istəyəcək olana Qiyamət günü mənim onun üçün şəfaət etməyim vacib olar»[403]. Cabir b. Abdullah – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Mənim şəfaətim vacib olar o, adama ki, azanı eşitdikdən sonra deyər: «Ey kamil dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım Muhəmmədə vəsilə dərəcəsini və fəzilətini bəxş et. Onu vəd etdiyin tərifə layiq məqama yüksəlt»[404].

2. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – Cənnətliklərin cənnətə girməsi üçün şəfaət edəcəkdir. Yəni onlar Cənnətə girməyi haqq qazanmış olmaqla birlikdə, ancaq onun şəfaətindən sonra Cənnətə girmələri üçün onlara izn veriləcəkdir. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, bir gün Rəsulullah - *sallallahu aleyhi və səlləm* – ə ət yeməyi gətirildi və qol tərəfindən bir parça ayrılıb qabağına qoyuldu. Çünki Rəsulullah - *sallallahu aleyhi və səlləm* – ətin bu hissəsini daha çox xoşlayardı. Ondan qabaq dişləri ilə bir dişdəm dişlədikdən sonra buyurdu: «Mən Qiyamət günü bütün insanların seyyidiyəm. Bu nədən belədir bilirsiniz? Dünyada gəlib-getmiş nə qədər insanlar varsa bunların hamısını Allah Qiyamət günündə düz və geniş bir sahədə toplayır. Elə düz və geniş bir sahə ki, carçı səslədikdə səsini hər kəs eşidir və baxan bir kişinin gözü məhşər xalqını bir baxışda görə bilir. Günəş insanlara yaxınlaşdırılır. Artıq insanları qəm-qüssə bürüyür. Dəhşətli və ağır (istiyə) dözməkdə onlarda nə güc, nə də səbr qalır. İnsanların bir qismi digərinə: «Bizim başımıza gələn bu faciəni görmürsünüz!? Bəlkə bizim bu halımıza Allah yanında şəfaət edəcək birisini axtaraq!» deyəcəklər. İnsanların bir qismi: «Adəm – *əlehissəlam* – ın yanına gedək?» deyəcəklər. İnsanlar onun yanına gəlib:

---

[403] Müslim.

[404] Buxari – bu haqda «Müsəlmanın qalası» kitabına baxa bilərsiniz. Azan bölümü. Səid əl-Qahtani.

«Ey Adəm! Sən insanların atasısan. Allah səni əli ilə yaratdı və öz ruhundan sənə həyat verdi. Sonra mələklərə əmr etdi, onlar da sənə səcdə etdilər. Bizim üçün Rəbbimizdən şəfaət dilə. Ey atamız! Sən bizim bu vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti görmürsən?» deyəcəklər. Adəm – *əlehissəlam* – da: «Şübhəsiz ki, Rəbbim bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir. Allah bu ağacdan yeməyi mənə qadağan etmişdir. Mən isə ona asi oldum (artıq sizə şəfaət edə bilmərəm, indi mən özümü düşünürəm). Vay nəfsim, nəfsim! Siz məndən başqa bir şəfaətçiyə gedin. Nuh – *əlehissəlam* – ın yanına» deyəcəkdir. İnsanlar Nuhun yanına gələrək: «Ey Nuh! Sən Allahın insanlara göndərdiyi ilk rəsulsan. Allah səni (Quranda) ***«Çox şükr edən qul».*** *(əl-İsra 3)* deyə vəsf edir. Bizim üçün Rəbbimizdən şəfaət dilə. Sən bizim bu vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti görmürsən?» deyəcəklər. Nuh: «Şübhəsiz ki, Rəbbim bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir. Heç şübhəsiz ki, mənə (dünya həyatımda Rəbbimə) bir dəfə dua etmək fürsəti verilmişdir. Mən də onu öz qövmümün əleyhinə etdim (artıq sizə şəfaət edə bilmərəm, indi mən özümü düşünürəm). Vay nəfsim, nəfsim! Siz məndən başqa bir şəfaətçiyə gedin. İbrahim – *əlehissəllam* – ın yanına» deyəcəkdir. İnsanlar İbrahim – *əlehissəlam* – ın yanına gələrək: «Ey İbrahim! Sən yer üzündə Allahın Peyğəmbəri və Allahın dostusan. Bizim üçün Rəbbimizdən şəfaət dilə. Sən bizim bu vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti görmürsən?» deyəcəklər. İbrahim: «Şübhəsiz ki, Rəbbim bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir. (O ki, qaldı mənə) Mən üç dəfə yalan danışmışam[405] (artıq sizə şəfaət edə bilmərəm, indi mən özümü düşünürəm). Vay nəfsim, nəfsim! Siz məndən başqa bir şəfaətçiyə gedin. Musa – *əlehissəlam* – ın yanına» deyəcəkdir. İnsanlar Musa – *əlehissəlam* – ın yanına gələrək: «Ey Musa! Sən Allahın peyğəmbərisən. Allah sənə risalətini verməklə və səninlə vasitəçisiz danışmaqla insanlar üzərində fəzilətli etdi. Bizim üçün Rəbbimizdən şəfaət dilə. Sən bizim bu

---

[405] Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «İbrahim – *əlehissəlam* – bu üç hal müstəsna əsla yalan danışmamışdır. Bu yalanlardan iksi Allahın zatı və rizası üçündür. Birinci: «Bütpərəstlərə mən xəstəyəm deməsi, ikincisi isə bütün bütləri sındıraraq öz qövmünə: «Bəlkə bu işi bütlərin bu böyüyü edib?!» deməsidir. Üçüncüsü isə İbrahimin yanında Sara olduğu halda zalım hökmdarın ərazisindən keçərkən yoldaşına əgər səndən kim olduğunu soruşarsa de ki, sən mənim bacımsan. Şübhəsiz ki, «Sən mənim İslamda bacımsan». Daha geniş məlumat üçün bax: Buxari 1412,1543, Müslim.

vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti görmürsən?» deyəcəklər. Musa: «Şübhəsiz ki, Rəbbim bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir. (O ki, qaldı mənə) Mən isə öldürülməsinə heç bir qərar olmayan insanı öldürmüşəm[406] (artıq sizə şəfaət edə bilmərəm, indi mən özümü düşünürəm). Vay nəfsim, nəfsim! Siz məndən başqa bir şəfaətçiyə gedin. İsa– *əlehissəlam* – ın yanına» deyəcəkdir. İnsanlar İsa– *əlehissəlam* – ın yanına gələrək: «Ey İsa! Sən Allahın Rəsulu, Allahın Məryəmə dediyi söz və ondan gəlmə bir ruhsan. Sən beşikdə ikən insanlarla danışdın. Bizim üçün Rəbbimizdən şəfaət dilə. Sən bizim bu vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti görmürsən?» deyəcəklər. İsa: «Şübhəsiz ki, Rəbbim bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir. Özü haqqında heç bir günahı zikr etməyərək (artıq sizə şəfaət edə bilmərəm, indi mən özümü düşünürəm) (Başqa rəvayətdə: Mən Allahdan başqa tanrı edildim[407]). Vay nəfsim, nəfsim! Siz məndən başqa bir şəfaətçiyə gedin. Muhəmməd - *sallallahu aleyhi və salləm* – in yanına» deyəcəkdir. Nəhayət onlar mənim yanıma gələrək: «Ey Muhəmməd! Sən Allahın Rəsulu və Peyğəmbərlərin sonuncususan. Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır. Rəbbimizin hüzurunda bizə şəfaət et. Sən bizim bu vəziyyətimizi görmürsən? Başımıza gələn bu müsibəti də görmürsən?» deyəcəklər. Bundan sonra mən həmən Ərşin altına gələrək Rəbbimin qarşısında səcdəyə qapanıram. Sonra səcdə də, Allaha edilən həmd-sənadan sonra (Allah) məndən əvvəl heç bir Peyğəmbərə deyilməyən təriflər deyər: «Ya Muhəmməd! Başını qaldır, söylə! Sözün dinlənilir! İstə, sənə verilir! Şəfaət et, şəfaətin qəbul edilir!» buyurur. Mən səcdədən başımı qaldırıb: «Ya Rəbbim! Ümmətim, ümmətim!» deyə şəfaət edərəm. Bundan sonra: «Ya Muhəmməd! Ümmətindən sorğu-sual olunmayanları Cənnətin qapılarından olan sağ qapıdan içəri sal. Lakin onlar digər qapılardan da içəri girə bilərlər». Peyğəmbər - *sallallahu aleyhi və salləm* – buyurdu: «Nəfsim əlində olan Allaha and olsun ki, Cənnətin qapı qanadlarından iki qanadın arası Məkkə ilə Həcər və ya Məkkə ilə Busra arası qədər genişdir». Başqa bir rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və salləm* – buyurdu: «Allah (Qiyamət günü) insanları toplayır, möminlər ayağa qalxırlar. Nəhayət

---

[406] Fironun adamlarından bir Misirli Musa – *əlehissəlam* – qövmündən biri ilə döyüşürdü. Musanın qövmündən olan Musadan kömək istədikdə, Musa da kömək edərək düşmənin sinəsinə yumruqla vurur. Bu yumruq da onu öldürür. (əl-Qəsəs 18)-ci ayəsinə bax.

[407] Əhməd 2/281,282.

Cənnət onlara yaxınlaşdırılır». İnsanlar Adəm – *əlehissəlam* – gələrək: «Ey atamız! Cənnəti bizə açdır» deyəcəklər. Adəm: «Sizləri Cənnətdən ancaq atanız Adəmin xətası çıxartdı. Mən bunun sahibi deyiləm. Sizlər mənim oğlum İbrahim – *əlehissəlam* – ın yanına gedin» deyəcəkdir. İbrahim: «Mən bunun sahibi deyiləm. Mən ancaq pərdə arxasından xəlil (dost) olmuşdum. Sizlər Allahın Kəlimətullahı olan Musa – *əlehissəlam* – ın yanına gedin» deyəcəkdir. Cəmaat Musa – *əlehissəlam* – ın yanına gəlirlər. Musa: «Mən buna sahib deyiləm. Sizlər Allahdan gəlmə söz və ondan gəlmə bir ruh olan İsa – *əlehissəlam* – ın yanına gedin» deyəcəkdir. İsa: «Mən buna sahib deyiləm!» deyəcək və insanları Muhəmməd - *sallallahu aleyhi və səlləm* – in üstünə göndərəcəkdir»[408].

3. Cəhənnəmdə bəzi müşriklərin cəzasının yüngülləşdirilməsi üçün ediləcək şəfaət. Səid b. Musəyyibin atası deyir ki, Əbu Talib ölüm anında ikən Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – onun yanına gəldi. Onun yanında Əbu Cəhl ilə Abdullah b. Əbu Umeyyə b. Muğirə də var idi. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ey əmi! ***Lə İləhə İlləllah*** **–** kəlməsini de ki, bununla Allah yanında sənin lehinə şəhadət edim». Əbu Cəhl və Abdullah b. Əbu Umeyyə b. Muğirə də: «Ya Əbu Talib! AbdulMuttalibin millətini tərk mi edirsən?» dedilər. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – sözünü əmisinə deməkdə davam edirdi. Onlar da öz sözlərini deməkdə davam edirdilər. Nəhayət Əbu Talibin onlara söylədiyi son söz: «AbulMuttalibin milləti üzərindəyəm!» oldu və: «***Lə İləhə İlləllah***» deməkdən çəkindi. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yaxşı bil ki, Allaha and olsun ki, qadağan olunanadək sənin üçün Allahdan bağışlanma diləyəcəyəm». Bundan sonra Allah ayə nazil etdi: ***«Müşriklərin Cəhənnəmlik olduqları*** *(müsəlmanlara)* ***bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz».*** *(ət-Tövbə 113).* ***«****(Ya Muhəmməd!)* ***Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri*** *(öz əzəli elmi ilə)* ***daha yaxşı o bilir».*** *(əl-Qəsəs 56).* Başqa rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ey əmi! ***Lə İləhə İlləllah*** **–** kəlməsini de ki, bununla Allah yanında sənin lehinə şəhadət edim». Əbu Talib: «Qureyşin məni ayıblaması və haqqımda: «Əbu Talib bunu ancaq qorxudan dedi!» demələri olmasaydı, onu deyib səni məmnun edərdim»[409]. Abbas b. AbdulMuttalib – *radıyallahu anhu* – deyir ki: «Ya Rəsulallah! Şübhə yox ki, Əbu Talib daima səni

[408] Müslim.
[409] Müslim.

düşmənlərdən qoruyur və sənə kömək edirdi. Bunlar ona fayda verəcəkmi?» Peyğəmbər: «Bəli, mən onu böyük Cəhənnəm atəşi içində olduğunu gördüm və sonra onu oradan topuğuna qədər olan bir atəş çuxuruna çıxardım. Oradan belə beyni qaynayır»[410].

4. Bir qurup insanların sorğu-sualsız olaraq Cənnətə girmələri üçün ediləcək şəfaət. Hüseyn b. AbdurRahman deyir ki: «Mən Səid b. Cubeyrin yanında idim. Dünən sizin hansınız düşən ulduz gördünüz?» dedim. O: «Mən gördüm» dedi. Sonra əlavə etdi ki: «O, vaxt mən namazda deyildim. Məni əqrəb sancmışdı». O: «Bəs sən nə etdin?» deyə soruşdu. Mən: «Ruqiyyə (dua) etdim» dedim. O: «Səni buna sövq edən nə idi?» dedi. Mən: «Şabinin rəvayət etdiyi hədisdir» dedim. O: «Şabinin sizə rəvayət etdiyi nədir» dedi. Mən belə rəvayət etdim: «O, bizə Burəydə b. Huseyn əl-Əsləmdən rəvayət edib» dedi: O: «Göz dəyənə yaxud ilan çalana ruqiyyə (dua) ilə əlac etmək olar» demişdir. Bunun üzərinə o, dedi: «Eşitdiyinə (eşitdiyi kimi) əməl edən insan nə gözəl insandır». Lakin İbn Abbas – *radıyallahu anhu* – bizə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən belə bir hədis nəql etmişdi: «Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurmuşdu: «Mənə bütün ümmətlər göstərildi. Peyğəmbər gördüm ki, ətrafında çox kiçik bir camaat var idi. Peyğəmbər gördüm ki, ətrafında bir və ya iki nəfər var idi. Bir Peyğəmbər də gördüm ki, ətrafında bir nəfər də belə yox idi» deyərkən, mənə üzaqdan bir qaraltı göstərildi. Mən onları ümmətimdən zənn etdim». Mənə: «Bu Musa – *ələhissəlam* – ın qövmüdür» dedilər. Sən üfüqə doğru bax! Mən baxdıqda bir də nə gördüm? Böyük bir qaraltı. Mənə təkrar: «Digər üfüqə doğru bax!» deyildi. Yenə də böyük bir qaraltı gördüm. Mənə: «Bu sənin ümmətindir. Bunlar ilə bərabər yetmiş min nəfər hesabsız və əzabsız olaraq Cənnətə girəcəkdir» deyildi. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – bu xütbəsindən sonra qalxıb evinə girdi. Bunun ardından insanlar, hesabsız və əzabsız olaraq Cənnətə girəcək olan bu kimsələr haqqında müzakirəyə başladılar. Bəzisi: «Şübhəsiz ki, bunlar Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in dost-yoldaşlarıdır». Bəziləri də: «Bəlkə onlar İslamda doğulan və Allaha şərik qoşmayanlardır» dedilər. Bunlardan başqa bəzi fikirlər irəli sürüldü. Bu vaxt Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – onların yanına gəldi və: «Haqqında müzakirə etdiyiniz şey nədir?» deyə buyurdu. Ona məsələni başa saldıqdan sonra Peyğəmbər: «Cənnətə haqq-hesabsız girən möminlər, ovsun oxumazlar və tələb etdirməzlər. Təşəəüm, Tətəyyür etməzlər və hər şeydə öz Rəblərinə təvəkkül edərlər» buyurdu. Bu vaxt Ukkaşa b. Mihsan ayağa qalxıb: «Mən

[410] Müslim.

də onlardan etməsi üçün Allaha dua et» dedim. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sən onlardansan». Onun ardınca başqa birisi qalxıb dedi: «Məni də onlardan etməsi üçün Allah dua et» dedi. Peyğəmbər: «Bu işdə Ukkaşa səndən qabağı düşdü» buyurdu. Başqa bir rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurur: «Ümmətimdən bir zümrə Cənnətə girər ki, onlar yetmiş mindir. Onların üzləri ayın bədr gecəsindəki parlaması kimidir. Onlar qızğın dəmirlə bədənlərini dağlamayanlardır»[411].

5. Bir qurup Cəhənnəmə düşmüş Muvahhidlərin (Tövhid əhlinin) cəhənnəmdən çıxarılması üçün ediləcək şəfaət. Məbəd b. Xəlil əl-Ənəzi dedi: «Sabit şəfaət hədisini eşitməkdən ötrü Ənəs b. Məlikin yanına getdik. Duha namazını qılan vaxtı onun yanına çatdıq. Sabit bizim üçün izn istədi. Yanına girdik». Sabit ona: «Ey Əbu Həmzə! Bəsrə əhalisindən olan bu qardaşların səndən şəfaət hədisini eşitmək üçün gəliblər» dedi. Ənəs – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü insanlar çaşqın düşəcəklər. Nəhayət Adəmə gəlib: «Zürriyətinə şəfaət et!» deyəcəklər. Adəm: «Mən ona layiq deyiləm, lakin sizlər İbrahim – *əlehissəlam* – ın yanına gedin. Çünki o, Xəlilullahdır» deyəcəkdir. İnsanlar İbrahim – *əlehissəlam* – ın yanına gəlirlər. O, da: «Mən buna layiq deyiləm, lakin siz Musa – *əlehissəlam* – ın yanına gedin. Çünki o, Kəlimullahdır» deyəcəkdir. İnsanlar Musa – *əlehissəlam* – ın yanına gəlirlər. O, da: «Mən buna layiq deyiləm, lakin siz İsa – *əlehissəlam* – ın yanına gedin. Çünki o, Allahdan gəlmə ruh və Ondan olan sözdür» deyəcəkdir. İnsanlar İsa – *əlehissəlam* – ın yanına gəlirlər. O, da: «Mən buna layiq deyiləm, lakin siz Muhəmməd - *sallallahu aleyhi və səlləm* – in yanına gedin» deyəcəkdir. Nəhayət mənim yanıma gəlirlər. O, da: «Mən bunun üçün yaradıldım!» deyir və Allahın hüzuruna izn istəmək üçün gedər. «Mənə izn verilir, hüzurunda dikilərək və Allaha həmd-səna etdikdən sonra səcdə edərək yerə qapanıram». Mənə: «Ya Muhəmməd! Başını qaldır, söylə! Sözün dinlənilir! İstə, sənə verilir! Şəfaət et, şəfaətin qəbul edilir!». Bundan sonra mən: «Ya Rəbbim! Ümmətim, ümmətim!» deyə şəfaət diləyirəm. Mənə: «Get! Qəlbində bir buğda və ya arpa dənəsi qədər iman olan hər kim varsa onu oradan çıxart!» deyilir. Mən dərhal gedib bunu yerinə yetirdikdən sonra yenə Rəbbimə dönüb onu həmd-səna etdikdən sonra səcdə edərək yerə qapanıram». Mənə: «Ya Muhəmməd! Başını qaldır, söylə! Sözün dinlənilir! İstə, sənə verilir! Şəfaət et, şəfaətin qəbul edilir!». Bundan sonra mən: «Ya Rəbbim! Ümmətim, ümmətim!» deyə şəfaət diləyirəm.

---

[411] Buxari, Müslim.

Mənə: «Get! Hər kimin qəlbində bir xardal toxumu qədər iman varsa onu oradan çıxart!» deyilir. Mən dərhal gedib bunu yerinə yetirdikdən sonra yenə Rəbbimə dönüb onu həmd-səna etdikdən sonra səcdə edərək yerə qapanıram». Mənə: «Ya Muhəmməd! Başını qaldır! Söylə, sözün dinlənilir! İstə, sənə verilir! Şəfaət et, şəfaətin qəbul edilir!». Bundan sonra mən: «Ya Rəbbim! Ümmətim, ümmətim!» deyə şəfaət diləyirəm. Mənə: «Get! Hər kimin qəlbində bir xardal toxumu ağırlığından daha az, daha az, daha az iman varsa onu da atəşdən çıxart!» deyilir. Mən də dərhal gedib bunu yerinə yetirdim.

Bu Ənəs – *radıyallahu anhu* – nun bizə xəbər vermiş olduğu: «Ənəs hədisidir». Biz onun yanından çıxdıq. Nəhayət səhranın yüksək bir yerinə yetişdiyimiz zaman Həsənul-Bəsrinin yanına çatsaq da, ona salam versək də, o, Əbu Xəlifənin evində gizlənmiş bir halda idi. Onun yanına girdik, salam verdik və: «Ya Əbu Səid! Biz qardaşın Əbu Həmzənin yanından gəlirdik. Şəfaət haqqında danışdığı hədisi heç eşitməmişdik». O: «Davam edin, hədisi söyləyin» dedi. Biz də ona hədisi danışdıq. O, yenə: «Davam edin, söyləyin» dedi. Biz: «Ənəs bundan başqasını danışmadı» dedik. O, dedi: «O, bizə bunu iyirmi il bundan qabaq danışmışdır. O, vaxt hafizəsi və qüvvəsi çox gözəl idi. İndi isə bir qism şeyləri unutmuşdur. Şeyx bunu unutdumu, yoxsa sizlərə bunu danışmaq istəmədimi – bilmirəm?!». Biz də: «Sən bizə danış» dedik. O, güldü və: ***«İnsan tələsən-hövsələsiz yaradılmışdır».*** *(əl-Ənbiya 37)* (ayəsini oxudu). Sonra Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dördüncü dəfə yenə Rəbbinin yanına qayıdacaq. Ona həmd-səna etdikdən sonra səcdə edərək yerə qapanacaq!». Mənə: «Ya Muhəmməd! Başını qaldır! Söylə, sözün dinlənilir! İstə, sənə verilir! Şəfaət et, şəfaətin qəbul edilir!». Bundan sonra mən: «Ya Rəbbim! Mənə izn ver: «***Lə İləhə İllələh***» deyən kimsələr haqqında şəfaət edim. Allah – *subhənəhu və təalə* – ona: «Bu sənin üçün deyil (və ya bu sənə aid deyil) deyə buyurdu. Lakin İzzətimə, Kibriyəyə, Əzəmətimə və Cibriyəyə and olsun ki: «***Lə İləhə İllələh***» deyən kimsəni Cəhənnəmdən çıxardacağam! (Başqa rəvayətdə: İzzətimə, Cəlalıma, Kibriyəyə və Əzəmətimə and olsun ki: «***Lə İləhə İllələh***» deyən kimsəni Cəhənnəmdən çıxardacağam!)»[412]. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Dörd kimsə Cəhənnəmdən çıxarılıb Allahın hüzuruna götürüləcəkdir. Sonra təkrar Cəhənnəmə göndərilmələri əmr edildikdə onlardan biri: «Ya Rəbbim!

[412] Buxari 7510, Müslim 326.

Məni Cəhənnəmdən çıxardığında təkrar Chənnəmə geri göndərəcəyini heç ummamışdım» deyər. Allah onu Cəhənnəmdən qurtarar»[413].

6. Cəhənnəmə girmələri əmr olunmuş bir qurup insanların Cəhənnəmə girməmələri üçün ediləcək şəfaət. Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurur: «….Nəhayət möminlər atəşdən qurtulduqları zaman, nəfsim əlində olana and içirəm ki, sizdən heç kimsənin haqqı təmamilə bərqərar etmək xüsusunda Allaha yalvarıb yaxarması, qiyamət günündə möminlərdən atəşdə olan qardaşları üçün Allaha yalvarmaları qədər şiddətli olmaz». Onlar: «Ey Rəbbimiz! Bu (Cəhənnəmdə) qalanlar bizimlə bərabər oruc tutar və həcc edərdilər!» deyirlər. Onlara: «Tanıdığınız kimsələri oradan çıxarın! Onların üzləri Cəhənnəmə haram edildi!» deyilir. Atəş onlardan kimisinin topuqlarına qədər, kimisinin diz qapaqlarına qədər yandırır. Onlardan bir çoxunu oradan çıxarırlar. Sonra: «Ey Rəbbimiz! Cəhənnəmdə əmr etdiklərindən heç kimsə qalmadı!» deyirlər. Allah buyurur: «Geri dönün! Qəlbində bir dinar ağırlığında iman və yəqin olan hər kimi tanıyıyırsınızsa onu da oradan çıxarın!». Onlar yenə də bir çoxlarını oradan çıxarırlar. Sonra yenə: «Ey Rəbbimiz! Cəhənnəm içərsində əmr etdiklərindən heç kimsəni buraxmadıq!» deyirlər. Allah buyurur: «Geri dönün! Qəlbində yarım dinar ağırlığında xeyr olan hər kimi tanıyırsınızsa onu da oradan çıxarın!». Onlardan bir çoxunu oradan çıxarırlar. Sonra təkrar: «Ey Rəbbimiz! Cəhənnəmdə əmr etdiklərindən heç kimsəni buraxmadıq!» deyirlər. Allah buyurur: «Geri dönün! Qəlbində zərrə ağırlığında xeyr olan hər kimi tapırsınızsa onu oradan çıxarın!». Yenə bir çox insanları oradan çıxarırlar. Sonra təkrar: «Ey Rəbbimiz! Orada xeyr sahibi olan heç bir kimsəni buraxmadıq!» deyirlər. Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – deyir ki, əgər bu hədisə inanmırsınızsa bu ayəni oxuyun: ***«Həqiqətən Allah zərrə qədər zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə onu iki qat artırar və öz tərəfindən də böyük mükafat verər».*** *(ən-Nisa 40).*

Başqa rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Nəhayət Allahın rəhmətindən olaraq, qulları arasında Cəhənnəm əhlindən dilədiklərini Cəhənnəmdən çıxartmağı əmr edərək mələklərə: «***Lə İləhə İlləllah***» – deyənlərdən, Allahın mərhəmət buyurduğu kimsələrdən, Allaha bir şeyi şərik (ortaq) qoşmamış olanları Cəhənnəmdən çıxarsınlar!» deyə əmr edir. Mələklər: «Onları Cəhənnəmdə səcdə yerlərindən tanıyırlar. Atəş Adəm oğullarının səcdə yeri müstəsna, hər yerini yeyir. Allah səcdə yerinə toxunmağı atəşə haram etmişdir». Bundan

---

[413] Müslim «İman» 321.

sonra Allah buyurur: «Mələklər şəfaət etdilər, Peyğəmbərlər şəfaət etdilər, möminlər şəfaət etdilər. Şəfaət etməyən bir ***Ərhamur-Rahimin*** qaldı. Bundan sonra atəşdən bir camaatı toplayır və dünyada ikən heç bir xeyr işləməyib cəhənnəmdə kömürə dönmüş bir çox kimsələri çıxarır. Cənnətin yolları üzərində olan «***Həyat Çayı***» adı verilən bir çaya salınırlar. Onlar selin gətirdiyi yabanı reyhan toxumları kimi çıxırlar. Görmürsünüz ki, yabanı reyhan bəzən bir daş və ya bir ağac dibində (kölgədə bitdiyi kimi) necə olur. Günəşə doğru olanı sarı, yaşıl olur. Kölgədə olan hissəsi isə açıq olur. (Başqa rəvayətdə «Ey Cənnət əhalisi! Bunların üzərinə bol su, Cənnət sularından tökün!» deyiləcəkdir). Cənnət əhalisi onları tanıyır. Heç bir yaxşılıq etməmiş, xeyr əməllər işləməmiş halda Allahın Cənnətə saldığı kəslər bunlardır. Allah buyurur: «Cənnətə girin! Gözünüzün görə bildiyi hər nə varsa sizindir». Onlar: «Ey Rəbbimiz! Sən aləmlərdə heç kəsə vermədiyin yaxşılığı bizə verdin!» Onlara: «Sizə bundan gözəl bir şey vardır!» Onlar: «Ey Rəbbimiz! Bundan da gözəl?!» Allah buyurur: «Mənim rizam! Artıq bundan sonra sizə əbədiyyən qəzəb etməyəcəyəm»[414].

7. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – Cənnətə girən bir qrup insanların əməllərinin mükafatı olaraq Cənnətdə dərəcələrinin artırılması üçün ediləcək şəfaət. Ənəs b. Məlik – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şəfaətim ümmətim arasında böyük günah etmiş kimsələrə olacaqdır»[415]. Osman – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü üç sinif insan şəfaət edəcəkdir: «Peyğəmbərlər, alimlər, şəhidlər və möminlər»[416].

Bütün bu şəfaətlərdən başqa Qiyamət günü qulun tutduğu oruc, oxuduğu Quran da şəfaət edəcəkdir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Oruc və Quran Qiyamət günü qula şəfaət edəcəkdir»[417]. Əbu Umamə – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Quranı öyrənin, çünki o, qiyamət günü əhli üçün şəfaətçi olacaqdır»[418]. ən-Nəvvas b. Səman – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü Quran və ona əməl edənlər gətiriləcək. İrəlidə əl-Bəqərə və Ali-İmran surələri gedəcəklər. Oxuyub əməl edənlərə şəfaət

[414] Müslim.
[415] İmam Əhməd «Musnəd» 3/213.
[416] Heysəmi «Məcmuu Zəvaid» 10/381.
[417] əl-Albani «Səhih Hədislər Silsiləsi» 3882.
[418] Müslim.

edəcəklər»[419]. Əli – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim Quran oxuyar, onu əzbərləyər, halal saydığını qəbul edər, haram etfdiyi şeyi də haram edərsə Allah o, kimsəni Cənnətə salar. Ayrıca Cəhənnəmə girmələri əmr edilmiş ailəsindən on kimsəyə şəfaətçi olar»[420].

Qiyamət günü baş verəcək hadisələrdən sonra Cənnətliklər Cənnətdə, Cəhənnəmliklər də Cəhənnəmdə qərar tutduqdan sonra: Əbu Səid – *radıyallahu anhu* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü (Cənnət əhli Cənnətə, Cəhənnəmliklər də Cəhənnəmə ayrıldıqdan sonra) ölüm, qara bir qoyun surətində gətirilir. Cənnət ilə Cəhənnəm arasında dayandırılır və: «Ey Cənnət əhli! Sizlər bunu tanıyırsınızmı?» deyilir. Cənətliklər dərhal boyunlarını uzadıb başlarını ona doğru qaldırırlar və ona (qoyuna) baxırlar; «Bəli, tanıyırıq! Bu ölümdür» deyirlər. Sonra: «Ey Cəhənnəm əhli! Sizlər bunu tanıyırsınız?» deyilir. Onlar da başlarını qaldıraraq baxırlar və: «Bəli, tanıyırıq! Bu ölümdür» deyirlər. Bundan sonra qoyunun kəsilməsini əmr edirlər və dərhal qoyun kəsilir. Sonra: «Ey Cənnət əhli! Cənnətdə əbədi yaşayacaqsınız, artıq sizə ölüm yoxdur! və ey Cəhənnəm əhli! Sizlər də Cəhənnəmdə əbədisiniz, artıq ölüm yoxdur!» deyilir. Bundan sonra Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – bu ayəni oxudu: *(Ya Muhəmməd!)* ***Qəflətdə olanları və iman gətirməyənləri işin bitmiş olacağı*** *(haqq-hesab çəkilib möminlərin cənnətə, kafirlərin isə Cəhənnəmə girəcəyi)* ***peşmançılıq günü*** *(insanın pis əməllərinə görə peşman olacağı, lakin bu peşmançılığın heç bir fayda verməyəcəyi qiyamət günü)* ***ilə qorxut!*** *(O, gün bütün)* ***yer üzünə və onun üzərində olan hər şeyə yalnız biz varis olacağıq. Onlar bizim hüzurumuza qaytarılacaqlar»***. *(Məryəm 39-40)*[421]

QƏZA VƏ QƏDƏRƏ İMAN

Əhli Sünnə vəl Cəmaat hər xeyr və şərrin Allahın Qəza və Qədəri ilə meydana gəldiyinə, Allahın dilədiyi hər şeyi etdiyinə kəsin olaraq inanırlar. Hər şey onun iradəsi ilədir. Heç bir şey onun istəməsindən kənara çıxa bilməz. O, olmuş və olacaq hər şeyi olmazdan əvvəl əzəldən bəri bilir. Onun elmi külli və cüzi olan hər bir şeyi əhatə edir. ***«(Rəbbin) onların keçmişini də, gələcəyini də bilir. Onların elmi isə onu əhatə edib qavraya bilməz».*** *(Ta ha 110).* ***«Göylərdə və yerdə zərrə qədər bir şey***

[419] Müslim.
[420] Tirmizi 2907.
[421] Müslim.

ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın». *(Səba 3).* ***«Şübhəsiz ki, biz hər şeyi müəyyən ölçüdə*** *(lazım olduğu qədər)* ***ilə yaratdıq».*** *(əl-Qəmər 49).* ***«Allahın izni olmadıqca*** *(heç kəsə)* ***heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa doğru yönəldər və o, dünyada baş verən hər şeyin Allahın əzəli hökmü və izni ilə olduğunu bilər. Allah hər şeyi biləndir».*** *(ət-Təğabun 11).*

Xeyr və Şərrin hər iksi də qədərdədir. Hər şey bir qədər, ölçü, zaman ilə yaradılmışdır. Hər yaradılan şeyin bir qədəri vardır. ***«O, Allah ki, göylərin və yerin hökmü onundur. O*** *(özünə)* ***heç bir övlad götürməmiş-dir. Mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu*** *(onun üçün nə olacağını)* ***əvvəlcədən müəyyən etmişdir».*** *(əl-Furqan 2).*

Əhli Sünnə vəl Cəmaat deyirlər ki, qədərə iman ancaq dörd xüsus ilə tamamlanır. Bunlara da qədərin mərtəbələri və ya əsasları adı verilir. Bu xüsuslar qədər məsələsini başa düşməyin yoludur. Qədərə iman isə, bütün bu əsasları geçəkləşdirmədikcə tamam olmaz. Çünki bunların bir qismi digərinə bağlıdır. Bunların hamısını qəbul edən bir kimsənin qədərə imanı tamamlanır. Bunların birinə və ya digərinə inanmayan bir kimsənin imanında sarsıntılar meydana gəlir. ***«****(Ya Rəsulum!)* ***Məgər bilmirsənmi ki, Allah göydə və yerdə nə varsa, hamsını bilir? Həqiqətən bu*** *(lövhi-məhfuz deyilən)* ***bir kitabdadır. Şübhəsiz ki, bu Allah üçün asandır».*** *(əl-Həcc 70).*

1. Uca Allah olmuş, olacaq hər bir şeyi təfsilatı ilə və incəliyinə qədər bildiyinə iman etmək. O, qullarının nələr etdiyini onları yaratmamışdan əvvəl bildiyi kimi, onların ruzilərini, əcəllərini, sözlərini, əməllərini, bütün hərəkətlərini, gizlətdiklərini, üzə vurduqlarını, kimilərin Cənnət əhli, kimilərinin də Cəhənnəm əhli olduğunu, kimilərinin xoşbəxt və ya bədbəxt olduğunu da əzəldən bəri bilir. İmran b. Hüseyn - *radıyallahu anhu* – rəvayət edir ki: «Bir nəfər Ya Rəsulullah! Cənnət əhli atəş əhlindən (ayırd edilib) bilindi mi?» deyə soruşdu. Peyğəmbər: «Bəli, (ayırd edilib bilinmişdir) deyə buyurdu. Həmən şəxs: «Elə isə (yəni Cənnətlik, Cəhənnəmlik əzəldən bəri bəlli olduğu halda) çalışıb əməl edənlər nəyə əməl edirlər?» dedi. Peyğəmbər: «Hər kəs nə üçün yaradılmışsa onun yolları onun üçün asantlaşdırılacaqdır» deyə buyurdu[422]. Hər bir kəs onun təyin etdiyi əcəl ilə dünyasını dəyişəcəkdir. Allahın təyin etdiyi əcəli isə keçə bilən və ya ondan geri qala bilən heç bir şey yoxdur. ***«Hər bir ümmətin*** *(əzəldən müəyyən edilmiş)* ***əcəl vaxtı***

[422] Buxari, Müslim.

vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə yubanır, nə də tələsərlər». *(əl-Əraf 34).*

Allah hər bir şeyi yaratmazdan əvvəl bildiyi kimi, hal-hazırda da hər şeyi bilməkdədir. ***«Qeybin açarları Allahın yanındadır. Onları ancaq Allah bilir. Allah suda və quruda nə varsa bilir. Elə bir düşən yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin zülmətləri içində elə bir şey yoxdur ki, məhz açıq-aydın kitabda olmasın».*** *(əl-Ənam 59).* ***«O, özündən başqa heç bir ilah olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O, rəhimli və mərhəmətlidir».*** *(əl-Həşr 22).*

O, iman əhlini, şirk və küfr əhlini, salehləri, talihləri (saleh olmayanları) hər şeyi yaratmazdan əvvəl bilirdi. ***«Həqiqətən sənin Rəbbin öz yolundan çıxanları da, doğru yolda olanları da ən gözəl tanıyandır».*** *(Nun 7).*

Hansı gün, vaxt və harada onların başına nə gələcəyini də bilir. Yaratdıqlarından heç bir şey ondan gizli qalmaz. ***«…Heç kəs səhər nə əldə edəcəyini*** *(savab və ya günah qazanacağını)****, heç kəs harda öləcəyini bilməz. Allah isə şübhəsiz ki,*** *(hər şeyi)* ***biləndir və*** *(hər şeydən)* ***xəbərdardır».*** *(Loğman 34).*

Əli - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən heç bir kimsə və yaradılmışlardan heç bir nəfs müstəsna olmaq üzərə şübhəsiz ki, Cənnətdəki və Cəhənnəmdəki yerini Allah yazmış (təqdir və təyin) etmişdir. Hər kəsin xoşbəxt və ya bədbəxt olduğu şübhəsiz ki, yazılmışdır». Səhabələrdən biri: «Ya Rəsulallah! O, halda nə üçün əməl edib çalışırıq? Hər şey bilindiyi halda (əməlin faydası nədir?) dedi. Peyğəmbər: «Xoşbəxt olanlardan olan kimsə, xoşbəxt kimsələrin əməli ilə əməl edəcəkdir. Bədbəxt olanlar da, bədbəxt olan kimsələrin əməli ilə əməl edəcəkdir. Xeyr, siz o bilinmiş olan yazıya görə dayanmayın, əməl edib çalışın. Çünki hər kəs nə üçün yaradılıbsa o da onun üçün asantlaşdırılacaqdır. Xoşbəxt olan kimsələrə, xoşbəxt kimsələrin əməllərini etmək asantlaşdırılacaqdır. Bədbəxt olan kimsələrə də, bədbəxt olan kimsələrin əməlini etmək asantlaşdırılacaqdır». Sonra bu ayəni oxudu: ***«Kim*** *(malını Allah yolunda)* ***versə,*** *(Allahdan)* ***qorxsa və ən gözəl sözü təsdiq etsə biz ona Cənnəti müyəssər edəcəyik. Amma kim*** *(malını Allah yolunda xərcləməyə)* ***xəsislik etsə,*** *(mal-dövlətinə güvənib Allaha)* ***möhtac olmadığını sansa və ən gözəl sözü yalan saysa biz onu Cəhənnəm üçün hazırlaycağıq».*** *(əl-Leyl 5-10)*[423].

2. Bu da Uca Allahın məxluqatın qədəri ilə əlaqədər olaraq əzəldən bildiyini Lövhi-Məhfuzda yazmış olduğuna iman etməkdir. Lövhi-Məhfuz

---

423 Buxari, Müslim.

isə hər bir şeyin qədəri yazılmış kitabdır. Meydana gəlmiş, gələcək və qiyamət gününə qədər olacaq hər şey uca Allahın dərgahında Ummul Kitabda yazılmışdır. Buna həmçinin əz-Zikr, əl-Kitabul Mubin adları da verilmişdir. ***«Biz hər şeyi hesaba alıb İmami Mubində yazmışıq».*** *(Yəsin 12).* ***«Allah sizi*** *(atanız Adəmi)* ***torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi*** *(kişi və qadın olmaqla)* ***cüt-cüt yaratmışdır. O, bilmədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq kitabda*** *(Lövhi-Məhfuzda)* ***yazılmışdır. Həqiqətən bu Allah üçün çox asandır».*** *(Fatir 11).*

Bu mərtəbə bir neçə yerə bölünür:

1) ***<u>Əzəli Qədər</u>***:

«Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, biz onu yaratmamışdan əvvəl o, bir kitabda *(Lövhi-Məhfuzda)* ***yazılmış olmasın. Bu Allah üçün çox asandır».*** *(əl-Hədid 22).* Abdullah b. Amr b. əl-As - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah məxluqatın (qəza və qədərini) göyləri və yeri yaratmamışdan əlli min il əvvəl yazmışdır və onun ərşi suyun üzərindədir»[424]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Heç şübhəsiz ki, Allahın yaratdığı ilk qələmdir». Ona: «Yaz» deyə buyurdu. Qələm: «Ya Rəbbim! Nə yazım» dedi. Allah: «Qiyamətin qopacağı vaxta qədər hər bir şeyin qədərini yaz» deyə buyurdu[425].

2) ***<u>Ömürlük Qədər:</u>***

«(*Ey Peyğəmbər!)* ***Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellə-rindən*** *(gələcək)* ***nəsillərini çıxardıb onları özlərinə*** *(bir-birinə)* ***şahid tutaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən!» deyə cavab vermişdilər.*** *(Belə bir şahidliyin səbəbi)* ***Qiyamət günü: «Biz bundan qafil idik».*** *(əl-Əraf 172).* İshaq b. Rahuyenin rəvayət etdiyinə görə bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən Qəza və Qədər haqqında soruşur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Uca Allah Adəmin belindən zurruyətini çıxardıb onları özlərinə qarşı şahit tutduqdan sonra ovcu ilə onları götürdü. Bunlar Cənnətlik, bunlar Cəhənnəmlikdir deyə buyurdu. Cənnət əhli olanlara Cənnət əhlinin əməli asantlaşdırıldı, Cəhənnəm əhli olanlara da Cəhənnəm əhlinin əməlləri asantlaşdırıldı»[426]. İbn Abas - *radıyallahu*

---

[424] Müslim.

[425] Tirmizi 4/457-458, Əbu Davud 4/225-226, Musnəd 5/317.

[426] İbn Qeyyim «Şifaul Alil» s. 10, İbn Cərir «Təfsir» Əhməd Şakirin təhqiqi ilə 13/244-250, Əbu Davud 4/224.

anhu – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah Adəmin belindən Numanda (Ərafətdə) əhd almışdır. Onun belindən yaradacağı bütün zurriyyətini çıxardaraq qarşısına qoymuşdur. Sonra onlarla danışaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» deyə buyurmişdu. Onlar da: «Bəli, şahidlik edirik» demişlər[427]. Aişə - *radıyallahu anhə* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – Ənsarlardan balaca bir uşağın cənazəsinə çağrıldı. Mən: «Ya Rəsulullah! O, nə xoşbəxdir! O, Cənnət sərçələrindən bir sərçə quğudur. Pislik etmədi və pislik etmək yaşına da çatmadı» dedim. Peyğəmbər: «Sən bilmirsənki Allah Cənnət üçün bir əhali yaratdı ki, onlar atalarının bellərində ikən Allah onları Cənnət üçün yaratmışdır. Allah Cəhənnəm üçün elə bir əhali yaratmışdır ki, onlar atalarının bellərində ikən Allah onları Cəhənnəm üçün yaratmışdır» deyə buyurdu[428]. Ömər - *radıyallahu anhu* – deyir ki, Qiyamət günü: «Bizim bundan xəbərimiz yoxdur deməyəsiniz deyə Allah Adəm oğullarının belindən zurriyətini çıxardıb və onları özlərinə şahid tutmuşdur». ***«Mən sizin Rəbbiniz deyiləmmi?» soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən!» deyə cavab vermişdilər».*** *(əl-Əraf 172)*[429].

3) ***Qədr Gecəsində Yazılan İllik Qədər***:

«Hər bir hikmətli *(yaxud dəyişilməsi mümkün olmayan)* ***iş o gecə hökm*** *(ayırd)* ***olunur. Dərgahımızdan bir buyuruq olaraq!*** *(İl ərzində birinin başına gələcək bütün işlər, dünyada baş verəcək bütün hadisələr, xeyr, şər, əcəl, ruzi, xoşbəxtlik, bədbəxtlik və s. Lövhi-Məhfuzda həmən ilin məhz qədir gecəsi yazılır və müvəkkil mələklərə bildirilir. Bu yazıya pozu yoxdur)* ***Həqiqətən Peyğəmbərləri biz göndəririk».*** *(əd-Duxan 4).* İbn Abbas - *radıyallahu anhu* – deyir ki, Qədr gecəsində ana kitabdan bir il boyunca meydana gələcək ölüm, həyat, ruzi, yağış və hətta həcc edilən belə yazılır. Filan kişi həcc etdi, filan kişi həcc etdi.

4) ***Günlük Qədər***:

«Göylərdə və yerdə kim varsa, hamısı ondan *(ruzi, mərhəmət və mədəd)* ***diləyir. O, hər gün*** *(hər an)* ***bir işdədir.*** *(Birini öldürər, birini dirildər, zalimə zülm edər, acizə kömək, birinin duasını qəbul edər, birinə mərhəmət əta edər, digərinə cəza verər. Bir işlə məşğul olmaq onu digərindən yayındırmaz). (ər-Rəhman 29).* İbn Abbas - *radıyallahu anhu*– deyir ki, şübhəsiz Allahın yaratdıqları içərisində ağ incidən Lövhi-Məhfuz

---

[427] İmam Əhməd «Musnəd» 1/172, İbn Əbi Asim «əs-Sünnə» 202, İbn Cərir «Təfsir», əl-Albani «Səhih Hədislər Silsiləsi» 1623.
[428] Buxari, Müslim.
[429] Muvatta 3/92, Yirmizi 5/266, Əbu Davud 4/227, Musnəd 1/44-45.

da vardır. Onun hər iki qapağı qırmızı bir yaqutdandır. Qələmi nurdur, yazısı da nurdur. Hər gün ona üç yüz altımış dəfə baxar. Bu baxışların hər birində yaradır, ruzi verir, həyat verir, öldürür, rəhm edər, zəlil edər və hər nə diləyərsə onu da edər və bu ayəni oxudu: ***«O, hər gün** (hər an) **bir işdədir».*** *(ər-Rəhman 29)*[430].

3. Yəni bu kainatda meydana gələn hər bir şey rəhmət və hikmətlə Allahın iradəsi və qüdrəti ilə meydana gəlir. Kainatda Allahın diləməsi olmadan heç bir şey vücuda gəlməz. O, dilədiyini rəhməti ilə hidayətə yönəldir, dilədiyini hikməti ilə sapdırır. ***«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə** (şəhadətlə) **sabitqədəm edər. Allah zalimləri** (haqq yoldan) **sapdırar. Allah istədiyini edəndir».*** *(İbrahim 27).* ***«Əgər Allah istəsəydi sizi** (eyni dində olan) **tək bir ümmət edərdi. Allah dilədiyini yoldan çıxardar, dilədiyini isə doğru yola salar. Sözsüz ki, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız».*** *(ən-Nəhl 93).* ***«Rəbbin istədiyini yaradar və seçər. Onların heç bir ixtiyarı yoxdur».*** *(əl-Qəsəs 68).* ***«Allah istədiyini** (haqq yoldan) **azdırar, istədiyini isə düz yola yönəldər».*** *(əl-Ənam 39).* ***«**(Ya Məhəmməd!) **Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri daha yaxşı o, bilir».*** *(əl-Qəsəs 56).*

Dilədiyi hər bir şey qaçınılmaz olaraq onun qüdrəti ilə olur. Olmaması mümkün deyildir. Olmasını diləmədiyi isə olmaz. ***«Bir şeyi yaratmaq istədiyi zaman Allahın buyurduğu ona ancaq: «Ol!» deməkdir. O, da dərhal olar».*** *(Yasin 82).*

O, qulları üçün nəyi dilərsə o, da olur. Nəyi də diləməzsə, insanların hamsı bunun olmasını diləsələr də belə onun olması mümkün deyildir. ***«Əgər Allah sənə bir zərər yetirsə, səni ondan Allahdan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyr diləsə, heç kəs onun nemətinə maneçilik edə bilməz. Allah onu bəndələrindən istədiyinə nəsib edər. O, bağışlayan və rəhm edəndir».*** *(Yunus 107).* ***«**(Ey insanlar! Onu da bilin ki) **Allah istəməsə, siz** (bunu) **istəyə bilməzsiniz. Həqiqətən Allah** (hər şeyi) **biləndir, hikmət sahibidir».*** *(Dəhr 30).* ***«Eləcə də sizdən doğru-düz** (yolda) **olmaq istəyənlər üçün.** (Onu da bilin ki) **aləmlərin Rəbbi olan Allah istəməsə, siz** (bunu) **istəyə bilməzsiniz».*** *(ət-Təkvir 28-29).* İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – mənə bir neçə nəsihət verərək buyurdu: «...Bunu da bil ki, əğər bütün insanlar sənə xeyir vermək üçün bir yerə yığışsalar Allahın yazdığından artıq sənə heç bir xeyir verə bilməzlər. Bunu da bil ki, əğər sənə zərər vermək üçün bir yerə yığışsalar yenə də Allahın yazdığından

---

[430] əl-Həkim «Mustədrək» 2/519.

artıq sənə zərər verə bilməzlər. (Çünkü) qələmlər qaldırılmış, səhifələr (in mürəkkəbi) qurumuşdur»[431]. ***«Allahın insanlara əta etdiyi mərhəmətə*** *(verdiyi nemətə, ruziyə)* ***heç kəs mane ola bilməz. Onun vermədiyi bir şeyi də özündən başqa heç kəs göndərə bilməz. O, yenilməz qüvvət və hikmət sahibidir».*** *(Fatir 2).* ***«O, istədiyini edəndir».*** *(əl-Buruc 16).* Abdullah b. Amr b. əl-As - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Adəm oğullarını qəlbləri Rəhmanın barmaqlarından iki barmağı arasında bir tək qəlb kimidir. Rəhman onları dilədiyi (istədiyi) yerə çevirib döndərir»[432]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Uca Allah istədiyi vaxt ruhlarmızı aldı və istədiyi vaxt onları geri qaytardı»[433]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «...Allah istəsə və filan kişi istəsə deməyin. Yalnız Allah istəsə deyin»[434]. O, etdiyi heç bir şeydən soruşulmaz, yaratdıqları isə soruşulurlar. Heç bir şey onun istədiyindən kənara çıxa bilməz. ***«Allah gördüyü işlər barəsində sorğu-sual olunmaz. Onlar*** *(bütün bəndələr)* ***isə sorğu-sual ediləcəklər».*** *(əl-Ənbiya 23).* ***«…Əgər Allah istəsəydi, bu peyğəmbərlərin ardınca gələn insanlar onlara göndərilən aşkar dəlillərdən sonra bir-birləri ilə vuruşmazdılar. Fəqət*** *(bununla belə yenə də)* ***ixtilafa düşdülər. Onlardan bəziləri Allaha iman gətirdilər, bəziləri isə kafir oldular. Əgər Allah istəsə idi, onlar bir-birləri ilə vuruşmazdılar. Lakin Allah öz istədiyini edəndir».*** *(əl-Bəqərə 253).* ***«Anaların bətnində sizə istədiyi surəti verən odur. O, qüdrət və hikmət sahibindən başqa heç bir ilah yoxdur».*** *(Ali İmran 6).* ***«Beləcə biz hər bir Peyğəmbər üçün insan və cin şeytanlardan düşmənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtərqlı sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla boşla getsin».*** *(əl-Ənam 112).*

4. Uca Allah hər şeyin yaradıcısı olduğuna, göylərdə və yerdə onlar arasında olan hər şeyi onun yaratdığına inanmaqdır. Ondan başqa bir yaradıcı, ondan başqa Rəbb yoxdur. Ondan başqa hər nə varsa yaradılmışdır. O, əməldə olan hər kəsi və onun əməlini, hərəkət edən hər bir varlığı və hərəkətini yaradandır. ***«Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır».*** *(əs-Saffat 96).* ***«And olsun nəfsi*** *(insanı və ya insan nəfsini)* ***yaradana».*** *(əş-Şəms 7).* ***«Sizi*** *(yoxdan)* ***yaradan, sonra sizə ruzi verən, sizi öldürən və daha sonra*** *(qiyamət günü)* ***dirildən məhz***

---

[431] Tirmizi 2516, əl-Albani «Səhih əl-Cəmi» 7834-cü hədis.
[432] Müslim.
[433] Buxari, Müslim.
[434] Əbu Davud 4/295, Musnəd 5/384,394,398.

Allahdır». *(ər-Rum 40).* ***«Bu*** *(gördükləriniz)* ***Allahın yarat-dıqlarıdır. İndi siz də mənə Allahdan başqalarının nə yaratdığını göstərin. Xeyr, zalimlər açıq-aşkar əyri yoldadırlar».*** *(Loğman 11).* ***«…Lakin Allah imanı sizə sevdirmiş, onu ürəklərnizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və*** *(Allaha)* ***asi olmağa qarşı sizdə nifrət oyatmışdır...».*** *(əl-Hucurat 7).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz Allah bir işi edəni və onun etdiyi işi yaradandır»[435].

Açıqladığımız şəkildə qədərə iman etmək, qulun ixtiyar sahibi olmasına (yəni pis və yaxşını seçməsinə) və bu əməlləri etməsinə yetəcək qədər güc və qüvvəti olmasına zidd deyildir. ***«Allahdan*** *(Allahın əzabından)* ***bacardığınız qədər qorxun».*** *(ət-Təğabun 16).* ***«Qadınlar sizin tarlanızdır. İstədiyiniz vaxtda öz tarlanıza gəlin. Özünüz üçün qabaqcadan yaxşı əməllər hazırlayın».*** *(əl-Bəqərə 223).* ***«Allah heç kəsi qüvvəsi çatmayan işi*** *(görməyə)* ***vadar etməz. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir».*** *(əl-Bəqərə 286).*

Buna görə də qulun fərzləri tərk edib, pis işləri görməklə qədəri dəlil gətirməsi doğru deyildir.

1) Allah əzəli elmi ilə Adəm oğullarının Cənnətə və Cəhənnəmə girəcək olanların hamsını bilir. Bunların saylarında artma və əskilmədə olmaz. Allah hər insanın ana bətnində ikən iman əhli mi, yoxsa küfr əhlimi olduğunu bilir. Bu Lövhi Məhfuzda da yazılmışdır. Allahın bu haqda elmi əsla dəyişməz.

Yenə də quların əməlləri onlar o, əməlləri etməzdən əvvəl də bəllidir. Bu Allahın əzəli bir elmidir. Hər insan nə üçün yaradılmışsa ona uyğun əməl edər. Cənnət əhli Cənnət əhlinin əməlləri ilə əməl edər, Cəhənnəm əhli Cəhənnəm əhlinin əməlini işləyənlərdir. Bir kimsə pis əməldən sonra saleh əməl etmək yazılmışsa o, etdiyi pis əməldən sonra Cənnətə girər. Bəzi kimsələr də vardır ki, daha əvvəl saleh əməl işlədiyi halda həyatı Cəhənnəm əhlinin əməli ilə bitər və Cəhənnəm əhli olaraq yazılar. Mühüm olan insanın son anda etdiyi əməldir. Mömin ancaq Allahın dilməsi ilə mömindir, kafir də uca Allahın diləməsi ilə kafirdir. Səhl b. Sad - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanlar arasında elə kimsələr də vardır ki, insanlara görnüşünə (əməllərinə) görə Cənnət əhlinə yaraşan xeyrli əməllər edər. Halbuki o, Cəhənnəmlikdir. Yenə insanlardan elələri də vardır ki, insanlara görnüşünə (əməllərinə) görə Cəhənnəmliklərə aid pis əməllər edər. Halbuki o, Cənnətlikdir»[436]. Əbu Hureyrə - *radıyallahu anhu*–

---

[435] Buxari «Xalqu Əfalul İbad» s. 25, Beyhəqi «Əsməu və Sifət» s. 23.
[436] Müslim.

rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həqiqətən elə bir kimsə vardır ki, uzun zaman Cənnət əhlinin əməlini edər. Lakin sonra onun bu əməli Cəhənnəm əhlinin əməli ilə son olub möhürlənər. Kimisi də uzun zaman Cəhənnəm əhlinin əməlini edər. Lakin sonra onun bu əməli Cənnət əhlinin əməli ilə son olub möhürlənər»[437].

Müşriklər belə deyəcəklər: «Əgər Allah istəsəydı, nə biz, nə də atalarımız müşrik olar və nə də biz bir şeyi haram edə bilərdik. Onlardan əvvəlkilər də** (öz peyğəmbərlərini) **belə təkzib etmişlər. Nəhayət əzabımızı daddılar». Onlara de ki: «Bizim qarşımıza çıxara biləcək bir elminiz varmı? Siz yalnız zənnə qapılır və yalan uydurursunuz». *(əl-Ənam 148).* Əgər qədər onların leyhinə dəlil təşkil etsəydı, Allah onlara əzabını daddırmazdı.

2) Allahın sapdırdığı kimsənin irəli sürəcək hər hansı bir dəlili və ya bir iddiası yoxdur. Çünki uca Allah irəli sürüləcək bir bəhanə qalmasın deyə Peyğəmbərlər göndərmiş və qulun əməlini ona başa salaraq bunu qulun qazandığı olaraq təqdir etmişdir. ***«Biz Peyğəmbərləri** (möminlərə) **müjdə gətirən və** (kafirləri) **əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün Peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət və hikmət sahibidir».*** *(ən-Nisa 165).* Əgər Peyğəmbərlərə itaət etməyənlərin leyhinə qədər dəlil təşkil etsəydi, peyğəmbərlərin göndərilməsi ilə bu dəlil ortadan qaldırılmamalıydı. Lakin əksinə Allah Peyğəmbərlər göndərməklə onlara pisi və yaxşını (halal və haramı) açıqlamışdır. Haqq və batil bəyan edilmişdir. Onların isə qədəri dəlil göstərməkdə heç bir əsası yoxdur.

3) Uca Allah əmr və qadağalar vermiş və ancaq gücü çata bilən şeylərlə onu sorumlu etmişdi. ***«Allahdan** (Allahın əzabından) **bacar-dığınız qədər qorxun».*** *(ət-Təğabun 16).* ***«Allah heç kəsi qüvvəsi çatmayan işi** (görməyə) **vadar etməz. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir».*** *(əl-Bəqərə 286).* Əgər qul əməllərini etməyə məcbur olsaydı, o halda gücü çatmayan və edilməsi mümkün olmayan şeylərlə sorumlu olmuş olardı. Belə bir şey isə batildir. Çünki qul bilmədən, unutqanlıqdan və ya məcburiyyət qarşısında qalaraq etdiyi günah-lardan ötrü sorumlu olmayacaqdır. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah mənə görə ümmətimin səhvən, unutqanlıqdan və məcburiyyət qarşısında qalaraq etdiyi günahlardan keçib»[438].

---

[437] Müslim.

[438] İbn Macə 2045; Beyhəqi 7/356. əl-Albani «Mişkətul-Məsabih» 6293-cü hədis.

4) Uca Allahın qədəri gizli bir sirdir. Qulun onu bilməsi ancaq etdiyi əməlin meydana gəlməsindən sonra mümkün ola bilir. Qul həqiqi mənada faildir. Allah da onların feillərini (əməllərini) yaradandır. Qul mömin, kafir, yaxşı, günahkar, namaz qılan, oruc tutandır. O, halda iman və əməlləri yaradan da Allahdır. Qula öz əməllərini edə bilməsi üçün qüdrəti, iradəni və seçmi də vermişdir. Onların qüdrətini və iradəsini yaradan da Allahdır. Sonra da xeyr və şərri bir-birindən ayırd etmək üçün ağıl da vermişdir. ***«Eləcə də sizdən doğru-düz*** *(yolda)* ***olmaq istəyənlər üçün.*** *(Onu da bilin ki)* ***aləmlərin Rəbbi olan Allah istəməsə, siz*** *(bunu)* ***istəyə bilməzsiniz».*** *(ət-Təkvir 28-29).*

5) Bizlər insanların dünya işlərində özlərinə uyğun olan işlərə yönəldiklərini, onları əldə etməyə çalışdıqlarını, (xeyrli işləri) kənara qoyaraq uyğun olmayan (xeyri olmayan) işlərə yönəlmədiklərini, uyğun işlərə yönəldiklərinə görə də qədəri dəlil göstərmədiklərini görürük. Yaxşı, bəs nə üçün insan dini ilə əlaqəli xüsuslarda ona fayda verən şeyləri (halalı) buraxaraq zərərli (haram) şeylərə yönələrək qədəri dəlil göstərərək, mənim üçün belə yazılmışdır? Deyir. Hər iki işin durumu eyni deyildirmi? Bu məsələ ilə bağlı açıqlama verək. Bir kimsənin qarşısına iki yol çıxır. Bunlardan biri çətinliklərlə, əzab-əziyyətlərlə (ölüm, talan) qorxu və aclığın hökm sürdüyü bir ölkəyə aparır. Digər yol isə rahatlıq, əzab-əziyyət olmayan ədalətli bir ölkəyə aparır. İnsan bu iki yoldan hansını seçər? Əlbətdəki rahatlıq və ədalətl olan ölkəyə aparan yolu seçər. Heç vaxt ağlı başında olan adam birinci yolu seçib bununlada qədəri dəlil gətirməz. O, halda axirət ilə əlaqədar xüsuslarda nə üçün Cənnətə deyil məhz Cəhənnəmə götürən yolu izləməklə qədəri dəlil göstərməkdədir.

6) Fərzləri tərk etməklə, qadağaları etməklə qədəri dəlil göstərən bir kimsənin malını haqsızlıqla əlindən alsalar və ya ona qarşı haqsızlıq edilib və qədəri dəlil göstərən kimsəyə: «Məni qınama, çünki mənim sənə olan bu haqsızlığım Allahın qədəri ilədir». Onun belə bir iddiası qəbul edilməz. Yaxşı, bəs nə üçün başqasının ona qarşı etdiyi haqsızlıqlara qarşı qədərin dəlil göstərilməsini qəbul etmirsə, uca Allahın haqlarını tapdalayaraq qədəri öz leyhinə dəlil göstərməsi necə düzdür? Möminlərin əmri Ömər b. əl-Xəttab - *radıyallahu anhu*– nun dövründə oğurluq üçün əlinin kəsilməsi hökmü verilmiş birisini gətirirlər. O, da əlinin kəsilməsi qərarını verdikdə oğru: «Ağır ol Ey Möminlərin Əmri. Mən Allahın qədəri ilə oğurluq etdim» dedi. Ömər: «Bizlərdə ancaq Allahın qədəri ilə sənin əlini kəsirik» deyə cavab verdi.

Qədərin əsli Allahın sirridir. O, haqda biliyə nə bir mələk, nə bir peyğəmbər, nə də onlardan aşağı olan hər hansı bir insan sahib deyildir.

Bu haqda dərinliyə dalmaq, düşünmək və cürbəcür fikirlər yürütmək doğru deyildir. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qədərdən danışanda susun»[439]. Kim qədərin dərinliyinə dalmaq istərsə gedəcəyi yol xüsran və məhrumiyyətdir. Bu yolda xeyr əldə etməyib hidayətdən məhrum olar. Şişirdər və həddi aşar. Çünki qədərin həqiqətini Allahdan başqa heç kəs bilməz. İnsanlar nə qədər düşünürlərsə düşünsünlər, qədərin həqiqətinə vara bilməzlər. Ancaq biz, Əhli Sünnə vəl Cəmaat Allah – *subhənəhu və təalə* – nin hər şeyi bildiyinə, yazdığına iman edirik. ***Elmdə qüvvətli olanlar isə: «Biz onlara inandıq, onların hamsı Rəbbimiz tərəfindəndir» deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.*** *(Ali İmran 7).* Bu da qədərin başa düşülməsi üçün yuxarıda qeyd etdiyimiz dörd məsəlidir. Əksi təqdirdə insan qədərə inanmamış olur.

QƏZA VƏ QƏDƏRƏ İMANIN FAYDALARI

1. **<u>Razılıq, Yəqinlik Və Əvəz</u>**:

«Allahın izni olmadıqca *(heç kəsə)* ***heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər və o, dünyada baş verən hər şeyin Allahın əzəli hökmü və izni ilə olduğunu bilir. Allah hər şeyi*** *(keçmişi, indini və gələcəyi)* ***biləndir.*** *(ət-Təğabun 11).* İbn Abbas - *radıyallahu anhu* – deyir ki, səbrli adamın qəlbini yəqinliyə yönəldir. O, bilir ki, məruz qaldığı müsibət təsadüfi deyildir. Bu Allahın qəza və qədəridir.

2. **<u>Günahların Təmizlənməsi</u>**:

Əbu Səid əl-Xudri və əbu Hureyrə - *radıyallahu anhum* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mömini nə xəstəliyə, nə əzab-əziyyətə, nə rahatsızlığa, nə də kədərə məruz qalmaq maraqlandırır. Onu maraqlandıran Allahın bunlara səbr etdiyinə görə günahlarını təmizləməidir»[440]. ***«Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların*** *(etdiyiniz əməllərin)* ***ucbatındandır».*** *(əş-Şura 30).*

3. **<u>Böyük Əcr (Mükafatın) Verilməsi</u>**:

«Əlbəttə, biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can *(övlad)* ***və məhsul qıtlığı ilə imtahan edərik.*** *(Ya Muhəmməd! Belə imtahanlara)* ***səbr edən şəxslərə müjdə ver. O, kəslər ki, başlarına bir müsibət gəldiyi***

---

[439] Təbərani «Məcmul Kəbir» 10/223-224, əbu Nuaym «Hilya» 4/108, əl-Lalekai «Şərhu Usuli Etiqad» 1/126, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1/46.

[440] Buxari, Müslim.

zaman: «Biz Allahın bəndələriyik və** (öləndən sonra) **ona tərəf** (onun dərgahına) **qayıdacağıq» deyirlər. *(əl-Bəqərə 155-156).*

4. <u>Sevinməmək Və Kədərlənməmək</u>:

«Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, biz onu yaratmamışdan əvvəl o, bir kitabda** (Lövhi-Məhfuzda) **yazılmış olmasın. Bu Allah üçün çox asandır. Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, özü ilə fəxr edən heç bir kəsi sevməz». *(əl-Hədid 22-23).* İbn Kəsir – *rahmətullahi aleyhi* – deyir ki, Allahın sizə bəxş etdiyi nemətlərlə qürrələnib insanlar arasında fəxr etməyin. Bu sizin əməyinizin nəticəsi olmayıb, Allahın qəza və qədəri ilə sizə bəxş edilən ruzisidir. Allahın nemətləri ilə təkəbbür və lovğalığ etməyin. Sevincinizi şükrə, kədərinizi isə səbrə çevirin[441].

5. <u>*İnsanlardan Qorxmamaq:*</u>

De ki: «Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan qeyri ibadət etdikləriniz onun zərərini aradan qaldıra bilərlərmi?» Yaxud: «Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar onun mərhəmətinə mane ola bilərlərmi?» De ki: «Mənə təkcə Allah kifayət edər». *(əz-Zumər 38).* ***«Əgər Allah sənə bir zərər yetirsə, səni ondan Allahdan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs onun nemətinə maneçilik edə bilməz».*** *(Yunus 107).* İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – mənə bir neçə nəsihət verərək buyurdu: «...Bunu da bil ki, əğər bütün insanlar sənə xeyir vermək üçün bir yerə yığışsalar Allahın yazdığından artıq sənə heç bir xeyir verə bilməzlər. Bunu da bil ki, əğər sənə zərər vermək üçün bir yerə yığışsalar yenə də Allahın yazdığından artıq sənə zərər verə bilməzlər. (Çünkü) qələmlər qaldırılmış, səhifələr (in mürəkkəbi) qurumuşdur»[442].

5. <u>*Ölümdən Qorxmamaq*</u>:

«Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O,** (lövhi-məhfuzda) **vaxtı müəyyən edilmiş bir yazıdır». *(Ali-İmran 145).*

6. **<u>*Olub Keçənlərə Peşman Olmamaq:*</u>**.

«**(Müharibəyə getməyib Mədinədə evlərində) **oturan və** (müharibəyə getmiş) **qardaşları haqqında: «Əgər onlar sçzümüzə qulaq assaydılar, öldürülməzdilər» deyənlərə** (Ya Muhəmməd!) **söylə ki: «Əgər doğru deyirsinizsə, onda** (bacarıb) **ölmü özünüzdən uzaqlaşdırın». *(Ali-İmran 168).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah güclü

---

[441] İbn Kəsr «Təfsir» 4/314.

[442] Tirmizi 2516, əl-Albani «Səhih əl-Cəmi» 7834-cü hədis.

mömini zəif mömindən daha çox sevir. Hər bir işdə özünə faydalı olanı götürməyə səy göstər. Allahdan kömək dilə aciz olma. Başına bir müsibət gələrsə demə: «Əgər belə etsəydim belə olmazdı» De ki: «Allahın qəza və qədəri bu imiş. Əgər sözü şeytana yol açır»[443].

7. ***<u>Allahın Məsləhət Bildiyində Xeyr Vardır</u>***:

«Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyrli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. *(Onu)* ***Allah bilir, siz bilməzsiniz».*** *(əl-Bəqərə 216).*

İSLAM VƏ İMAN

İmanın həqiqətini bəyan edən bir çox dəlillər vardır ki, bununla bəndənin qəlbində iman ağacı kamilləşir. Bununla imanın səmərələrini görürlər və tamını, şirinliyini dadırlar. Bununla Allahın razılığını və Cənnətini qazanırlar. Bu o, naslardır ki, imanın həqiqətini və kamiliyyini bəyan edir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – İslam və İmanı məşhur Cəbrail – *əleyhissəlam* – hədisində zikr etdi. Belə ki, səhabələrin əhatəsində Cəbrail – *əleyhissəlam* – ondan İslam və İman barəsində soruşdu. Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, bir gün Rasulullah – *sallallahu aleyhi və səlləm* - in hüzurunda oturmuşduq. Bu vaxt paltarı düm ağ, saçları olduqca qara, üzərində səfər əlaməti görünməyən və aramızda hec kimsənin tanımadığı bir nəfər içəri girib, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - in yanında oturdu. İki dizini onun dizlərinə söykəyib, əllərini (öz) dizlərinin üstünə qoyaraq: «Ey Muhəmməd! Mənə İslam haqqında xəbər ver!» deyə soruşdu. (Peyğəmbər): «(İslam) Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədın Allahın elçisi olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Ramazanda oruc tutmaq, imkan olduqda Beyti həcc etməkdir» deyə buyurdu. (Adam): «Doğru söylədin!» deyə cavab verdi. (Ömər) dedi ki, adama heyrət etdik. Həm ona sual verir, həm də onun söylədiklərini təsdiq edirdi. (Adam): «Mənə İman haqqında xəbər ver!» deyə soruşdu. (Peyğəmbər): «(İman) Allaha, Mələklərinə, Kitablarına, Peyğəmbərlərinə, Axirət gününə və Xeyir və Şərrin Allahdan olmasına inanmaqdır» deyə buyurdu… (Peyğəmbər): «O, Cəbrail – *əleyhissəllam* - idi. Sizə dininizi öyrətməyə gəlmişdi!» deyə buyurdu[444]. Bu hədisdən İslam və İman arasında fərq olduğu aydın olur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən İslam haqqında soruşduqda zahiri əməlləri zikr etmiş, İman barəsində soruşduqda isə qəlbi (batini) əməlləri zikr etmişdir. Bununlada elm əhli

---

[443] Buxari, Müslim.
[444] Buxari 50, Müslim 8,10.

arasında ixtilaf yaranmışdır. Alimlər demişlər ki, İslam başqa bir şeydir, İman isə tam başqa bir şeydir.

İmanın həqiqəti bir dəlildən götrülmür. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu hədisdə İmana qəlbi (batini) əməlləri zikr etdi. Başqa bir hədisdə isə zahiri əməlləri imana vermişdir. Yəni İslama verdiyi tərifi başqa bir hədisdə İmana vermişdir. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, AbdulQeys[445] heyəti Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in hüzuruna gələrək dedilər: «Ya Rəsulullah! Bizlər Rabia qəbiləsindənik. Səninlə bizim aramızda Mudar kafirlərindən ibarət bir qəbilə maneə olmuşdur. Buna görə də sənin yanına yalnız Haram aylarda[446] gələ bilirik. Buna görə də bizə qəti bir əmr ver ki, onu yerinə yetirək və həm də geridə qalanlara onu dəvət edək Cənnətə girək. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – onlara dörd şeyi əmr etdi və dörd şeydən də çəkindirdi. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir və tək olaraq Allaha iman etməyinizi əmr edirəm. Bir və tək olaraq Allaha iman etməyin nə olduğunu bilirsinizmi?» Onlar Allah və Rəsulu daha gözəl bilir!». O, buyurdu: «Allahdan başqa ilah olmadığına, Məhəmmədin onun Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək və qənimətin **1/5**-ni verməkdir. Sizləri Dubbadan, Hantemdən, Nakirdən və Muzzafərdən çəkindirirəm»[447] Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Cəbrail – *əleyhissəllam* - ın hədisində İslama verdiyi tərifi bu hədisdə İmana vermişdir. Elm əhli isə bu hədislərdən belə bir nəticəyə gəlmişlər ki, İslam və İmanın deyiliş forması vardır. Yəni bunların həm xüsusi və ümumi mənaları vardır. Ümumi mənası odur ki, bütün dini əhatə edir. Yəni İman ümumi mənada gələrsə bütün dini əhatə edir. Həmçinin də İslam ümumi mənada gələrsə bütün dini əhatə edir. Bəzi sözlər də belədir. Məs: Miskin və Fəqir. Allah: ***«Sədəqələr** (zəkatlar)*

---

[445] Bu heyət Hudeybiyyə sülhündən sonra Məkkə fəthindən bir az əvvəl Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gəlmişlər. Heyətin böyüyü Munziru b. Aiz əl-Əsəri idi. Munzirin üzündə qılınc və ya bıçaq izi olduğu üçün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onu əl-Eşecc diyə ləqəbləndirmişdir. Bundan sonra o, kimsə Abdulqays Eşecci ləqəbi ilə şöhrət tapmışdır. Heyəti sayı barəsində bir çox rəqəmlər vardır. 14, 40, 50 nəfərə qədər olduğu da söylənilir.

[446] ***Haram Aylar*** – ***«Həqiqətən Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın kitabında on ikidir. Onlardan dördü*** *(Rəcəb, Zülqədə, Zülhiccə və Məhərrəm)* ***haram aylardır. Bu doğru dindir. Ona görə də həmən aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir!».*** *(ət-Tövbə 36).* Bu aylarda döyüşlər etmək, hücum etmək, ozünə zülm etmək qadağan edilmişdir. Məhz buna görə də bu ayları haram aylar adlandırırlar.

[447] Bu adları çəkilən dörd kəlimə o, qövmün içərisində şərab düzəltdikləri qabların adlarıdır. ***Dubba*** – içi ovulmuş balqabaqdır, ***Hantəm*** – saxsıdan düzəldilmiş qabdır, ***Nakir*** – içi ovulmuş ağac parçasıdır ki, içərisinə kiçik xurmalardan atır. Sonra içərisinə su tökərdilər. Bir müddətdən sonra onu şərab olaraq alırdılar. ***Muqayyər*** – qır sürtülən qabdır. Buxari, Müslim.

Allah tərəfindən müəyyən edilmiş bir fərz *(vacib əməl)* ***olaraq ancaq fəqirlərə,*** *(ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən)* ***miskinlərə ….».*** *(ət-Tövbə 60).* Bir dəlildə həm fəqir, həm də miskin ləfzi işlədilmişdir. Bunun da hər birinin həm xüsusi, həm də ümumi mənaları vardır. Fəqir kəlməsi işləndiyi zaman onun içinə miskin də girər. Miskin kəlməsi də tək başına işləndiyi zaman onun içinə fəqir də girər. Lakin iksinin arası birləşdiyi zaman isə hər biri ayrı-ayrı mənaları ifadə edər. Fəqir sözü ayrı işlənərsə içərisinə miskin kəliməsi də daxildir. Həmçinin də Miskin sözü ayrı işlənərsə içərisinə fəqir kəliməsini də daxil edir. Lakin bir yerdə işləndiyinə görə ayrı-ayrı mənaları vardır. Lakin baxmayaraq ki, onlar ehtiyacda müştərəkdilər. Yəni ehtiyac sahibidirlər. Yanaşı gəldiklərinə görə aralarında fərq vardır.

Lüğəti mənalarına görə İslam və İman ayrı-ayrı şeylərdir. Şəri mənaları ilə islam və iman bir-birindən ayrılmazdırlar. Biri digəri olmadan işlənməzlər. Əksinə harada səhih və mötəbər bir iman varsa onunla birlikdə islam da vardır və ya harada islam varsa onunla birlikdə iman da vardır. Onlardan hər hansı biri tək başına işlədiləcək olarsa, digəri də onun içərisinə girər və tək başına işlədilən bu isim yenə digər ismin tək başına işlədilməsi halında dəlalət etdiyi şeylərə dəlalət edər. Yəni İslam ləfzi tək gələrsə həm qəlbi (batini) əmlləri, həm də zahiri əməlləri əhatə edər. Həmçinin İman ləfzi də tək gələrsə həm zahiri, həm də qəlbi (batini) əməlləri əhatə edir. Çünki varlılıqları bir-birinə bağlıdır. Məs: ***«Ey iman gətirənlər! Namaz qılmağa durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərinizə qədər*** *(və ya dirsəkləriniz də daxil olmaqla)* ***yuyun,*** *(yaş əlinizi)* ***başınıza məsh edin*** *(çəkin)****, ayaqlarınızı topuqlarınıza qədər*** *(topuqlarınız da daxil olmaqla)* ***yuyun».*** *(əl-Maidə 6)* - ayəsindəki xitab həm mömin, həm də müsəlmanları əhatə edir. Yoxsa ki, namaz üçün dəstəmaz almaq təkcə möminlər üçün deyildir. Müsəlmanların da dəstəmazsız namaz qılmaları mümkün deyildir. İman islamı əhatə etdiyi kimi, islam da imanı əhatə edir. Həmçinin: ***«Məni müsəlman olaraq öldür…».*** *(Yusif 101)* ayəsindəki ***«Məni müsəlman olaraq öldür!»*** eyni zamanda «Məni mömin olaraq öldür!» deməkdir. Yoxsa - məni müsəlman olaraq öldür, mömin olaraq öldürmə - mənasında deyildir. Çünki Allah bütün möminlərin ancaq müsəlman olaraq can vermələrini ***«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün».*** *(Ali-İmran 102)* istər[448].

---

[448] İbn Məndə «İman» 1/448,454, Xattabi «Məalimus Sünən» 4/313, İbn Teymiyyə «İman» s. 148,222, «Məcmuul Fətava» 7/167,259,260, İbn Kəsr «Təfsirul-Quranil-Azim» 4/234, İbn Rəcəb «Cəmiul-Ulum vəl Hikəm» 1/107,108, Nəvəvi «Şərh Səhih Müslim» 1/144-149, İbn Əbil İzz əl-

Həmçinin İmanla yanaşı saleh əməl, İslam, təqva, düz durmaq əmri gələrsə burada birinci yəni İmanla qəsd olunan qəlbi (batini) əməllərdir. O, biri ilə (saleh əməl, İslam, təqva və s.) qəsd olunan isə zahiri əməllərdir. Həmçinin də əl-Muminun, əl-Muminat sözü gəldikdə: «İman gətirib saleh əməl edən» deməkdir. Əgər «***Əl***» artikli ilə gələrsə əl-Muminun sözü: «***İlləlazinə Əmənu Və Amilus Salihət***» deməkdir. Bu ayə də İmanla qəsd olunan batini, saleh əməl ilə zahiri əməllər qəsd olunur.

Əgər İman ümumi heç bir şeylə yanaşı gəlməzsə onda bütün dini əhatə edir. ***«…Lakin Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və*** *(Allaha)* ***asi olmağa qarşı sizdə nifrət oyatmışdır. Məhz beləlləri doğru yolda olanlardır!».*** *(əl-Hucurat 7).* Bu ayədə İman tək gəldiyi üçün Allah sizə nəyi sevdirdi? Dini. ***«Allah yanında*** *(məqbul olan)* ***din əlbəttə İslamdır…».*** *(Ali-İmran 19).* ***«Kim İslamdan başqa bir din ardınca gedərsə heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar».*** *(Ali-İmran 85).* Burada İslam ilə qəsd olunan bütün dindir.

Lakin ikisi bir yerdə zikr olunarlarsa (islam və iman) aralarında fərq olur. Bu vəziyyətdə İman ilə görünməyən (batini) etiqadlar (inanclar) qəsd edilməkdədir. Bunlar isə Allaha, mələklərə, kitablara və Peyğəmbərlərə, axirət gününə, qəza və qədərə, xeyrinə və şərrinə iman etməkdir. Yəni bütün bunlar qəlbin təsdiq etməsi, iqrar etməsi və bilməsidir. İslam ilə, şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və həcc etmək kimi görünən ibadətlər yəni əməllərlə Allaha təslim olmaq, boyun əymək və bağlanmaq qəsd edilməkdədir. Elm adamları buna belə deyirlər: «Hər mömin müsəlmandır, lakin hər müsəlman isə mömin deyildir». İbn Teymiyyə - *rahmətullahi aleyhi* – də İslam və İmana tərif verərək deyir ki, əgər bir dəlildə cəm olarsa məna tərəfdən ayrılırlar. Ayrı-ayrı gələrlərsə birləşirlər. Məs: Allah buyurur: ***«Bədəvi ərəblər: «Biz iman gətirdik!» dedilər.*** *(Ya Peyğəmbər! Onlara)* ***De ki: «Siz*** *(qəlbən)* ***iman gətirmədiniz! Ancaq: «Biz İslamı qəbul etdik!» deyin».*** *(əl-Hucurat 14).* İbn Abbas – *radıyallahu anhu* – deyir ki, onların bütünlüklə münafiq olmadığını, imanları zəif kimsələr olduğunu açıqlamışdır. İbn Cərir ət-Təbəri - *rahmətullahi aleyhi* – bu ayənin təfsirində deyir ki, Allah Rəsulu - *səllallahu aleyhi və səlləm* – bədəvi ərəblərin yalnız İslam (təslim) olduqlarını söyləməsini əmr etmişdi. Onlar yalnız dilləri ilə təsdiq etmiş, lakin qəlbləri ilə təsdiq etməmişlər. Buna görə də onlara yalnız İslam olduqları deməmələri əmr edildi. Çünki İslam (təslim) olmaq üçün söz yetərli

---

Hənəfi «Şərh Əqidətul Təhaviyyə» s. 347-351 və s. alimlər öz əsərlərində İslam və İmanın ayrı-ayrı (nass və ya cümlədə) işlənərlərsə (göstərdikləri məna baxımından) birləşərək bir-birinin yerini tutarlar.

olarkən, iman etmək üçün həm söz, həm də əməl gərəkdir. İbn Qeyyim - *rahmətullahi aleyhi* – bu ayənin təfsirində deyir ki: «Uca Allah bədəvilərin imanını inkar edərkən müsəlman olduqlarını, Ona və Rəsuluna itaət etdiklərini bildirmişdir. Kamil iman deyilərkən bu kəlimədə nə nəzərdə tutulursa ayədə o, rədd edilir[449]. ***«Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam*** *(dini)* ***üçün açıb genişləndirər. Kimi azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salar. O sanki*** *(sıxıntının şiddətindən)* ***göyə çıxar. Allah iman gətirməyənlərə pisliyi belə edər».*** *(əl-Ənam 125).*

Bu hədis Əhli Sünnə Vəl Cəmaatı imanın həqiqətinə dair gətirdiyi ən güclü dəlillərdəndir ki, İman zahiri əməlləri də əhatə edir. Çünki bu heyət haram aylarda gəlməkləri ilə yanaşı Rəsulullah – *sallallahu aleyhi və səlləm* – dən böyük miqdarda bir el istəmişlər ki, ona əməl etsinlər və geridə qalanlara da çatdırsınlar. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – də onlara İmanın həqiqəti barəsində xəbər vermişdir.

İSLAMDA İSTİSNA ETMƏK «İNŞƏALLAH, MƏN MÜSƏLMANAM» DEMƏK

İslamda istisna etmək bir kimsənin – ***<u>İnşəallah Mən Müsəlmanam</u>*** – deməsidir. Əhli Sünnə vəl Cəmaat istisnanı imanda caiz[450] görürlər. İslamda isə caiz görməzlər. Çünki bildiyimiz kimi İslam iman deyildir. İmanın dərəcələri vardır. İnsanlar iman mərtəbəsində dərəcə-dərəcədirlər. Onlardan bir qrupu ehsan dərəcəsindədir, bir qrupu mömindirlər, bir qrupu da müsəlmandırlar. Bu da dərəcənin ən aşağısıdır. Ondan aşağı küfürdən başqa bir şey deyildir. Bir kimsə müsəlman deyilsə kafirdir. Lakin müsəlman olmayan kimsə müsəlman ola bilir. Çünki şəhadət kəlməsini söyləyən kimsə müsəlman olur və digər kafirlərdən fərqlənir. Beləcə onun haqqında İslamın hökümləri işlədilir.

Şəri dəlillər İslamda istisna etmədən – Mən müsəlmanam – deməyə dəlalət edir. ***«Allaha tərəf çağıran, yaxşı iş görən və mən müsəlmanlardanam deyən kəsdən daha gözəl danışan kim ola bilər»*** *(əl-Fussilət 33).* ***«Bədəvi ərəblər: «Biz iman gətirdik!» dedilər.*** *(Ya Peyğəmbər! Onlara)* ***De ki: «Siz*** *(qəlbən)* ***iman gətirmədiniz! Ancaq: «Biz İslamı qəbul etdik!» deyin. Hələ iman qəlblərinizə daxil olmamışdır. Əgər Allah və Peyğəmbərinə itaət etsəniz O, sizin əməllərinizdən heç bir şeyi əskiltməz. Həqiqətən Allah bağışlayan və rəhm edəndir».*** *(əl-Hucurat*

---

449 İbn Qeyyim «Kitabu Salət» s. 25.
450 İcazə verilən.

14). İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Bu ayə İmam Əhməd – *rahmətullahi aleyhi* – və s. İslamda deyil, imanda istisna edilməsinin və böyük günah edənlərin iman mərtəbəsindən çıxıb islam mərtəbəsinə girdiklərinə dair sürdükləri dəlillərdəndir». əl-Meymuni dedi ki: «İmam Əhməddən **- *Mən İnşəallah Mömünəm* –** sözü haqqında fikrin nədir». O: «İnşəallah mömünəm deyirəm. Müsəlman deyərkən istisna etmərəm. Mən: «Sən, islam və iman arasında ayrım edirsən?» dedim. O: «Bəli» dedi. Mən: «Hansı dəlilə əsasən» dedim. O: «Bədəvilər biz iman etdik» dedilər. De ki: «Siz iman etmədiniz, müsəlman olduz deyin»[451].

İMANDA İSTİSNA ETMƏK «İNŞƏALLAH, MƏN MÖMİNƏM» DEMƏK

Əhli Sünnə vəl Cəmaat imanda istisna etmək – yəni «İnşəallah, mən mömünəm» deməyin və özləri haqqında yəqin olaraq «Mən mömünəm» deməyin əleyhinədir. Bu isə onların Allahdan qorxmaları və qədərə iman etmələrinə görədir. Çünki heç kəs yəqin olaraq deyə bilməz ki, «mən mömünəm». Mütləq iman bütün itaətləri etməyi və bütün qadağaları tərk etməyi əhatə edir. İnsan bütün bunları etdikdə də yəqin olaraq bu kəlməni söyləməz. Əgər belə etsə onda özünü tərif etmiş, təmizə çıxarmış və özünü Allahdan haqqıyla qorxan, yaxın kimsələrdən olduğunu irəli sürmüş olur. Beləliklə də özünə yəqin olaraq mömin deyən kimsə özünün Cənnət əhlindən olduğunu da irəli sürməlidir. Bu isə mümkün deyildir. ***«Özünüzü təmizə çıxartmayın. O, Allahdan qorxub pis əməllərdən çəkinənin kim olduğunu daha gözəl bilir».*** *(ən-Nəcm 32).*

İstisna Etmək **–** «İnşəallah, mən mömünəm» demək haqqında üç rəy vardır. Kimisi bunun vacib olduğunu, kimisi bunun haram olduğunu, kimisi də bu məsələdə orta yolu tuturlar.

Müxaliflərin qeyd etdiyinə görə iman tək bir şey olub əməl və sözdən ibarət deyildir. İman qəlbdəki təsdiqdir. Əgər qəlb təsdiq edirsə o, özünün mömin olduğunda da heç bir şəkk-şübhə etməməlidir. Onlara görə şahadət kəlməsini söylədiyimi bildiyim kimi, mömin olduğumu da bilirəm. Onların «Mən mömünəm» deməyi, «Mən müsəlmanam» deməyi kimidir

[451] Məcmuu Fətava 7/253 – İman məxluqdur, yoxsa məxluq deyildir? Məsələsi haqqında: «Bu məsələ bidətçilərin və hava əhlinin çıxardığı ***Xalqul-Quran*** (Quran yaradılması) məsələsindən törənmişdir. Əhli Sünnə Quran Allahın kəlamı olduğuna, məxluq olmadığı görüşündə ittifaq etmişlər. Onun kəlamının sonu yoxdur. İman ilə ***Lə İləhə İlləllah*** – sözü kimi Allahın sifətindən və kəlamından bir şey qəsd edilirsə iman məxluq deyildir. İman ilə qulların əməllərindən və sifətlərindən bir şey qəsd edilirsə onda bütün qulları məxluqdur və onların bütün əməlləri də sifətləri də məxluqdur Məcmuu Fətava 6/313, 7/652, 8/422.

və bu məsələdə «İnşəallah, mən mömünəm» deyənlərə də ***Şəkkak*** – şübhəçi adını verirlər.

İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – də imanda inşəallah, mən mömünəm deməyin haram olduğu fikrindədir. O, deyir: «Mömin yəni inanan kimsə həqiqətən mömindir, kafir də həqiqətən kafirdir. Küfrdə şübhə olmadığı kimi imanda da şübhə yoxdur». Allah buyurur: ***«Onlar həqiqi möminlərdir».*** *(əl-Ənfal 4).* ***«Bütün bunlar həqiqətən kafirdilər».*** *(ən-Nisa 151).* Muhəmməd - *sallallahu aleyhi və səlləm* – in ümmətinin günahkar olan kimsələrinin hamısı həqiqətən mömin olub, kafir deyillər»[452]. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* –, Harisi və Haskəfinin rəvayətinə görə belə demişdir: «Alqamə ilə birlikdə Ata b. Əbi Rəbahın yanında idik». Alkamə ona: «Ey Əbu Muhəmməd! Ölkəmizdə imanlarını özlərinə nisbət etməyə və mən mömünəm deməyi xoş qarşılamayan bir qrup vardır» dedi. Ata b. Əbi Rəbah: «Onlara nə olur ki, bunu söyləmirlər?» deyə qarşılıqlı sual verdi. Alkamə sözünə davam edərək: «Deyirlər ki, mömin olduğumuzu söylədikdə özümüzü Cənnət əhlindən olduğumuzu da qeyd edirik». Ata onlara: «Allah! Allah! Bu şeytanın hiylələrindən biridir. Şeytan onları Allahın onlara verdiyi ən böyük nemət olan İslamı tərk etməyə və bu xüsuslarda Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – ə müxalif olmalarını vəsvəsə edir. Mən səhabələrin və eyni zamanda da Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in də bunu etdiyinin şahidi olmuşam»[453].

Digər bir qrup isə hər bir şeydə istisna etməyə başladılar və bu məsələdə həddi aşmışlar. Məs: Onlar etdikləri bütün saleh əməllərdə də istisna etməyə başladılar. «İnşəallah mən namaz qıldım, inşəallah oruc tutdum» və s. sözlər söyləməyə başladılar. Yenə onlardan bir çoxu hər şeydə istisna etməyə başladılar. «İnşəallah bu paltardır, inşəallah bu ayaqqabıdır» və s.

Lakin ən gözəl mövqe isə Sələfin mövqeyidir. Allah Qurani Kərimdə yəqin olaraq baş verən bəzi işləri Allahın diləməsinə bağlayaraq ifadə edildiyini açıq göstərən bir sıra ayələr vardır. Məs: ***«And olsun ki, Allah öz peyğəmbərinin*** *(Məkkə fəthi)* ***röyasının çin olduğunu təsdiq etdi.*** *(Ey möminlər!)* ***Siz, inşəallah əmin-amanlıq içində,*** *(bəziniz)* ***başınızı qırxdırmış,*** *(bəziniz)* ***saçınızı qısaltmış halda və*** *(müşriklərdən)* ***qorxmadan Məscidulhərama daxil olacaqsınız».*** *(əl-Fəth 27).* ***O, yürüyüb-qaçmaq və atasına kömək edə bilmək çağına*** *(on üç yaşında)* ***çatdıqda*** *(İbrahim)* ***dedi: «Oğlum! Yuxuda gördüm ki, səni qurban***

---

[452] əl-Vəsiyyə s.87, əl-Fikhul Əbsat s. 41,43,52.

[453] Xarizmi «Cəmiul Məsanid» 1/182, Aliyyul Kari – şərhu musnədi Əbu Hənifə s.378.

***kəsirəm. Bax gör** (bu barədə) **nə fikirləşirsən! O, dedi: «Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşəallah mənim səbrlilərdən olduğumu görəcəksən».** (əs-Saffat 102). **Və heç bir şey barəsində: «Mən onu sabah edəcəyəm! demə. Ancaq: «İnşəallah edəcəyəm» de.** (əl-Kəhf 23-24). (Yəqub və ailəsi) **Yusifin hüzuruna daxil olduqda o, ata-anasını bağrına basıb: «İnşəallah əmin-amanlıqla Misirə daxil olun» dedi.** (Yusif 99).*
Aişə – *radıyallahu anhə* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – gecənin sonunda Bəqi qəbrsanlığına girər və deyərdi: «Ey möminlər topluluğunun yurdu! Salam üzərinizə olsun. Sizə vəd olunmuş (ölüm) gəlmişdir. İnşəallah biz də sizə qovuşacağıq. Allahım! Bəqi qəbrsanlığında yatanları bağışla!». Başqa rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ey möminlərin və müsəlmanların yatdığı yurdun sakinləri! Salam üzərinizə olsun! İnşəallah biz də sizə qovuşacağıq!» [454]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər Peyğəmbərin qəbul edilmiş duası vardır. Hər peyğəmbər bu duasını etmişdir. Lakin mən duamı Qiyamət günündə ümmətimə şəfaət etmək üçün saxladım. Artıq ümmətimdən Allaha heç bir şeyi şərik qoşmamış olan kimsələr inşəallah bu şəfaətə nail olacaqlar»[455]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Süleyman b. Davud (Allahın salamı iksinin də üzərinə olsun): «Şübhəsiz bu gecə yetmiş (Bəzi rəvayətlərdə **90**, bəzilərində **99**, bəzilərində **100**) zövcəmi (xanımlarımı) dolaşacağam. Zövcələrimdən hər biri Allah yolunda vuruşacaq bir süvari doğacaq» dedi. Bu an yoldaşı (olan mələk) Ona: «İnşəallah de!» dedi. Lakin o, İnşəallah deməyi unutdu. Bunundan sonra o, qadınlardan biri xaric, heç biri hamilə olmadı. O, da xəstə olan bir uşaq doğdu». Sonra Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Nəfsim əlində olan Allaha and olsun ki, əgər ***<u>İnşəallah</u>*** demiş olsaydı hər biri Allah yolunda vuruşacaq süvarilər doğardılar (Başqa rəvayətdə: Əgər ***<u>İnşəallah</u>*** demiş olsaydı vədini yerinə yetirmiş olardı və öz istəyinin yerinə yetməsi üçün daha çox ümüdü olardı)»[456].

Səhabələrdən gələn rəvayətlərdə: Əbul-Vahterinin (Səid b. Feyruz) rəvayətinə görə Əli – *radıyallahu anhu* – demişdir: «Bir kimsənin mən mömінəm deməsi bidətdir»[457]. İbn Məsud – *radıyallahu anhu* – deyir: «Hər kim mömin olduğuna dair şahitlik edərsə, özünün Cənnətdə

---

[454] Müslim, İmam Əhməd 6/71,111,180, Nəsəi 4/93,94, İbn Məcə 1546, əl-Albani «Əhkəmul-Cənaiz» s. 239, «İrvəul Ğəlil» 3/236.
[455] Buxari, Müslim.
[456] Buxari 5242, Müslim 1654, Nəsəi 7/30,31, İmam Əhməd 2/229,275,506, Tirmizi 1532.
[457] Abdullah b. Əhməd «əs-Sünnə» 643, əl-Laləkai 1778.

olduğuna da şahidlik etsin»[458]. Bir nəfər İbn Məsud – *radıyallahu anhu* – nun yanında şübhəsiz ki, mən mömінəm dedikdə İbn Məsud ona: «Onda mən Cənnətliyəm də de!» dedi. Sonra İbn Məsud – *radıyallahu anhu* – o, adama: «Lakin biz Allaha, Mələklərinə, Kitablarına, Peyğəmbərlərinə inanırıq»[459]. Bir nəfər İbn Məsud – *radıyallahu anhu* – nun yanında şübhəsiz ki, mən mömінəm deyir: «Ey Əbu Abdurrahmən! Bu adam mömin olduğunu iddia edir». İbn Məsud – *radıyallahu anhu* – onların bu sözlərinə: «Ondan bir soruşun görün o, Cənnətlikdir yoxsa Cəhənnəmlik?» Onlar həmin şəxsdən bunu soruşurlar. Adam da onlara: «Allah ən doğrusunu bilir». Adamın bu cavabından sonra İbn Məsud – *radıyallahu anhu* – ona: «İkincisini (yəni Cənnətlik və ya Cəhənnəmlik olduğunu) Allaha həvalə etdiyin kimi birincisini də Allaha həvalə etsəydin?» dedi»[460]. İmam Əhməd – *rahmətullahi aleyhi* – ə imana dair sual verildikdə o: «İman - söz, əməl və niyyətdir!» deyə cavab vermişdir. Bu dəfə ona: «Adam sən möminsən?» deyə soruşarsa, o: «Bu bir bidətdir!» deyə cavab vermişdir. Bu səfər ona: «Yaxşı, beləsinə necə cavab verilir?» deyilincə, «İnşəallah, mömінəm!» deyilir, deyə cavab vermişdir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – qəbr əhlini ziyarət etdikdə buyurdu: «İnşəallah, biz də sizə qovuşacağıq!». O, burda istisna etdi. O, isə yəqin olaraq öləcəyini bildiyi halda istisna etdi»[461]. Vəlid b. Müslim: «Əvzai, Məlik b. Ənəs və Səid b. AbdulƏzizin kişinin mən mömінəm deməsini inkar etdiklərini, inşəallah mən mömінəm deməsinə isə izn verdiklərini eşitdim»[462]. İmam Beyhəqi – *rahmətullahi aleyhi* – deyir ki: «Bunu – imanda istisna etməyi – səhabədən bir qrupdan, tabiinlərdən və sələfi salihdən rəvayət etdik»[463]. İbrahim ən-Nəhai – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsənin bir nəfərə – Sən möminsən – deyə soruşması bidətdir»[464]. Sufyan b. Uyeynə – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsəyə sən möminsən deyə soruşulduğu zaman istəyirsə cavab verməsin və belə desin: «Sənin mənə belə bir sual verməyin bidətdir, mən imanımdan şübhə etmirəm. İman artar və əskilər. Mən mömінəm inşallah deyəni isə tənqid etmə»[465]. İmam əl-Acurri – *rahmətullahi aleyhi* – deyir ki: «Sözünü etdiyimiz elm adamlarından

---

458 Abdullah b. Əhməd «əs-Sünnə» 711,721, əl-Laləkai 1779.
459 Əbu Ubeyd «İman» 11, Abdullah b. Əhməd «əs-Sünnə» 655,668, Təbərani «əl-Kəbr» 9/8792, əl-Laləkai 1780.
460 əl-Albani – Əbu Ubeydin «İman» kitabında səhih olduğunu qeyd edir. S. 67.
461 əl-Laləkai «əs-Sunnə» 1798.
462 Abdullah b. Əhməd «əs-Sünnə» 687,744.
463 Beyhəqi «Şuabul İman» 1/212.
464 İbn Batta «əl-İbanə» 2/880 (1212).
465 İbn Batta «əl-İbanə» 2/881 (1213).

həqiqət əhlinin bir özəlliyi də imanda istisna etmələridir. Bu şübhə üzərində edilən bir istisna deyildir – imanda şübhədən Allaha sığınırıq – Lakin imanda kamil bir mənaya gələ biləcək şəkildə nəfislərini təzkiyə etməkdən qorxduqları və imanın həqiqətinə layiq kimsələrdən olub-olmadıqlarını bilmədikləri üçün edilən bir istisnadır. Bu səhabələrin və onlara gözəl bir şəkildə uyanların yoludur»[466]. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Mütləq iman Allahın quluna əmr etdiyi şeylərin hamısını etməyi və haramları tərk etməyi əhatə edir. Bir kimsə: «Kimsə özünə mən mömin əm dediyi zaman əmr edilən bütün şeyləri yerinə yetirən və qadağaları tərk edən təqva sahibi yaxşılardan olduğuna şahidlik etmişdir. O, artıq Allahın vəlilərindən olur. Bu insanın bir növü öz nəfsini təzkiyə etməsi və bilmədiyi bir şeylə öz lehinə şahidlik etməsi deməkdir. Əgər bu şahidlik səhih olsaydı insanın bu hal üzərə ölməsi onun Cənnətlik olmasına da şahidlik etməsi lazım gəlir. Özünün Cənnətlik olmasına şahidlik edən heç kimsə yoxdur. Öz nəfsi üçün imanla şəhadət etməsi, bu hal üzərə ölürsə Cənnətlik olacağına şahidlik etməsi kimidir[467]. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «İbn Məsud və səhabələr, Sevri, İbn Uyeynə, Kufə alimlərindən bir çoxu, İmam Əhməd və sünnə imamları – *Allah onlardan razı olsun* - kimi hədis alimləri də imanda istisna edərdilər. Bu onlardan mütəvatir olaraq gəlmişdir»[468]. Həmçinin səhabələrdən: «Ömər, İbn Məsud, Əli, tabiinlərdən - İbn Əbi Muleykə, Tavus, Həsənul-Basri, Məhəmməd b. Sirin, İbrahim ən-Nəhai, Səid b. Feyruz, Dəhhak b. Məşriki,İsmail b. Əbu Xalid, Muğirə b. Miksəm, fikhçilərdən Abdullah b. Şübrümə, Mamər b. Rəşid, Sufyan əs-Səvri, Sufyan b. Uyeynə, Abdullah b. Mubərək, İmam Məlik, İmam Əhməd – *Allah onlardan razı olsun* - və s. rəyləridir»[469].

EHSAN

İslam dininin üçüncü mərtəbəsi - Ehsandır. Bu da tək bir rükndur. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* -, onların yanına dinlərini onlara öyrətmək və Ehsan haqqında sual vermək üçün gələn Cəbrail – *əleyhissəlam* – a belə cavab vermişdi: «Ehsan, Uca Allahı sən Onu görür kimi ibadət etməkdir, lakin sən Onu görməsən də şübhəsiz ki, O səni görür». ***«O, Allah ki, səni namaza duranda da görür, səcdə edənlər***

---

[466] əl-Acurri «Kitabuş Şəriya» 2/656.
[467] Məcmul Fətava 7/446.
[468] İbn Teymiyyə «İman» s. 375, 394, «Məcmuul Fətava» 7/438-460.
[469] Abdullah b. Əhməd «əs-Sünnə» 307-384, əl-Laləkai 5/967,968, Nəvəvi «Şərh Səhih Müslim» 1/150, Bəğavi «Şərhi Sünnə» 1/41.

***içində olanda da. Həqiqətən** (hər şeyi) **eşidən və bilən odur!».** (əş-Şuəra 218-219).*

Ehsan pislik etməyin ziddidir. ***«Həqiqətən Allah ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir».** (ən-Nəhl 128).* ***«Yaxşılığın əvəzi ancaq yaxşılığdır».** (ər-Rəhman 60).* ***«Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafatlar gözləyir. Onların üzlərinə nə bir toz, nə də bir zillət qonar».** (Yunus 26).* ***«Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq edənləri sevər».** (əl-Bəqərə 195).*

Ehsanın içinə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in buyurduğu kimi; bir adamı miniyinə mindirmək, əşyalarını qaldırmaq və ya daşımaq üçün kömək etmək, ona yol göstərmək və s. buna bənzər xüsusiyyətlərin hamısı daxildir. Bunlar Allahın qullarına edilən yaxşılıqdır. Hətta bir kəsin Allahın qullarına bildiklərini öyrətməsi, dərs keçməsi və ya məclislərdə elmi söhbətlər etməsi xeyr və ehsandandır. Əbu Yə’la Şəddad b. Əus - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, Allah hər şeydə ehsanı yazmışdır. Buna görə də öldürdüyünüz zaman gözəl şəkildə öldürün. Kəstiyiniz zaman gözəl bir şəkildə kəsin. Sizdən (heyvan kəsən şəxs) bıçağını yaxşıca itiləsin və kəsəcəyi heyvanı rahatlasın»[470]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İnsanların hər bir bədən üzvü üçün günəşin doğduğu hər bir gündə sədəqə vardır. İki nəfər arasında ədalətlə hökm verməк bir sədəqədir. Kişini miniyinə mindirmək üçün kömək etmək və yaxut da onun əşyalarını miniyə yükləmək üçün kömək etmək bir sədəqədir. Gözəl bir söz söyləmək bir sədəqədir. Namaz qılmaq üçün (məscidə) addımladığın hər bir addım bir sədəqədir. Yolda əziyyət verən bir şeyi götürmək də bir sədəqədir»[471].

Peyğəmbər– *sallallahu aleyhi və səlləm* – Ehsanın bir-birindən fərqli iki mərtəbədən ibarət olduğunu açıqlamaqdadır.

1. Uca Allaha sən Onu görür kimi ibadət etmək.

İbadətə gəlincə isə O, Allaha Onu görür kimi ibadət etmək deməkdir. Belə bir ibadət yəni insanın Rəbbinə Onu görür kimi ibadət etməsi istəklə və sevgi ilə edilir. Bu yolla insan sevdiyi və arzuladığı bir şeyi əldə etməyə çalışır. Çünki o, Rəbbinə Onu görür kimi ibadət edər. Beləliklə ona yönələr, Ona dönər və Ona yaxınlaşmağa çalışar.

2. Lakin sən Onu görməsən də, şübhəsiz ki, O səni görür.

---

[470] Müslim.
[471] Buxari, Müslim.

Əgər sən Allaha onu görür kimi ibadət edə bilmirsənsə, onda Ona O, səni görür kimi ibadət et. Beləliklə Ondan qorxan, əzab və cəzasından qaçan kimsənin ibadəti kimi Ona ibadət etmiş olursan. İnsan Uca Allaha bu şəkildə ibadət etmiş olarsa Uca Allaha qarşı ixlaslı olar. İbadətini riyakarlıq və başqalarının eşitməsi üçün etməz, insanların onu tərifləməsini düşünməz. İnsanlar onun ibadətini istər bilsinlər, istər bilməsinlər onun üçün fərq etməz. Hətta ixlasın tamamlayıcı ünsürü də budur: «İnsan etdiyi ibadətini insanların görməməsinə və Rəbbinə qarşı etdiyi ibadətinin bir sir olaraq qalmasına diqqət edər».

SƏLƏF İMAMLARININ ƏHLİ SÜNNƏ VƏL CƏMAAT HAQQINDA SÖZLƏRİ

1. Əbu Bəkr əs-Siddiq - *radıyallahu anhu* – deyir ki: «Sünnə Allahın sağlam ipidir»[472].

2. İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «Sünnəni tərk edən kafir olur»[473].

3. İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Allah qullarının qəlblərinə baxdı. Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in qəlbini qullarının qəlbləri arasında ən xeyirli qəlb olduğunu gördü. Buna görə də onu özü üçün (bir Peyğəmbər) olaraq seçdi və onu risalətlə göndərdi. Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in qəlbindən sonra yenə də qullarının qəlblərinə baxdı, onun səhabələrinin qəlblərini qullarının qəlbləri arasında ən xeyirli qəlblər olduğunu gördü. Buna görə də onları Peyğəmbərinə dini uğrunda vuruşacaq yardımçılar etdi. Buna görə də müsəlmanların gözəl gördükləri bir şey Allah dərgahında da gözəldir, pis gördükləri bir şey də Allah dərgahında da pisdir»[474].

4. Ömər - *radıyallahu anhu* – deyir ki: «Qurani Kərimin mütəşabihləri ilə sizlərlə mübahisə edəcək bir qrup kimsələr gələcəkdir. Siz də onları sünnətlərlə susdurun. Çünki sünnətə tabe olan kimsələr Allahın Kitabını ən gözəl bilən kimsələrdir»[475].

5. İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «Sizlərdən hər kimsə birinin sünnətini (yolunu) izləmək istəyərsə, ölmüş olanların (sünnətini) yolunu izləsin. Bunlar da Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in səhabələridir. Onlar bu ümmətin xeyirliləri idilər. Qəlbləri ən yaxşı, elmləri ən dərin, əbəs yerə özlərinə zülm etməkdən ən uzaq olan kimsələr

---

[472] İbn Batta «Şərhu əl-İbanə».
[473] İbn Batta «Şərhu əl-İbanə».
[474] İmam Əhməd «Musnəd» 1/379 Əhməd Şakir səhih.
[475] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat», İbn Batta «əl-İbanə».

idilər. Allah onları Peyğəmbərinə yoldaşlıq etməyə, dinini (daşımaq) başqalarına çatdırmaq üçün seçdi. Buna görə də sizlər də onların əxlaqı ilə əxlaqlanmaya və onların getdikləri yolla getməyə çalışın. Onlar Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in səhabələridirlər. Onlar Kəbənin Rəbbi olan Allaha and olsun ki, doğru yolda idilər»[476].

6. Xuzeyfə b. Yəmən - *radıyallahu anhu* – deyir ki: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrinin ibadət deyə etmədiyi heç bir şeyi siz də ibadət deyə etməyin. Çünki əvvəl gələn, sonra gələnə söyləyəcək bir söz buraxmamışdır. Ey Alimlər topluluğu! Allahdan qorxun. Sizdən əvvəlkilərin izlədiyi yolu tutun»[477].

7. İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «İnsanlar əvvəlkilərin izlədikləri (yolu) izlədikcə doğru yolla getməyə davam edəcəklər»[478].

8. Əbu Dərda - *radıyallahu anhu* – deyir ki: «Sən əvvəlkilərin izini (yolunu) izlədiyin müddətdə əsla azmazsan»[479].

9. Məhəmməd b. Sirin – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsə əvvəlkilərin izini (yolu) üzərə yürüməyə davam etdikcə, doğru yol üzərində yürüməyə davam edir deməkdir»[480].

10. Abdullah b. Mubarək – *rahmətullahi aleyhi* – deyir ki: «Güvənib dayandığın əsər (əvvəlkilərin yolu) olsun»[481].

11. Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: «Şübhəsiz ki, sünnə əhli olan kimsələr insanlar arasında say etibarı ilə ən az olanlardır. Yerdə qalan insanlar arasında da insanların ən az olanlarıdır. Onlar kef və dəbdəbə içində olanlarla kef və dəbdəbələrində iştirak etməzlər, bidət əhlinin də bidətlərinə qarışmazlar. Rəbblərinə qovuşana qədər sünnə üzərində sabit qalarlar. Siz də Allahın izni ilə belə olun»[482].

12. İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnətə müxalif olaraq haqqında söz söylədiyim nə qədər məsələ varsa mən ondan həyatımda olsun, ölümümdən sonra olsun vaz keçirəm»[483].

13. Rabi b. Süleyman deyir ki: «İmam Şafii bir gün bir hədis rəvayət etdi. Bir nəfər: «Ey Abdullahın atası! Sən bunu qəbul edirsən?» deyincə Şafii: «Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən gələn səhih bir

---

[476] Əbu Nuaym «əl-Hilyə» 1/305.
[477] İbn Batta «əl-İbanə».
[478] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[479] İbn Batta «əl-İbanə».
[480] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[481] Beyhəqi «Sünənul Kubra».
[482] Darimi 1/72.
[483] Xatib «əl-Fakibu vəl Mutefakkib».

hədis rəvayət edib və onu qəbul etməmiş olsam siz şahid olun ki, mən ağlımı başımdan itirmişəm»[484].

14. İbnul Məcisun deyir ki, İmam Malikin belə dediyini dinlədim: «Hər kim İslamda gözəl görərək bir bidət ortaya çıxararsa, Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in risalətinə qarşı xainlik etdiyini iddia etmiş olur. Çünki Uca Allah: ***«Bu gün dininizi tamamlayıb mükəmməl etdim...».*** *(əl-Maidə 3)* deyə buyurdu. Bu baxımdan da o, gün din olmayan heç bir şey bu gün də din olmaz»[485].

15. İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Bizə görə sünnətin əsasları Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrinin izlədiyi yola sarılmaq, onlara uymaq və bidətləri tərk etməkdir. Çünki hər bir bidət yol azmaqdır»[486].

16. İmam Əhməd b. Sinan əl-Kattan – *rahmətullahi aleyhi* – deyir ki: «Dünyada nə qədər bidətçi varsa mütləq hədis əhlinə ağız əyər. Çünki adam bidət ortaya qoydumu qəlbindən hədisin ləzzəti sökülüb alınır»[487].

17. əl-Fudayl b. İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Hidayət yollarına uy. O, yolu izləyənlərin azlığının sənə zərəri yox. Əyri yollardan isə çəkin. Həlak olanların çoxluğuna da aldanma»[488].

18. İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Sünnət əhli olan bir kimsəyə baxmaq, sünnətə dəvət edər, bidəti də qadağan edər»[489].

19. Sufyan əs-Sövri – *rahmətullahi aleyhi* – deyir ki: «Gün çıxan tərəfdən olan bir adamın sünnətə bağlı olduğuna dair sənə bir xəbər çatarsa, sən də ona salam göndər. Çünki sünnət əhli (sünnətə bağlı) kimsələr azalmışdır»[490].

20. Əyyub əs-Şahtiyani – *rahmətullahi aleyhi* – deyir ki: «Mənə sünnət əhlindən olan bir nəfərin ölüm xəbəri gəlib çatdıqda sanki orqanlarımdan birini itirmiş kimi oluram»[491].

21. Abdullah b. Mubarək – *rahmətullahi aleyhi* – deyir ki: «Ey qardaşım! Bunu da bil ki, bu gün sünnətə sarılaraq ölmək Allahın hüzuruna çıxacaq hər bir müsəlman üçün bir lütf, bir mərhəmətdir»[492].

---

[484] İbn Batta «əl-İbanə».
[485] Şatibi «əl-İtisam».
[486] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[487] Nəvəvi «ət-Təzkirə».
[488] Şatibi «əl-İtisam».
[489] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[490] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[491] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[492] İbn Vaddah «əl-Bidau vən Nəbyu Anhə».

22. əl-Fudayl b. İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Şübhəsiz Allah onların vasitəsi ilə ölkələrə hidayət verdiyi qulları vardır. Bunlar sünnət əshabı olan kimsələrdir»[493].

23. Muafa b. İmran – *rahmətullahi aleyhi* – deyir ki: «İnsanı öləndən sonra tərif et. Çünki ölənə qədər onun sünnə və ya bidət üzərə öləcəyi bilinməz»[494].

24. İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Mən hədis əhlindən bir kimsəni gördümmü sanki Peyğəmbər –*sallallahu aleyhi və səlləm*– in səhabələrindən birini görür kimi oluram»[495].

25. Amr b. Qeys əl-Mulai – *rahmətullahi aleyhi* – deyir ki: «Əgər sən bir gəncin əvvəldən Əhli Sünnə vəl Cəmaatla birlikdə yetişdiyini görsən bir ki, ondan (xeyirli şeylər) uma bilərsən»[496].

26. İmam Malik – *rahmətullahi aleyhi* – deyir ki: «Bu ümmətin başı nə ilə islah olunmuşsa, bu ümmətin sonu da ancaq onunla islah olunur (düzəlir). O, gün din olmayan heç bir şey bu gün də din olmaz»[497].

Bunlar Əhli Sünnə vəl Cəmaat, Sələfi Salihin imamlarından olan bəzilərinin söylədikləri sözlərdir. İnsanlar arasında ümmətlərinin ən çox xeyrini istəyən, ümmətlərinə ən çox xeyirləri toxunan, onların nə ilə düzəldiklərini, harada hidayət tapacaqlarını ən yaxşı bilənlər onlardır. Onlar Allahın Kitabı və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sünnətinə sımsıxı sarılmağı tövsiyə edən, sonradan ortaya çıxmış işlərdən bidətlərdən çəkindirməkdə, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in onlara xəbər verdiyi şəkildə qurtuluş yolunu bildirməkdədirlər. Bu yol isə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sünnətinə və hidayətinə sımsıxı yapışmaqdır. Allah bizi də onlardan etsin. Amin!

---

[493] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[494] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[495] Xatib «Şərəfu Əshəbu Hədis».
[496] əl-Laləkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat», İbn Batta «Şərhu əl-İbanə».
[497] Kadi İyad «əş-Şifa» 2/88.

SON SÖZ

Bu ümmətin ilk nəslinin Tövhid əqidəsi budur. Bu əqidə olduqca saf və sağlam bir əqidədir. Kitab və Sünnətin yolu bu ümmətin sələfinin (keçmişinin) görüşləri ilə imamlarının getdiyi yola uyğun, doğru və sağlam bir yoldur. Bu ümmətin ilk nəslinin qəlblərini dirildən yol da bu yoldur.

Müsülman qardaş və bacılarım! Allah bizi də sizi də doğru yola yönəltsin. Bunu da bilin ki, Allahın kitabı, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Sünnəti və Səhabələrin anlayışından başqa bir yerdə hidayəti axtaran yaxud Allahın qoyduğu şəriətdən başqa bir şəriət ortaya çıxardan kimsə, heç şübhəsiz ki, açıq bir azğınlıq içindədir, doğru yoldan uzaqdır, möminlərin izlədikləri yoldan başqa bir yolu izləməkdədir. İmama Məlik - *rahmətullahi aleyhi* – deyir ki, dinin ən xeyrli olanı sünnət olanıdır, ən pis işlər isə sonradan ortaya çıxmış bidətlərdir[498].

Müsəlmanların birlik olmalarının yolu əqidə birliyindən keçdiyində heç bir şəkk-şübhə yoxdur. Tərtəmiz əqidə isə bu ümmətin sələfi olan ilk nəslin inandığı əsaslardır. Uca Allahın bizə bağlanmağı əmr etmiş olduğu doğru yol və sağa-sola sapmayan yol budur. ***«Bu şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapdıracaq yollara uymayın. Allah bunları sizə tövsiyə etdi ki, bəlkə pis əməllərdən çəkinəsiz».*** *(əl-Ənam 153).*

Allahdan Sələfi Salihin yolunu bizə göstərdiyi kimi bizi də onlardan etməsini, yaratdıqlarının ən xeyirlisi olan Məhəmməd – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə Qiyamət günü həşr etməsini, bizi hidayətə yönəltdikdən sonra qəlbimizi saptırmamasını, onun yolunda çalışan Muvahhid və saleh qullarından etməsini diləyirəm. O, hər şeyi eşidən və duaları qəbul edəndir. Amin!

Allahın salat və salamı onun Peyğəmbəri Muhəmməd - *səllallahu aleyhi və səlləm* - ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun.

BİTİRDİM: HİCRİ 1425-ci il 2 SƏFƏR
MİLADİ 2004-ci il 23 MART
HƏMD OLSUN ALƏMLƏRİN RƏBBİ OLAN ALLAHA (YUNUS 10)

[498] İmam Şatibi «əl-İtisam».

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

«Qurani Kərim» Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsi.
«Sələsətil Usul» Muhəmməd b. Saleh əl-Useyminin şərhi ilə.
«Kəşfi Şubuhət» Muhəmməd b. Saleh əl-Useyminin şərhi ilə.
«Fəthu Rabbil Bəriyyə bi Təlhisil Həməviyyə» Muhəmməd Saleh əl-Useyminin şərhi ilə.
«Aləmus Sunnətul Mənşura» Hafiz b. Əhməd əl-Həkəmi.
«əl-Vəciz Fi Əqidətul əs-Sələfi əs-Salihin» Abdullah b. AbdulHəmid əl-Əsəri.
«əl-Əqidətul Təhaviyyə» İbn Əbil İzz əl-Hənəfinin şərhi ilə.
«əl-Əqidətul Təhəviyyə əl-Muyəssər» Muhəmməd əl-Humeyyisin şərhi ilə.
«əl-Əqidətul Vasitiyyə» İbn Teymiyyə. Muhəmməd Xəlil Hərrasın şərhi ilə.
«Ərbəin ən-Nəvəviyyə» Nazim Muhəmməd Sultanın şərhi ilə.
«Səhih Müslim».
«Sünnə və Cəməa anlayışı» Nəsir b. AbdulKərim əl-Əql.
«Zədul Məad» İbn Qeyyim.

MÜNDƏRİCAT

Ön Söz -- 3
İman -- 8
Allaha İman --- 15
Allaha İmanın Faydaları -- 18
Mələklərə İman --- 19
Kitablara İman -- 27
Quran Allahın Kəlamıdır -- 31
Kitablara İmanın Faydaları -- 36
Peyğəmbərlərə İman -- 36
Peyğəmbərimiz Muhəmməd - *Sallallahu Aleyhi Və Alihi Vəs Səlləm* ---------- 41
Peyğəmbərimizin Xüsusuiyyətləri -- 55
Peyğəmbərlərə Imanın Faydaları --- 64
Axirətə İman -- 65
Qiyamətin Kiçik Əlamətləri -- 67
Qiyamətin Böyük Əlamətləri --- 78
Qiyamətin Adları -- 86
Ölüm -- 87
Qəbr Aləmi -- 95
Sur --- 102
əl-Bas - *Öldükdən Sonra Dirilmək* -- 104
əl-Bas - *Öldükdən Sonra Dirilmək* - Inkar Edənlərə Dəlillər --------------------- 106
Həşr Və Məhşər --- 109
Haqq-Hesab -- 111
Sırat --- 117
Hovuz --- 119
Cənnət Və Cəhənnəm --- 121
Şəfaət -- 127
Qəza Və Qədərə İman -- 139
Qəza Və Qədərə İmanın Faydaları --- 149
İslam Və İman --- 151
İslamd Istisna Etmək “İnşəallah, Mən Müsəlmanam” Demək ------------------------- 155
İmanda İstisna «İnşəallah, Mən Mömin əm» Demək --------------------------------- 156
Ehsan --- 160
Sələf İmamlarının Əhli Sünnə Vəl Cəmaat Haqqında Sözləri ------------------------ 162
Son Söz --- 166
İstifadə Olunan Ədəbiyyat --- 167

Çapa imzalanmışdır: 18.07.2012 Formatı 60x84 1/16. Həcmi 10,5 ç.v. Sifariş №262. Tiraj 200.	«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi ☎ iş (012) 514 73 73, mob. (050, 055) 344 76 01 e-poçtu: zerdabi_em@mail.ru